**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

# Tarix, insan və cəmiyyət

***Elmi-nəzəri və elmi-metodik jurnal***

**2024, 2 (43)**

**BAKI-2024**

# Tarix, insan və cəmiyyət

Elmi-nəzəri və elmi-metodik jurnal № 2 (43), 2024

*Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 16 aprel 2005-ci il tarixdə qeydə alınmış (№ 1279), 2005-ci ildən Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda nəşr edilmişdir. 2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin təsisçiliyi ilə nəşr edilir.*

*Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən 2020-ci ildən tarix və antropologiya elmi istiqamətləri üzrə "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısı"na daxil edilmişdir.*

## REDAKSİYA HEYƏTİ

**Tarix üzrə elmlər doktoru, professor Cəfər Cəfərov** *(baş redaktor)*
**Tarix elmləri doktoru, professor Abbas Seyidov** *(baş redaktorun müavini)*
**Tarix elmləri doktoru, professor İradə Hüseynova**
**Tarix elmləri doktoru, professor Anar İsgəndərov**
**Tarix elmləri doktoru, professor Oqtay Sultanov**
**Tarix elmləri doktoru, professor Xəqani Məmmədov**
**Tarix üzrə elmlər doktoru, professor Fəzail Vəliyev**
**Antropologiya üzrə elmlər doktoru, professor Əliağa Məmmədli**
**Tarix üzrə elmlər doktoru Eynulla Mədətli**
**Tarix üzrə elmlər doktoru, professor Sevinc Əliyeva**
**Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Yasin Qaraməmmədli**
**Tarix üzrə fəlsəfə doktoru, dosent Ərəstun Mehdiyev**
**Tarix üzrə fəlsəfə doktoru, dosent Naibə Əhmədova** *(məsul katib)*

# HACI MAİL VƏ ONUN FÜZULİ YARADICILIĞI ÜZƏRİNDƏ ARAŞDIRMALARI

**Zülfiyyə Cəlilova**
Milli Azərbaycan Tarixi Muzeyi
zulfiyyejalilova@gmail.com

***Açar sözlər**: Şərq ədəbiyyatı, Füzuli, Hacı Mail, Divan.*

*Məqalədə Azərbaycan və Şərq ədəbiyyatının tarixində silinməz iz qoymuş Məhəmməd Füzuli yaradıcılığının tədqiq olunmasından danışılır. Dahi şairimiz Füzuli tarix boyu mənəvi mənliyimizi, dilimizi, mənəviyyatımızı yaradan, yaşadan, söz sənətini və elm aləmini özündə birləşdirən bir ustaddır. 2024-cü il 25 yanvar tarixində Prezident İlham Əliyev tərəfindən Füzuinin 530 illik yubileyinin keçirilməsi ilə əlaqədar verilmiş Sərəncam bu sahəyə diqqəti daha da artırmışdır. Məqalədə alimlərin bu sahədə apardıqları elmi tədqiqat işlərindən bəhs olunur. Füzulişünas alim Hacı Mail Füzuli "Divanı"nın elmi tənqidi mətnini hazırlamış bu sahədə elmi araşdırmalar aparmışdır. Hacı Mail həm də gözəl şair olmuş, öz yaradıcılığında qəzəllərə üstünlük vermiş, muğam məclisləri təşkil etmişdir.*

## ГАДЖИ МАИЛ И ЕГО ИССЛЕДОВАНИЕ ТВОРЧЕСТВА ФИЗУЛИ

**Зульфия Джалилова**

***Ключевые слова:** Восточная литература, Физули, Гаджи Маил, Диван.*

*В статье говорится об изучении творчества Мохаммеда Физули, оставившего неизгладимый след в истории азербайджанской и восточной литературы. Наш гениальный поэт Физули - учитель, который на протяжении всей истории создавший и поддерживавший нашу духовную сущность, язык и духовность, объединяя исскуство слова и мир науки. Указ Президента Ильхама Алиева от 25 января 2024 года щ 530-летии М.Физули усилил внимание к этой теме. Статья посвящена научным исследованиям, провядимым учеными в этой области. Исследователь творчества Физули Гаджи Маил написал "Текстологическое исследование и научно-критический текст "Дивана " и провел научный анализ в этой области. Гаджи Маил был также*

*великим поэтом и в своем творчестве он отдавал предпочтение газелям, был организаторам меджлисов мугама.*

## HAJI MAIL AND HIS RESEARCH ON FUZULI'S WORKS

**Zulfiyya Jalilova**

***Key words:*** *Eastern literature, Fuzuli, Haji Mail, Divan.*

*The article talks about the study of the works of Muhammad Fuzuli, who left an indelible mark on the history of Azerbaijani and Eastern literature. Our genius poet Fuzuli is a master who created our spiritual self, lanquage, and spirituality throughout history, and who combined the art of words and the world of science. The Decree signed by President Ilham Aliyev on January 25, 2024 in connection with the 530th anniversary of Fuzuli has further increased the attention to this field. This article talks about scientific research conducted by scientists in this field. Haji Mail, who searched Fuzuli's works prepared the scientific critical text of "Divan" by Fuzuli and conducted scientific research in this field. Haji Mail was also a great poet, preferred ghazals in his work, and organised mugham nights.*

Azərbaycan tarixi olduqca zəngin və maraqlıdır. Tarix dedikdə, yalnız müxtəlif dövrlərdə baş vermiş tarixi hadisələr deyil, həmçinin ədəbiyyat və mədəniyyətimizin də inkişaf tarixini araşdırıb, öyrənmək və təbliğ etmək nəzərdə tutulur. "Hər ölkənin ədəbiyyatı tarixi qədər qədim olmalıdır". (Y.V.Çəmənzəminli.) [4, s.35; 7, s.162]. Ulu keçmişimizi, zəngin tariximizi, rəngarəng sənət dünyamızı yaradan və yaşadan şəxsiyyətlərin həyat və yaradıcılıqlarını geniş şəkildə tədqiq etmək müasir elmimizin qarşısında duran vacib məsələlərdən biridir. Əsrlər boyu Azərbaycan alimlərinin, söz sərraflarının yaratdıqları ədəbi, mədəni irsimiz nəsillərə əlyazma şəklində gəlib çatmışdır. Ədəbiyyatımzı öz əsərləri ilə zənginləşdirən Nizamini, Nəsimini, Xətaini, Füzulini və b. oxuduqca, onların əsərlərinin bizim üçün yazılı abidə və ədəbiyyat nümunəsi olmaqla bərabər həm də tariximizin öyrənilməsi baxımından nə qədər önəm daşıdığının şahidi oluruq. Muzeylərdə, kitabxanalarda saxlanılan bu əlyazmaları oxumaq, araşdırmaq nə qədər çətin olsa da bir o qədər şərəfli işdir. Ərəb, fars və türk dillərində, fərqli xətt nümunələri ilə yazılmış olan əlyazma kitablarını oxumaq, onları tədqiq etmək böyük əmək və hərtərəfli bilik tələb edir.

Klassik ədəbiyyatımızın tarixi keçmişinə nəzər saldıqda, həm Azərbaycan, həm də bütün Şərq ədəbiyyatında ən çox sevilən, oxunan və əsərləri dillər

əzbəri olan Məhəmməd Füzulidən danışmamaq mümkün deyil. Ədəbiyyat tariximizdə Füzuli kimi dahinin varlığı xalqımızın və dilimizin nə qədər böyük məziyyətlərə malik olduğunun göstəricisidir. Milli-mənəvi dəyərlərimizin qorunmasına daim qayğı göstərmiş Ümummilli lider Heydər Əliyev ölməz şairin 500 illik yubileyini Müstəqil Azərbaycan Respublikasında ilk dəfə dünya miqyaslı möhtəşəm mədəniyyət və sənət bayramı kimi keçirilməsinin təşəbbüskarı olmuşdur. 2024-cü ildə Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixinin iftixarı saydığımız dahi şairə hörmət və ehtiramın davamı olaraq, onun 530 illiyinin qeyd olunması prezident İlham Əliyevin sərəncamında öz əksini tapmışdır.

Füzuli tarix boyu mənəvi mənliyimizi, dilimizi, mənəviyyatımızı yaradan, yaşadan, söz sənətini və elm aləmini özündə birləşdirən bir ustaddır. M.Ə.Rəsulzadə 20-ci illərin ortalarında “Bolşeviklərin şərq siyasəti” əsərində M.Füzulini böyük fəxrlə “Türk ədəbiyyatının parlaq günəşi” adlandırırdı” [6, s. 37]. Füzulinin həyat və yaradıcılığı, dili və üslubunu araşdırmaq, tədqiq etmək XX əsrdə Türkiyə, Azərbaycan və digər ölkələrdə bir çox füzulişünas alimin qarşısında duran mühüm vəzifələrdən idi. Alimlər bu sahədə uğurlu tədqiqat işləri aparmış və bir sıra qiymətli elmi əsərlər ərsəyə gətirmişlər. Bu tədqiqat əsərləri Füzulinin həyatı, yaradıcılığı, dili və üslubu haqqında aparılan araşdırmalar nəticəsində ərsəyə gəlmişdir. Onun əsərləri təkcə Azərbaycanda deyil, bütün Şərq ədəbiyyatında çox sevilmiş və dəfələrlə nəşr olunmuşdur. Belə tədqiqat işlərindən biri də “Füzuli divanının tekstoloji tədqiqi və elmi-tənqidi mətni” əsəridir. Bu əsər 20 ildən artıq Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda çalışmış füzulişünas alim, filologiya elmləri namizədi Mail Əliyevin (Hacı Mail) uzun illər ərzində apardığı araşdırmalarının nəticəsidir. Hacı Mail Füzuli “Divan”-ının müxtəlif ölkələrdə qorunub saxlanılan ən qədim nüsxələrinin surətini əldə etmiş və onları müqayisəli şəkildə tədqiqata cəlb etmişdir. O, hər bir əlyazma nüsxəsi üzərində geniş araşdırma işi aparmaqla mədəniyyət və ədəbiyyat tariximizi daha da zənginləşdirməyə səy göstərmişdir. Dərin tədqiqat işlərinin nəticəsində ərsəyə gələn bu əsərə görə 1997-ci ildə Hacı Mail müdafiə etmədən Ali Attestasiya Komitəsi tərəfindən filologiya elmləri namizədi elmi dərəcəsinə layiq görülmüşdür. Alimin araşdırma apardığı əlyazma nüsxələrinin 6-sı Azərbaycanda, digərləri isə xarici ölkələrdə qorunub saxlanmaqdadır. Azərbaycanda olan nüsxələr AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda qorunan nüsxələrdir. Hacı Mailin 1996-cı ildə nəşr etdirdiyi Füzuli “Divan”-ının ən qədim əlyazma nüsxəsi AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun fondunda M-236 şifrəsi altında qorunub saxlanılır. “Bakı nüsxəsi” adlanan bu əlyazma nüsxəsi 1569-1572-ci illər arasında üzü köçürülmüşdür. Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan Məhəmməd Füzuliyə aid “Divan” elm

aləminə məlum olan Füzuli əlyazmalarının içərisində ən qədim nüsxədir. Həmin nüsxə fonda mərhum Salman Mümtaz tərəfindən bağışlanmışdır. 2062 №-li bu əlyazması 65 vərəqdən ibarətdir, həcmi 26,2 x 15, 2 sm-dir. Hər səhifədə 20 misra vardır. Qalın, sarımtıl kağızda nəstəliq xətti ilə yazılmışdır. Mətn zər haşiyə içərisinə alınmışdır. Azərbaycanda bu sahədə aparılan elmi tədqiqat işləri göstərir ki, Füzulinin türkcə "Divan"-ının elmi-tənqidi mətninin 1996-cı il Hacı Mail tərəfindən hazırlanan nəşri orijinallığına görə hələ ki, son elmi nəticədir. Hacı Mail başqa alimlərdən fərqli olaraq, Füzuli yaradıcılığına yalnız ədəbi-bədii və mətnşünaslıq baxımından deyil, dini-fəlsəfi və irfani nöqteyi-nəzərdən də yanaşmışdır. Alimin fars və ərəb dilləri ilə yanaşı dini biliklərə də mükəmməl bələd olması araşdırdığı tədqiqat işində ona daha əsaslı məzmun və məna xüsusiyyətlərini aşkara çıxara bilməsində kömək olmuşdur. "İslamı dərindən bilirdi. Ümumiyyətlə, mən Hacı Maili həmişə islamın yorulmaz təbliğatçısı hesab etmişəm" [1, s.16] – deyən Şeyxülislam Allahşükür Paşazadənin bu sözləri Hacı Mailin tədqiq etdiyi əsərlərin yüksək səviyyədə olmasının səbəblərindən birinin məhz mükəmməl dini biliklərə sahib olduğunun göstəricisidir. Klassik Şərq ədəbiyyatına dərindən bələd olan alim əlyazma nüsxələrinə əsaslanaraq, "Divan"dakı qəzəllərin hər bir beytini məna çalarlarına uyğun şəkildə açıqlamış, izahatını vermişdir. Azərbaycanda Füzuli fəlsəfəsini ilk tədqiq edən alimlərdən biri olan akademik Fuad Qasımzadə Hacı Mailin bilik və bacarığını belə ifadə edir: "Onun elmi araşdırmaları və elmi çıxışları bütün dünyanın füzulişünas alimləri tərəfindən daim yüksək qiymətləndirilirdi"[ 1, s.28].

Hacı Mail 1935-ci il oktyabrın 25-də Nardaran kəndində dünyaya göz açmışdır. Atası İsmayıl Hacı Məhəmməd Tağı oğlunu yaşadığı Nardaran kəndində olduğu kimi Abşeronun digər kəndlərində də möhtərəm, təqvalı şəxs kimi tanıyır, hörmət edirdilər. İsmayıl kişi klassik Şərq ədəbiyyatına, xüsusən də Füzuli yaradıcılığına dərindən bələd olmuş və biliklərini oğluna da aşılamışdır. Hacı Mailə klassik şərq ədəbiyyatını ilk sevdirən də məhz onun atası İsmayıl kişi olmuşdur. Şeirə, sənətə yüksək qiymət verən İsmayıl kişi həmçinin Qurani-Kərimi, Məhəmməd Peyğəmbərin (s) hədislərini və şəriət hökmlərini də mükəmməl bilirdi. Belə bir ailədə göz açan Hacı Mail təbii olaraq ilk dərslərini atasından almışdı. Hacı Mail atasından əxz etdiyi biliklərə yiyələndikcə ədəbiyyata marağı daha da artır, şeirə, sənətə daha şox bağlanırdı. İsmayıl kişi evində tez-tez dini və ədəbi məclislər təşkil edirdi. Mədəniyyət mərkəzi kimi tanınan Bakı şəhərinin yaradıcı insanları, söz əhli bu məclislərə dəvət olunurdular. Azərbaycanın hər yerində olduğu kimi Bakı və onun kəndlərində də şeir, sənət çox sevilirdi. Təşkil olunan bu məclislərdə şeirlər söylənir, xanəndələr muğam üstündə klassik şairlərimizin qəzəllərini ifa edirdilər. Təbii ki, Hacı Mail də evlərində təşkil olunmuş belə ədəbi məclislərin uşaqlıqdan iştirakçısı olmuşdu. O, bu ədəbi məclislərdə iştirak etməklə Nizami,

Xaqani, Hafiz, Sədi, Füzuli, Nəsimi, Həqiqi, Seyid Əzim və digər böyük sənətkarların yaradıcılığı ilə yaxından tanış olurdu. Elə bu səbəbdən də, Hacı Mail uşaq yaşlarından Füzuli şeirinin, Füzuli sözünün sehrinə düşmüş və bu sahədə daha yüksək nailiyyətlər əldə etməyi bacarmışdı. Hacı Mail ilk təhsilini Nardaranda yerləşən yeddiillik məktəbdə almış və oranı 1951-ci ildə bitirmişdir. Sonra təhsilini Maştağadakı 128 nömrəli orta məktəbdə davam etdirmiş və 1954-cü ildə oranı bitirmişdir. Hələ Maştağada məktəbdə oxuduğu illərdə Məmməd Nuru oğlu və Seyid Əli müəllim kimi Şərq ədəbiyyatını dərindən bilən müəllimlərdən ədəbiyyat dərsləri almağa başlamışdı. Hacı Mail məktəbdə aldığı elmi biliklərlə kifayətlənməyib, Nardaran və digər kəndlərin alimlərindən də dərslər alır, onların elminə yiyələnirdi. Hacı Mail Füzuli yaradıcılığını tədqiq edərkən, ona vaxtilə Hacı Şeyx Əli "Tuti" təxəllüslü alim, şair və arifdən aldığı şəriət, irfan, Paşa Mirzəbağır oğlundan (Hacı Paşa Əzadar) öyrəndiyi əruz, qafiyə dərsləri öz təsirini göstərmişdi. Bu illərdə o, Zirə kəndində yaşayan şeyx Əhməd adlı alimdən hüsnxət dərsi almış, nəsx və nəstəliq xətlərində yüksək şəkildə yazmağı öyrənmişdi. Binə kəndindən olan Nəcəf alimi Ağa Mövsüm Naseh təxəllüsdən hikmət və fəlsəfə, Bakıda yaşayan iranlı alim Məşədi Lətifdən fars dili və ədəbiyyatını öyrənməsi gələcək həyat və yaradıcılığında ona böyük dəstək olmuşdu. Hacı Mail klassik Şərq ədəbiyyatının incəliklərini Maştağa və Kürdəxanı kəndlərində, eləcə də Abşeronun digər kəndlərində yaşayan ədəbiyyat bilicilərindən əxz edirdi. Hacı Mail bütün bu əldə etdiyi biliklərlə kifayətlənmir, daima öz üzərində çalışırdı. Elə bu səbəbdən də zəmanəsinin elm və irfan sahibiləri ilə yaxından dostluq edir, onlardan həm öyrənir, həm də onlarla birlikdə elmi, ədəbi məclislərdə iştirak edirdi. Bu məclislərdə xanəndələrin ifasında muğam üstündə oxunan qəzəlləri böyük sevgi və həvəslə dinləyən Hacı Mail muğam sahəsində də biliklərə yiyələnir. Muğama dair əldə etdiyi biliklər ona gələcəkdə Füzuli zəkası ilə daha dərindən tanış olmasına yardımçı olur. Bu məqsədlə o, Abşeronun məhşur muğam ustadları olan nardaranlı Məşədi Səməd və Məşədi Şükürdən muğam dərsləri almışdı. Aldığı dərslər və evlərində atasının təşkil etdiyi ədəbi məclislərdən bəhrələnən alim bu sahədə də xeyli irəliləmişdi. 2009-cu ildə muğamşünas-jurnalist Vaqif Əliyevin Hacı Mailin muğam sahəsindəki fəaliyyətinə həsr etdiyi "Muğam aşiqi" kitabı buna real sübutdur. Hacı Mailin oğlu Hacı Mustafa atası haqqında belə deyir: "Atamın musiqiyə, xüsusilə milli musiqiyə, muğamatımıza böyük həvəsi vardı. O, gənc yaşlarından Azərbaycanın bir çox görkəmli xanəndələri, musiqiçiləri ilə dostluq edərdi. Tez-tez evimizdə ədəbi-musiqili gecələr təşkil edərdi. Bu məclislərdə Azərbaycanın adlı-sanlı sənət adamları və muğamsevərlər iştirak edərdilər" [3, s. 20].

Bu illər ərzində yiyələndiyi biliklərin bəhrəsi olaraq, Hacı Mail 1977-ci ildə Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutuna (O zaman Əlyazmalar Fondu adlanırdı – Z.C.) elmi işçi

vəzifəsinə qəbul edilir. Ərəb və fars dillərini mükəmməl bilən, Klassik Şərq ədəbiyyatına dərindən bələd olan Hacı Mail Əlyazmalar İnstitutunda işləməklə elmi fəaliyyətini daha da inkişaf etdirməyə başlayır. Hacı Mailin Füzuli yaradıcılığına olan hədsiz sevgisi, onu bu böyük dahinin "Divan"-ını daha geniş şəkildə tədqiq etməyə sövq edir. Bu məqsədlə o, bir sıra ölkələrdə qorunub-saxlanılan Füzuli "Divanı"nın ən qədim nüsxələrini əldə edərək tədqiqata cəlb etməyə başlayır. Beləliklə, o, Füzulinin 20-dən çox əlyazma nüsxəsi üzərində elmi araşdırmalar aparır. Gənclik illərindən Məhəmməd Füzulini sevə-sevə öyrənən, daha sonra onu tədqiq edən Hacı Mail Füzuli "Divan"ının kamil elmi-tənqidi mətnini hazırlamağa nail olur. Azərbaycanın dahi mütəfəkkiri və alimi Məhəmməd Füzulinin 1996-cı ildə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə keçirilmiş 500 illik yubileyi münasibəti ilə bu kitab çap olunur. Bu kitabı Hacı Mailin ədəbiyyat tariximizə və həmçinin müasir mətnşünaslığımıza böyük hədiyyəsi hesab etmək olar. Digər tərəfdən bu kitabın əhəmiyyəti həm də ondan ibarət idi ki, şairin türk "Divan"-ı ilk dəfə olaraq orijinal şəkildə elmi-tənqidi mətn kimi tərtib edilmişdi. Hacı Mail "Divan"-ın Bakı, Sankt-Peterburq, London və Daşkənddə qorunub saxlanılan ən qədim əlyazma nüsxələri üzərində tədqiqat işi aparmış və müqayisəli şəkildə hazırladığı elmi-tənqidi mətni ərsəyə gətirmişdir. Məlumdur ki, Şərq ədəbiyyatında divanın özünəməxsus tərtib olunma prinsipləri vardır. Füzulinin türkcə "Divan"ının Şərq ədəbiyyatında mövcud olan divan anlayışına nə dərəcədə uyğunluğunu dissertasiyada öyrənə bilirik. Hacı Mailin hazırladığı elmi-tənqidi mətnin nəşr olunması, Füzuli yaradıcılığının öyrənilməsi, nəsillərdən nəsillərə ötürülməsi yolunda tarixi baxımdan böyük əhəmiyyət kəsb edir. "Hacı Mail bizim hamımızı, eləcə də müasir ədəbiyyatımızı füzulilərlə, nəsimilərlə, vaqiflərlə, seyid əzimlərlə birləşdirən canlı bir körpü idi" (Xalq şairi Qabil). Qeyd etmək lazımdır ki, alim təkcə Füzuli "Divan"ının elmi tənqidi mətnini hazırlamaqla kifayətlənməmiş, Füzuli yaradacılığına dair araşdırmalarının davamı olaraq həmkarı, mərhum Ayna Babayevanın hazırladığı "Leyli və Məcnun" əsərinin elmi tənqidi mətninin hazırlanmasında yaxından iştirak etmiş və kitabın redaktəsini öz öhdəsinə götürmüşdür. Bundan əlavə, Hacı Mail Füzuli qəzəllərini də şərh etmişdir. Amma təəssüflər olsun ki, bu şərhlər tam şəkildə çap edilməmişdir.

Hacı Mail elmi fəaliyyətində təkcə Füzuli yaradıcılığının tədqiqi ilə deyil, digər klassiklərimizin də əsərlərinin tədqiqi ilə məşğul olmuşdur. Bunlardan biri də XV əsrdə yaşayıb-yaratmış Qaraqoyunlu hökmdarlarından olan, tarixdə böyük uğurlar qazanmış Cahanşah Həqiqidir. Cahanşah Həqiqi Azərbaycan və fars dillərində qəzəl, məsnəvi, rübailər yazmışdır. Fars şairi Əbdürrəhman Cami Cahanşahın "Divan"-ını "xəzinə"adlandırırdı. Hacı Mail tarixdə silinməyən iz qoymuş belə dahilərin əsərlərini tədqiq edərək, gənc nəslə ötürülməsində mühüm işlər görmüşdür. Hacı Mail Azərbaycan şairlərinin

növhə və mərsiyələrindən nümunələr toplayaraq, “Dahilərin göz yaşı” adlı kitab çap etdirmişdir. Bundan əlavə, alim “Kişvərinin seçilmiş əsərləri”, “Hacı Şeyx Əli Tutinin şeirləri” kitablarının redaktoru olmuşdur. Ümumilikdə Hacı Mail 17 elmi kitabın müəllifi və redaktoru olmuş, onlarca məqalə dərc etdirmişdir.

Hacı Mail həm də gözəl şair idi. Yaradıcılığının əsasını qəzəllər təşkil etsə də, klassik janrın müxtəlif növlərində qələmini sınamışdır. Müxtəlif qəzet və jurnallarda şeirləri, qəzəlləri çap olunsa da, ilk dəfə 1986-cı ildə “Yazıçı” nəşriyyatı tərəfindən “Qəzəllər” toplusunda 60 qəzəli çap olunmuşdur. 1994-cü ildə “Azərbaycan” nəşriyyatı tərəfindən Məhəmməd Füzulinin 500 illik yubileyi münasibəti ilə “Qəzəllər” kitabı nəşr edilmişdir. Hacı Mailin qəzəlləri ilk baxışda sadə görünsə də oxuduqca burada çox dərin mənanın olduğunun şahidi oluruq. Hacı Mailin şeirlərinin sadəliyi, səmimiyyəti, axıcılığı və ürəyə yatımlılığı oxucunu heyran edir. Hacı Mail qəzəllərində üstünlüyü ana dilimizə verdiyindən xanəndələrimiz muğam üstündə təsnif və dəstgahlarda əvvəllər olduğu kimi indi də geniş istifadə edirlər. Buna misal olaraq xanəndələrimizin dilinin əzbəri olan “Vətəndir” rədifli qəzəlini göstərə bilərik. 1954-cü ildə yazılan bu qəzəl tariximizin hər dövrü ilə uzlaşır. Şair bu qəzəli yazarkən 19 yaşı olsa da, Vətəninə, Azərbaycana olan məhəbbətini hər bir misrasında görmək olur. Qəzəlləri xanəndələrin dilindən düşməyən şair özü də bir muğam bilicisi kimi klassik musiqimizi təbliğ edirdi. Azərbaycanın əməkdar artisti, Prezident təqaüdçüsü tarzən Firudin Ələkbərov belə deyirdi: “Onda musiqi qavramaq qabiliyyəti də vardı. Muğamatımızı da dərindən bilirdi.” [3, s. 63]. “Mən deyərdim ki, muğamın beşiyi Qarabağdırsa, məktəbi isə Bakıdır” deyirdi Hacı Mail. Elmi ictimaiyyətdə füzulişünas alim kimi nüfuz qazanan Hacı Maili xalqa sevdirən onun sadə dillə deyilmiş qəzəlləri, saf əqidəsi və böyük yaradıcılıq qabiliyyətinə malik olması olmuşdur.

Şərq ədəbiyyatına olan böyük sevgisi Hacı Maili sadaladığımız əsərləri tədqiq etməklə yanaşı, “Məcməüş-şüəra” adlı ədəbi məclisi bərpa etməyə sövq edir. “Məcməüş-şüəra” ədəbi məclisinin əsası 1860-cı ildə Bakı şəhərində qoyulmuş, 1923-cü ildə isə fəaliyyəti dayandırılmışdı. Bakıda yaradılan “Məcməüş-şüəra” (1860-1920) ədəbi məclisinin üzvləri klassiklərimizin poeziya aləminə qədəm qoyduqları üçün onların ədəbi irsini təkrar-təkrar öyrənməklə bərabər, Şərq ədəbiyyatı ilə olduqca vacib əlaqələrdən yan keçməmiş, məclisin yığıncaqlarında müsəlman Şərqinin görkəmli sənətkarlarının əsərlərini təhlil etməklə yanaşı, onların əsərlərindən tərcümələr, iqtibaslar etmişlər [2, s. 80]. Hacı Mail bu ədəbi məclisi yenidən bərpa edir və məclisin yığıncaqlarını özünün Nardarandakı evində keçirməyə başlayır. Beləliklə, 1990-cı ilin iyun ayından etibarən məclis fəaliyyət göstərməyə başlayır. “Məcməüş-şüəra” məclislərinə Hacı Mail əruz vəznində yazan şairləri dəvət edir. Bakıdan və Azərbaycanın digər bölgələrindən bir çox elm, ədəbiyyat, musiqi sənətinin nümayəndələri bu məclislərdə iştirak edirdilər. Həkim Qəni, Cəfər Rəmzi,

Ələkbər Şahid, Ağaəmi Buzovnalı, Hacı Ələmdar Mahir, Baba Pünhan, Hacı Qəzənfər Talıb və başqa məşhur qəzəlxanlar da həmin məclisin daimi iştirakçıları idilər. Bu məclisə qatılan gənc şairlər burada klassiklərimizin yaradıcılığı ilə tanış olur, onların ədəbi irsini mütailə edirdilər. Klassik Şərq ədəbiyyatı ilə tanış olan, onların yaradıcılığından bəhrələnən tələbələr zaman keçdikcə ustadlarını əvəz edirdilər. Belə ki,"Məcməüş-şüəra" məclisinə yığışan şairlər şeirlərini oxuyur, müzakirə edir, diskussiyalar aparır və həmçinin klassik şairlərimizin yaradıcılığını bütün dünyaya nümayiş etdirmək üçün fəaliyyət göstərirdilər. Yazılan əsərlərin rus və digər xarici dillərə tərcümə olunmasına çalışırdılar. Mərhum akademik Vasim Məmmədəliyev keçirilən "Məcməüş-şüəra" məclislərinə belə qiymət verirdi: "Ürəfa məclislərində Füzulini Əli Fəhmidən sonra Hacı Mail qədər gözəl aça bilən ikinci şəxsə rast gəlməmişəm. Mail əsil söz sərrafı, şeir-sənət aşiqi idi. O, şeirdə və qəzəldə dahi Füzulini əlçatmaz zirvə, Vahidi isə ustad hesab edirdi." [1, s. 22-25]. Bir neçə il məclisə sədrlik edən Hacı Mail 1994-cü ildə "Füzuli ədəbi məclisi" adlı yeni bir ədəbi məclisi təşkil edir. Tahirə Həsənzadənin Sona Xəyal "Müasirlərim" kitabında İranlı qonaq Musa Herisçi "Füzuli ədəbi məclisi"ni belə qiymətləndirir: "Hacı Mailin yaratdığı "Füzuli ədəbi məclisi" təkcə Füzulinin deyil, həm də bütövlükdə klassik ədəbiyyatın, əruz vəzninin gənc nəslə öyrədilməsi baxımından çox böyük məktəbdir" [5, s. 26]. Hacı Mail ədəbiyyat tariximizə verdiyi töhfələrlə yanaşı, belə məclisləri təşkil etməklə klassik üslubda, əruz vəznində yazan bir çox istedadlı gəncin sənətkar kimi yetişməsində böyük rol oynamışdır.

Füzulişünas alim xarici ölkələrdə keçirilən elmi, ədəbi tədbirlərdə fəal iştirak edirdi. 1996-cı ildə İraqda Məhəmməd Füzulinin 500 illik yubileyinə həsr olunmuş konfransda, həmçinin Türkiyə, Orta Asiyanın bir çox şəhərlərində, Rusiyada keçirilən elmi-dini mötəbər məclislərdə öz çıxışları ilə Azərbaycan elmini, mədəniyyətini daha da yüksək zirvələrə qaldırırdı. Hacı Mail Cənubi Azərbaycanla, həmçinin İraq türkmənləri, Türkiyə türkləri ilə ədəbi-mədəni əlaqələrin qurulmasında da böyük əmək sərf etmişdi. İstanbul universitetinin professoru Mertol Tulum yazırdı: "Hacı Mail, sən Azərbaycan və qardaş Türkiyə dövlətləri arasında illər boyu sarsılmaz dayaq idin! Alimlərimizi, yazıçı və şairlərimizi zəncir kimi bir-birinə daha sıx bağlamağa çalışardın".

Azərbaycan klassik ədəbiyyatının və ədəbiyyat tarixinin araşdırılmasında, onun təbliğində böyük xidmətləri olan alimin əməyi Azərbaycan Respublikasının və digər ölkələrin fəxri adları ilə qiymətləndirilmişdir.

**Ədəbiyyat**


1. Adiloğlu Z. Sonsuz ömrə nöqtə qoyulmaz. Bakı. Nurlan, 2005. 480 s.
2. Əhmədova S "Məcmə üş şüəra" Şərq ədəbiyyatı. // Müqayisəli ədəbiyyatşünaslıq, 2021, №1, s. 78-86.
3. Əliyev V.Muğam aşiqi. Bakı, "Nurlan", 2009.116 s.
4. Əliyeva G. Kəngərli. Azərbaycan Füzulişünaslığının qaynaqları. Bakı: 2000. 400 s.
5. Həsənzadə T. Sona Xəyal "Müasirlərim" Bakı-2011. 64 s.
6. Rəsulzadə M. Bolşeviklərin şərq siyasəti. Bakı: Sabah-1994. 134 s.
7. Vəzirov Y. Azərbaycan ədəbiyyatına bir nəzər."Azərbaycan" jurnalı 1989. №8. s.162.

# МИГРАЦИИ ГУННОВ НА КАВКАЗ В ЭПОХУ САСАНИДОВ (НА ОСНОВЕ АЗЕРБАЙДЖАНСКОЙ И РУССКОЙ ИСТОРИОГРАФИИ)

**Чжан Теригеле**
Бакинский Государственный Университет
qinbaite0805@gmail.com

***Ключевые слова**: Кавказ, раннее средневековье, тюркские племена, Азербайджан, Северный Кавказ, миграция, гунны.*

*Примерно в III в. до н.э. в Северном Китае и Монголии образовался крупный союз тюркских кочевых скотоводческих племен - гуннов. В конце I - середине II в. часть их появилась в Средней Азии и Приуралье.*

*На рубеже IV-V веков гунны и примкнувшие к ним племена совершали опустошительные походы с Северного Кавказа на Южный Кавказ, проходя далее в Переднюю Азию. Гунны активно вмешивались в политические дела Закавказья, совершали многократные походы в Кавказскую Албанию, Грузию. Одним из важнейших результатов гуннского присутствия на Кавказе явилось увеличение тюркского населения и политическое усиление тюркского элемента в регионе, что оказало сильнейшее воздействие на всю последующую историю Кавказа и его народов.*

## SASANİ DÖVRÜNDƏ HUNLARIN QAFQAZA MIQRASİYASI (AZƏRBAYCAN VƏ RUS TARİXŞÜNASLIĞI ƏSASINDA)

**Zhang Terigele**

***Açar sözlər:** Qafqaz, erkən orta əsrlər, türk boyları, Azərbaycan, Şimali Qafqaz, köç, hunlar*

*Təxminən e.ə. III əsrdə Şimali Çin və Monqolustanda hunların köçəri çoban tayfalarının böyük ittifaqı yarandı. I əsrin sonu - II əsrin ortalarında onların bəziləri Orta Asiya və Priural ərazisində meydana çıxdı.*

*IV-V əsrlərin sonlarında hunlar və onlara qoşulan tayfalar Şimali Qafqazdan Cənubi Qafqaza keçib,oradan da Ön Asiyaya doğru dağıdıcı yürüşlər edirdilər. Hunlar Zaqafqaziyanın siyası işlərinə fəal müdaxilə edərək Qafqaz Albaniyasına və Gürcüstana dəfələrlə yürüşlər ediblər.Hunların Qafqazda mövcudluğunun ən mühüm nəticələrindən biri bölgədə türk ünsürünün*

*güclənməsi idi ki, bu da Qafqazın və onun xalqlarının bütün sonrakı tarixinə güclü təsir göstərmişdir.*

## MIGRATIONS OF THE HUNKS TO THE CAUCASUS IN THE SASSANID ERA (BASED ON AZERBAIJANIAN AND RUSSIAN HISTORIOGRAPHY)

**Zhang Terigele**

***Keywords:*** *Caucasus, early Middle Ages, Turkic tribes, Azerbaijan, North Caucasus, migrations, Huns.*

*Around the third century BC, a large union of nomadic pastoral tribes, the Huns, was formed in Northern China and Mongolia. At the end of the I — middle of the II century. some of them appeared in Central Asia and the Urals.*

*At the turn of the IV-V centuries, the Huns and the tribes that joined them made devastating campaigns from the North Caucasus to the South Caucasus, passing on to Near Asia. The Huns actively interfered in the political affairs of Transcaucasia, made multiple trips to Caucasian Albania and Georgia.*

*One of the most important results of the Hunnic presence in the Caucasus was the strengthening of the Turkic element in the region, which had a strong impact on the entire subsequent history of the Caucasus and its peoples.*

О существовании племена хунну (гунну) стало известно из китайских источников. Интересно, что наименование его оказалось гораздо более долговечным. Хун-на в китайском языке означает союз. Это был союз различных тюркских кочевых племен – ближайших соседей Китая, от которых китайскому населению неоднократно приходилось защищаться. В 214 году до н.э. была построена Великая Китайская стена для защиты северных границ от потока гуннских набегов.

Китайское название Хунна/Гунна вошло в обиход и стало широко известным, несмотря на то, что многие родовые племена этого союза или полностью исчезли, или же ассимилировавшись с местными тюркскими племенами приняли их идентичность. Вместе с тем это название, появившееся полторы тысячи лет назад, известно также как название тюркского этноса. Оно отразилось в названии Венгрия (Хунгари) и во многих других названиях.

До сих пор нередко слово «гунн» звучит как синоним свирепого дикаря. И это не случайно, ибо хунны на протяжении тысячи лет выступали не только как созидатели, но часто и как разрушители [4, с. 5].

В конце IV-V в. гунны и связанные с ними кочевники совершали опустошительные походы через Северный Кавказ в Закавказье и в страны Передней Азии. В 395 г. огромная гуннская орда ворвалась в Закавказье, оттуда вторглась в пределы Ирана, прошла Сирию и Малую Азию. Весь Восток «содрогнулся» при внезапно разнесшемся известии о том, что «от далекого Меотиса, земли ледяного Тананса и страшного народа массагетов, где в Кавказских ущельях дверью запертые дикие народы, вырвалась орда гуннов». Однако под натиском крупных сил сасанидского войска гунны вынуждены были отступить на Северный Кавказ мимо Апшерона через Дагестан [14, с. 95].

Гуннское нашествие имело крайне тяжелые последствия для Северного Кавказа. Походы завоевателей сопровождались грабежом и разорением, погромами городов и поселений, истреблением населения. Многие жители Северного Кавказа оказались вовлеченными в войны гуннов с Сасанидами и Византией, а отдельные районы региона превратились в арену кровопролитной войны между ними. Все это подрывало производительные силы, тормозило социально-экономическое и культурное развитие народов Северного Кавказа [14, с. 95].

В результате всего этого в IV—V вв. политическая роль меотских племен на Северо-Западном Кавказе была настолько подорвана, что их этническое название очень редко упоминается в письменных источниках того времени. Аналогичные последствия гуннское нашествие имело и для аланских племен Северного Кавказа. Под натиском гуннов многочисленные группы алан, избежавшие истребления или не вовлеченные в движения гуннов на запад, отступили из степных районов на юг, главным образом на правобережье Терека (с. Малкай) и в верховья Кубани. О резком увеличении плотности населения в связи с переселением алан свидетельствуют большое число бытовых и погребальных памятников V—VI вв. н. э. и увеличение размеров городищ Нижне-Джулайского, Терекского, Хампдневского, Алханкалинского и др [14, с. 95].

Судя по остаткам катакомбных могильников алан, они в основном продвинулись в места, прилегающие к удобным перевальным путям, ведущим в Южном Кавказе,(Дарьяльский проход у верховий Терека, Клухорский перевал в верховьях Кубани). В целом же значительную часть населения горной зоны края составляли местные племена. Гуннские племена и в V—VI вв. продолжали проникать на равнинную территорию вплоть до предгорий зоны Центрального Кавказа [14, с. 95].

Обосновавшись в прикаспийской части Дагестана, гунны активно вмешивались в политические дела Закавказья, совершали многократные походы в Кавказскую Албанию, Грузию. Территория Дагестана. При этом

южно-прикаспийская часть на Северном Кавказе превратилась в особенную область кровопролитных войн, стала одним из главных очагов этих войн, в которые вовлекались и местные племена [14, с. 96].

После смерти Аттилы, как известно, гуннский племенной союз распался. Часть гуннских племен осталась на Дунае и в Причерноморье, а часть откочевала на Восток (гунны-эфталиты). В связи с этим стали возникать новые племенные союзы. Причем некоторым военным объединениям удавалось распространить свою власть на большую территорию, но эфемерные союзы не были долговечны: они распадались с такой же быстротой, с какой и возникали. По традиции эти племенные союзы и различные этнические группы Северного Причерноморья и Предкавказья письменные источники называли «гуннами». Но вместе с тем все чаще стали возникать и другие кочевые племена, появившиеся в Восточной Европе и на Северном Кавказе еще с гуннами [14, с. 96].

Гунны прошли все Закавказье, Причерноморье, оказались на Балканах, в Галлии и едва не уничтожили Римскую империю.

Миграции упомянутых тюркских племен на территории современного Азербайджана, относится к раннему средневековью.

Некоторые Азербайджанские исследователи не без основания утверждают на присутствии уже в III тысячелетии д. н. э. на территории Азербайджана носителей алтайско-пратюркских языков, являющихся предками современных азербайджанцев [16, с. 39]. Археологические исследования некрополей на территории Азербайджана – в Шеки, Кабале, Мингечевире, Карабахе, Нахчиване и т.д., а также в Южном Дагестане свидетельствуют,что свойственный тюркам каспийский антропологический тип существовал здесь именно в период ранней бронзы и составлял основной пласт населения.

Гунны прошли на Южный Кавказ через Дербендтский проход и Дарьяльское ущелье. Вскоре после этого гунны закрепились в Северном Дагестане. Закрепление гуннов в Северном Дагестане связано с тем, что здесь пришлые родовые тюркские племена нашли приют среди местных тюркских племен, что способствовало их постепенной ассимиляции. В известных византийских источниках, к примеру, как Берсилия, уже со второй половины III века эта территория известна как «земля гуннов». Отсюда гунны через Дербендский проход неоднократно совершали походы на Южный Кавказ [1, с. 9].

Опустошительные походы с Северного Кавказа на Южный Кавказ гунны и примкнувшие к ним племена совершали и раньше, на рубеже IV-V веков, проходя через пределы Сасанидской и Византийской империй, далее в Переднюю Азию. Их путь на юг пролегал через Приморский Дагестан, Дербендтский проход и Абшеронский полуостров. Так, в 395 г.

н. э они через прикаспийские земли Южного Кавказа вторглись в Сасанидскую державу, прошли далее в Сирию и Малую Азию. Уже в 70-е годы IV в. гунны включили в созданную ими обширную и могущественную Гуннскую державу прикаспийские территории Северного и Южного Кавказа. Это важное событие совпало с хорошо известным в мировой истории по своим последствиям Великим переселением народов IV-VII веков, которое коснулось также Кавказа. Гунны были «пионерами» этой великой миграции. Они «шли в авангарде широчайшей миграции с Востока на Запад (из Азии в Европу) кочевых племён, положивших начало эпохе великого переселения народов». Тогда, в IV веке, на Северном Кавказе также появились различные племена, савиры/сабиры, булгары и многие другие. Некоторые из них создали собственные политические структуры, и в их составе порой оказывались автохтоны и часть северокавказского региона, другие же проходили далее на юг – на Южный Кавказ. Именно тогода большая часть Дагестана стали именовать «страной гуннов» и название гунны стало этнонимом, так как населени приморской зоны в источниках именовалось «гуннами». Обосновавшись в Прикаспийской зоне, гунны активно вмешивались в политические дела Южного Кавказа, куда совершали многократные походы [1, с. 10].

Вклад Аттилы в мировую историю, в том числе Кавказа, весьма значительный. Гунны здесь оказались связаны не просто с Великим переселением народов и созданием собственной империи, но также с созданием широкого ареала распространения тюркских племён, численного увеличения тюркских племен на местах их появления.

Деятельность гуннов оказала влияние на последующую историю Кавказского региона [1, с. 21]. К примеру, в начале V века на Северном Кавказе было создано первое крупное объединение гунно-булгарских племён, сыгравшее значительную роль в усилении здесь политического влияния тюркского элемента и широком распространении тюркской культуры. [1, с. 23].

Вместе с этим, надо отметить, что со второй половины V века на Кавказе параллельно протекали два этнополитических процесса. В результате этого, к исходу того столетия, в регионе сложились два крупных «гуннских» объединения. В восточной его части - во главе с сабирами, в западной – во главе с утигурами. Византийская и Сасанидская империи, соперничавшие за Кавказ, в собственных интересах сталкивали между собой эти два объединения. В результате, они взаимно ослабляли друг друга, что было на руку как Византии, так и Сасанидам. Тем не менее, в начале VI века гунны-сабиры вторглись с Северного Кавказа на Южный и временно завладели им. В итоге, во второй половине VI века

сабиры стали доминирующей военнополитической силой также в Восточном Предкавказье [1, с. 23].

После распада Западногуннской державы на арене истории появляются как бы новые названия тюркских этносов. Первоначально они входили в гуннский союз. В связи с территорией Азербайджана упоминаются такие племена гуннского союза, как булгары, печенеги, кыпчаки, кангары, барсилы, хазары, сабиры/субары/сувары/савиры и др., для которых употреблялось в раннее средневековье общее название «гунн». В состав гуннов входили эфталиты, сабиры, утигуры, оногуры, булгары, узы/гузы и другие [17].

Начиная с первых веков н. э. в Атропатену проникают другие тюркские племена — гунны, чолы, сувары, хазары, болгары, позже сельджукские огузы. В «Истории албан», в связи с событиями III века, сообщается, что северные народы тревожат сасанидского царя Шапура I [7, с. 164].

С гуннами, вероятно, связаны также топонимы Унар — городок в 7 фарсахах от Ардебиля и Хунан (Хунандж) — маленький городок между Марагой и Зенджаном, упоминаемый Йакутом. С кыпчакско-печенежским племенем берендей можно связать название села Барандак в долине между Казвином и Халхалом. В Южном (Иранском) Азербайджане есть село Хуниабад, в котором отразился этноним гунн, хунн. Начиная с III века, в Иран проникали еще абдалы, т. е. белые гунны, охарактеризованные Моисеем Каланкатуйским как «богатырский народ». Они обитали у восточных границ Ирана, в Хорасане, в долине реки Амударьи. В Южном Азербайджане и ныне существуют селения Абдал и Абдаллы [7, с. 164].

В союз племен Албании входили не только местные племена, но и пришлые, как например, гунны, сабиры и др. появившиеся здесь еще в III в. Гунны и сабиры, как и другие пришлые кочевые племена, в большинстве своем являлись тюркоязычными. Следовательно, хотя в IV - V вв. древние насельники Азербайджана еще не сформировались в единый народ, основа этого процесса была заложена уже в этот период. В это время Сасаниды, подчинившие себе Албанию, строят в Дербентском проходе ряд оборонительных сооружений, а в последующие столетия ими были выстроены знаменитые Дербентские стены [10, с. 15].

В V - VI вв. в Албании проживали гунны, сары-огуры, булгары, белые хазары, хазаросавиры, оногуры, барсии - в общей сложности 13 племен, говоривших на тюркском наречии древнеазербайджанского языка [10, с. 17].

В источниках I—VII вв. на территории современного Азербайджана — Албании (Арана) — упоминаются следующие племена: албаны, анариаки, гирканы, марды, энианы, кадусии, саки, гелы, леги, лупены (лбины),

каспии, гунны, стены (удины), силвы, ижмахи, сураны (шарваны), гаты, гугары, джигбы, маскуты, кангары, гаргары, чолы, и др. Гийаседдин Гейбуллаев утверждает, что из них албаны, ижмахи (шамаки), гаргары, кангары, саки, чолы и гунны были тюркоязычными племенами [8, с. 13]. Основная часть населения Албании представляла собой тюркский пласт. Языком межобщения был тюркский кыпчакский язык. Поэтому при принятии официального христианства в IV веке в албанских церквях исповедывание велось на тюркском кыпчакском языке.

Таким образом, топонимические параллели не оставляют сомнения в исторической связи древнетюркских племен Алтая с раннесредневековой Албанией и не вызывают сомнения, что в раннее средневековье Албания представляла страну, где основной пласт населения составлял тюркский элемент. Однако трудно определить время появления указанных племен на этой территории. Вероятно, эти племена могли проникнуть в Азербайджан еще среди гуннов. В. В. Радлов отмечал, что вторгнувшиеся в IV в. в Европу гунны состояли из восточно-тюркских племен. Можно предположить, что часть их проникла сюда еще во времена каганата через Северный Кавказ. Известно, например, что часть племен теле еще в V в., покинув Центральную Азию, обосновалась в степях у Аральского моря и на Северном Кавказе. В 557—571 гг. н. э тюрки овладели всем Северным Кавказом. Видимо, с Северного Кавказа они начали вторгаться на юг и поэтому была построен Дербентская стена [8, с. 34].

На основе изучения древних и современных этнотопонимов удается в общих чертах определить те тюркоязычные племена, которые проникали сюда с первых веков н. э. До конца VIII в. гунны, чолы, ранние печенеги — кангары, болгары, авары, хазары и ранние кипчаки. Эти племена переселились в основном на равнинных частях междуречья Куры и Араза. Видимо, первоначально они вели полукочевой образ жизни, но, постепенно консолидируясь и сливаясь с родственными по языку и этнической принадлежности албанами, саками и гаргарами, в VII—X вв. Таким образом, междуречье Куры и Араза было основным регионом формирования азербайджанцев [8, с. 111].

Поселившиеся в различных частях страны гунны и их тюркский язык стал языком межплеменного общения в регионе [2, с. 32].

Из сказанного выше вытекает, что здесь должно было существовать первоначальное тюркское ядро, которое в совокупности с последующими исторически засвидетельствованными тюркскими переселениями в раннем средневековье привело к сложению азербайджанского народа. Проникшие в этот регион в раннем средневековье полукочевые племена (гунны, болгары, хазары, сувары, авары, кыпчаки, чолы и др.), стоявшие в то время по своему культурному уровню ниже местного населения

Албании — Атропатены, без такого ядра в условиях феодального строя не смогли бы консолидироваться между собой так быстро, чтобы к XIII веку сложился азербайджанский письменный язык [7, с. 20].

До сих пор считали возможным сближать слова хуннов или других старых кочевых народов со словами современных тюркских наречий, даже не ставя вопроса, могло ли данное слово в данной форме относиться к древнему периоду [3, с. 23].

Своими богатыми природными данными и уникальным геостратегическим положением Кавказ в течение многих веков был и остается притягательным регионом для завоевательных вторжений и проявления государственных интересов. Средоточие и совокупность условий, продиктованных историей и экономикой, достаточно конкретно определяют значение и роль Кавказского региона.

Значение гуннского присутствия на Кавказе, при всех его последствиях, разорительных грабежах, истреблении населения, состоит еще и в том, что связанное с Великим переселении населения, оно послужило очередным этапом усиления в регионе тюркского элемента, что оказало сильнейшее воздействие на всю последующую историю Кавказа и его народов.

## Литература


1. Ахундова Н.Ч. Гусейн-заде Р.А. Кавказ и великие Тюрские империи. Баку. 2012. 293 с.
2. Балаев А. Азербайджанская нация: основные этапы становления на рубеже XIX-XX вв. Баку. 1993. 54 с.
3. Бартольд В.В. Тюрки. Двенадцать лекций по истории тюркских народов Средней Азии. Изд. «Ломоносовъ» . Москва. 2015. 240 с.
4. Гумилев Л.Н. История народа хунну. 《ФТМ》 . 1974. 48 с.
5. Гусейнова И.М. История народов Кавказа. (с древнейших времен до наших дней). «Elm və təhsil». Баку. 2018. 1248 с.
6. Гусейнова И.М. Историческая энциклопедия Кавказа. Чашыоглу. Баку. 2010. 956 с.
7. Гейбуллаев Г.А. К этногенезу азербайджанцев (историко-этнографическое исследование). «Элм». Баку. 1991. 348 с.
8. Гейбуллауев Г.А. Топонимия Азербайджана (историко этнографичегкое исследование). Баку. 1986.198 с.
9. Джафаров Ю.Р. Гунны и Азербайджан. Баку. 1985. 54 с.
10. Исмаил М.А. История Азербайджана (краткий обзор с древнейших времён до 1920 г.). Баку. 1995. 108 с.
11. Латышев В.В. Известия древних писателей о Скифии и Кавказе.

ВДИ. 1988. № 4.
12. Мамедли.А. Соловьева.Л.Т. Азербайджанцы. Москва. 2017. 702 с.
13. Малов С.Е. Памятники древнетюркской письменности Монголии и Киргизии.Москва.1989.
14. Нарочницкий А.Л. История народов Северного Кавказа с древнейших времен до конца XVIII в. Изд-во Академии наук СССР. Москва. 1988. 544 с.
15. Сумбатзаде А.С. Азербайджанцы - этногенез и формирование народа. Баку. 1990. 302 с.
16. Юсифов Ю.Б. Ранние контакты Месопотамии с северо-восточными странами (Приурмийская зона). 1987. № 1. 39с.
17. Юсифов Ю.Б. Об актуальных проблемах этнической истории Азербайджана. myazerbaijan.org. https://erevangala500.com/page/84.html.

# ŞUŞA - AZƏRBAYCANIN ELM VƏ TƏHSİL MƏRKƏZİ

**Xəqani Məmmədov**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
prof.khaqani.mammadov@gmail.com

***Açar sözlər:*** *Şuşa, Azərbaycanda ilk dövlət məktəbi, ilk qəza məktəbi, Cənubi Qafqazda ilk şəhər məktəbi, Türk dünyasının "Mədəniyyət paytaxtı".*

*Qarabağın tacı, Azərbaycanın incisi, Qafqazın konservatoriyası adlandırılan Şuşa şəhəri ədəbiyyat, incəsənət və musiqi sahələrində olduğu kimi, təhsil və elm sahələrində də Vətənimizdən çox-çox uzaqlarda tanınmış alimlər, pedaqoqlar yetişdirmişdir. Təhsil sahəsində bütün Cənubi Qafqazda bir çox ilklər məhz Şuşa şəhərində baş vermişdir. Şuşada ilk dövlət məktəbi çar Rusiyası ilə bağlanmış Kürəkçay müqaviləsindən sonra 1807-ci ildə yaradılmışdır. Azərbaycanda ilk qəza məktəbi 1830-cu ildə Şuşada təşkil edilmişdir. İlk müsəlman məktəbi də 1849-cu ildə Şuşada təsis edilmişdir.*

*1874-cü ildə nəinki Azərbaycanda, hətta bütün Cənubi Qafqazda ilk olan Şuşa şəhər məktəbi açılmışdır. 1875-ci il oktyabrın 26-da Şuşa Marinski Qız məktəbinin əsası qoyulmuşdur. 1881-ci il sentyabrın 20-də burada 6 sinifli Realnı Məktəb yaradılmışdır. Məktəblərdən kənarda fəaliyyət göstərən ilk kütləvi kitabxana da Şuşada təşkil edilmişdir.*

*XX əsrin sonlarında erməni işğalçıları tərəfindən işğal edilən Şuşa şəhəri 2020-ci noyabrın 8-də Müzəffər Azərbaycan Ordusu tərəfindən azad edilmişdir. 2021-ci ildə Şuşa şəhəri Azərbaycanın, 2023-cü ildə isə Türk dünyasının "Mədəniyyət paytaxtı" elan edilmişdir.*

## ШУША - ЦЕНТР НАУКИ И ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНА

**Хагани Мамедов**

***Ключевые слова:*** *Шуша, первая государственная школа в Азербайджане, первая уездная школа, первая городская школа на Южном Кавказе, Культурная столица тюркского мира.*

*Город Шуша, который называют короной Карабаха, жемчужиной Азербайджана, консерваторией Кавказа, выпустил известных ученых и педагогов в области литературы, искусства и музыки, а также в сфере образования и науки. Город Шуша сыграл важную роль в культурной, научной и общественно-политической жизни не только Азербайджана,*

*но и всего Кавказа. В сфере образования в городе Шуша состоялось множество новинок на всем Южном Кавказе. Первая государственная школа в Шуше была основана в 1807 году после Кюрекчайского договора с царской Россией. Первая уездная школа в Азербайджане была организована в Шуше в 1830 году. Первая мусульманская школа была основана в Шуше в 1849 году.*

*В 1874 году была открыта Шушинская городская школа, первая не только в Азербайджане, но и на всем Южном Кавказе. 26 октября 1875 года было основано Шушинское Мариинское женское училище. 20 сентября 1881 года здесь было основано 6-классное Реальное училище. В Шуше также была организована первая публичная библиотека, действующая вне школ.*

*В конце XX века город Шуша, оккупированный армянскими оккупантами 8 мая 1992 года, был освобожден Победоносной Азербайджанской Армией 8 ноября 2020 года. В 2021 году город Шуша был объявлен «Культурной столицей» Азербайджана, а в 2023 году – тюркского мира.*

## SHUSHA - A CENTER OF SCİENCE AND EDUCATİON İN AZERBAİJAN

**Khagani Mammadov**

***Keywords:*** *Shusha, the first public school in Azerbaijan, the first emergency school, the first city school in the South Caucasus,Cultural capita" of the Turkic world.*

*The city of Shusha, which is called the crown of Karabakh, the pearl of Azerbaijan, the conservatory of the Caucasus, has produced famous scientists and teachers in the field of literature, art and music, as well as in the field of education and science. The city of Shusha played an important role in the cultural, scientific and socio-political life of not only Azerbaijan, but also the entire Caucasus. In the field of education in the city of Shusha, many new events took place throughout the South Caucasus. The first public school in Shusha was founded in 1807 after the Kurekchay Treaty with Tsarist Russia. The first emergency school in Azerbaijan was organized in Shusha in 1830. The first Muslim school was founded in Shusha in 1849.*

*In 1874, the Shusha city school was opened, the first not only in Azerbaijan, but throughout the South Caucasus. On October 26, 1875, the Shushi Mariinsky Women's School was founded. On September 20, 1881, a 6-*

*grade Real School was founded here. The first public library operating outside of schools was also organized in Shusha.*

*At the end of the 20th century, the city of Shusha, occupied by Armenian invaders on May 8 1992, was liberated by the Victorious Azerbaijan Army on November 8, 2020. In 2021, the city of Shusha was declared the "Cultural Capital" of Azerbaijan, and in 2023 - the Turkic World.*

Azərbaycanın incisi, Qafqazın konservatoriyası adlandırılan Şuşa şəhəri ədəbiyyat, incəsənət və musiqi cahələrində olduğu kimi, elm və təhsil sahələrində də Vətənimizdən çox uzaqlarda məşhur olan alimlər, müəllimlər yetişdirmişdir. Bünövrəsi 1752-ci ildə Qarabağ xanı Pənahəli xan (1747-1763 ) tərəfindən qoyulan və 2022-ci ildə II Qarabağ savaşından qalib çıxan xalqımızın 270 illiyini böyük iftixar və ruh yüksəkliyi ilə qeyd etdiyi Qarabağın tacı Şuşa şəhəri çətin və mürəkkəb inkişaf yolu keçmiş, nəinki Azərbaycanın, hətta bütün Qafqazın mədəni, elmi və ictimai-siyasi həyatında mühüm rol oynamışdır. Şuşa şəhəri yetişdirdiyi böyük tarixi şəxsiyyətləri ilə ədəbi-mənəvi, elmi və ictimai fikir tariximizə böyük təsir göstərmişdir.

Qarabağ xanlığının vəziri, görkəmli Azərbaycan şairi Molla Pənah Vaqif (1717-1797) öz yüksək savadı, hazırcavablığı və müdrikliyi ilə nəinki Qarabağda, bütün Yaxın Şərqdə boyük şöhrət qazanmışdır. Onun haqqında xalq arasında yaranmış "Hər oxuyan Molla Pənah... olmaz" deyimi bunu bir daha sübut edir. Şuşada ilk təhsilini alanlar arasında məşhur general Səməd bəy Mehmandarovun atası Sadıq bəy Mehmandarov 1833-cü ildə Peterburq Universitetinin hüquq fakültəsini bitirmiş və Azərbaycanda ilk hüquqşünas alim olmuşdur. Hərbi biliyə malik olduqlarından Qarabağ xanlığında Cavanşir nəslindən İbrahim xan, Mehdiqulu xan, Cəfərqulu xan, Fərəc bəy Ağayev (1811-1891 ), Səməd bəy Mehmandarov öz dövrünün məşhur generalları olmuşlar.

İlk "Qarabağnamə" əsərlərinin müəllifləri Mirzə Adıgözəl bəy (1780-1848 ), Mirzə Camal Cavanşir (1773-1853 ), Əhməd bəy Cavanşir (1828-1903) Qarabağ xanlığının tarixinə dair qiymətli əsərlər yazmışlar. Şimali Azərbaycanın işğalından sonra da Şuşada ibtidai təhsil tamamilə müsəlman ruhanilərinin sərəncamında olan məktəblərdə-mollaxanalarda toplanmışdı. Şuşada İbrahim xan məscidi nəzdində əsası 1801-ci ildə qoyulmuş məktəb XIX əsrin sonlarında da fəaliyyət göstərirdi [5; s.136 ]. Şuşada ilk dövlət məktəbi Çar Rusiyası Qarabağ xanlığını 1805-ci il mayın 14-də Kürəkçay müqaviləsinə əsasən ilhaq etdikdən sonra 1807-ci ildə yaradılmışdır. Türkmənçay sülhündən sonra Zaqafqaziya məktəbləri haqqında 1829-cu il "Əsasnaməsi" ilə ilk məktəblərin Nizamnaməsi təsdiq edildi. Həmin Nizamnaməyə görə Azərbaycanda açılmalı olan 9 məktəbdən biri Şuşada açılmalı idi. Azərbaycanda ilk qəza məktəbi 1830-cu ildə Şuşada açılmışdır [7; s.17]. Şuşa qəza məktəbindən əvvəl

daha bir məktəb 1826-cı ildə hökumətin icazəsi ilə burada yaşayan Bazel missionerləri tərəfindən açılmışdır. Burada şagirdlərə əsasən alman dili öyrədilirdi. Dövlət tərəfindən açılan Şuşa məktəbində isə şəriət, qiraət, hüsnxətt, hesabdan ilk dörd əməliyyat, rus dili və yerli dil tədris edilirdi. Məktəbin müəllim kadrları əsasən Rusiyadan göndərilidi. Şagirdlər yuxarı silklərə mənsub olan ailələrin uşaqları idi. Çar hökuməti bu məktəblərdə çoxmillətli Cənubi Qafqaz ölkəsində xidmət etmək üçün bacarıqlı məmurlar, ilk növbədə çarizmə sədaqətlə qulluq edən tərcüməçilər hazırlamaq məqsədi güdürdü. Qarabağın qabaqçıl ziyalıları yeni məktəblərdən geriliyə, cəhalətə və mövhumata qarşı mübarizə üçün istifadə etməyə, bu məktəblərdə təhsil alanların sırasında azərbaycanlı şagirdlərin sayının artırılmasına çalışırdılar. Şuşa qəza məktəbindəki çətinliklərdən ən başlıcası müəllim kadrlarının çatışmaması idi. Digər çatışmazlıqlardan biri də dərsliklərin, tədris vəsaitinin yoxluğu idi. Məktəb üçün müvafiq binanın olmaması da qarşıya çıxan çətinliklərdən biri idi. Şuşa qəza məktəbinin təşkilində bu məktəbin ilk müəllimi Nikolay Mixaylovskinin böyük xidmətləri olmuşdur. Onun gərgin əməyi nəticəsində 1830-cu il dekabr ayının 30-da Şuşa qəza məktəbinin təntənəli açılışı oldu. Həmin gün 1-ci sinif açıldı və 19 şagirdlə təlimə başlanıldı. Məktəb Şuşada Bazel missionerləri tərəfindən verilmiş binada pulsuz olaraq bir il müddətinə yerləşdi. [7; s.17]. 1833-cü ildə məktəbdə təhsil alan şagirdlərin sayı 27, 1834-cü ildə isə 44 nəfər oldu. İlk müsəlman məktəbi də 1849-cu ildə Şuşada yaradılmışdır [ 5; s. 144 ].

1874-cü ildə nəinki Azərbaycanda, hətta bütün Cənubi Qafqazda ilk olan Şuşa şəhər məktəbi təsis edilmişdir. 1875-ci il oktyabrın 26-da Şuşa Xeyriyyə Cəmiyyəti tərəfindən azərbaycanlı qızların dünyəvi təhsil almasında mühüm rol oynayan Şuşa Marınski Qız Məktəbi yaradılmışdır. 1881-ci il sentyabrın 20 də Şuşada 6 sinifli Realnı Məktəbinin əsası qoyulmuşdur (5;s.355). 1883-cü ildə Qori Müəllimlər Seminariyasının müəllimi, görkəmli pedaqoq Səfərəli bəy Vəlibəyov tərəfindən "Səfərəli bəyin məktəbi" adlı anadilli məktəb açılmışdır. 1893-cü ildə Camal bəy Fətəlibəyov tərəfindən üçüncü dərəcəli xüsusi oğlan məktəbi olan Şuşa Rus-Azərbaycan məktəbi , elə həmin ildə Şuşada qadın ibtidai məktəbinin əsası qoyulmuşdur [10 ; s.24 ].

Şuşa şəhərinin qabaqcıl ziyalıları xeyriyyəçilik məqsədi ilə teatr tamaşaları təşkil edir, toplanan pul vəsaitlərini şəhərdə fəaliyyət göstərən məktəblərə verirdilər. "Tərcüman" qəzetinin verdiyi xəbərə görə 1895-ci ildə Həsən xan adlı xeyriyyəçinin maddi köməkliyi ilə göstərilən teatr tamaşası uğurla keçmişdir, avqustun 27-də şəhər gəncləri də xeyriyyə məqsədi ilə tamaşa göstərdilər. Tanınmış ziyalı Haşım bəy Vəzirovun hazırladığı teatr tamaşasından 500 rubl pul toplandı və bu pul realnı məktəbə verildi [ 8 ; s.88].

1896-cı il oktyabr ayının 6-da Şuşa ziyalılarının təşəbüsü ilə iki sinifdən ibarət Şuşa Nikolayevski Rus-Tatar Məktəbi açılmışdır. 1915-ci ildə

Xurşud bəy Əzizbəyovun təşəbbüsü ilə "Rəşadiyyə" məktəbi fəaliyyətə başlamışdır. 1922-ci ildə Şuşa Mədəni Maarif Texnikumu və İncəsənət Məktəbi yaradılmışdır [10 ; s.23-25].

XIX əsrin II yarısında yaradılan yeni tipli məktəblərin qabaqcıl müəllimlərinin ətrafında ədəbi məclislər fəaliyyət göstərirdi. Şuşada fəaliyyət göstərən "Məclisi Fəramuşan" adlı ədəbi məclisə M.M.Nəvvab rəhbərlik edirdi [10 ; s.24]. Məktəblərdən kənarda fəaliyyət göstərən ilk kütləvi kitabxana da Şuşa şəhərində təşkil edilmişdi.

Azərbaycanın mədəniyyət incisi olan Şuşada musiqiçilər, rəssamlar, heykəltəraşlar, yazıçılar və digər sənət adamları ilə yanaşı bir çox elm və maarif xadimləri yetişmişdir. Onlardan Mir Möhsüm Nəvvabın nəslindən olanları, Mehmandarovları, Qayıbovları, Zöhrabbəyovları, Hacıbəyovları, Bədəlbəyliləri, Nərimanbəyovları, Şəfizadələri, Ağayevləri, Xələfbəyovları və başqalarını göstərmək olar [9; s.17].

Şuşada poliqrafiyanın əsasını qoymuş görkəmli şəxsiyyət Mir Möhsüm Nəvvab təkcə rəssam, musiqişünas deyil, həm də psixologiya, riyaziyyat və astronomiyaya bələd olan ensiklopedik bilyə malik alim olmuşdur. O, özünün düzəltdiyi teleskopla Saturn planetini müşahidə etmiş, bu planetin həlqəsinin elmi maketini də hazırlamışdır.

Şuşa mühitində yetişmiş bir çox sənət adamları həm də görkəmli alimlər, elm xadimləri olmuşlar. Yusif Vəzir Çəmənzəminli öz tarixi romanları ilə tarix elmi ilə ciddi məşğul olmuş, "Qızlar bulağı", "Qan içində", "Studentlər" əsərlərini yazmış, ictimai-siyasi fəaliyyətlə məşğul olaraq Kiyev Universitetində təhsil aldığı illərdə burada "Müsavat " partiyasının şöbəsini yaratmış, böyük diplomat kimi fəaliyyət göstərmişdir. XX əsrin tanınmış ədibi Əbdürrəhim bəy Haqverdiyev həm də böyük alim olmuş, Rusiya EA-nın müxbir üzvü seçilmişdir. Şuşada ilk təhsil almış Firudin bəy Köçərli, Üzeyir bəy Hacıbəyli, Mehdi Məmmədov, Lətif Kərimov dünya şöhrətli alimlər olmuşlar [9; s.18 ].

1918-1920-ci illərdə fəaliyyət göstərən Azərbaycan Cümhuriyyəti tərəfindən 1919-cu ildə yaradılmlş Bakı Universitetinin fəaliyyətində də Qarabağdan olan alim və pedaqoqların böyük xidmətləri olmuşdur. Bu universitetin ilk müəllimləri arasında fizika fənni üzrə ilk azərbaycanlı alim Bəhram Mirzəyev, xaricdə təhsil almış ilk filosof Azad bəy Əmirov, Ələkbər Əliyev və s. alimlərin adı iftixarla çəkilir. 1945-ci ildə yaradılmış Azərbaycan EA-nın ilk üzvlərindən biri də dahi bəstəkar Üzeyir bəy Hacıbəyli olmuşdur [ 9 ; s.18 ]. Sovet hakimiyyəti illərində yüzlərlə Şuşalı qabaqcıl elm və maarif xadimi kimi elm və təhsilimizin inkişafına əvəzsiz töhfələr vermiş, onların adları Vətənimizin hüdudlarından çox-çox kənarlarda məşhur olmuşdur .

1988-ci ildən başlayaraq Ermənistan və Dağlıq Qarabağdakı ekstremist və separatçı qüvvələr Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürdülər və

Azərbaycana qarşı elan edilməmiş müharibəyə başladılar. Onlar Rusiyanın hərbi yardımı ilə 1992-ci il mayın 8-də Şuşanı işğal etdilər. 28 il davam edən erməni işğalı dövründə erməni quldurları Şuşada daşı daş üstə qoymamış, məscidləri. məktəbləri, gözəl memarlıq və mədəniyyət abidələrini darmadağın etmişdilər. Müzəffər Azərbaycan Ordusu 2020-ci il noyabrın 8-də 44 günlük II Qarabağ müharibəsində  Şuşanı düşmən işğalından azad emişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci il 5 yanvar tarixli Sərəncamına əsasən 2022-ci il "Şuşa ili" elan edildi. Sərəncamda Şuşanın keçdiyi tarixi yola qısa tarixi ekskurs edilərək göstərilir ki, 2022-ci ildə əsasının qoyulmasının 270 illiyi qeyd olunacaq Şuşa şəhəri  zəngin inkişaf yolu keçmiş, nəinki Azərbaycanın, hətta bütün Cənubi Qafqazın  mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamış, yetişdirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni,  elmi və ictimai fikir səlnaməmizə əlamətdar səhifələr yazmışlar [ 2 ].

İşğaldan azad edilən Şuşada böyük quruculuq və abadlıq işləri həyata keçirilir, dağıdılmış məscidlər, məktəblər, kitabxanalar, əvəzsiz memarlıq abidələri əsaslı təmir edilir, yeni məktəblər, mədəniyyət mərkəzləri, otellər və yaşayış binaları tikilir. 2021 –cü ildə Şuşa şəhəri Azərbaycan Respublikası Prezidentinin 7 may 2021-ci il tarixli Sərəncamına əsasən Azərbaycanın mədəniyyət paytaxtı (1),  6 yanvar 2022-ci il Sərəncamına əsasən 2022-ci il "Şuşa ili" (2 ), 2023-cü ildə Türk dünyasının (3),  2024-cü ildə isə İslam dünyasının mədəniyyət paytaxtı  elan edilmişdir [4]. Şuşa şəhəri yenidən Azərbaycanın elm və təhsil mərkəzlərindən birinə çevrilməkdədir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Prezidentinin Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında 7 may 2021-ci il tarixli Sərəncamı.- "Azərbaycan" qəzeti, 8 may 2021-ci il.
2. Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa ili" elan edilməsi haqqında 5 yanvar 2022-ci il Sərəncamı.- "Azərbaycan" qəzeti, 6 yanvar 2022-ci il.
3. Azərbaycan Respublikası Prezidentinin Şuşa şəhərinin "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsiilə bağlı tədbirlər  haqqında 06 dekabr 2022-il tarixli Sərəncamı.-"Azərbaycan" qəzeti, 07 dekabr 2022-ci il.
4. Azərbaycan Respublikası Prezidentinin Şuşa şəhərinin "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsilə bağlı tədbirlər haqqında 21 noyabr 2023-cü il tarixli Sərəncamı.- "Azərbaycan "qəzeti, 22 noyabr 2023-cü il
5. Azərbaycan tarixi. 7 cilddə. IV cild, Bakı: Elm, 2007.
6. Əhmədov H. XIX əsr Azərbaycan məktəbi, Bakı: Maarif, 1985.

7. Əhmədov H. Seçilmiş pedaqoji əsərləri, XIX əsrdə Azərbaycanda məktəb təhsilinin inkişafi tarixinə həsr edilmiş əsərlər. 5 clilddə, I cild, Bakı: Elm, 2001.

8. Kərimov Z. Şuşa-mədəniyyətimizin simvolu.-Tarix, insan və cəmiyyət., ADPU-nin elmi-nəzəri və elmi-metodiki jurnalı, 2022, say 1, s.81-90.

9. Şuşa Azərbaycanın tarix və mədəniyyət incisidir. Bakı: 2003.

10.Şuşa Azərbaycanın mədəniyyət paytaxti.- Biblioqrafiya, Bakı: 2021.

# INTENSİVE CULTURAL DEVELOPMENT CHARACTERİZED GANJA İN THE XI-XIII CENTURİES

**Turkan Ahmadova**
**Lankaran State University**
turkan_ahm@mail.ru

***Keywords:*** *Early Middle Ages, archeological excavations, written sources, architecture, renaissance, crafts.*

*In the early Middle Ages, the economic and social development of Azerbaijan created conditions for the emergence of cities with craft and trade centers. As a result of the archaeological excavations, the remains of many cities were discovered. The materials obtained during the archaeological excavations conducted in the ruins of Shamakhi, Ganja, Gabala, Beylagan, Shabran, and other cities are summarized.*

*When discussing the city's history, it's essential to note that it serves as a vital socio-economic and cultural hub. During this period, Ganja played an important role in the development of Azerbaijani culture. Poets and scientists with world-famous works of science and art lived and created in this city.*

*The genius poet Nizami Ganjavi glorified the city's nature, riches, and beauty with the wonderful power of the artistic word. In general, it would be correct to call the beginning of the 12th and 13th centuries the period of prosperity for the city of Ganja.*

*The systematic study of Ganja city's material culture began in the 1920s. Archaeological research conducted in the area suggests that there was an intense life in the region during the early Middle Ages.*

*It is undeniable that the Ganja archaeological expedition will provide more solid facts about the ancient history of the city.*

# GƏNCƏ XI-XIII ƏSRLƏRDƏ İNTENSİV MƏDƏNİ İNKİŞAFLA SƏCİYYƏLƏNİR

**Türkan Əhmədova**

***Açar sözlər:*** *İlk orta əsrlər, arxeoloji qazıntılar, yazılı mənbələr, memarlıq, intibah dövrü, sənətkarlıq.*

*İlk orta əsrlərdə Azərbaycanın iqtisadi və ictimai inkişafı burada sənətkarlıq və ticarət mərkəzləri olan şəhərlərin meydana çıxması üçün şərait yaratmışdır. Aparılan arxeoloji qazıntıların nəticəsində bir sıra şəhərlərin qalıqları üzə çıxarılmışdır. Şamaxı, Gəncə, Qəbələ, Beyləqan, Şabran və başqa şəhərlərin xarabalıqlarında aparılan arxeoloji qazıntılar zamanı əldə edilmiş materiallar ümumiləşdirilmişdir.*

*Şəhərin tarixi haqqında danışarkən bu şəhərin sosial-iqtisadi və mədəniyyət mərkəzi olduğunu qeyd etməmək mümkün deyil. Bu dövrdə Gəncə Azərbaycanın mədəniyyətinin inkişafında vacib rol oynamışdır. Dünya şöhrətli elm və incəsənət əsərlərinə sahib şair və alimlər bu şəhərdə yaşayıb yaratmışlar.*

*Dahi şair Nizami Gəncəvi şəhərin təbiətini, zənginliklərini, onun gözəlliyini bədii sözün ecazkar qüdrəti ilə tərənnüm etmişdir. Ümumiyyətlə, XII və XIII əsrlərin əvvəllərini Gəncə şəhəri üçün çiçəklənmə dövrü adlandırmaq düzgün olardı.*

*Gəncə şəhərinin maddi-mədəniyyətinin sistemli şəkildə tədqiqinə XX əsrin 20-ci illərindən başlanmışdır. Ərazidə aparılan arxeoloji tədqiqatlar erkən orta əsrlər dövründə bölgədə intensiv həyatın olduğunu söyləməyə əsas verir.*

*Gəncə arxeoloji ekspediyası şəhərin qədim tarixinə dair daha tutarlı faktların əldə ediləcəyi təkzibedilməzdir.*

## ИНТЕНСИВНОЕ КУЛЬТУРНОЕ РАЗВИТИЕ ХАРАКТЕРИЗОВАЛО ГЯНДЖУ В XI-XIII ВЕКАХ.

**Тюркан Ахмедова**

***Ключевые слова:*** *Раннее средневековье, археологические раскопки, письменные источники, архитектура, ренессанс, ремесла.*

*В раннем средневековье экономическое и социальное развитие Азербайджана создало условия для возникновения городов с ремесленными и торговыми центрами. В результате археологических раскопок были обнаружены остатки многих городов. Обобщены материалы, полученные в ходе археологических раскопок, проведенных на развалинах Шемахы, Гянджи, Габалы, Бейлагана, Шабрана и других городов.*

*Говоря об истории города, важно отметить, что он служит важным социально-экономическим и культурным центром. В этот период Гянджа сыграла важную роль в развитии азербайджанской*

*культуры. В этом городе жили и творили поэты и ученые с всемирно известными произведениями науки и искусства.*

*Гениальный поэт Низами Гянджеви чудесной силой художественного слова прославил природу, богатство и красоту города. В целом правильно было бы назвать начало XII и XIII веков периодом расцвета города Гянджи.*

*Систематическое изучение материальной культуры города Гянджи началось с 1920-х годов. Археологические исследования, проведенные в этом районе, позволяют предположить, что в раннем средневековье в этом регионе кипела жизнь.*

*Нельзя отрицать, что Гянджинская археологическая экспедиция предоставит более убедительные факты о древней истории города.*

The Azerbaijani intellectuals' contributions to Muslim sciences have attracted scientists to visit the centers of Islamic culture in Azerbaijan due to their scientific potential. Ganja was one of these centers. Ganja, the capital of the Shaddad dynasty ruling Arran, became the largest city in Arran, surpassing Barda in the 10th century. This city is already one of the major cities, along with the three largest cities of the Seljuks (Merv, Nishapur, and Isfahan).

Remains of various types of monuments from different periods have been collected from Ganja and its surrounding areas. The discovery and collection of all these surface materials and monuments from various periods within the same settlement demonstrates that the hill on which the settlement is located has been eroded from all sides by rainwater over many centuries. As a result, material and cultural monuments from different historical layers have been uncovered.

During the 11th-12th centuries, Azerbaijani architects constructed palaces, castles, caravanserais, bridges, and defensive structures, adding to the beauty and development of the cities. The cities were fortified with walls and supplied with water and sewage systems through earthen cisterns.

The medieval city of Ganja was surrounded by three circular fortress walls made of baked bricks, clay bricks, and river stones. Built in the early 12th-13th centuries, the city boasted magnificent fortifications. Ganja's strategic location in the border region of the Muslim world, its strong fortifications, luxurious palaces, administrative buildings, mosques, large madrasas, caravansaries, and noble residences were all mentioned in written sources from the 11th-12th centuries. Archaeological excavations have confirmed the existence of these buildings along with the thickness of their walls and architectural decorations.

During the nearly 100-year rule of the Atabays of Eldenizli, Azerbaijan went through a period of political, economic, and cultural renaissance.

Azerbaijan became the central country of the Great Seljuk geography and was highly esteemed in the Near and Middle East when the Eldenizli took over the Seljuk government of Iraq. During this period, Ganja, Nakhchivan, Beylagan, Ardabil, Tabriz, and Maragha were the "metropolis" cities of the time with hundreds of thousands of inhabitants. These cities were not only commercial but also cultural and architectural centers.[5; pg-49]

Get to know the intellectuals from cities in Azerbaijan such as Barda, Ganja, Tabriz, Nakhchivan, Khoy, Urmia, Marand, Ushnu, Barzand, Darband, Sarav, Minjavan, Varsan, Bardić, Beylagan, Mimez, who have achieved high positions and earned fame in these cities. This allows for a better understanding of their influence. During the archaeological excavations of the 12th-13th centuries, coins from the Seljuks of Asia Minor, Shirvanshahs, Ahar Maliks, and Georgians were discovered in Beylagand and Ganja [3; p.38-39].

The results of the conducted research indicate that Ganja and its surrounding areas are connected to various cities by the mentioned roads. This suggests that the area plays a crucial role in international trade. In the study of the commercial and economic relations of Ganja and its surroundings, the investigation of the bridges crossed by the medieval trade routes also holds significant importance.

We read about Ganja in the work "Ajaib al-Dunya," which was written in the Persian language at the beginning of the 13th century: "This is a big city in Arran and its capital. There is a strong fortress and fortifications. It is a densely populated and developing city. It has high walls and a deep moat. The surrounding villages are stunningly beautiful, lush with greenery, and blessed with an abundance of running water. Its people are skilled and very intelligent. It has many gardens and trees, and many delicious fruits; such as grapes, pomegranates, figs, melons, beans, and mulberries. ” [2; p.15-16].

During this time, Ganja started to achieve great success in the cultural field. The number of Azerbaijani scientists working in various fields of science, especially theology and hadith science, was increasing.

During the Seljuk period, there was an increase in religious, cultural, social, and political interactions in the Islamic world. In the 11th century, the number of scholars who visited Ganja increased.

Researcher I. Jafarzadeh in his book "Historical-archaeological essay of the city of Ganja" only talked about the medieval history of the city of Ganja and did not provide information about other monuments belonging to the area [7; p.16].

In the 12th century, the Eldegizs' position on the international scale was enhanced, leading to the expansion of the country's political, economic, and cultural relations. Ganja was considered a transit point of strategic importance.

The town of Ganja was safeguarded by the Shamkur and Akana fortresses. Zakariyya al-Qazwini includes the Kharak fortress among them. The most magnificent among them was the Shamkur fortress, which protected Ganja from the west. Fortified by the Arabs, this fortress was destroyed at the beginning of the 9th century, restored in 854, grew, and was considered a "flourishing city" ever since [10; p.305].

Ganja bridges, representing the construction culture of local artists, were constructed in the distant XI-XII centuries. Three multi-span bridges were built on the territory of the ancient city - over the Ganja river, which gave these places a special charm. Its foundations and certain fragments have reached our days. The researches confirmed that the bridges we talked about were used to create a connection between the sides of the riverside city, which has a two-part castle [8; p.16].

According to the geographer, traveler, and historian Yaqut al-Hamawi, one of the richest collections of books in Arabic and Persian languages was located in Ganja. Those who came here were busy reciting and copying the pages of books. Famous scientists participated in such libraries.

Yagut's information shows the condition of the cities of Azerbaijan before the Mongol campaigns and after the first Mongol attack and confirms that some of them (Ardebil, Beylagan, Ganja, etc.) were restored and beautified during the reign of Jalaluddin Mankbur [4; p.108].

Many prominent personalities have emerged from this city, including the creative genius Nizami Ganjavi, who was active in Ganja. Nizami proudly talked about the beauties of his homeland and in his "Treasure of Secrets" he called himself a skilled magician of words, he compared Ganja to Babylon, the land of magicians, and considered his works as Ganja's spiritual wealth in "Iskandername". The poet wrote down the damage caused by the earthquake in Ganja to the country and the people with great regret and heartache.

The analysis of his works reveals that the great poet and thinker took pride in the states of Atabays and Shirvanshahs, which were independent states of Azerbaijan during his time. He praised their rulers, offered valuable advice on state management when necessary, and created idealized portrayals of the rulers that he and his people aspired to see [1; p.49].

Zakariyya al-Qazvini especially mentions Ganja's location in the border region of the Muslim world, its strong fortifications, and the bravery of its inhabitants.

Many successes have been achieved in the field of artistic craftsmanship. Art ceramics, stone carving, iron, bronze, etc. It was used for decorative purposes during the Renaissance. We can show the patterns of the Ganja gate made by Ibrahim Osmanoglu in 1063.

Ganja is a city famous for pottery production, glass and metal processing, architecture, and other arts since ancient times. The excavated vessels indicate that in addition to household items, highly valuable colorful glazed vessels were also manufactured in Ganja.

Archaeological finds have uncovered glass cups, beads, rings, and bracelets, indicating the presence of glass processing in this location. Arran County was also famous for its metalworking. The presence of iron mines here encouraged the development of metal processing.

Silver dirhams, round and oval copper coins found during archaeological excavations proved the existence of a mint in Ganja for many generations.

The oldest branches of folk art developed in Ganja. Examples of these are weaving, butchering, blacksmithing, carpet weaving, and other arts. The findings obtained as a result of archaeological excavations conducted in Ganja and its surrounding areas show that agriculture and animal husbandry have developed in this region since long ago.

The primary artifacts found in the medieval monuments of Ganja and its surroundings include clay pots of various sizes and shapes, bronze flat axes, spears, bronze arrowheads, bronze buttons, fragments of bronze pots, a stone mace, pins, and beads made of glass, bone, and agate.

Pottery, an essential component of archaeological findings, garners attention due to its distinct shapes and patterns. It includes jugs of various sizes, large plates, large jugs, and pitchers. The common feature that unites pottery is, in most cases, the patterning of its surface based on a complex set of combinations.

Another unique characteristic of the jars from Ganja and its surroundings is the original pattern motifs. The predominant patterns consist of arched shapes and striated lines.

Between the 11th and 13th centuries, significant advancements were achieved in the crafting of household earthenware. The technique of preparing dishes evolves, improving quality and diversity.

In general, the majority of the grave monuments in Ganja and its surroundings are made of bronze metal objects. It includes weapons, work tools, household items, personal items, ornaments, etc. includes.

In the Middle Ages, masters in Ganja and its surroundings engraved their professions and names on material-cultural samples. The Ganja Gate, on which the name of the blacksmith Ibrahim is written, is one such example.

Written sources, archaeological materials, and research conducted by the author indicate that jewelry manufacturing in Ganja and its surrounding area was an important art form from ancient times. In the Middle Ages, products meeting the needs of the residents were produced.

During the Shaddadids, the city became a developed trade and craft center. Georgian ruler David IV captured Ganja, but the city later flourished, becoming a prosperous Eastern city.

In the 11th-13th centuries, like in other cities of the South Caucasus, Ganja and its surroundings experienced increasing fragmentation, leading to the formation of distinct specialties. Based on archaeological materials, written sources, and ethnographic data, it is clear that during this period in Azerbaijan, from blacksmithing - locksmithing, shoemaking, gunsmithing, coppersmithing - tinsmithing, tinsmithing - tannery, moneymaking, shoemaking, shoemaking, tailoring - hatmaking, weaving - dyeing, etc. professions are separated. Architects, bricklayers, sculptors, carpenters, carpenters, etc. in woodworking. Ethnographic data confirm the existence of superstitions [6; p-206].

In 1231, the Mongols who besieged the city of Ganja encountered strong resistance from the local population. However, in spite of all this, the invaders seized Ganja, annihilated the city, and subjected the local inhabitants to excruciating tortureThe restoration of Ganja did not begin until 1235, so the city was left unrestored for a long time [9].

Detailed and more accurate information about the city of Ganja can be found in researcher Arif Mammadov's "Ganjabasar in IV-XIII centuries (historical archaeological research)", "Historical archaeological research of Ganja and its surroundings (from the earliest times to the 19th century)", "Ancient Ganja (historical archaeological research) )" can also be obtained from the books "Goranboy in the Middle Ages" by Arif Mammadov and Asaf Maharramov.

## Ədəbiyyat

1. Əhmədli R.A. Azərbaycan dövlətçilik fəlsəfəsi Bakı:Təknur, 2009. - 380 səh.
2. Əhmədov Q.Onullahi S.Gəncə (tarixi oçerk) – Bakı: Elm, 1994, 152 səh.
3. Əliyeva N. Orta əsrlərdə Azərbaycan alimlərinin elmi əlaqələri və tədris fəaliyyəti, Bakı: "Turxan" NPB, 2015. 168 səh.
4. Əliyeva N.A. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində, Bakı: Çaşıoğlu, 1999, 244 səh.
5. Əkbər N.N. Səlcuqlu dövlətləri və atabəyləri tarixi (Oğuzların ortaya çıxmasından - XIV əsrə qədər). Bakı: Qanun, 2010, 55 səh.
6. Məmmədov A. Gəncə və onun ətrafının tarixi-arxeoloji tədqiqi (Ən qədim zamanlardan – XIX əsrə qədər), Gəncə: Elm, 2008. 297 səh.
7. Məmmədov A. Qoşqarçay və Kürəkçay hövzəsinin tarixi-arxeoloji tədqiqi, Bakı:Ağrıdağ;- 2000. 96 səh.

8. Məmmədov M. Gəncə abidələri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı; 2021. 232 səh.
9. Mövqe qəzeti, № 149 (2225) 25-26 avqust 2011-ci il.
10. Шикар аб-Дин Мухаммад ан –Насави «Жизнеописание султана Джалал-ад-Дин Манкбурны» Б. 1973.

# QARABAĞIN SİKKƏ DƏFİNƏLƏRİ

**Teymur Quliyev**
AMEA Arxeologiya və Antropologiya İnstitutu
seyfedini@yandex.com

***Açar sözlər:*** *sikkə dəfinələri, Qarabağ, iltizam, Elxanilər dövləti, Qarabag xanlıgı.*

*Y.A.Paxomovun "Azərbaycanın və Qafqazın digər respublikalarının, diyarlarının və vilayətlərinin dəfinələri" buraxılışlarında, eləcə də Qarabağın sikkə dəfinələrini öyrənən digər tədqiqatçıların əsərləri əsasında Qarabağın pul tədavülü və məskukat işi araşdırılmışdır. XII-XIII əsrlərdə Dağlıq Qarabağın ərazisi erməni feodallarının təsir dairəsində olmaması və Qarabağın ən erkən sikkəsinin 1240-1241-ci və 1242-1243-cü illərdə zərb edilmiş anonim monqol dirhəmlər olması müəyyən edilibdir. XIX əsrin əvvəllərindən, yəni Qafqazın Rusiya imperiyasının tərkibinə daxil edildiyi vaxtdan 1966-cı ilə qədər olan dövrü əhatə edən Y.A. Paxomovun sikkə dəfinələrinin buraxılışlarına əsaslansaq, belə bir dövrü isə «Azərbaycanın və Qafqazın digər respublikalarının, diyarlarının və vilayətlərinin dəfinələri» doqquz buraxılışı əhatə edir, birmənalı şəkildə demək olar ki, Qarabağda erməni feodallarının adından erməni dilində sikkələr heç vaxt zərb edilməyib. Qarabağda aşkar edilən sikkə dəfinələrinin tərkibi Qarabağın pul tədavülünün Azərbaycanın, İranın və Türkiyənin müsəlman feodal dövlətlərinin pul tədavülünə daxil olduğunu göstərir.*

## МОНЕТНЫЕ КЛАДЫ КАРАБАХА

**Теймур Кулиев**

***Ключевые слова:*** *монетные клады, Карабах, откуп, государство Хулагуидов, Карабахское ханство.*

*В статье на основе выпусков Е.А. Пахомова «Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа», а также трудов других исследователей, изучавших монетные клады Карабаха, рассматривается денежное обращение и монетное дело в Нагорном Карабахе. Установлено, что в XII–XIII вв. территория Карабаха не находилась в сфере влияния армянских феодалов и наиболее ранней монетой Карабаха является анонимные монгольские дирхамы Карабаха, чеканенные в 1240-1241 гг. и 1242-1243 гг. Если исходить из выпусков монетных кладов Е.А. Пахомова, охватывающий период с начала XIX в.,*

*т.е. с момента включения Кавказа в состав Российской империи и до 1966 г., а такой период охватывают девять выпусков «Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа», то, можно однозначно утверждать, что от имени армянских феодалов в городах Кавказа, в том числе и в Карабахе, монеты на армянском языке никогда не бились. Автор указывает, что состав монетных кладов, обнаруженных в Карабахе, свидетельствует, что денежное обращение Карабаха входило в орбиту денежного обращения мусульманских феодальных государств Азербайджана, Ирана и Турции.*

## COIN TREASURES OF KARABAKH

**Teymur Kuliyev**

***Keywords:*** *coin hoards (treasures), Karabakh, tax-farming, Ilkhanate, Karabakh Khanate.*

*The article, based on E.A. Pakhomov's issues of «Coin treasures of Azerbaijan and other republics, lands and regions of the Caucasus», as well as the works of other researchers who studied the coin treasures of Karabakh, examines monetary circulation and coinage in Nagorno-Karabakh. It is established that in the XII–XIII centuries the territory of Karabakh was not in the sphere of influence of the Armenian feudal lords and the earliest coin of Karabakh is the anonymous Mongolian dirhams of Karabakh, minted in 1240-1241 and 1242-1243. If we proceed from the issues of Yevgeni Pakhomov's coin hoards, covering the period from the beginning of the XIX century, i.e. from the moment the Caucasus was incorporated into the Russian Empire until 1966, and such a period covers nine issues of "Coin Hoards of Azerbaijan and other republics, territories and regions of the Caucasus", then it can be unequivocally stated that from Coins in the Armenian language have never been beaten on behalf of the Armenian feudal lords in the cities of the Caucasus, including in Karabakh. The author points out that the composition of the coin hoards discovered in Karabakh indicates that the monetary circulation of Karabakh was part of the monetary orbit of the Muslim feudal states of Azerbaijan, Iran and Turkey.*

Azərbaycan Respublikasının ən qədim bölgələrindən biri Qarabağdır. İ.H. Əliyevin qeyd etdiyi kimi, Qarabağın tarixi öz kökləri ilə dərin qədimlərə gedib çıxır. Kür və Araz çayarasındakı ərazi sivilizasiyanın ən qədim ocaqlarından biridir [3, s. 5]. Qarabağdakı arxeoloji qazıntılar nəticəsində, o cümlədən Dovşanlı, Kərkicahan kəndləri yaxınlıgındakı kurqanlarda sikkəyə qədər ibtidai pullar aşkar edilmişdir, onlara “kauri” (Cypraea moneta)

balıqqulagları və müxtəlif çəkidə olan və naxışsız tunc qolbaqları aid etmək olar. Sikkəyə qədər ibtidai pulların Qarabağda tapılması bu bölgədə əmtəə-pul munasibətlərin inkişafının hələ ibtidai-icma dövrdən sübüt edir. Azərbaycanın beynəlxalq ticarət yolların kəsişməsində yerləşməsi, sənətkarlıqın və ticarətin inkişafı bu diyarda əmtəə-pul münasibətlərinin inkişafına təkan vermişdir ki, bu da külli miqdarda sikkə dəfinələrində və vahid sikkə tapıntılarında öz əksini tapıbdir. Y.A. Paxomovun "Azərbaycanın və Qafqazın digər respublikalarının, diyarlarının və vilayətlərinin dəfinələri" doqquz buraxılışında Azərbaycan SSR-ın Dağlıq Qarabağ Muxtar Vilayətinin, eləcə də ona bitişik rayonların ərazisində tapılmış sikkə dəfinələrinin ətraflı təsviri verilir (58,74,90,164,181,216, 228, 386,391, 446,448, 524,534-535,578,1039, 1075, 1101, 1150, 1208, 1224, 1251, 1288, 1496, 1764, 2019 saylı dəfinələr).[1] M.Ə. Seyfəddini 1983-cü ildə Azərbaycan SSR Laçın rayonunun Əhmədli kəndində aşkar edilmiş 271 nüsxədən ibarət Səfəvilərin gümüş sikkələr dəfinəsinin təsvirini verib [17, s. 79-85].

A.V. Akopyan hesab edir ki, o Qarabağın ən erkən sikkəsini tədqiq edmişdir [19, s. 6-11], bu sonuncu Şəddadilər adından zərb edilmiş billon dirhəmdir, bu dirhəm daha əvvəl V.S. Kuleşov tərəfindən araşdırılmışdır [9, s. 203-212], əgər V.S. Kuleşov billon dirhəmin sonuncu Şəddadilərə aid edirsə [9, s. 210] və göstərir ki, billon dirhəmə zərb məlumatları düşməyib [9, s. 211], A.V. Akopyanın fikrincə, bu dirhəm Arranşahiklərin evindən olan knyaz Saxl ibn Smbat tərəfindən kəsilə bilərdi [19, s. 7], lakin, erməni knyazı tərəfindən Qurani-Kərimdən kəlamlar ilə dirhəm kəsilməsi şübhə doğurur. A.V. Akopyan eləcə də 1240-1241-ci və 1242-1243-cü illərdə zərb edilmiş Qarabağın bir neçə anonim monqol dirhəmi [9, s. 8], o cümlədən onlardan biri 1244-1245-ci illərdə Laçında zərb edilmişdir, A.V. Akopyan bu dirhəmin Havkaxathatsberd erməni qəsrində zərb edilməsini müəyyən edir, lakin, Laçında zərb edilmiş bu monqol sikkənin daha əvvəl M.Ə. Seyfeddini araşdırmışdı [15, s. 164 ], beləliklə, Qarabağın ən erkən sikkəsi 1240-1241-ci və 1242-1243-cü illərdə zərb edilmiş anonim monqol dirhəmləridir.

L.O. Babayan iddia edir ki, XIII əsrin əvvəlində monqol hücumu ərəfəsində, Ermənistanın şimal, şərq və mərkəzi rayonlarında,- Sünikdə, Artsaxda, Utikdə, Gugarkda və Ayraratda- Gürcüstanın ali hakimiyyəti və onun himayəsi altında Zaxaridlərin başçılığı ilə muxtar Ermənistan dövləti yaradılmışdır [4, s. 30]. Lakin, İ.L. Calaganiya Ermənistanın həmin hissələrində gürcü sikkələrinin geniş yayıldığını qeyd edir [5, s. 31]. X.A. Muşegyan da göstərir ki, XII əsrin sonlarından və xüsusilə XIII əsrin əvvəllərində Gürcüstan sikkələrinin dövriyyə arealının genişlənməsi müşahidə olunur. Gürcü

[1] Burada və daha sonra Y.A. Paxomovun "Azərbaycanın və Qafqazın digər respublikalarının, diyarlarının və vilayətlərinin dəfinələri" (1926-1966 illər), 1-9 buraxılışlar üzrə nömrələnmişdir.

sikkələrinin tapıntıları Ermənistanın şimal-şərq hissələrində kütləvi hal daşıyır [12, s. 259]. Y.A. Paxomovun tərtib etdiyi doqquz buraxılışda Ermənistan SSR ərazisində tapılmış gürcü sikkələrinin təsviri verilir,- № 116, 838, 1986, 1993 saylı dəfinələr. Halbuki, Qarabağ ərazisində, Y.A. Paxomovun doqquz buraxılışına əsasən, Gürcüstan çarları adından zərb olunan sikkələr tapılmamışdır, deməli, XII-XIII əsrlərdə Qarabağın ərazisi erməni feodallarının təsir dairəsində deyildi.

Y.A. Paxomovun buraxılışlarına əsasən, Dağlıq Qarabağın ərazisində Hülakülər adından zərb olunmuş sikkələr də tapılıb (446,448,1150 saylı dəfinələr). M.Ə. Seyfəddini elxani Ənuşirvan xanı adından kəsilmiş Qarabağ dirhəminin təsvirini etmişdir. M.Ə. Seyfəddininin məlumatlarına əsasən, bu növ sikkələr Bərdədə, Anidə, Naxçıvanda, Həmədanda, Xoyda, Tbilisidə, Qəzvində və Biləsuvarda zərb edilirdi [16, s. 69]. A.V. Akopyan iddia edir ki, Elxanilər dövlətində mərkəzi hakimiyyətin zəifləməsi erməni knyazlarının (işxanların) öz torpaqlarında ümumelxani tipli sikkələrinin zərb edilməsinə səbəb olub. O cumlədən, Qarabağ sikkələri, A.V. Akopyanın fikrincə, Xaçen knyazlığında zərb edilirdi, Xoxanaberd qalasında elxani Ənuşirvanın adindan knyaz İvane II Hasan-Calalyan tərəfindən zərb edilirdi [2, s. 138]. A. Vardanyan və Q. Marqaryan hesab edirlər ki, "Qarabağ" adı ilə 748 və 750-ci hicri illərədə zərb edilən dirhəmlər, çox güman ki, Malik Əşrəfin müstəsna hüququ olubdur, lakin, monqolları öz hökmdarları kimi qəbul edən yerli erməni əyanları tərəfindəndə də "Qarabağ" dirhəmlərin zərbi həmçinin nəzarət oluna bilərdi [23, s. 159]. Lakin, Elxanilər sikkələrinin kəsilməsindən əvvəl Azərbaycanın və Gürcüstanın feodal dövlətləri tərəfindən sikkələr sərbəst şəkildə kəsilmişdi. Azərbaycanın və Gürcüstanın feodal dövlətlərində, monqol işğalı ərəfəsində yerli hökmdarların (Şirvanşahların, Gürcü çarlarının) adları göstərilməklə sikkələr kəsilirdi. Ə.M. Rəcəbli Şirvanşahlar dövlətində VIII əsrdən, monqol yürüşünə qədər, zərb edilən sikkələrin təsvirini verir [14, s. 114]. O göstərir ki, hətta Elxanilər dövləti yarandıqdan sonra da Şirvanşahlar öz sikkələrinin zərbini davam etdirirdilər [14, s. 135]. D.Q. Kapanadze XII-XIII əsrlərdə Gürcüstanda zərb edilmiş monqolardan əvvəl sikkələrinin təsvirini verib. Gürcüstanda monqolların işğalından sonra da gürcü sikkələri zərb edilirdi [7, s. 60]. A.V. Akopyanın sadaladıgı erməni knyazlalıqlarına gəldikdə, gürcü tarixçilərinin erməni knyazlalıqlarin müstəqil olması barədə münasibətini göstərmək olar, gürcü tarixçilərinin fikrincə, heç bir erməni knayzlıqı Gürcüstanin XII-XIII əsrlərdə tərkibində olan zamanı heç olmasa daxili işlərdə belə tam müstəqil deyildi, o dövrün erməni müəlliflərinin əsərlərində heç bir yerdə Gürcüstandan ayrı erməni knyazliqların suverenliyinin mövcudluguna rast gəlinmir. G. Maysuradzeyə görə, “Gürcüstanin tərkibinə qoşulmaqla erməni vilayətləri Gürcüstanin sərhədyanı ərazi oldugu üçün mərkəzi hakimiyyətdən daha asılı idi” [10, s. 282-283]. Qafqaza monqol hücumundan əvvəl erməni feodalları tərəfindən erməni dilində zərb

edilən sikkələrin olmamaqla yanaşı, Elxanilər dövlətinin zəiflədiyi bir şəraitdə erməni feodalları tərəfindən Elxanilər sikkələrinin kəsilməsi, Monqol dövlətinin, sonra isə Elxanilər dövlətlətinin vergi siyasəti səbəbindən də mümkün deyildi, çünki Elxanilər dövləti vergilərlə təkçə kəndliləri və sənətkarları deyil, həm də yerli feodalları müflis edirdilər. Kirakos Qandzaketsi monqol feodallarının vurduğu fəlakətlər barədə, "şəhərlərini və vilayətlərini satmış və girov qoyan, sıxıştırılmış və əzilmiş" vilayətlərin hökmdarları (yerli feodallar) haqqında məlumat verirdi [8, s. 234]. Qeyd etmək lazımdır ki, Kirakos Qanzdaketsinin bu məlumatları Hülakülər hakimiyyətinin ilk dövrünə aiddir, halbuki sonrakı elxanların hakimiyyəti dövründə yerli feodalların vəziyyəti daha da pisləşib ki, bu da müasir erməni tarixçiləri tərəfindən təsdiq edilir. L.O. Babayan göstərir ki, monqolların siyasətinin tərkib hissəsi yerli feodalların iqtisadi qüdrətinin şüurlu surətdə zəifləməsi olmuşdur [4, s. 286]. M.K. Zulalyan XIII-XV əsrlərdə erməni feodal əyanlarının kütləvi surətdə məhv edildiyinən yazır [6, s. 3]. Təbii ki, bu cür şəraitdə erməni feodalları tərəfindən elxani Hülakülər adından sikkə zərb edilməsi mümkün deyildi, buna görə də A.V. Akopyanın erməni feodalları tərəfindən elxanilərin adından sikkələrin zərb edilməsi inandırıcı səslənmir.

Qarabağ ərazisində tapılan sikkə dəfinələri arasında Pənahabadda-Şuşada zərb olunan sikkələrdə var (1251,1288,1496 saylı dəfinələr). E.A. Sinitsina geyid erdir ki, Qarabağ xanlığının müstəqil mövcudluğunun ilk illərində sikkə buraxılışı haqqında heç bir məlumat yoxdur, öz mövqeyini möhkəmlətmək uğrunda mübarizə Pənahəli xana imkan vermirdi daxili işlərlə məşğul olmaq [18, s. 50]. A.V. Akopyan və P.N. Petrov hesab edirlər ki, Qarabağ xanlığında sikkələrin gec kəsilməsinin səbəbini Pənahabadın-Şuşanın "məliklərdən Pənahəli xanın yeganə müttəfiqi olan Varand məliki Şahnazarın ərazisində yerləşməsi idi" [1, s. 34]. Beləliklə, A.V. Akopyan və P.N. Petrov Qarabağ xanlığında vəziyyəti belə təqdim edirlər ki, sanki xan Pənahəli Qarabağın məliklərindən asılı idi. Lakin, Mirzə-Adıgözəl-bəy, hansına kı A.V. Akopyan və P.N. Petrov istinad edirlər, qeyd edir ki, Əli-Qulu-şah tərəfindən Pənahəli bəyə xan adı verildikdən sonra [11, s. 52], Pənahəli xan Otuziki və Cavanşir tayfaları ilə, eləcə də Qarabağın bəzi məlikləri ilə mübarizə aparmalı oldu, çünki onlar, Şəki xanın təhriki ilə, Qarabağ xanına tabe olmaqdan imtina edirdilər. Mirzə-Adıgözəl-bəy «Qarabağ-namə»də ətraflı təsvir edibdir Pənahəli xan tərəfindən ona tabe olmaqdan imtina edən Qarabağın xana xoşagəlməyən bəzi məlikləri üzərində divan tutmasını [11, s. 58-60], lakin, eyni zamanda, "öz sədaqətinə və rəğbətinə görə" Məlik-Mirzə-xana Qarabağ xanı adından sikkə kəsmək hüququ verilməsini də qeyd edib [11, s. 57], beləliklə, Mirzə-Adıgözəl-bəy Məlik-Mirzə-xanın Pənahəli xanından asılı olduğunu göstərir, cünki Məlik-Mirzə-xan Pənahəli xanından iltizam hüququnu almışdır. İltizam yalnız Avropa ölkələrində deyil, həm də müsəlman Şərq ölkələrində də geniş yayılmışdı. Sovet

Tarixi Ensiklopediyanın məlumatına görə, İranda iltizam yalnız yerin təkinin və ayrı-ayrı əyalətlərin istismarına deyil, həm də zərbxanalarada yayılırdı [13, s. 688]. Hökmdara xidmət göstərdiyinə görə hökmdardan asılı olan təbəə iltizam hüququnu ala bilərdi, yəni təbəəyə dövlətin müəyyən ərazisindən vergi toplamaq hüququ verilə bilərdi. Əgər Qarabağ məliki gəlir əldə etmək üçün Qarabağ xanından sikkə kəsdirmək hüququnu almışdısa, bu, məlikin asılı vəziyyətini göstərir, çünki sikkə kəsilməsindən gəlir əldə etmək hüququnu məlik müstəqil yox, xanın adından həyata keçirirdi, ona görə də xan Pənahəli adından zərbdən gəlir əldə etmək, çətin ki, A.V. Akopyan və P.N. Petrov iddia etdiyi kimi, məlik Şahnazarın vəfatı ilə bağlı olsun. Çox güman ki, bu, İrandakı siyasi vəziyyət ilə bağlı idi. Şübhəsiz ki, öz mövqeyini möhkəmləndirilməsi uğrunda mübarizədə Pənahəli xan bəzi məliklərin dəstəyinə arxalanmalı idi, lakin Pənahəli xanı üçün həlledici əhəmiyyət Qarabağ məliklərinin dəstəyi deyil, Irandakı siyasi vəziyyət idi. İranda siyasi vəziyyət yalnız Azərbaycanda deyil, həm də ümumiyyətlə Qafqazda vəziyyətədə təsir edirdi. XIX əsrin əvvəllərinə qədər Qafqaz İranın maraq dairəsində idi, ona görə də A.V. Akopyanın və P.N. Petrovun fikirləri inandırıcı görünmür.

Bundan başqa, əgər XIX əsrin əvvəllərindən, yəni Qafqazın Rusiya imperiyasının tərkibinə daxil edildiyi vaxtdan 1966-cı ilə qədər olan dövrü əhatə edən Y.A. Paxomovun sikkə dəfinələrinin buraxılışlarına əsaslansaq, belə bir dövrü isə «Azərbaycanın və Qafqazın digər respublikalarının, diyarlarının və vilayətlərinin dəfinələri» doqquz buraxılışı əhatə edir, birmənalı şəkildə demək olar ki, Qarabağda erməni feodallarının adından erməni dilində sikkələr heç vaxt zərb edilməyib. Ş-V. Langlua [21], P. Bedukyan [20] və D. Rakser [22] tərəfindən təsviri verilmiş qədim və orta əsrlərə aid erməni sikkələri əsasən Kiçik Asiya (Anadolu) şəhərlərindəki yerləşən zərbxanalarda kəsilirdi. Qarabağda aşkar olunmuş dəfinələrin tərkibi göstərir ki, Qarabağın pul tədavülü Azərbaycanın, İranın və Türkiyənin müsəlman feodal dövlətlərinin pul tədavülü hədəqəsinə daxilidir (90, 164, 181, 216, 228, 386, 391, 446, 448, 524, 534-535, 1075, 1101, 1150, 1208,1496, 2019 saylı dəfinələr). Azərbaycanın digər vilayətlərində olduğu kimi, Qarabağda da aşkar edilmiş Bizans qızıl sikkələrinə gəldikdə isə (1764), onların Qarabağda tapılması Şərqin əksər ölkələrini əhatə edən və gümüş sikkələrin çatışmazlığı ilə müşayiət olunan "gümüş böhran" ilə bağlı idi ki, bu da pul dövriyyəsində qızıl Bizans sikkələrindən istifadə olunmasına gətirib çıxarırdı.

## Ədəbiyyat


1. Акопян А.В., Петров П.Н. Этапы монетного обращения и денежная политика в Карабахском ханстве (1747-1822 гг.) в связи с российским влиянием / Нумизматические чтения Государственного Исторического Музея 2014 года. Ред. Ширяков И.В. Москва: Отдел нумизматики Государственного Исторического Музея, 2014. сс. 33-38.
2. Акопян А.В. Ильханы и ишханы. Монеты армянских княжеств периода заката Хулагуидского государства (737-759 гг. х. / 1336-1358). // Нумизматика и эпиграфика. Выпуск XIX. Москва: Памятники исторической мысли, 2015. сс. 122-169.
3. Алиев И.Г. Нагорный Карабах: история, факты, события. Баку. 1989. Элм, 1989.103 с.
4. Бабаян Л.О. Социально-экономическая и политическая история Армении в XIII-XIV вв. М., Наука, 1969. 336 с.
5. Джалагания И.Л. Монетное дело и денежное обращение Грузии V-XIII вв. Автореферат диссертации... доктора исторических наук. Москва., 1981. 54 с.
6. Зулалян М.К. Армения в первой половине XVI в. М., Наука, 1971. 126 с.
7. Капанадзе Д.Г. Грузинская нумизматика. Москва: Академия Наук СССР, 1955 г. 186 с.
8. Киракос Гандзакеци История Армении. Перевод с армянского Ханларяна Л.А. Москва: Наука, 1976 г. 357 с.
9. Кулешов В.С. Вновь выявленные монеты правителей Восточного Закавказья XI века в собрании Эрмитажа / Сообщения Государственного Эрмитажа. Выпуск LXXII. Санкт-Петербург: Государственный Эрмитаж: 2014. сс. 203-212.
10. Майсурадзе Г. О статусе Армении в составе Грузинской средневековой централизованной монархии / Некоторые вопросы истории Грузии в армянской историографии. Сборник статей. Под ред. Д. Мусхелишвили. Тбилиси: Комиссия по истории, археологии и этнологии Национальной Академии Наук Грузии, 2009. сс. 244-287.
11. Мирза-Адигезаль-бек Карабаг-наме. Предисловие В.Н. Левиатова Баку: Академия Наук Азербайджанской ССР, 1950. 160 с.
12. Мушегян Х.А. Денежное обращение Армении (V в. до н.э.–XIV в. н.э.). На арм. яз. Резюме на русском яз. Ереван: Академия Наук Армянской ССР, , 1983. 352 с.
13. Откуп / Советская Историческая Энциклопедия. Т. 10. Москва: Советская Энциклопедия, 1967 г.1038 с.

14. Раджабли А. Монетная чеканка в государстве Ширваншахов (VIII-XVI вв.). Баку: Elm və təhsil, 2015. 240 с.
15. Сейфеддини М.А. Монетное дело и денежное обращение в Азербайджане XII-XV вв. Книга I. Баку: Элм, 1978 г. 264 с.
16. Сейфеддини М.А. Монетное дело и денежное обращение в Азербайджане XII-XV вв. Книга II. Баку: Элм, 1981 г. 243 с.
17. Сейфеддини М.А. Средневековые монетные клады Азербайджана (1968-1983 гг.). Баку: Элм, 1994. 196 с.
18. Синицина Е.А. Денежное обращение Азербайджана (Гянджинского, Карабахского, Шемахинского, Шекинского, Бакинского, Дербендского и Кубинского ханств) во второй половине XVIII-первой четверти XIX в. Диссертация…кандидата исторических наук. Баку: 1992. 214 с.
19. Alexander V. Akopyan On the earliest coins of Khachen (Qarabagh) // Journal of the Oriental Numismatic Society № 222 (winter 2015) pp. 6-11.
20. Bedoukian P.Z. Coinage of the Artaxiads of Armenia. London: Royal Numismatic Society, 1978. 81 p.
21. Langlois V. Numismatique générale de l'Arménie. Paris; Londres: C. Rollin et al., 1859. 265 p.
22. Ruckser D. Cilician Armenia 1830-1375 A.D. 21 P.- URL: www.academia.edu/30495375/CILICIAN_ARMENIA.pdf
23. Vardanyan A., Margaryan G. Some remarks on the history of Qarabagh in the late mongol period (XIVth-XVth centuries) // Revue des Etudes Armeniennes, vol. 37, pp. 155 – 172.

# ŞUŞA ŞƏHƏRİNİN TARİXİ COĞRAFİYASININ BƏZİ MƏSƏLƏLƏRİ (XX ƏSRİN 20-90-CI İLLƏRİNDƏ)

**Suqra Orucova**
Bakı Dövlət Universiteti
sugrau@mail.ru

***Açar sözlər:*** *Azərbaycan, Qarabağ, Şuşa, Heydər Əliyev, tarixi coğrafiya*

*Şuşa Azərbaycanın tarixi coğrafiyasında və ictimai-siyasi həyatında hər zaman vacib rol oynayıb, onun əhəmiyyətini tanınmış insanlar bəyan ediblər. "Şuşa təkcə Şuşa sakinləri üçün deyil, bütün azərbaycanlılar, Vətənini və xalqını sevən hər bir vətəndaş üçün Şuşa əziz şəhərdir, əziz torpaqdır, əziz qəsrdir, əziz abidədir". Azərbaycanın ümummilli lideri Heydər Əliyevin bu sözləri bizə Şuşanın əhəmiyyətini anlamağa kömək edir. Məqalədə Qarabağın tarixi, xüsusilə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri haqqında məlumatlar yer almışdır. Bu mövzunun seçilməsi Şuşa şəhərinin əhəmiyyəti ilə bağlıdır. Əsas fərqləndirici xüsusiyyət tarixi coğrafiya tərəfindən öyrənilməsidir ki, bu da işi aktual edir. Məqalədə müqayisəli metoddan istifadə edilmişdir. Şuşa coğrafi mövqeyinə və Azərbaycanın ən böyük mədəni, iqtisadi və inzibati mərkəzlərindən biri kimi tarixi əhəmiyyətinə görə Qarabağ regionunda əsas şəhərdir. Şuşa təkcə Azərbaycanın deyil, bütün Qafqazın incisi olmaqla mədəniyyətimizin beşiyidir. Azərbaycan hökuməti bölgənin qədim tarixinin bütün izlərinin və irsinin qorunmasına böyük diqqət yetirmişdir və yetirir.*

## О НЕКОТОРЫХ ВОПРОСАХ ИСТОРИЧЕСКОЙ ГЕОГРАФИИ ГОРОДА ШУША (В 20-90-Х ГОДАХ ХХ ВЕКА)

**Сугра Оруджова**

***Ключевые слова:*** *Азербайджан, Карабах, Шуша, Гейдар Алиев, историческая география*

*Шуша всегда была колыбелью в исторической географии и общественно-политической жизни Азербайджана, ее значение заявляли известные люди. "Шуша не только для жителей Шуши, но и для всех азербайджанцев, каждого гражданина, любящего свою Родину и свой народ, Шуша-дорогой город, дорогая земля, дорогой замок, дорогой памятник". Эти слова общенационального лидера Азербайджана Гейдара Алиева помогают нам понять значение Шуши. В артикле содержится*

*информация об истории Карабаха, особенно о городе Шуша, культурной столицы Азербайджана. Выбор этой темы связан со значимостью города Шуша. Главной отличительной чертой является ее исследование со стороны исторической географии, что делает работу актуальной. В работе использован сравнительный метод. Шуша является ключевым городом в Карабахском регионе благодаря своему географическому положению и историческому значению как одного из крупнейших культурных, экономических и административных центров Азербайджана. Потому что Шуша, будучи жемчужина не только Азербайджана, но и всего Кавказа, является колыбелью нашей культуры. Правительство Азербайджана уделяло и уделяет большое внимание сохранению всех следов и наследий древней истории региона.*

## ON SOME ISSUES OF THE HISTORICAL GEOGRAPHY OF THE CITY OF SHUSHA (IN THE 20-90S OF THE XX CENTURY)

**Sugra Orujova**

**Key words:** Azerbaijan, Karabakh, Shusha, Heydar Aliyev, the historical geography

Shusha has always been the cradle of the historical geography and socio-political life of Azerbaijan, and famous people have declared its importance. "Shusha is not only for the residents of Shusha, but also for all Azerbaijanis, for every citizen who loves his Homeland and his people, Shusha is an expensive city, expensive land, expensive castle, expensive monument." These words of Azerbaijan's national leader Heydar Aliyev help us understand the importance of Shusha. The article provides information about the history of Karabakh, in particular about the cultural capital of Azerbaijan, the city of Shusha. The choice of this topic is related to the importance of the city of Shusha. The main distinguishing feature is that it is studied by historial geographical side, which makes the work relevant. The comparative method was used in the work. Shusha is the main city of the Karabakh region due to its geographical location and historical significance as one of the largest cultural, economic and administrative centers of Azerbaijan. Because Shusha is the cradle of our culture, the pearl not only of Azerbaijan, but also of the entire Caucasus. The Government of Azerbaijan has paid and pays great attention to preserving all traces of the ancient history and heritage of the region.

Araşdırılan məqalə Şuşa şəhərinin tarixi coğrafiyasına həsr olunmuşdur. Qeyd edək ki, Şuşa şəhəri hər bir azərbaycanlı üçün doğma və müqəddəsdir harada yaşamasından asılı olmayaraq. Şuşa Bakıdan 373 km, Xankəndidən 11 km, dəniz səviyyəsindən 1400 m yüksəklikdə, üç tərəfdən dik qayalarla əhatə olunmuş dağ yaylasında yerləşir. Şuşa şəhəri zəngin və şanlı tarixə malikdir, ərazisi 289 kvadrat kilometrdir. Qarabağ xanlığının yaranması, Şuşa şəhərinin yaranması, Azərbaycanın onun tarixinin başlanması demək idi [2, s. 45]. Qarabağ xanlığı 1747-ci ildə Pənahəli xan Cavanşir tərəfindən təsis edilmişdir və Pənah Əli xan Şuşanı Qala-şəhərə çevirmişdir. Pənahəli xan Cavanşir Şuşa şəhərini və qalasını yaradıb; bu, Azərbaycan xalqının və əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük tarixi abidədir [4, s. 34]. Bu şəhərdə onun ətrafında çoxəsrlik tarixə malik Azərbaycan xalqının böyük mədəniyyəti, mədəni irsi və qəhrəmanlıq nümunələri yaradılmışdır. Şəhər bir müddət Pənah Əli xanın şərəfinə Pənahabad, sonra isə Şuşa qalası və Şuşa adlandırılmışdır. [1, s. 98].

Yazılan məqalədə Şuşa şəhəri XX-ci əsrin 20-90-cı illərində araşdırılmışdır. İş yazılan zaman müxtəlif dillərdə müxtəlif mənbələrdən istifadə edilmişdir.

Hər bir ölkənin tarixi coğrafiyası onun inkişafı üçün önəm daşıyır. Tarixi coğrafiya bir elm olaraq tarix və coğrafiyanın qovşağında yaradılmışdır. Qeyd etmək lazımdır ki, tarixçilər coğrafiyaşünaslardan üstünlüyə malikdirlər, çünki geniş faktiki materiallara sahib olub və tarixi hadisələri coğrafi mühitin xüsusiyyəti ilə əlaqələndirə bilirlər [9, 224]. İlk öncə tarixi coğrafiya elmi barəsində məlumat vermək yerinə düşərdi. Tarixi coğrafiya elmi müəyyən tarixi dövrdə bu və ya digər ərazinin, ölkənin tarixi və coğrafi vəziyyətini öyrənir. Tarixi coğrafiya bizim tarixi anlayışlarımızı xronoloji baxımdan konkretləşdirir və onları müəyyən ərazilərlə əlaqələndirir. Buna görə də, tarixi coğrafiya bu və ya başqa ölkənin tarixinin müxtəlif inkişaf dövrlərindəki fiziki, iqtisadi, siyasi coğrafiyasının xarakteristikasını açıqlayır [6, s. 5].

Şuşanın tarixi coğrafiyası haqqında məlumat vermədən öncə ümumilikdə Azərbaycanda olan vəziyyət barəsində məlumat vermək daha doğru olardı. İlk növbədə qeyd etmək lazımdır ki, Azərbaycan SSR 28 aprel 1920-ci ildə yaradılıb. 1922-1936-cı illərdə Zaqafqaziya Federasiyasının bir hissəsi idi və 5 dekabr 1936-cı ildən Sovet Sosialist Respublikaları İttifaqına daxil oldu [8, s. 3]. Bu dövrdən başlayaraq 1991-ci ilə qədər Şuşa şəhərinin tarixində mühüm hadisələr baş vermişdir, bu da məlum olduğu kimi tarixi coğrafiyaya təsir etmişdir. Sovet hakimiyyətinin qurulması nəticəsində Azərbaycanda Qarabağın, o cümlədən Şuşanın faciəli günləri başladı. Sovet rəhbərliyinin himayəsi altında Qarabağda məsul vəzifələr tutan ermənilər bu dəfə öz siyasətlərini həyata keçirmiş, regionun azərbaycanlı əhalisinə qarşı repressiyalar, soyqırım və deportasiya siyasəti aparmışlar [2, s. 48].

1920-1922-ci illərdə Şuşanın yüzlərlə azərbaycanlı sakini ermənilərin günahı üzündən həbs edilmiş, güllələnib və təqiblərə məruz qalmışdır. Ziyalılar da daxil olmaqla şəhərin bir çox məşhur insanları açıq şəkildə güllələnmişdir. Bir çox azərbaycanlı ailə doğma Şuşanı tərk edərək İran və Türkiyəyə qaçmağa məcbur olub. Qeyd etmək lazımdır ki, araşdırılan zaman nəticəyə gəlindi ki, 1920-1922-ci illərin hadisələri Şuşa şəhərinin demoqrafiyasına mənfi təsir etmişdir. Sovet-bolşevik rejimi dövründə Şuşanın inzibati statusu bir neçə dəfə dəyişilmişdir. RKP (B) Mərkəzi Komitəsinin Qafqaz Bürosu Plenumunun 5 iyul 1921-ci il tarixli Qərarı ilə Şuşa yeni qurulan Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) mərkəzi kimi təyin edildi. (10 noyabr 2020-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində Dağlıq Qarabağın statusunun ləğv olunduğunu bildirdi. Beləliklə, hazırda" Dağlıq Qarabağ" termini siyasi-coğrafi termin kimi istifadə edilmir).

Lakin 7 İyul 1923-cü ildə plenumda Şuşa deyil, Xankəndi Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) mərkəzi seçildi. Kremldəki erməni separatçıları və ermənipərəst qüvvələr Şuşadan Azərbaycana qarşı planlarının həyata keçirilməsinin asan olmayacağını anlayaraq bu addımı atdılar. Bundan sonra AKP (B) Mərkəzi Komitəsinin Rəyasət Heyətinin 16 iyul 1923-cü il tarixli Qərarı ilə Moskvanın göstərişi ilə Şuşa şəhəri Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə daxil edildi. Şəhər eyni adlı rayonun mərkəzinə çevrildi [5, s. 59]. Beləliklə, Şuşa öz ənənəvi tarixi statusundan - bütün Qarabağın inzibati mərkəzi statusundan məhrum edildi. İnzibati mərkəz statusundan məhrum edilməsi Şuşanın gələcəyinə ciddi təsir etmişdir. Araşdırmalar nəticəsində məlum oldu ki, respublika rəhbərliyinin laqeydliyi və bölgənin erməni rəhbərliyinin separatçı fəaliyyəti, şəhər sürətlə tənəzzülə uğramağa başladı. Uzun müddət burada abadlıq-quruculuq işləri aparılmayıb. Əksinə, Azərbaycan xalqının bir çox tarixi və memarlıq abidələri vəhşicəsinə məhv edilmişdir. Bütün bunları bu dövrdə çəkilən müxtəlif fotoşəkillərdən istifadə etməklə görmək olar. İbrahim Xəlil xanın inşa etdiyi unikal memarlıq kompleksi qismən söküldü [10, s. 56].

Azərbaycan memarlığının inciləri olan Şuşanın tarixi və memarlıq abidələrinin dağıdılması sonrakı illərdə də davam etmişdir. İkinci Dünya müharibəsi başa çatdıqdan sonra Ermənistan rəhbərliyi vəziyyətdən istifadə edərək Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məsələsini yenidən qaldırdı. Bu münasibətlə Ermənistan MK-nın birinci katibi Qriqori Arutinov Moskvaya məktub göndərib. 28 noyabr 1945-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi Georgi Malenkov Mir Cəfər Bağırova müraciət edərək ermənilərin Dağlıq Qarabağı Ermənistana birləşdirməsini tələb etdi. 10 dekabr 1945-ci il M. Bağırov cavab verib ki, O, Şuşa istisna olmaqla, Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsinə etiraz etmir, bir şərtlə ki, Ermənistan SSR-in Azərbaycan

Respublikasına bitişik və əsasən azərbaycanlılar yaşayan Əzizbəyov, Vedi və Qarabağlar rayonlarının Azərbaycan SSR-in tərkibinə daxil edilməsi məsələsinə baxılsın. Üstəlik, əsasən azərbaycanlıların yaşadığı Şuşa panoraması Gürcüstanın Borçalı rayonu, Dağıstan Muxtar Respublikasının Dərbənd və Qasımkənd rayonları Azərbaycana qaytarılsın. Bundan sonra məsələ bağlandı. DQMV-nin erməni rəhbərliyi Şuşanın simasını dəyişmək üçün əlindən gələni edirdi. 1965-ci ildə keçmiş Lenin küçəsində dördmərtəbəli yaşayış binasının tikintisi zamanı bir neçə şəxsi malikanəyə əlavə olaraq unikal tarixi-memarlıq abidələri olan karvansara və hamam, həmçinin 11 kaxriz quyusu dağıdıldı. Ümumiyyətlə, sovet illərində DQMV-nin erməni rəhbərliyi tərəfindən Şuşanın XVIII-XIX əsrlərdə tikilmiş və Azərbaycan memarlığının nadir incilərindən olan 20 Şərq hamamının əksəriyyəti dağıdılıb. 4 yanvar 1963-cü ildə Şuşa rayonu ləğv edilərək Stepanakert rayonunun tərkibinə daxil edilmişdir. Yalnız 6 yanvar 1965-ci ildə Şuşa rayonunun statusu bərpa edildi.

Qeyd edək ki, Azərbaycanın tanınmış mədəniyyət mərkəzlərindən biri olan Şuşanın dağıdılmasının qarşısının alınması və şəhərin dirçəldilməsi yalnız 1969-cu ildə Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra mümkün olub. İlk növbədə, Respublikanın yeni rəhbəri Şuşanın tarixi və memarlıq abidələrinin dağıdılmasının qarşısının alınması üçün qətiyyətli tədbirlər görmüşdür. Azərbaycan hökuməti gözəl memarlıq abidələri ilə zəngin Şuşa şəhərinin kompleks inkişafı üçün bir neçə xüsusi qərar qəbul edib. Bunlardan biri Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin və Respublika Nazirlər Sovetinin 4 noyabr 1976-cı il tarixli "Şuşa şəhərində kurort kompleksinin daha da inkişaf etdirilməsi tədbirləri haqqında"qərarı idi. Bu qərara əsasən, Azərbaycan Dövlət Layihə İnstitutu şəhərin "Baş Planı" nı hazırlanıb. Layihədə 2000-ci ilə qədər Şuşada görüləcək işlər öz əksini tapmışdır. Baş planda hər biri 45 mənzildən ibarət iki doqquzmərtəbəli yaşayış binasının, 300 nəfərlik turizm bazasının, 400 nəfərlik yaşayış evlərinin, uşaq sanatoriyasının, həmçinin Şuşa-Xankəndi, Cıdır Düzü-Topxan və s. kanat yollarının tikintisi nəzərdə tutulmuşdur. Ancaq təəssüf hissi ilə qeyd etmək istərdim ki, DQMV-nin erməni rəhbərliyi öz səlahiyyətlərindən istifadə edərək növbəti dəfə "Şuşa kurort kompleksinin inkişafı" bəhanəsi ilə Xurşidbanu Natəvan, Gövhər ağa, Cəfərqulu xan, Uğurlua bəy, Fərzəlibəy, Nəcəfqulu Ağa, Hacı Qulu, Səfibəy, habelə ticarət-sənaye mərkəzləri tərəfindən inşa edilmiş türkçülüyü və İslamı əks etdirən saray və binaları, məscid və hamamları sökmək istəyirdi. Bunu eşidən Heydər Əliyev dərhal işə qarışdı və Azərbaycan KP MK, Azərbaycan SSR Nazirlər Sovetinin 280 saylı 10 avqust 1977-ci il tarixli Qərarı ilə Şuşa şəhəri Tarix-Memarlıq Qoruğu elan edildi. Bundan sonra Şuşa şəhərinin mühafizə zonasına daxil olan 549 qədim bina, ümumi uzunluğu 1203 metr olan daş döşənmiş küçələr, 18 bulaq, 15 məscid, 6 Karvansaray, 3 türbə, 2 Mədrəsə, 2 qala, kilsə, qala divarları və qüllələr, sovet dövründə tikilmiş 21 tarixi abidə

dövlət tərəfindən qorunmuş və bərpa edilmişdir. 1976-1982-ci illərdə Şuşanın tikintisinə və abadlaşdırılmasına 20 milyon manat ayrılıb ki, bu da 1971-1975-ci illərə nisbətən iki dəfə, -1965-1969-cu illərə nisbətən 10 dəfə çoxdur. 1982-ci ildə Heydər Əliyev Şuşaya iki dəfə səfər etmişdir ki, bu da bu şəhərə olan sevgi və heyranlığın sübutudur. Qarabağ Zəfərinə aparan yolun başlanğıcı Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdu. Sonrakı dövrdə həyata keçirilən kompleks tədbirlər, əzmkar və çoxşaxəli fəaliyyət bizi bu hədəfə addım-addım yaxınlaşdırdı. Prezident İlham Əliyev Ulu Öndərimizin qoyduğu möhkəm təməl üzərində dünyada söz sahibi olan, böyük iqtisadi və hərbi gücə malik qüdrətli Azərbaycan dövləti qurdu.

14 yanvar 1982-ci ildə Şuşaya gələn Heydər Əliyev ilk növbədə 20 metr hündürlüyündə yerli mərmərdən tikilmiş Molla Pənah Vaqifin möhtəşəm məqbərəsinin açılışında iştirak etmişdir. Abidənin açılışında respublikanın 400-dən çox ədəbiyyat, incəsənət və elm xadimi iştirak etmişdir. Azərbaycanın ozamankı rəhbəri Heydər Əliyev hər il Vaqif Poeziya Günlərinin keçirilməsi barədə göstəriş vermişdi. Beləliklə, həmin tarixdən etibarən hər il Vaqif Poeziya Günləri təşkil olunurdu. Ənənəyə çevrilən bu poeziya günləri hər il avqust ayında şairin vətəni Qazaxdan başlayıb Şuşada yekunlaşıb. Lakin bu günlər erməni işğalınadək davam edib. Erməni vandalları 1992-ci il mayın 8-də ələ keçirdikləri Şuşada vəhşilik törədib, milli-mənəvi, dini və tarixi-memarlıq abidələrimizi talayaraq məhv edib, tarixi tikililəri uçurublar. Molla Pənah Vaqifin türbəsini də dağıdıblar. Kompleksin binasını və burada sərgilənən bütün eksponatları məhv ediblər.

Heydər Əliyev 28 İyul 1982-ci ildə ailə üzvləri ilə ikinci dəfə Şuşaya səfər etmiş və bir sıra mədəniyyət abidələrinin və obyektlərinin açılışında iştirak etmişdir. Ümummilli lider Şuşa rayonunun rəhbərliyi ilə görüşdə demişdir: "Şuşa abidələr şəhəridir. Bölgənin zəngin tarixi ilə əlaqəli hər şeyi qorumaq, köhnə binaları bərpa etmək lazımdır." Şuşanı su ilə təmin etmək üçün su boruları, o cümlədən mineral su kəməri çəkilib, "Turş su"ikimərtəbəli içməli qalereya tikilib. Lakin Şuşada başlayan bu mədəni oyanış uzun sürmədi. Sovet İttifaqının süqutu zamanı Dağlıq Qarabağda gizli fəaliyyət göstərən silahlı erməni terror qrupları yenidən fəallaşdı. Erməni silahlı qüvvələri Azərbaycanın sərhədlərini pozaraq Qarabağı işğal etməyə başlamışdılar. 8 may 1992-ci ildə Şuşa Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. İşğal dövründə və işğaldan sonrakı illərdə bütün Qarabağda olduğu kimi Şuşa şəhərində də Azərbaycan xalqının tarixi və memarlıq abidələri erməni vandalları tərəfindən amansızcasına məhv edilmişdir [12].

Bu hadisə çox çəkmədi, Azərbaycan Böyük Qələbənin ilk addımlarını 8 noyabr 2020-ci ildə Qarabağın incisi olan Şuşanın azad edilməsinin ilk saatlarında eşitdi. Döyüşlərdə bütün dünya Azərbaycan xalqının qətiyyətini, Azərbaycan Ordusunun döyüş qabiliyyətini aydın şəkildə gördü. Otuz ilə yaxın

erməni işğalında qalan ərazilərimiz 2020-ci ildə 44 günlük Vətən müharibəsində qəhrəman Azərbaycan Ordusu tərəfindən azad olundu. Bu böyük zəfər azərbaycanlıların torpaq, yurd həsrətinin sonunu gətirdi. Azərbaycan Respublikası Prezidentinin işğaldan azad olunmuş ərazilərdə ilk xüsusi nümayəndəsi məhz Şuşa rayonuna təyin edilmişdir [13]. Artıq işğaldan azad olunmuş həmin ərazilərimizdə tikinti-quruculuq işləri həyata keçirilir. Ermənilərin işğalınadək keçirilmiş ənənəvi tədbirlər də bərpa olunub.

Müzəffər Azərbaycan Ordusunun şanlı qələbəsindən sonra, 39 il əvvəl məqbərənin açıldığı gündə - yanvarın 14-də Şuşa şəhərinə səfəri zamanı Vaqif türbəsini ziyarət edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, burada təmir-bərpa və yenidənqurma işlərinə başlanılıb. 2021-ci ilin mart ayından başlayaraq türbə ilkin mərhələdə konstruktiv müayinədən keçirilərək, tələb olunan hissələr üzrə gücləndirmə tədbirləri araşdırılıb və bu çərçivədə işçi layihələr hazırlanıb. Şuşada görkəmli Azərbaycan şairi və ictimai xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılışı olub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər. Bu hadisə həqiqətən çox qürur vericidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin7 may 2021-ci il sərəncamı ilə Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. 5 yanvar 2022-ci il tarixli sərəncamı ilə Şuşa ili elan edilmişdir. Baş plana əsasən artıq bir çox abidələr bərpa olunub, Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün Şuşadakı güllələnmiş büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyulub. “Xarıbülbül” və “Qarabağ” otelləri yenidənqurmadan sonra istifadəyə verilib, modul tipli xəstəxana fəaliyyətə başlayıb [11].

"Şuşa Azərbaycanın nadir mədəniyyət mərkəzlərindən biridir. Təbii ki, milli memarlığımızın gözəlliyi və əzəməti ilə seçilən bir şəhərdir. Bu onun sənətinin qiymətli bir abidəsidir. Milli və mənəvi dəyərlərimizi və musiqi ənənələrimizi hər zaman qoruyub saxlayan Şuşa Qarabağ xanlığının mərkəzi olmaqla zəngin yol keçib, özünü ölkənin həyatında xüsusi rol oynamış mühüm iqtisadi, siyasi və mədəni əhəmiyyətə malik şəhər kimi təsdiq edənə qədər. O, Azərbaycan muğamının beşiyi kimi tanınır", - bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir.

Son olaraq qeyd etmək lazımdır ki, tədqiq olunan mətnin fərqli bir xüsusiyyəti onun tarixi coğrafiya baxımından təhlilidir. Şuşa coğrafi mövqeyinə və Azərbaycanın ən böyük mədəni, iqtisadi və inzibati mərkəzlərindən biri kimi tarixi əhəmiyyətinə görə Qarabağ regionunda əsas şəhərdir. Şairlərimiz uzun illər gözəl Qarabağ və onun musiqi və poeziya beşiyi olan Şuşa haqqında şeirlər yazmışlar. Bu gün hər bir vətəndaş Şuşanın şərəfinə şeirlər yazır. Çünki Şuşa təkcə Azərbaycanın deyil, bütün Qafqazın incisi olmaqla mədəniyyətimizin

beşiyidir. Bu gün Şuşa şəhəri öz tarixi və mədəni simasını bərpa edir. Hazırda şəhər bütövlükdə yenidən qurulur. Azərbaycan hökuməti bölgənin qədim tarixinin bütün izlərinin və irsinin qorunmasına böyük diqqət yetirmişdir.

Şuşa şəhərinin Azərbaycan xalqı üçün tarixi-mədəni əhəmiyyəti və müstəsna mənəvi dəyəri ona xüsusi qayğı və həssaslıqla yanaşmağın zəruriliyini diktə edir. Bu baxımdan Şuşada dövlət idarəçiliyinin və hüquqi tənzimlənmənin daha da təkmilləşdirilməsi şəhərdə tarixi-mədəni irsin bərpasına və qorunmasına xidmət etməklə yanaşı, onun daim inkişafına şərait yaradacaqdır [10, s. 7]. Şuşa Azərbaycanın şəhər mədəniyyətinin nadir və təkrarolunmaz incilərindən biridir və digər şəhərlərdən fərqlənir. Araşdırılan zaman aydın olur ki, XX-ci əsrin 20-90-cı illərində baş verən bütün hadisələr, son illərdə qazanılan uğurlar və aparılan abadlıq işləri Şuşa şəhərinin mühüm tarixi coğrafiyaya sahib olmasını birdaha sübut edir. XX-ci əsrin 20-90-cı illərində baş verən dəişiliklər bütün hadisələr bügün öz həllini tapmışdır. Ümumilli lider Heydər Əliyevin başlatdığı siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən yerinə layiqincə yetirilmişdir və yetirilməyə davam edir. Prezident İlham Əliyev 8 noyabr 1010-ci ildə xalqa öz müraciətində xüsusilə vurğulayıb: “Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!”.

## Ədəbiyyat

1. Bayramov A. Şuşa-Azərbaycanın mədəniyyəti və tarixi incisidir. Bakı: Nağıl evi. 2002, 601 s.

2. Ermənistanın işğalçı siyasətinin ifşası (məqalələr toplusu).-Bakı: Polygraphic Production,-2019.- 303 s.

3. Hacıyev N. Dağlıq Qarabağın tarixindən sənədlə. Bakı: Gənclik, 2005, 192 s.

4. Hüseynov Y. Qarabağnamələr Azərbaycan tarixini öyrənmək üçün mənbə kimi. Bakı: Elm, 2007, 216.

5. Mahmudov Y., Şükürov K. Qarabağ: Real tarix, faktlar, sənədlər.-Bakı: Təhsil-2009.-144 s.

6. Piriyev V. “Azərbaycanın tarixi-siyasi coğrafiyası”.- Bakı, Müəllim, 2006.

7. Tahirov K.M. Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı.- Bakı: Zərdabi-Nəşr,- 2021. – 600 s.

8. Азизбекова П. А. Азербайджанская ССР,-Москва: Издательство Академии наук ССР,- 1958.-75 с.
9. Жекулин В. С. Историческая география: предмет и методы.- Ленинград: Наука,-1982.-224 с.
10. Каджар Ч. Старая Шуша.- Баку,-Şərq-Qərb,-2007.-344 с.
11. Şuşanın azad edilməsi Qarabağ Zəfərinin zirvəsi oldu/ Elektron resurs / URL: https://azertag.az/xeber/susanin_azad_edilmesi_qarabag_zeferinin_zirvesi_oldu-2818636 müraciət tarixi (12.05.2024)
12. Şuşanın işğalı / Elektron resurs / URL: http://anl.az/el/emb/QARABAQ/ shusha/ishgal. htm (müraciət tarixi 10.05.2024)
13. Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı/ Elektron resurs / URL: https://president.az/az/articles/view/51394 müraciət tarixi (15.05.2024)

# "NADİR ŞAH ƏFŞARIN QƏNDƏHAR VƏ HİNDİSTAN SƏFƏRİ TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA"

**Səbinə Alıyeva**
Bakı Dövlət Universiteti
sabinalyeva@mail.ru

***Açar sözlər:*** *Nadir şah Əfşar, Məhəmməd şah, müharibə, Hindistan, tarixşünaslıq*

*1501-1736-cı illərdə mövcud olmuş, yəni 235 illik tarixə malik olan Azərbaycan Səfəvilər dövlətinin varlığına son qoyan Nadir xan Əfşar, mənsub olduğu tayfanın adını daşıyan Əfşar imperiyasının əsasını qoymuşdu. Nadir xan Azərbaycan Səfəvilər dövlətinin mövcudluğu dövründə ölkədən əfqanları, rusları və osmanlıları qoyub çıxara bilmişdi. Nadir gilzayiləri mərkəzi və cənub torpaqlarından qovub çıxardıqdan sonra, Qəndəhar şəhərini və əyalətini ələ keçirmək arzusunda idi. Çünki Qəndaharı ələ keçirdikdən sonra şərqdən gələcək təhlükəni birdəfəlik aradan qaldıracaqdı. Nadir şah olduqdan sonra 1738-ci ildən Əfşar imperiyasının ərazisini genişləndirib, Qəndəhar və Hindistan torpaqlarını belə öz ərazisinə qatmışdı. O, Qəndəharın fəthini 1738-ci ildə tamamlamışdı. Bir il sonra isə 1739-cu ildə isə Hindistanın fəthini tamamlamışdı. Onun fəhti zamanında həmin torpaqlarda Nadir şahın apardığı müharibələrdəki uğurlarının nəticəsi idi ki, o Yaxın Şərqin sonuncu imperatoru adlandırılırdı.*

# ВИЗИТ НАДИР ШАХА АФШАРА В КАНДАГАР И ИНДИЮ В ТУРЕЦКОЙ ИСТОРИОГРАФИИ

**Сабина Алыева**

***Ключевые слова:*** *Надир шах Афшар, Мухаммед шах, война, Индия, историография*

*Надир-хан Афшар, положивший конец существованию Азербайджанского государства Сефевидов, существовавшего в 1501-1736 годах, то есть имевшего 235-летнюю историю, заложил основы Афшарской империи, названной по имени племени, к которому он принадлежал. Надир-хан смог изгнать из страны афганцев, русских и османов за время существования Сефевидского государства в*

*Азербайджане. Изгнав гильзайцев из их центральных и южных земель, Надир хотел захватить город и провинцию Кандагар. Потому что, захватив Кандагар, он раз и навсегда устранит угрозу с востока. После того как Надир стал шахом, он с 1738 года расширил территорию Афшарской империи и присоединил к своей территории Кандагар и индийские земли. Он завершил завоевание Кандагара в 1738 году. Год спустя, в 1739 году, он завершил завоевание Индии. Во время своего завоевания его называли последним императором Ближнего Востока в результате его успехов в войнах, которые вел Надир-шах на этих землях.*

## NADİR SHAH AFSHAR'S VİSİT TO KANDAHAR AND İNDİA İN TURKİSH HİSTORİOGRAPHY

**Sabina Aliyeva**

***Keywords:*** *Nadir shah Afshar, Muhammad shah, war, India, historiography*

*Nadir khan Afshar, who ended the existence of the Azerbaijan Safavid state, which existed in 1501-1736, i.e. had a 235-year history, laid the foundation of the Afshar empire named after the tribe he belonged to. Nadir khan was able to expel Afghans, Russians and Ottomans from the country during the existence of the Safavid state of Azerbaijan. After driving the Gilzais out of their central and southern lands, Nadir wanted to capture the city and province of Kandahar. Because after capturing Kandahar, he would once and for all eliminate the threat from the east. After Nadir became shah, he expanded the territory of the Afshar empire from 1738 and added Kandahar and Indian lands to his territory. He completed the conquest of Kandahar in 1738. A year later, in 1739, he completed the conquest of India. At the time of his conquest, he was called the last emperor of the Middle East as a result of his success in the wars waged by Nadir shah in those lands.*

Nadir xan qəyyumu olduğu Azərbaycan Səfəvilər dövlətinin sonuncu şahı azyaşlı şah III Abbası taxtdan endirmiş və taxtın mütləq hakimi olmuşdu. Hakimiyyəti ələ keçirsə də, keçmiş Səfəvi dövləti tərəfdarlarının mövcudluğu hələ də ölkədə tam qüdrət sahibi olmağa imkan vermirdi. Nadir şah Əfşar hakimiyyətini daha da gücləndirmək üçün fatehlik savaşlarını genişləndirmişdi. Çünki Nadir şah nəinki ölkə hüdudlarına, bütün dünyaya sahib olmağa çalışırdı. Hətta Nadir şah tacqoyma mərasimi üçün Muğan qurultayına toplaşdıqları zaman ən yaxın sərkərdələri ilə birlikdə Qəndahara edəcəyi yürüşün planlarını

hazırlamışdı. Öncə Nadir qonşu dövlətlərdən gələcək təhlükələrin qarşısını almışdı. O, Osmanlı dövləti ilə diplomatik danışıqlar aparmış, aradakı düşmənçilik münasibətlərini qaydaya salmışdı. Bu zaman Osmanlı, Rusiya və Avstriya müharibəsinin başlaması Nadiri tam arxayn saldı ki, qərbdən heç bir təhlükə gəlməyəcəkdi. Bundan sonra o, bütün planlarını Qəndaharın fəthinə yönəltmişdi.

1494-cü ildə Mərkəzi Asiyada Əmir Teymurun nəvələrindən biri olan Zahir - əl Din Məhəmməd Babur atasının ölümündən sonra taxta keçmişdi. Saray intriqaları, ordu komandirləri ilə arasında münaqişələr davam edərkən, Özbək xanı Şeybani xana məğlub olaraq Daşkəndə çəkilmişdi. Uğursuzluqlarına baxmayaraq o, ətrafına topladığı türk və moğollardan ibarət böyük ordu ilə 1504-cü ildə Kabili ələ keçirmişdi. O, Kabili ələ keçirməklə Hindistanın istilasının əsasını qoymuşdu. Hindiquş və Qəznə arasındakı torpaqlar əsgərlərə paylanılmışdı. Səmərqənd, Hisar, Fərqanədən gələnlərdə bu torpaqlarda məskunlaşdırılmışdı. 1505-ci ildə Babur padşah ünvanı almışdı. O, sünni olmasına baxmayaraq Mavərənnəhr bölgəsini ələ keçirməkdə ona yardımçı olan Azərbaycan Səfəvilər dövlətinin qurucusu şah I İsmayıldan asılı vəziyyətə gəlmişdi. Babur şah Seyhun, Sind, Bəlucistanda öz torpaqlarına daxil etmişdi. 1526-cı ildə Panipata İbrahim Ludini məğlub edərək Hind-Türk hökmdarlığının əsasını qoymuşdu. Babur şahın ölümünə qədər də Hindistandakı ağalığı günü-gündən daha da möhkəmlənmişdi. Şahın ölümündən sonra belə 1707-ci ilə qədər Hindistanda türklərin ağalığı davam etmişdi. Son güclü hökmdar Sultan Auranqzibin dövründə imperiyanın ərazisi Kabildən Benqal körfəzinə qədər uzanmışdı. Lakin onun ölümündən sonra Hindistan artıq yavaş – yavaş zəifləmişdi. Mərkəzi hakimiyyətin zəifləməsi, saray daxili parçalanmalar, sərhəd bölgəsində xarici hücumlara qarşı lazımı tədbirlərin alınmaması bütün bunlar Nadir şah Əfşara imkan verdi ki, o, Hindistanın işğalı üçün hərəkətə keçsin.

Mövzu ilə əlaqəli ilk olaraq türk tarixçisi Tahir Sevinçin “Nadir şah’ın 1738-1739 Hindistan Seferi ve Sonuçları” adlı məqaləsinə istinadən deyə bilərik ki, Nadir Qəndaharda müstəqil yaşayan Gilzayları hakimiyyəti altına almaq istəyirdi. Həmin zaman Gilzaylar Qəndaharda Mir Mahmudun qardaşı Hüseyn xanın idarəsində yaşayır və burada narazılıqlara səbəb olurdular. Nadir şah Əfşar onları hakimiyyəti altına almaq üçün sıxışdırdıqda onlar Hindistan torpaqlarına sığınmışdılar. Əfşar şahının əsas məqsədi Gilzayları nəzarət altına alaraq İran coğrafiyasının köhnə sərhədlərinə yenidən sahib olmaq idi. 1736-cı ildə şərqə yürüş hazırlıqlarını bitirən Nadir şah Əfşar noyabr ayında (1149-cu il rəcəb ayının 17-də yəni, 1736-cı il noyabr ayının 21-i - A.S.) İsfahandan 80000 minlik süvari ordu ilə Kirman və Sistan yolu ilə Qəndahara doğru yürüşə başladı. Qoşunun əsas hissəsi dekabr ayında nəhayət Kirmana çatdı [2].

Nadir şahın Kirmanda bir neçə gün qalması ilə bağlı dövrün ilkin mənbələri əsasında yazan Lawrence Lockhartın "Nadir şah" əsərinə müraciət edə bilərik. Əsərdə L.Lockhart qeyd edir ki, Məlik Mahmudun oğlu Fətəli xan Kayaniyə yəni Sistana çaparlar göndərmişdi. Məqsəd Əfşar şahının qoşunlarını Qəndahar vilayətinin sərhədlərində Zabulistan qoşunları ilə birləşdirmək xəbərini çatdırmaq idi. Daha sonra Nadir şah Bam və Tulliriqdən keçərək Sistana doğru hərəkət etmişdi. Şah şəvval ayının 2-də (A.S. – 1737-ci il fevral ayının 3-də) Sistan Qəndəhar hüdudlarından keçdilər. Daha sonra Fərəh, Dəlxək, Dilaramdan keçərək şəvval ayının 18-də (1737-ci il fevral ayının 19-da - A.S.) Girişkə gəldilər. Həmin zaman Girişk gilzayi qoşunlarının əlində idi [4, s.160-161].

Türkiyəli tarixçi T.Sevinçin yuxarıda göstərilən məqaləsində qeyd edir ki, Qəndəharın qala qapıları qarşısına gələn Nadir şah döyüş qərargahını qalanın qərbində hazırlatdı. Şah bir il ərzində davam edən mühasirədən sonra, Kabil və Məkran vilayətləri ilə birlikdə şimaldan digər xarici tayfaların Hindistana daxil olmasına şərait yaradan şəhəri ələ keçirdi. Şəhərə daxilolan Nadir şah Əfşar onu aylarca məşğul edən şəhəri yerlə - yeksan etdirdi. Qəndahar vilayəti yaxınlığında öz adına saldırdığı Nadirabad şəhərini vilayətin mərkəzi elan etdi. Qəndəharda olan Abdalilərə qarşı xoşniyyət olan Nadir şah onları qoşununun tərkibinə daxil etmişdi [2].

Nadir şah Əfşar güclü strateji zəkayə malik bir şəxsiyyət olmuşdu. Əsla səbəbi olmasa, ona fayda gətirməsə heç kəsə xoşniyyət davranmazdı. Təbii ki, Abdalilərə qarşı mülayim olmasının səbəbi var idi. Yenidən T.Sevinçin yuxarıda göstərilən məqaləsinə baxdıqda müəllif qeyd edir ki, hələ Nadir şah Qəndahar yürüşündən əvvəl İsfahanda olarkən Gurkanlı (Moğol - A.S.) hökmdarı Məhəmməd Şaha elçi göndərmişdi. Nadir şah bildirmişdi ki, Qərbi Əfqanıstan hakimiyyəti üçün mübarizə aparan Abdalilərə qarşı Gilzayləri himayə etməməlidir. Lakin Nadirin göndərdiyi elçidən heç bir xəbər alınmamışdı. Buna görədə Əfqanıstanın işğalı üçün Gilzaylərin sərhəd pozuntusu irəli sürülmüşdü. Nadir şah özündən əvvəlki hökmdarlar Mahmud Qəznəvi, Çingiz xan, Əmir Teymur, Babur Şah kimi cənuba doğru irəliləyərkən düyüm nöqtəsi olan Əfqanıstanı ələ keçirərək, oradan Hindistanı fəth etməyi düşünmüşdü [2].

Nadir şahın Hindistanı fəth etməsi ilə bağlı türkiyəli müəllif Tahir Sevinç qeyd edir ki, Hindistanda daxili hakimiyyətin zəifliyi Nadir şaha fürsət yaratdı ki, Hindistanın fəth edə bilsin. Nadir şah Kabildən Hindistana doğru yürüşə başladı. Ardıcıl olaraq Cəlalabadı, Peşəvəri, Lahoru güclü bir müqavimət görmədən ələ keçirdi. Əfşar şahı 1151-ci il şəvval ayının 26-da (1739-cu il fevral ayının 6-da - A.S.) Lahordan Hindistana doğru hərəkət edib 1151-cı il zilqədə ayının 7-də (1739-cu il fevral ayının 16-da - A.S.) Hinditan sərhədlərinə gəlib çatmışdı. Onun Hindistana gəldi xəbərini eşidən Gürkanlı

(Moğol - A.S.) hökmdarı Məhəmməd şah bütün ölkə ərtafından ordu toplamağa başlamışdı. Düşmənin ordusu haqqında məlumat əldə edən Nadir şah onların müharibədə istifadə üçün 2000 fil, çoxlu sayda top və müxtəlif döyüş ləvazimatlarına sahib olduqlarını, ordusunun tərkibinin seçilmiş döyüşçülərdən ibarət olduğunu öyrənmişdi [2].

Biz L.Lockhartın yuxarıda adı çəkilən əsərinə istinadən deyə bilərik ki, Nadir Lahordan Sirkicə çatdıqda, ona məlumat verdilər ki, Məhəmməd şah 300000 nəfərlik ordu və 2000 fil, xeyli sayda topla Kərnala gəlib çatıb [4, s.184].

Daha sonra T.Sevinç yazır ki, Nadir şah Əfşar Kərnal ərtafında olan Feyz çayına gələrək, top arabalarını bir - birinə zincirləyərək, ətrafı mühasirəyə alaraq, döyüşçülərini döyüşə hazır vəziyyətə gətirmişdi. Əfşar şahı altı minlik döyüşçüsünü Məhəmməd şahın ordusu haqqında bilgi toplamaq üçün çayın ətrafında kəşfə göndərmişdi [2].

Biz L.Lockhartın göstərilən əsərinə istinadən deyə bilərik ki, Nadir şahın kəşfiyyat ordusuna Hacı xan başçılıq edirdi. Hacı xan kürd süvarilərdən ibarət qoşunla Şirxanddan yola çıxmışdılar. Şahın əmrinə əsasən kəşfiyyatçılar şərq və qərb tərəfdən kəşfiyyat aparmalı idilər [4, s.187].

1151-cı il zilqədə ayının 8-də (1739-cu il fevral ayının 17-də - A.S.) ordunun başına keçən Nadir şah Raci yolu adlı yerdə qonaqlandıqdan 2 gün sonra Atbala ərazisinə gəlib çatmışdı. O oğlunu burada qoyub, Əfşarlı Fatih Əlini harem ağası təyin edib, yanlarına ən güvəndiyi döyüşçülərini vermişdi. Bir gün sonra Nadir şah Əfşar Şahabad adlı yerdə qonaqlamışdı. Əvvəlcədən kəşfiyyat üçün göndərdiyi döyüşçüləri Feyz çayı ətrafındakı meşəlikdə gizlənərək, axşam Məhəmməd şahın döyüşçülərinin çadırlarına girib bir qismini öldürüb, əşyalarını talan etdikdən sonra yenidən meşəliyə doğru çəkilmişdilər. Döyüşçülər özləri ilə götürdükləri bir neçə əsir ilə sonrakı gün Tanıser adlı yerdən Azimabada gələrək Nadir şah Əfşarın hüzuruna çıxdılar. Nəticədə məlum oldu ki, Məhəmməd şahın böyük ordusu və çoxlu sayda cəbhəxanası mövcuddur. Nadir şah öz ordusunu 2 yerə ayıraraq bir hissəsini Məhəmməd Şahın üzərinə göndərdi. Özü isə digər hissə ilə Tanıser adlı yerdə qonaqladı. Məhəmməd Şah ordugahını geniş bir səhra ərazidə qurdurmuş, öz otağını isə Hind əsgərlərini görəcək bir yerdə hazırlatmışdı.

Əfşar kəşfiyyatçıların verdiyi məlumata görə, Məhəmməd şahın 40000 ordusu, silah - sursatı mövcud idi. Əfşar kəşfiyyatçıların əsir aldıqları əsgərlərin məlumatlarına əsasən Nadir şah otağında məclis təşkil edərək, Hind ordusunu açıqlıq əraziyə aparmağı, meydan müharibəsi etməyi planlaşdırdı. 1151-ci il zilqədə ayının 15-də (1739-cu il fevral ayının 24-də - A.S.) Nadir şah ordusu Feyz çayı ətrafında Dəryayı Çula adlı yerdə qonaqlayaraq, ordusunu 3 qola ayırdı. Bir hissəyə oğlu Nəsrullah Mirzə başçılıq edirdi. Məhəmməd Şah filləri, topları, döyüşçüləri ilə birlikdə səhraya gələrək İran (Əfşar - A.S.) ordusunda az

bir məsafə aralıqda dayanmışdı. Məhəmməd Şahn paytaxtdan köməyə gələcək olan ordusu qarşısı alınmışdı. Hər şey Nadir şahın planlarına uyğun hərəkət edirdi. Kərnal ovalığında baş vermiş müharibə 3 - 4 saat içərisində Gürkanlı (Moğol - A.S.) ordusunun məğlubiyyəti ilə bitmişdi. 13 minlik ordu ilə atası Məhəmməd Şaha köməyə gəlməyə çalışan Səadet xan 6 minlik İran (Əfşar - A.S.) ordusunun talanlarının qarşısını almaq üçün qoşunu iki hissəyə bölmüş, bir hissəsini atasına kömək üçün göndərmişdi. Amma o da atası kimi məğlub olmuş, əsir düşmüşdü.

Müharibədə Məhəmməd şah 40000 əsgəri öldürülmüş, qardaşı Muzaffer Kağan, oğlanları Muhterem, Əli Həmid Kağan, həmçinin bir çox komandiri, əsgərləri əsir düşmüşdü. Müharibənin gedişində ona köməyin gəlməyəcəyini anlayan Məhəmməd şah otağının ətrafına xəndəklər qazdıraraq, toplar yerləşdirmişdi. Nadir şah öz növbəsində ən cəsur, igid əsgərlərini Məhəmməd şahı ələ keçirmək üçün vəzifələndirmişdi. Taxtını və xəzinəsi ələ keçirillən Məhəmməd şah üç gün sonra təslim olmuşdu. Nadir şah qələbəsindən sonra dəbdəbəli bir şəkildə 1739-cu ildə 20000 əsgərlə ağ at üzərində Dehliyə daxil olmuşdu. Məhəmməd şah Kalai Mualla sarayına yerləşmiş Nadir şahın yanına öz sancaq bəyləri ilə birlikdə gələrək itaətini bildirmişdi. Nadir şah Əfşar Hindistanda adına xütbə oxutdurub, pul kəsdirmişdi. Əfşar imperiyasının döyüşçüləri Nadir şah Dehlini tərk edənə qədər həmin ərazilərdə talançılıqla, qənimət toplamaqla məşğul olmuşdular. 1152-ci il səfər ayının 5-də yəni 1739-cu il may ayının 12-də (1739-cu il may ayının 14-də - A.S.) Nadir şah özü kimi Türkmən bəylərindən olan, Teymur xanın nəslindən gələn Məhəmməd şahı əfv edərək, ondan asılı olması şərti ilə Dehlidə böyük bir məclisdə onun hökmdarlığını qəbul etdi. Bunun qarşılığında Məhəmməd şah təşəkkür əlaməti olaraq İndus (Sind) çayından şimalda olan bütün vilayətləri Nadir şahın idarəsinə verdi. Nəticədə İranın (Əfşar imperiyasının - A.S.) sərhədləri İndus (Sind) çayına qədər genişləndirildi. Nadir şah Hindistandakı hakimiyyətini gücləndirmək üçün ikinci oğlu Nəsrullah Mirzəni Türk sülaləsindən olan Cahan Şahın üçüncü oğlu Murad Baxşinin qızı ilə evləndirib, adlı – sanlı toy etdi. Gürkanlı (Moğol - A.S.) hökmdarı ilə Nadir şah arasında razılaşma imzalandı. Razılaşmanın şərtlərindən birində göstərilirdi ki, Məhəmməd şah Osmanlı sultanı ilə məktulaşa bilməzdi [2].

Biz L.Lockhartın əsərinə istinadən Nadir şahın oğlu Nəsrullah Mirzənin toyu ilə bağlı qeyd edə bilərik ki, ölkədə yas davamedən zaman Nadir şah imperator Auranqzibin nəticəsi, Yəzdan Baxşının qızı olan Hindistan şəhzadəsini oğlu Nəsrullah Mirzə üçün istədi. Müəllif Ser Con Malkolmun İran əlyazmalarına istinadən bildirir ki, Moğol qaydalarına əsasən Nəsrullah Mirzə yeddi nəsil əcdadları haqqında məlumat verməli idi. Nadir şah isə bildirir ki, sən onlara nəinki yeddi hətta yetmişinci nəsilə kimi de ki, sən Nadir şah Əfşarın oğlusan, qılıncın oğlusan, qılıncın nəvəsisən [4, s.210]. Nəsrullah Mirzənin toyu

zilhiccə ayının 27 də (aprel ayının 7-də - A.S.) oldu. Toy atəşfəşanlıq və digər müxtəlif əyləncələrlə davamedən zaman, qızılbaş dəstələri oynayır, türk dilində mahnılar, Hüseynin mərsiyələrindən yəniyas mahnılarından oxuyurdular. Buna qəzəblənən Nadir şah əmr edir ki, bir neçə il yas mahnıları oxumağı qadağan edən fərman verirəm. O, həmin əsgərləri cəzalandıraraq şəhərin girişində asdırmışdı. Burda digər bir məqsəd qarşıdan gələn məhərrəm ayında şiə çıxışlarının qarşısını almaq idi [4, s.210].

Müəllif Tahir Sevinç ümumilikdə Nadir şah Əfşarın Hindistanı fəth etməsi haqqında yuxarıda göstərilən "Nadir şah'ın 1738-1739 Hindistan Seferi ve Sonuçları" adlı məqaləsində qısa lakin dolğun məlumatlar vermişdir.

Nadir şahın Hindistan səfəri ilə əlaqəli araşdırmalardan biri Sayed Shafiqula Sadatın "Nadir şah döneminde Afghanistan" adlı yüksək lisans tezisidir. Müəllif tezisin "Nadir şah ve dönemi" adlı ikinci fəslində Nadir şahın "Hindistan səfəri" adlı yarımbaşlıq kimi araşdırmışdır. Tədqiqatçı öncə Nadir üçün niyə Hindistan səfərinin önəmli olduğunu göstərmiş, səbəblərini izah etmişdi. S.S.Sadat yazır ki, Nadir şah Qəndahara yürüş etməzdən öncə Hindistana yürüş etmək planını hazırlanmışdı. Əslində şahın niyyətinin iki səbəbi mövcud olmuşdu ki, ilk o Qəndahar və Herat əfqanlarının İranın (Əfşar imperiyasının - A.S.) Kirman və Sistan bölgələrinə davamlı yürüş edərək həmin əraziləri qarət edərək, daha sonra Hindistana qaçıb Babur dövləti tərəfindən qorunmaları idi. İkinci səbəb isə Əfşar şahının qoşununun daha çox maddi qazanc əldə etmək istəməsi idi [6, s.56].

Nadir şah öncə Hindistan ilə diplomatik münasibətlər qurmağa çalışmış üç dəfə padşahın yanına elçi göndərmişdi. Nadir şah ölkədən qaçmış Əfqan talançılarının ona geri qaytarılmasını istəmiş, lakin Məhəmməd Şahdan heç bir cavab gəlməmişdi. Nadir şah isə belə olduğu halda Hindistandakı daxili vəziyyətini nəzərə alaraq, Qəndəhardan başlayaraq Peşəvərə qədər olan əraziləri ələ keçirdi. 1739-cu il fevral ayının 14-də Peşəvəri ələ keçirən şah Lahora doğru irəliyərək 300000 əsgər və 2000 topçu ilə gələn Məhəmməd Şahla Kernalda qarşı – qarşıya gəldilər. Nadir şah rəqibinin ordusu haqqında məlumat toplayıb, köməksiz qalması üçün onun paytaxtla əlaqəsini kəsdi. 1739-cu il fevral ayının 24-də Babur komandiri Səadət xanla müharibəsi Nadir şahın qələbəsi ilə bitdi. Hindistanın uçsuz – bucaqsız torpaqlara nəzarətin çətin olacağını nəzərə alaraq Nadir şah, Məhəmməd Şahı çadırına çağırıb, onu hörmətlə qarşıladı. Nadir şah Məhəmməd Şahdan 200 milyon rupi və 200000 minlik əsgər tələb etdi. Səadət xan Təhmasib Qulu xan nəzarəti ilə Dehliyə gedib xəzinəni ona təslim etdi [6, s.56].

Daha sonra Dehlidə Nadirin adına xütbə oxudulub, pul kəsildi. Bir neçə gün sonra Nadirin sarayda öldürüldüyü xəbəri yayıldı. Bu sgərlər arasında çaxnaşma yaratdı. Əfşar ordusunun başsız qaldığını düşünən Dehli əsgərləri onlara hücümedib bir hissəsini öldürdü. Ertəsi gün Nadir şah üsyançıların

öldürüləsini əmr etdi. Dehlidəundan sonra aclıq başladı. Buna rəğmən 2 ay Nadir burada qaldı [6, s.57].

Müəllif qeyd edir ki, Nadirin Hindistan səfərindən nə qədər sərvətlə geri döndüyü bəlli deyil. Lakin Hindistan saray mənsubi Annad Ram bu sərvətin 60 milyon rupi pul və 5 milyon qiymətli daş – qaş olduğunu, ən dəyərli daş - qaşın isə Kuhi Nur almazı olduğunu göstərir [6, s.57].

Lakin biz dövrün qaynaqlarına əsaslanaraq yazılan L.Lockhartın göstərilən əsərinə baxdıqda müəllif qeyd edir ki, Nadirin Hindistan səfərindən əldə etdiyi sərvət 70 kror yəni 700000000 rupi olmuşdu. Ən dəyərli sərvət isə tovuz taxtındakı Kuhi – Nur almazı oluşdu. Anand Rama istinad edən müəllif qeyd edir ki, 348 il ərzində toplanmış sərvət bir anda sahibini dəyişmişdir [4, s.211]. Mövzu ilə bağlı digər türk araşdırmacısı "İran tarihi 1700-1925" adlı monoqrafiyanın müəllifi Yılmaz Karadeniz olmuşdu. O, kitabın "Afganistan seferi ve Kandeharın fethi (1737-1738)", "Afşar hakimiyeti dönemi" adlanan fəsillərində Nadirin Əfqanıstan, Qəndəhar, Hindistan səfərləri haqqında məlumat vermişdi. Həmin dövrdə Hindistanın siyasi vəziyyətinə nəzər salsaq, 1719-cu ildə Hindistan taxtına Məhəmməd şah əyləşmişdi. Lakin o əyyaşlığı, tənbəlliyi və digər mənfi tərəfləri ilə daha şox tanınmış, Əfşar şahı ilə müqayisə ediləcək biri olmamışdı. Yılmaz Karadeniz V.Minoriskyə istinadən bildirir ki, hətta bəzi Hind böyükləri Nadir şaha məktub yazaraq düşdükləri çətin vəziyyətdən onları qurtarmasını istəmişdilər [7, s.153].

"Afganistan seferi ve Kandeharın fethi (1737-1738)" adlı fəsildə müəllif qeyd edir ki, Qəndəharda Mahmudun qardaşı Hüseyn Sultan tərəfindən Nadirə qarşı üsyan başladılmışdı. O, abdaliləri Nadirə qarşı qaldırmışdı. Nadir şah öz növbəsində Qəndahara qarşı yola çıxamışdan öncə, Kirman, Bem, Sistan vilayətlərində ərzağın hazır olmasını söyləmişdi. O, 80000 orduyla yola çıxdı. Bu zaman Pir Məhəmməd xan Belucistan, Mekrandakı bir neçə üsyanı yatırtmış, Belucistan komandirləri Mir Muhabbət xan və İlyas xanı öz tərəfinə çəkmişdi. Nadir Qəndahar qalasına yaxınlaşdıqda qalanın ətrafının həddindən artıq möhkəmləndirilmiş olduğunu nəzərə alaraq içəri keçməyin mümkün olmadığını gördülər. Bunun üçün qalanın ətrafında burclər yaradaraq çöl ilə əlaqəsini kəsdilər. Ordugah quruldu və Surhəşirdə yeni şəhər salınmağa başlanıldı. Zemindavər və Bəst qalalarının Kleb Əli xan tərəfindən ələ keçirildiyi xəbərləri gəldi. Həmçinin İmamverdi xan kelat qalasını ələ keçirən zaman gilzaylilərin komandirini də əsir almışdı. Kelat qalasındakı gilzaylərin Hindistana doğru qaçası Nadirin Məhəmməd şaha xəbərdarlıq edərək, əfqanların Hindistana girişinə mane olmasını istədi [7, s.151]. Bizim yuxarıda qeyd etdiklərimizdən də aydın olur ki, Məhəmməd Şah Nadirin istəklərinə heç də müsbət yanaşmamışdı.

Müəllif Y.Karadeniz Nadirin nəyə görə Qəndahar muhasirəsini uzatmasının 4 səbəbini göstərmişdi. 1. Hindistan səfərini nəzərə alaraq

əsgərlərin səbrini, möhkəmliyini yoxlaması; 2.Buxara, Bəlx, Belucistan üzərinə ordu göndərərək öz hakimiyyəti altına alması; 3.Saraydan 13 ay uzaqda qalıb,dövlət adamlarının ona sədaqətini yoxlamaq; 4. Hindistan üçün lazımolan ən azı 50000 döyüşçü, at, qatır, dəvəni buradan təmin edə bilərdilər [7, s.152].

Müəllif yazır ki, nəhayət 1738-ci ildə Qəndahar ələ keçirildi. Şəhər talan edilmədiyi kimi, əhaliyədə mərhəmətli davranıldı. Həmçinin Qəndahar əhalisi tərəfindən inşa olunan Nadirabad şəhəri mərkəz seçildi. Nadir şah iki ay burada qalıb ordusunu Hindistan səfəri üçün hazırladı [7, s.152].

“Afşar hakimiyeti dönemi” adlı fəsildə isə müəllif öncə Nadirin yürüşüdən əvvəl Hindistandakı vəziyyət, Məhəmməd Şahın hakimiyyətə gəlməsi haqqında məlumat verir. O yazır ki, Nadir şah Əfşar Hindistan səfərinə hələ Qəndara yürüş dövründə hazırlaşmağa başlamışdı [7, s.153]. Bu fikrin doğru olduğunu əminliklə deyə bilərik. Çünki Nadir şah Əfşar Hindistana yürüş edəcəyi üçün qərbdə Osmanlı dövləti ilə münasibətlərini sülh şəraitində davam etdirmiş, hər hansı ola biləcək üsyanları qarşısını almaq üçün ətraf ərazilərə qüvvələr göndərmiş, ordusuna yeni hərbi ləvazimat toplamışdı.

Daha sonra müəllif “Kernal savaşı (1738)” adlı yarımbaşlıqda qeyd edir ki, Nadir şah Qəndahardan Kabilə doğru hərəkət edən zaman yolüstü Qəznə şəhərini də ələ keçirmişdi. Kabili ələ keçirmək isə asan olmamışdı. Lakin Kabildən çoxlu silah-sursat, qızıl, pul, qənimət ələ keçirilmişdi [7, s.156].

Y.Karadeniz daha sonra Kernal döyüşü haqqında yazır ki, 1738-ci ildə Hind ordusunun hücumu ilə başlayan döyüş, Nadir şahın cəld, ağıllı strateji planları ilə qısa vaxt ərzində Hind komandirləri Səadət xan və Xan Devran məğlub olmaları, İran (Əfşar - A.S.) ordusunun qələbəsi ilə bitmişdi. Döyüşün gedişində toplaın səsi fillərin ürkməsi vəmeydanı tərk etməsi ilə birlikdə Hind əsgərləridə döyüşü tərk etmişdilər. Döyüşdən geriyə qalan filləri, topları isə İran (Əfşar - A.S.) ordusu ələ keçirmişdi [7, s.156].

Daha sonra müəllif məğlub olmuş Məhəmməd şahın Nizamülmülkü Nadir şahın yanına göndərərək sülh bağlanmasına çalışması haqqında məlumat verir. O yazır ki, Nadir şah sülhü qəbul etmiş, lakin şərtlər də qoymuşdu. Hind hökmdarı isə şərtləri danışmaq üçün Nadirin yanına gəlmişdi. Nadir onu çox yaxşı qarşılamış, əlindəki silahları ona verməsini, Dehliyə qədər onunla gəlməsini söyləmişdi. Dehliyə çatanda Nadir ordusunu şəhərin kənarında dayandırıb, şəhərin mərkəzinə daxil olaraq, taxtda əyləşmişdi. Dehlidə olan zaman Nadirin öldürülməsi xəbəri İran (Əfşar - A.S.) ordusunun bir hissəsinin qaçmasına, bir hissəsinin isə hindlilər tərəfindən öldürülməsi ilə nəticələnmişdi. Xəbəri eşidən Nadir qalan ordunu toplayıb şəhəri talan etmişdi.

Müəllif Kernal döyüşünün nəticləri haqqında yazır ki, Nadirabaddan Hindistana yürüşü və təkrar şəhərə qayıtması düz iki il yeddi gün davam etmişdi. Nadir geri dönən zaman ələ keçirdiyi xəzinələrin bir qismini, qiymətli Tahtı – Tavusu gətirmişdi [7, s.159].

Yusuf Hikmet Bayurun "Hindistan Tarihi" I cild "İlk çağlardan Gurkanlı devletinin kuruluşuma kadar (1526) kitabında qısa da olsa Nadir şah haqqında məlumat vermişdi. Müəllif qeyd edir ki, Nadir şah da Böyük İsgəndər, Əmir Teymur kimi yalnız Hindistana yürüşlər etməklə kifayətlənmiş, idarəetmə üçün geri də qoydukları vali və adamlarını vəzifədə saxlamağa çox da önəm verməmiş və ya bu işi bacara bilməmişlər [8, s.10]. Daha sonra müəllif Nadir şahın Osmanlı və Hindistanı məğlub etməsinin, 2 dövlətin dostlaşmasına səbəb olduğunu qeyd etmişdi. [8, s.28]. Müəllif məhşur olan "taxtı-tavus" haqqında qeyd edir ki, Hindistanın Türk hökmdarlarının qüdrətinin və zövqlərin əsəri olan bu taxt haqqında bir-biri ilə əlaqəsiz müxtəlif fikirlər mövcuddur. Fikirlərin müxtəlif olmasının əsas səbəbi daha sonra hazırlanan taxtların ona bənzədilməsidir. Tarix taxtın Nadir şah Əfşar tərəfindən Tehrana aparıldığını, o taxtın isə əsl taxtın qalığı olduğu iddia edilir. Ancaq onu görmüş olan Lord Körzon onun başqa bir şey olduğunu iddia etmişdi [8, s.450].

Nadir şah Əfşarın Qəndahar və Hindistana etdiyi yürüşlər haqqında bir neçə türkiyəli müəllifin əsərlərinə istinadən Türkiyə tarixşünaslığında araşdırdıq. Lakin istifadə etdiyimiz əsərlərin çatışmayan tərəfləri özünü açıq – aşkar göstərir. Ən böyük məsələlərdən biri türkiyəli tarixçilərin Nadir şah Əfşarı türk hökmdar kimi göstərməməsidi. Əfşar imperiyasının coğrafi ərazisinə əsasən onun məhz İran imperiyası olduğunu, Nadir şah Əfşarın isə İran hökmdarı olduğunu qeyd edirlər. Əgər bu məntiqlə yanaşsaq, Nadir şah Əfşar Hindistanı işğal etdiyi üçün ona Hind hökmdarı demək lazımdı? Təbii ki, xeyr. Amma işin digər bir tərəfi isə onlar Nadir şahın mənsub olduğu Əfşar tayfasının isə türk tayfası olduğu fikrini qəbul edirlər. İstifadə etdiyimiz ədəbiyyatlarda bəzi rəqəmlərdə fərqlilik də özünü göstərdi. Bunun səbəbi isə müəlliflərin dövrün qaynaqlarından deyil, ayrı – ayrı tarixçilər tərəfindən yazılan ədəbiyyatlardan istifadə etməsidir.

## Ədəbiyyat


1. Cahangir H. Ə. Azərbaycan Nadir Əfşar dövləti. Bakı. NY nəşriyyat. 2014
2. https://dergipark.org.tr/tr/download/article-file/117873
3. https://dergipark.org.tr/tr/pub/sufesosbil/issue/11413/136304
4. Lawrence L. Nadir Şah. Bakı. Qanun nəşriyyatı.2018
5. Süleymanov M. Nadir Şah. Tehran. Neqare Endişe nəşriyyatı,2010
6. Sayed S.S "Nadir şah döneminde Afghanistan". Yüksek lisans tezi.2017
7. Yılmaz K. İran tarihi (1700-1925). İstanbul: Selenge Yayınları 2012
8. Yusuf H. B. "Hindistan Tarihi" I cild "İlk çağlardan Gurkanlı devletinin kuruluşuma kadar (1526). II Baskı. Ankara. Türk Tarih Kurumu Basımevi.1987

# BAKI DÖVLƏT UNİVERSİTETİNİN İNKİŞAF TARİXİ

**Samir Baxşəliyev**
Bakı Dövlət Universiteti
baxshaliev81@mail.ru

**Açar sözlər**: Bakı Dövlət Universiteti, təhsil, inkişaf yolu.

Məqalədə Bakı Dövlət Universitetinin yaranması barədə məlumat verilmişdir. Burada universitetin yaranması, keçdiyi tarixi yolun mərhələləri, müstəqillik dövründə əldə edilmiş uğurları barədə əhəmiyyətli faktlar vardır. Məqalədə universitetin yaranmasından günümüzə qədərki inkişaf yolu barədə müəyyən qədər yeni və fərqli məqamlardan bəhs edilir. Buradakı məlumatların müəyyən hissəsi mövcud kitab, məqalə, dərslik və digər internet resurslarındakı məlumatlarla müqayisə şəklində araşdırılmışdır.

Məqalədə universitetin son illərdəki nailiyyətlərinə də toxunulur. Bildirilir ki, Zəfər müharibəsinin əvvəlindən Bakı Dövlət Universiteti Vətən müharibəmizlə bağlı bir sıra tədbirlər həyata keçirmişdir. Rektor Elçin Babayev Ali Baş Komandan İlham Əliyevə müraciət məktubları ünvanlamış, Ali Baş Komandanın rəhbərliyi ilə zəfərə olan inamlarını bildirmişlər. Bakı Dövlət Universiteti Silahlı Qüvvələrə yardım fonduna da kömək etmişdir.

BDU Zəfər Müharibəsindən sonra da zəfərimizi tərənnüm edən tədbir və yeni layihələrə başlamışdır. 2021-ci ildə BDU-da "İşğal edilmiş ərazilərdə məcburi köçkünlərin pozulmuş hüquqlarına dair kompleks hesabat" hazırlayan işçi qrup yaratmışdır.

BDU 2021-ci ilin iyul ayından Qarabağ Dirçəliş Fondu ilə əməkdaşlığa başlamışdır.

# ИСТОРИЯ РАЗВИТИЯ БАКИНСКОГО ГОСУДАРСТВЕННОГО УНИВЕРСИТЕТА

**Самир Бахшалиев**

***Ключевые слова:*** *Бакинский государственный университет, образование, путь развития.*

*В статье представлена информация о создании Бакинского государственного университета. Здесь собраны важные факты о создании университета, этапах его исторического пути и достижениях*

*за период независимости. В статье говорится о некоторых новых и различных моментах пути развития университета от его основания до наших дней. Определенная часть информации здесь рассмотрена в виде сравнения с информацией в существующих книгах, статьях, учебниках и других интернет-ресурсах.*

*В статье также затронуты достижения университета за последние годы. Сообщается, что с началом Победоносной войны Бакинский государственный университет реализовал ряд мероприятий, связанных с нашей Отечественной войной. Ректор Эльчин Бабаев адресовал обращения главнокомандующему Ильхаму Алиеву и выразил уверенность в победе под руководством главнокомандующего. Бакинский государственный университет внес свой вклад в Фонд помощи Вооруженным силам.*

*После Великой Победы БГУ начал новые проекты и мероприятия, посвященные нашей Победе. В 2021 году БГУ создал рабочую группу, которая подготовила «комплексный отчет о нарушенных правах вынужденных переселенцев на оккупированных территориях».*

*БГУ начал сотрудничество с Фондом возрождения Карабаха с июля 2021 года.*

## DEVELOPMENT HISTORY OF BAKU STATE UNIVERSITY

***Samir Bakhshaliyev***

***Key words:*** *Baku State University, education, development path*

The article provides information about the creation of Baku State University. Here are collected important facts about the creation of the university, the stages of its historical path and achievements during the period of independence. The article talks about some new and different points in the development of the university from its foundation to the present day. A certain part of the information is considered here in the form of comparison with information in existing books, articles, textbooks and other Internet resources.

The article also touches on the university's achievements in recent years. It is reported that with the beginning of the Victorious War, Baku State University implemented a number of activities related to our Patriotic War. Rector Elchin Babayev addressed appeals to Commander-in-Chief Ilham Aliyev and expressed confidence in victory under the leadership of the Commander-in-Chief. Baku State University also contributed to the Armed Forces Relief Fund.

After the Great Victory, BSU began new projects and events dedicated to our Victory. In 2021, the BSU created a working group that prepared "a comprehensive report on the violated rights of internally displaced persons in the occupied territories."

BSU began cooperation with the Karabakh Revival Foundation in July 2021.

Azərbaycanda ali təhsilin təşkili və inkişafı birbaşa Bakı Dövlət Universitetinin yaranması tarixi ilə başlanması qürurverici faktdır. Bu barədə müxtəlif illərdə çoxsaylı yazılar, məqalə və kitablar yazılsa da, lakin bu işi başa çatmış hesab etmək düzgün olmazdı. Bu yazıda biz mövzu ilə bağlı indiyədək az bəhs edilmiş məqamlara xüsusi diqqət verərək, həm də mövcud olan faktları, məlumatları ümumiləşdirməklə bir sıra vacib məsələlərə aydınlıq gətirməyə çalışmışıq.

Bakı Dövlət Universiteti 1919-cu ilin 1 sentyabrında Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti tərəfindən təsis edilmişdir. Azərbaycanın ilk ali təhsil müəssisəsində birinci tədris ilində ştat üzrə 104 nəfər cəlb edilmişdi. "Bakı şəhərində dövlət universitetinin təsis edilməsi haqqında" adlanan bu qanunda universitetin dörd fakültədən ibarət olması göstərilirdi: Şərq şöbəsi, tarix-filologiya, fizika-riyaziyyat, hüquq və tibb fakültələri.

**Bakı Dövlət Universitetinin təsisi.** Bakı Dövlət Universitetinin yaradılmasına qədər Cənubi Qafqazda başqa ali təhsil müəssisəsi yox idi. 1917-ci ilin fevral çevrilişindən sonra yaranmış müvəqqəti hökumət Tiflisdə "Rus Universiteti" açmaq niyyətində idi. Bu məqsədlə yaradılmış komissiyaya V.Razumovski başçılıq edirdi. 1918-ci ilin yazında 3 - təbiət, tarix-filologiya və tibb fakültəsindən ibarət Zaqafqaziya Universiteti yaradıldı və Razumovski rektor seçildi. Rus Universitetinin Bakıya köçürülməsi baş tutmasa belə, AXC xadimləri göstərdilər ki, bu köçürülmə baş tutmasa belə, onlar öz universitetlərini təşkil edəcəklər. 1919-cu ilin aprelin sonunda Maarif nazirinin müavini Həmid bəy Şahtaxtinski Razumovskiyə teleqram göndərərək Bakıda Universitet açılması məsələsini öz üzərinə götürməsini təklif etdi. Razumovski bunu qəbul etdi, Zaqafqaziya Rus Universiteti rektoru vəzifəsindən istefa verərək Bakıya gəldi [28, s.15-16].

1919-cu ilin aprelində Razumovskinin rəhbərliyi ilə universitetin təşkili üçün komissiyası yaradıldı. Ayın 8-də Xalq Maarifi nazirliyinə 1919-29-ci tədris ili üçün universitetin təskil olunması, həcmi 10 milyon manatdan çox olmayan smeta hazırlanması tapşırıldı. 1919-cu ilin 19 mayda Razumovskinin rəhbərliyi ilə universitet komissiyası təsdiq edildi [31, s. 230].

Komissiya qısa müddətdə universitetin təsis edilməsi haqqında 1919-cu il 31 may tarixli bəyannaməni, qanun layihəsini, həmçinin, 1919-1920-ci tədris ili

üçün ştat və xərclər layihəsini Hökumətə təqdim etdi. Hökumət komissiyanın təqdim etdiyi layihəni 1919-cu il iyulun 7-də müzakirə etdi [28, s.18].

Parlamentdə universitetin yaranmasına qarşı çıxanlara Rəşid bəy Qaplanov belə cavab verdi: "Biz məsələni dövlətin mənafeyi nöqteyi-nəzərindən tədqiq və mülahizə etməliyik. Biz bəhanə elan edirik ki, hürr yaşamağa haqlı müstəqil millətik, bunu yalnız elanımız kafi deyildir. Təzahüratı milliyyəmizi daha ziyadə təhdid etmək və onu atiyə hazırlamaq lazımdır. Biz millətin ruhunu bu surətdə yüksəldərsək, əmin olalım ki, istiqbalda fənalıqların önünü almış və millətimizi sahil-səlamətə sövq ilə fəlakətdən qurtarmış oluruq. Bulunduğumuz əsrdə yaşaya bilmək vəsaiti- maddiyədən ziyadə vəsaiti-mənəviyyə olan elmə müvəffəqdir. İştə o ruhu yüksəldəcək bir elm ocağı lazımdır ki, o da darülfünundan başqa bir şey deyildir. Darülfünunun mövcudiyyətilə biz Vətənimizi daha başqa surətdə Avropaya qarşı göstərəcək və yaşamağa layiq bir millət olduğumuzu da bir surətlə əda və isbat edəcəyik [3, s.25].

Üç ay ərzində baş tutan gərgin müzakirələrdən sonra parlamentin 1919-cu ilin sentyabrın 1-də keçirilmiş iclasında "Bakı Dövlət Darülfünunun təsisi haqqında qanun" qəbul edildi [10, s.35]. 10 maddəlik qanunda 4 - tarix-filologiya, hüquq, fizika-riyaziyyat və tibb fakültəsinin yaradılması, ilk tədris ili üçün universitetin təşkilinə 5, ümumi xərclər üçün 11 milyon rubl ayrılması nəzərdə tutulurdu [17, s.24]. Qanuna görə dərslər sentyabrın 1-dən başlayırdı. Azərbaycan türk dili bütün fakültələrdə icbari fənn kimi tədris edilməli idi [4, s. 531].

Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti 1919-cu il sentyabrın 29-da keçirilmiş 79-cu iclasında 72 maddə, 5 fəsildən ibarət olan "Bakı Dövlət Darülfünunun Nizamnaməsi"ni təsdiq etdi. Nizamnamədə universitetin təşkilati quruluşu, onun elm və tədris sahələrinin fəaliyyəti, professor-müəllim heyətinin vəzifə və hüquqları müəyyənləşdirildi [2, s.228].

Qeyd etmək lazımdır ki, 4 fakültənin yaradılması nəzərdə tutulsa da, yalnız 2 tarix-filologiya və tibb fakültələrinin yaradılması mümkün oldu. Tarix-filologiya fakültəsinin ilk 509 tələbəsindən 10-u, tibb fakültəsinin 10 tələbəsi Azərbaycanlı idi [4, s.531].

**1920-1930-cu illərdə.** 1920-ci il 28 aprel istilasından sonra Bakı Dövlət Universiteti tarixində yeni dövr başladı. Bütün ölkə idarəçiliyini qəsb edən işğalçılar bütün orta və ali təhsil müəssisələrini ideoloji və siyasi olaraq yenidən qurmağa, sosialist rejimə uyğunlaşdırmağa, təlim-tərbiyə və elmi fəaliyyəti sinfilik və partiyalılıq prinsiplərinə əsasən yenidən qurmağa başladılar. Bu tədbirlər nəticəsində universitetin ideya-siyasi istiqaməti, elmi fəaliyyəti və təlim-tərbiyə işi Azərbaycan xalqının deyil, işğalçılar tərəfindən yaradılan fəhlə-kəndli hakimiyyətinin maraqları əsasında qurulmağa başlamışdı.

Təziqlərə dözməyən V.Razumovski istefa verərək Bakını tərk etdi. Rektor vəzifəsinə S.Davidenko təyin edildi [35, s.11].

Azərbaycanda bütün təhsil və maarif müəssisələri yeni formalaşdırılan Xalq maarif komissarlığının nəzarətinə keçdi. Azərbaycan SSR Xalq Maarif Komissarlığının və Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin 10 may 1920-ci il və 22 may 1922-ci il tarixli dekretləri ilə universitetdə "yenidənqurma işləri" aparıldı [28, s.33-34].

Aprel istilasından sonra 1920-ci ilin mayın 11-də Bakı Dövlət Universiteti ilə bağlı Xalq Maarif Komissarı Dadaş Bünyadzadə sərəncam verdi. Bu sərəncamda Universitetidə təlim-tərbiyə işinin yenidən təşkil ediləcəyi, mərkəz - Rusiya ilə əlaqə yaradılacağı, oradan ixtisaslı müəllimlərin dəvət ediləcəyi ilə bağlı məsələlər var idi. Bu qərara uyğun olaraq 1920-1930-cu illərdə Moskva, Peterburq, Kiyev, Kazan və Odessa ali məktəblərinin akademikləri Bakıya dəvət edilmişdi [26, s.34-36].

Ümumilikdə, 1920-1925-ci illər nisbətən, sakitlik və islahat illəri olmuşdu. Bu illərdə də universitetdə yeni fakültələr yaradıldı. 1920-ci ildə Fizika-riyaziyyat, 1922-ci ildə şərqşünaslıq, 1923-cü ildə tarix-filologiya fakültəsinin əsasında ictimai elmlər, 1928-ci ildə müstəqil hüquq fakültəsi təşkil edildi [32, s.367].

1922-ci ilin 30 yanvarında Universitetin 3-cü nizamnaməsi qəbul edildi. Dekabrın 6-da isə Universitetin adı dəyişdirilərək Azərbaycan Dövlət Universiteti adlandırıldı [2, s.219].

1920-30-cu illər Universitet elmi fəaliyyət sahəsində mühüm uğurlar qazanmışdır. 1921-ci ildə Universitetdə ilk doktorluq dissertasiyası müdafiə olunmuş, tibb, sosial-ictimai sahələrdə müxtəlif elmi cəmiyyətlərin yaradılması, elmi nəşrlərin təşkilinə başlanmışdır [2, s.219].

1922-ci ildə Universitetin ilk buraxılışı oldu. Universitetin ilk 31 məzunun içərisində Adilə Şahtaxtınskaya və Ceyran Sultanova adlı 2 tibb tələbəsi də var idi [32, s. 369-384].

1926-cı ildən Universitetə azərbaycanlı rektorlar da təyin edilməyə başlandı. Tağı Şahbazi universitetin ilk azərbaycanlı rektoru kimi 1926-29-cu illərdə universitetə rəhbərlik etmişdir [32, s.371].

1922-1923-cü illərdən həm professor-müəllim heyəti, həm də tələbələr arasında azərbaycanlıların sayı artmağa başladı. Məsələn, 1925-26-cı ildə Tarix-filologiyaın 7%i azərbaycanlı idisə, 1929-1930-cu illərdə bu nisbət 57,6 %ə, tətbiqi-riyaziyyat fakültəsində isə 6%dən 76,3%dək artdı [32, s.372].

1929-cu il 1 aprel tarixinə olan məlumatda universitetin 232 nəfər professor-müəllim heyətindən 123 nəfərinin türk olduğu göstərilirdi. Fakültələr üzrə milli tərkibə nəzər saldıqda, Şərq fakültəsinin əməkdaşlarının 79%, Tibb fakültəsinin əməkdaşlarının 56%, Pedaqoji fakültənin Tarix-ictimaiyyət şöbəsinin əməkdaşlarının 45%, Təbiət-riyaziyyat şöbəsinin əməkdaşlarının

37%, Hüquq fakültəsinin əməkdaşlarının 30%-nin türk olduğu məlum olur [26, s.41].

1930-cu ilin 12 yanvarında Bakı Opera Teatrının binasında universitetin 10 illik yubileyi keçirildi. Tədbirdə universitetin yenidən, əsaslı surətdə təşkili ilə bağlı təkliflər verildi. 19 noyabr 1930-cu ildə Azərbaycan SSR XKS "Azərbaycan SSR ali məktəb və ali texniki məktəbləri yenidən qurmaq, rayonlaşdırmaq və onları müvafiq təsərrüfat orqanlarına və xalq komissarlıqlarına vermək haqqında" qərar qəbul etdi. Beləliklə, 1930-cu ilin iyun ayında Azərbaycan SSR Xalq Komissarları Sovetinin qərarı ilə Azərbaycan Dövlət Universitetinin fəaliyyəti dayandırıldı, onun ayrı-ayrı fakültələrinin bazası əsasında yeni müstəqil institutlar yaradıldı. Bu qərara görə universitetin 1) İqtisad fakültəsinin bazasında Ticarət Kooperativ İnstitutu; 2) Pedaqoji fakültənin bazasında Pedaqoji Institut; 3) Hüquq fakültənin bazasında Sovet quruculuğu və Hüquq İnstitutu; 4) Tibb fakültənin bazasında Tibb İnstitutu yaradıldı. Bu addımla sovet rejimi Azərbaycanda ziyalı sinfinin və ali savadlı kadrların yaranmasının qarşısını almağa çalışır, düşüncəli insanların artmasını istəmirdilər [35, s.16].

**1930-1940-cı illərdə.** 1934-cü ilin 22 oktyabrında Azərbaycan partiyasının qərarı ilə universitet yenidən açıldı. Universitetin yenidən açılmasının zəruriliyini qeyd edən Ali Pedaqoji institutun məktubunda universitetin yenidən açılmasının əsasında duran məqsəd açıq şəkildə göstərilmişdir: "Azərbaycan Dövlət Universiteti Azərbaycanda elmi-pedaqoji fikrin mərkəzi olmalı, pedaqoji təhsilə ideya-pedaqoji rəhbərliyi həyata keçirməli və Azərbaycanda sosializm quruculuğunun nəzəriyyə və praktikasının ən aktual problemlərinin işlənib hazırlanması üzrə elmi tədqiqat laboratoriyasına çevrilməlidir..." [28, s.105].

Universitet fəaliyyətə 5 - fizika-riyaziyyat, biologiya, kimya, tarix fakültələri ilə başladı. Azərbaycan Dövlət Universitetinə sosialist inqilabçı Sergey Kirovun adı verildi [32, s.374].

Universitetin yeni rektoru Məmmədkazım Ələkbərli təyin edildi. 1934-1935-ci tədris ili üçün 218 nəfər tələbə qəbul edildi ki, onlardan da 127-si azərbaycanlı idi. Universitetdə 52 nəfərlik professor-müəllim heyəti formalaşdırıldı. 1930-1940-cı illərdə universitetdə mövcud fakültələrin tərkibi genişləndirildi. 1940-1941-ci tədris ilinə kimi fizika-riyaziyyat fakültəsində 8, kimya fakültəsi 4, Biologiya fakültəsində 9, tarix fakültəsində 5 kafedra təşkil edilmişdi. 1941-ci ildə Tarix fakültəsində Zülfəli İbrahimun rəhbərliyi ilə "Azərbaycan tarixi" kafedrasının yaradılması xüsusilə əlamətdar hadisə oldu [28, s.112-118].

1939-1940-cı illərdə sayca 5-ci fakültə - filologiya fakültəsi yaradıldı. Universitetin professor-müəllim heyəti genişləndirildi. Artıq 1940-1941-ci tədris ilində universitetdə 226 nəfərlik akademik heyət var idi. Həmçinin, universitetin kitabxana fonduna da xeyli maliyyə vəsaiti ayrıldıqdan sonra

204613 nüsxə kitabdan ibarət kitabxana formalaşdırılmışdı. 1930-1940-cı illərdə universitet tələbə heyəti də xeyli genişləndirildi. Əgər universitet 1934-cü ildə yenidən fəaliyyətə 218 tələbə ilə başlamışdısa, artıq 1941-ci ildə 1614 tələbə qəbul edilmişdi, onlardan 717 nəfəri azərbaycanlı idi [32, s.368].

1930-1940-cı illər SSRİ ərazisində kəskin repressiyalar dövrü idi. Bu repressiyalar Azərbaycan Dövlət Universitetindən də yan keçmədi. Yüzlərlə professor-müəllim, tələbə, işçiyə "xalq düşməni", türkçü, islamçı damğası vuruldu. Repressiya qurbanları içərisində Ə.Nazim, A.Bukşpan, Ə.Qubaydullin, V.Xuluflu, B.Çobanzadə, T.Şahbazi, H.Şahtaxtinski, M.Ələkbərli kimi görkəmli ziyalılar var idi. Təkcə 1937-ci ildə 2 dekan, 2 dekan müavini, 4 kafedra müdiri, kitabxananın direktoru, elmi katib, xüsusi hissənin müdiri, partiya və komsomol təşkilatlarının rəhbərləri, 8 professor, həmçinin Universitetin rektoru olmuş 4 görkəmli ziyalı (Tağı Şahbazi, Maqsud Məmmədov, Məmmədkazım Ələkbərli, Balabəy, Həsənbəyov) ən ağır cəzaya - güllələnməyə məhkum edilmişdilər [32, s.374-375].

**İkinci dünya müharibəsi illərində.** İkinci dünya müharibəsində universitet ziyalılarının ön cəbhəyə yollanması Azərbaycan təhsilinə, elminə ağır zərbələr vurdu, tədris prosesini uzun müddət geriyə atdı. Belə ki, müharibə başlandıqdan sonra bir çox universitet müəllimləri və tələbələri cəbhəyə getmək arzusunda olduqlarını bildirdilər. Universitet rektoru C. Ələsgərov də 1941-ci il iyunun 22-də könüllü olaraq rektor vəzifəsini təhvil verib cəbhəyə getdi. 1940-1941-ci tədris ilində universitetin məzunları, demək olar ki, bütün heyətdə ön cəbhəyə getdilər. Universitetdən 1385 nəfər, o cümlədən 159 nəfər akademik işçi, 23 nəfər aspirant, 1141 nəfər tələbə səfərbərliyə alındı. Onlardan 1185 nəfəri kişi, 200 nəfəri qadın idi. Universitet də hərbi rejimə keçdi. Məhz rektor Ş. Əliyevin 1941-ci il 15 iyul tarixli əmri ilə iyul ayında universitetin əsas binasının, həmçinin avqust ayında isə bütün fakültələrin özünümüdafiəsi təşkil edildi və bununla əlaqədar olaraq özünümüdafiə qrupları yaradıldı [32, s.377].

Universitet hərbi rejimə keçdi, özünümüdafiə qrupları təşkil edildi. 1941-ci il 23 avqustda 4 aylıq tibb bacıları kursu yaradıldı. 1941-1942-də universitetdə tibb bacıları, müalicə rəhbərləri, əlbəyacayvə süngü döyüşü üzrə mütəxəssislər hazırlandı. 1942-ci ilin mayında 32 nəfərlik xalq qoşunu bölüyü və qadın batalyonu təşkil edildi. Hərbi fənlərinin tədrisi genişləndirildi [28, s.125-126].

Maliyə çətinliyi bir sıra ali təhsil müəssisələrinin ləğvinə səbəb oldu. 1941-1942-də Azərbaycan Qiyabi Pedaqoji İnstitutu, K.Marks adına Xalq Təsərrüfatı İnstitutu, Azərbaycan Bədən Tərbiyəsi İnstitutu və Xarici Dil Müəllimləri İnstitutu da universitetlə birləşdirildi. Birləşdirilən institutlar əsasında universitetdə 5 kafedralı İqtisadiyyat, 4 kafedralı Hüquq, 3 kafedralı Xarici dillər, 2 kafedralı bədən tərbiyəsi fakültələri təşkil edildi [28, s.227].

Müharibə dövrü şəraitini nəzərə alaraq universitetdə tədris müddəti də azaldıldı. Belə ki, 1941-1942-ci tədris ilində universitet 3 illik tədrisə keçdi. Tədris-proqram, elmi-tədqiqat və siyasi tərbiyə işi yenidən təşkil edildi, qış tətilləri ləğv olundu. Akademik heyət və tələbələr arasında əmək intizamı möhkəmləndirildi. Onların qarşısında daha ciddi tələblər qoyuldu. Nizam-intizamı pozanlara qarşı sərt mübarizə aparılırdı. Universitet Elmi Şurasının 1942-ci il 10 dekabr tarixli qərarı ilə Azərbaycan Dövlət Universitetində hərbiləşdirilmiş fənn tətbiq edildi [28, s.127-131].

İkinci dünya müharibəsi illərində universitetə 3840 tələbə qəbul olunmuş, tədris prosesində onlardan 1875 nəfər xaric edilmiş, 1377 tələbə isə təhsilini müvəffəqiyyətlə başa vuraraq universitet diplomu almışdı. Belə ki, universiteti bitirənlər 1941-ci il üzrə 522 nəfər, 1942-ci il üzrə 365 nəfər, 1943-cü il üzrə 73 nəfər, 1944-cü il üzrə 289 nəfər, 1945-ci il üzrə isə 128 nəfər təşkil etmişdi. Müharibə illərində universitetin tələbə kontingentində də nisbi gerilik nəzərə çarpırdı [35, s.21].

Müharibə illərinə neft-kimya sahəsində universitetdə bir sıra uğurlar əldə edilmişdi. Sonrakı illərdə universitetin rektoru olmuş Yusif Məmmədəliyevin bu sahədə ixtiraları ilk dəfə olaraq neft sənayesində xammal istehsalını artırmaqla yanaşı həm də neftayırmanın da inkişafı ilə nəticələndi. Görkəmli alim alkilləşdirmə və alkilsizləşdirmə reaksiyalarını tətbiq etməklə neft sənayesinin inkişafında yeni istiqamətin əsasını qoydu. O, təkcə laboratoriya təcrübələri ilə kifayətlənmədi. Öz nəticələrini bir sıra yarımzavod və zavod təcrübələrində də yoxladı. Bu yoxlanışlar keyfiyyət və kəmiyyət baxımından çox böyük fayda verdi. Y.Məmmədəliyevin bu ixtirası neft sənayesi qarşısında geniş perspektivlər açdı və cəsarətlə demək olar ki, SSRİ-nin müharibədə gələcək qələbələrinin təminatçısı oldu. Bu xidmətlərinə görə 1944-cü ildə Y.Məmmədəliyev Stalin mükafatına layiq görüldü. 1941-1945-ci illər ərzində universitet elmi şurasında 13 doktorluq, 118 namizədlik dissertasiyaları müdafiə olundu. Müharibənin ilk illərinə universitetin akademik heyəti seyrəlsə də, savaşın sonlarına yaxın bu say artmışdı. 1945-ci ildə universitetin 331 nəfərlik akademik heyəti var idi [32, s.379-80].

**Müharibədən sonrakı dövr (1945-1970-ci illər).** Müharibədən sonrakı ilk illərdə müəyyən texniki və maliyyə çətinlikləri mövcud olsa da, Azərbaycan Dövlət Universiteti müharibədən sonra inkişafına sürətlə davam etdi. Universitetdə yeni fakültələr yaranır, professor-müəllim heyəti, tələbə sayı genişlənirdi. 1945-1946-cı tədris ilində jurnalistika, fəlsəfə, 1947-1948-ci tədris ilində Arxeologiya, Məntiq və psixologiya, Ərəb dili kafedraları, 1948-də kitabxanaşünaslıq kafedrası yaradıldı. 1947-1948-ci tədris ilində artıq universitet 8 fakültə ilə fəaliyyət göstərirdi. 1948-1949-cu tədris ilində artıq fakültələr yeni hazırlanmış tədris planı ilə fəaliyyətə başladılar [5, s.123].

1948-1949-cu tədris ilində yeni kabinet və laboratoriyalar yaradıldı. Bunlar rus dili, paleontologiya, kriminalistika kabinetləri və çökmə süxurlar, rentgenostruktur analizi laboratoriyası və üzvi sintez üzrə xüsusi laboratoriya idi [32, s.378].

Kafedra və fakültələrdə elmi-metodik işin düzgün təşkili qarşıya qoyulmuş əsas vəzifələrdən biri idi. Bunun üçün 1949-cu ilin martında universitetin tədris işləri üzrə tədris-metodiki şura yaradıldı. XX əsrin 40-cı illərinin sonlarına doğru aparılmış geniş miqyaslı tədbirlər nəticəsində Azərbaycan dilində dərsliklər və dərs vəsaitləri hazırlanaraq çap edildi. Universitetdə güclü azərbaycanlı mütəxəssislər formalaşmağa başladı [28, s.142-143].

Universitet respublikanın ən iri təhsil mərkəzinə çevrildi, orada 1945-ci il iyulun 1-dən 1950-ci il iyulun 1-dək gündüz şöbələrində təhsil alan tələbələrin sayı 1212 nəfərdən 2565 nəfərə çatdı, yəni iki dəfədən çox artdı [5, s.123].

1950-ci illərdə də universitetin sürətli inkişafı davam edirdi. 1952-ci ildə universitet yeni binaya köçdü. Universitetdə tədris-tərbiyə işinin yaxşılaşdırılması, ayrı-ayrı fakültələrin inkişafı ilə bağlı ard-arda qərarlar verildi. Universitet nəşriyyatının, elmi şurasının işi xeyli yaxşılaşdırıldı. 50-ci illərdən elmi kommunizm adlı fənnin geniş tədrisi başlamışdı. Tələbə və professor-müəllim heyəti genişlənmişdi. Qiyabi təhsil, axşam növbəsi təhsili sistemi genişləndi. Universitet 1969-1970-ci tədris ilinə 12 fakültə ilə başladı. Bunlar mexanika-riyaziyyat, fizika, kimya, biologiya, geologiya-coğrafiya, tarix, filologiya, şərqşünaslıq, hüquq, kitabxanaçılıq, jurnalistika, ixtisasartırma və xarici tələbələrlə iş idi [32, s.377-78].

1950-1960-cı illərdə Bakı Dövlət Universiteti öz inkişafının yeni mərhələsini yaşamış, öz yarım əsrlik yubileyinə bir çox uğurlarla qədəm qoymuşdu. Belə ki, 1919-cu ildə 4 fakültə, 40 nəfər professor-müəllim heyəti ilə fəaliyyətə başlayan Universitetdə 50 il müddətində 14 fakültə təşkil edilmişdi. Bu fakültələrdə 710 nəfər professor-müəllimin çalışdığı 64 kafedra, 86 laboratoriya, o cümlədən 4 problem laboratoriyası, 42 kabinet, 2 muzey fəaliyyət göstərirdi. Universitetdə 12 mindən artıq tələbə təhsil alırdı [35, s.27-28].

1969-cu il noyabrın 1-də universitetin yaradılmasının 50 illiyi tamam oldu. Bu münasibətlə 1969-cu il noyabrın 1-də yubiley tədbiri keçirildi. Həmin il bu böyük elm və tədris ocağı Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olundu. Universitetin 50 illik yubileyi münasibətilə indiki Şəhriyar adına klubda keçirilən tədbir zamanı Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin o zamankı birinci katibi Heydər Əliyev geniş nitq söylədi. Bu dövrdə SSRİ hüdudlarında AKP MK-nın birinci katibinin yubiley tədbirində çıxış edərək məhz ana dilində nitq söyləməsi təkcə universitet kollektivinə deyil, bütün

Azərbaycan cəmiyyətinə milli özünüdərkin bərpası istiqamətində mühüm bir addım idi. Beləliklə, bunu qeyd etmək olar ki, universitet ötən əsrin 70-ci illərinə dövlət qayğısı və o zamankı Azərbaycan təhsili üçün yeniliklərlə daxil oldu. 70-ci illərdə universitetin maddi-texniki bazası daha da gücləndi, kabinet və laboratoriyaların sayı 115-ə çatdı. Tədris prosesində texniki vasitələrdən istifadə olunmasında əsaslı dəyişikliklər baş verdi. Universitetdə tədris prosesində texniki vasitələrin tətbiqi məsələləri ilə məşğul olan metodik şura da yaradıldı. Bundan başqa metodik şuranın və fotolaboratoriyanın birgə təşkilatçılığı ilə ayrı-ayrı fənlər üzrə diafilmlər yaradıldı [29, s.148].

**1970-1980-cı illərdə.** 1969/70-ci tədris ilində Universitetdə artıq 13 fakültə, 64 kafedra və laboratoriya fəaliyyət göstərirdi. Bunlardan 4-ü problem elmi-tədqiqat laboratoriyası idi. Bundan başqa. Universitetdə 42 kabinet və 2 muzey - Təkamül nəzəriyyəsi və Faydalı qazıntılar muzeyi mövcud idi. 1972-ci ildə Universitetin Mexanika-riyaziyyat fakültəsinin bazasında tətbiqi Riyaziyyat və Kibernetika fakültəsi yaradıldı. 1970-1980-cı illərdə universitetin akademik heyətinin fəaliyyətinin səmərəsi xeyli artmışdı. Universitetin maddi-texniki təminatı da xeyli yaxşılaşdırılmışdı. 1973-cü ildən Universitetə qəbul prosesində "Abituriyent" sistemi ilə təchiz olunmuş hesablama mərkəzləri yaradıldı. 1971-ci ildə rekord sayda - 2047 tələbə, 1981-ci ildə isə 4724 tələbə məzun olmuşdu [28, s.168-169].

Ulu öndər Heydər Əliyevin qayğısı sayəsində 70-ci illərdə universitet Asiya, Afrika və Latın Amerikasının inkişaf etməkdə olan ölkələri üçün mütəxəssislər hazırlayan güclü bir mərkəzə çevrilmişdi. Azərbaycan universitetində təhsil alan həmin gənclər öz ölkələrinə döndükdən sonra müxtəlif vəzifələrdə çalışdılar, hətta sonralar bəziləri siyasi xadim, dövlət xadimi, ölkə rəhbəri olmuşdu. Müsbət haldır ki, ABŞ-dan və Avropanın bir sıra ölkələrindən gələn tələbə və tədqiqatçılar da Azərbaycan elmi, təhsili, mədəniyyəti və tarixi ilə tanış olur, hətta universitet laboratoriyalarında və kafedralarında çalışırdılar [29, s.149].

1970-80-cı illərdə Ulu öndər Heydər Əliyev universitetə diqqət və qayğısı nəticəsində 60-cı illərə nisbətən ayrılan vəsait 2-3 dəfə artmış, 2 əlavə fakültə açılmış, kafedra sayı 1.5 dəfə, akademik heyətin sayı, həmçinin elmlər doktorlarının sayı 2 dəfəyədək artmışdı. 1980-ci ildə 12 fakültə, 88 kafedra, aspirantura, 4 problem laboratoriyası, 2 muzey, elmi-tədqiqat hesablama mərkəzi, ixtisasartırma fakültəsi, hazırlıq şöbəsi, tələbə şəhərciyi, elmi-tədqiqat bölməsi, nəşriyyat, mətbəə, qəbul olmaq istəyənlər üçün hazırlıq kursu, 2 milyona yaxın kitab fondu olan, respublikamızın elmi ictimaiyyətinə xidmət edən elmi kitabxanası fəaliyyət göstərirdi [5].

**Müstəqilliyin bərpası dövrü.** XX əsrin 80-ci illərinin sonunda keçmiş SSRİ-da gedən ictimai-siyasi proseslər Azərbaycanın təhsil həyatına da təsirsiz ötüşmədi. Belə ki, Azərbaycanda ali təhsilin yenidən qurulması məsələləri əsas

müzakirə obyektlərindən idi. Həyata keçirilmiş tədbirlər 1989-cu ildən daha əməli xarakter kəsb etdi. Bakı Dövlət Universitetinin 70 illik yubileyinə təsadüf edən bu tədbirlər gündəlik mətbuat səhifələrində Azərbaycanın vətənpərvər ziyalıları tərəfindən daha qətiyyətli addımlar atılması tələbi ilə başladı. Tələblər arasında universitetin tarixi adının özünə qaytarılması ilə bağlı müraciətlər də vardı [28, s.170].

Əslində, qəzet səhifələrində dərc edilən bu məlumatlar bütöv Azərbaycan cəmiyyətinin fikri idi və o zamankı rəhbərlik bu fikirləri, Azərbaycan xalqının tarixi arzularını nəzərə almaya bilməzdi. Bütün bunları ətraflı nəzərdən keçirən Azərbaycan SSR Xalq Təhsili Nazirliyi 14 avqust 1989-cu ildə universitetin rektoruna məktub ünvanladı. O dövrün nazir müavini Y.Krotkov tərəfindən universitet rektoru Cəmil Quliyevə ünvanlanmış məktubda deyilirdi: "Azərbaycan gəncləri" qəzetinin 1989-cu il 24 iyun tarixli nömrəsində "Universitetimiz necə adlanmalıdır?" sərlövhəli yazı dərc edilmişdir. Məqalədə universitetin tarixi adının Bakı Dövlət Universiteti adının özünə qaytarılması təklif olunur. Qeyd olunan məsələni, rəhbəri olduğunuz ali məktəbin elmi şurasında müzakirə edib, təkliflərinizi Nazirliyə bildirməyiniz xahiş olunur".

Cəmiyyətdə səsləndirilən fikirləri və bunun fonunda Nazirliyin təkliflərini nəzərə alan Universitet rəhbərliyi Elmi Şuranın 27 oktyabr 1989-cu il tarixli iclasında bir çox məsələlərlə yanaşı, universitetin tarixi adının özünə qaytarılması məsələsini də gündəliyə çıxardı. Nəticədə tarixi ədalət bərpa olunurdu. Qərarda deyilirdi: "1) S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin adı dəyişdirilərək Bakı Dövlət Universiteti adlandırılsın; 2) Bakı Dövlət Universitetinin yerləşdiyi küçə "Universitet" küçəsi adlandırılsın; 3) Bakı Dövlət Universitetinə Məmməd Əmin Rəsulzadənin adı verilsin. Universitetin tarixi adının bərpa edilməsi ilə bağlı növbəti addım Azərbaycan SSR Xalq Təhsili Nazirliyi tərəfindən atıldı. Azərbaycan SSR Xalq Təhsili Nazirliyi tərəfindən 1 mart 1990-ci ildə 188 saylı əmr verildi. Əmrdə deyilirdi: "1) S.Kirov adına Azərbaycan Dövlət Universitetinin ilkin adı bərpa edilsin və Bakı Dövlət Universiteti adlandırılsın; 2) Bakı Dövlət Universitetinin rektoru M.Qasımov universitetin Əsasnaməsinə müvafiq dəyişikliklər daxil etsin [28, s.174-75].

Dövlət müstəqilliyinin bərpası dövründə Azərbaycan tarixində ikinci dəfə təhsil siyasətinin dəyişməsi və bütövlükdə təhsil sisteminin milli ənənələr və ümumbəşəri dəyərlər əsasında yenidən qurulması üçün tarixi imkan yarandı. Lakin müstəqillik ərəfəsində (1988-1991-ci illər) təhsildə başlanmış böhran müstəqilliyin ilk illərində daha da dərinləşdi [33, s.60].

1991-ci il 18 oktyabrda Azərbaycanın müstəqil inkişaf yoluna qədəm qoyması Bakı Dövlət Universitetinin tarixində də yeni mərhələ açdı. Müstəqilliyin ilk illərində Azərbaycanın ərazi bütövlüyünün pozulması, qonşu Ermənistanın işğalçılıq planları universitetin fəaliyyətinə da təsirsiz qalmadı.

Qarabağdan, tarixi Azərbaycan torpaqlarından qovulmuş minlərlə soydaşımız universitetin tələbə yataqxanalarında yerləşdirildi. Məcburi köçkün ailələrinin 265 nəfər məktəbli uşağı üçün xüsusi orta təhsil məktəbi yaradıldı, 35 nəfər isə universitetdə işlə təmin edildi [28, s.178].

Azərbaycan Respublikasının müstəqilliyinin bərpası ali təhsilin inkişafı tarixində keyfiyyətcə yeni mərhələnin əsasını qoymuşdur. Bu dövr ali təhsilin məzmununun milli dövlətçilik prinsipləri və azərbaycançılıq ideologiyasına uyğun yeniləşdirilməsi, bu təhsil pilləsində əsaslı islahatların aparılması, ölkənin ehtiyaclarına uyğun rəqabə tədavamlı kadr hazırlığı və insan kapitalının formalaşdırılması dövrü kimi təhsil tarixinə düşmüşdür. Azərbaycanın müstəqilliyinin ilk illərində ölkədə yaranmış çətin vəziyyət ali təhsil sisteminə də ağır zərbə vurdu. Ölkədə hökm sürən xaos təhsil, elm kimi ümumbəşəri dəyərlərə zərbə vurdu, ali məktəbə, müəllimə hörmət, təhsilə maraq azaldı.

Həmin dövrdə ali məktəb müəllimlərinin sosial ehtiyaclarını ödəmək məqsədilə kütləvi şəkildə İrana, Türkiyəyə, Rusiyaya getməsi ali təhsilin inkişafına öz mənfi təsirini göstərdi. Bununla belə, ali təhsil sistemini böhrandan qurtarmaq üçün müstəqilliyimizin ilk illərində müəyyən işlər də görüldü və bu tədbirlərin həyata keçirilməsi ali təhsildə əhəmiyyətli dəyişikliklərə səbəb oldu. 16 dekabr 1992-ci il tarixində Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə yeni «Təhsil Qanunu qüvvəyə mindi. Təhsilin, o cümlədən ali təhsilin inkişafı üçün vacib olan bu sənəddə bir sıra müsbət və mütərəqqi cəhətlər (ali təh silin çoxpilləli sisteminə keçilməsi, qeyri-dövlət təhsil müəssisələrinin yaradılması, mütəxəssis hazırlığı aparmaq üçün ixtisaslara lisenziya verilməsi, ali və orta ixtisas təhsili müəssisələrinin akkreditasiyasının keçirilməsi, yeni tipli təhsil müəssisələrinin yaradılması, təhsil müəssisələri rəhbərlərinin təyinatının seçki yolu ilə müəyyən edilməsi və s.) var idi [34, s.31].

"Təhsil Qanunu"nda ali təhsil sahəsində mü təxəssis hazırlığının təkmilləşdirilməsi, eləcə də geniş profilli kadrların hazırlanması məsələsi öz əksini tapmışdı. Bu isə yalnız çoxpilləli ali ixtisas təhsili şəraitində, istiqamətlər üzrə kadr hazırlığına keçməklə mümkün idi. Bununla əlaqədar, ali təhsilin strukturunda ciddi dəyişiklik lar aparıldı. Təhsil Qanununa uyğun olaraq. 1993-cü ildən təhsilin digər pillələrində olduğu kimi, ali təhsil sahəsində də islahatlara başlanıldı. İslahatlar ali təhsilin strukturunu, mazmununu, idarə edilməsini, pedaqoji kadr hazırlığını və s. kimi geniş aspektli məsələləri əhatə edirdi. Ölkəmizin təhsil tarixində ilk dəfə olaraq 1993-1994-cü tədris ilindən ali təhsilin ikipilləli sisteminə (bakalavriat və magistratura) keçildi [34, s.32].

Ötən əsrin 90-cı illərindən başlayaraq Azərbaycanda ali təhsil sahəsində islahatlar haqqında çoxlu söhbətlər getsə də, ölkədə ictimai-siyasi və iqtisadi vəziyyət sabit olmadığından bu istiqamətdə işlər planlı şəkildə aparılmamış, epizodik xarakter daşımışdı. Ona görə də təhsilin məzmunu və strukturu ilə

bağlı tətbiq olunan yeniliklər gözlənilən səmərəni verməmişdir. Yalnız 30 mart 1998-ci il tarixdə Prezident Heydər Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikasında təhsil sahəsində İslahatlar üzrə Dövlət Komissiyası yaradıldıqdan və həmin komissiyaya təhsil islahatı üzrə Dövlət Proqramını hazırlamaq həvalə olunduqdan sonra bu sahədə işlər həllini tapmağa başladı [1, s.147].

Yeni ictimai-iqtsadi quruluş və inkişaf perspektivlərini əldə rəhbər tutan Bakı Dövlət Universiteti köhnə ehkamçı ideologiya və nəzəriyyələrdən imtina etdi. Bir sıra fakültələrdə kafedraların əvvəlki adları dəyişdirildi [28, s.190].

Universitetdə yeni dövrün tələblərinə cavab verəcək kafedra və elmi mərkəzlər açıldıqdan, tədris-metodiki işlərin təkmilləşdirilməsi, eyni zamanda, universitetin yeni latın qrafikalı Azərbaycan əlifbasına keçməsindən sonra Azərbaycan təhsil sistemində 1992-ci ildə tətbiq olunan test üsulu tezliklə universitetdə pilləli təhsil sisteminə keçid üçün münbit zəmin yaratdı. Bununla bağlı olaraq elmi-metodik konfrans keçirildi, qarşıda duran vəzifələr müəyyənləşdirldi, BDU Elmi Şurasının qərarı ilə təhsilin bakalavr, magistr pillələri üçün tədris planları hazırlandı. Azərbaycan Respublikasının yeni Təhsil Qanunu müzakirə edilərək müvafiq qərarlar qəbul edildi [28, s.193-94].

Bəhs edilən dövrdə Universitetin rəhbərliyində də yeni kadr dəyişiklikləri baş verdi. 1990-1992-ci illərdə Universitetin rektoru olmuş akademik Mirabbas Qasımovu Firudin Səməndərov əvəz etdi. Beləliklə, müstəqilliyin bütün çətinliklərinə rəğmən universitet mədəni-intellektual potensialını qoruyub saxlamaq, artırmaq və onu yeni dövrün tələblərinə uyğunlaşdırmaq baxımından irəliyə doğru mühüm addım atdı. Bu təhsil və elm ocağının sıralarına yeni fakültələr də qoşuldu. Qeyd etmək lazımdır ki, müstəqilliyin ilk illərində Universitetin beynəlxalq əlaqələrinin güclənməsi, həm qonşu respublikalar, həm də digər respublikalarla ikitərəfli münasibətlər sayəsində təcrübə mübadiləsi, eləcə də bir sıra ixtisasların açılması ilə bağlı universitetlərarası müqavilələr imzalandı. Belə razılaşmalardan biri M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universiteti və Türkiyə Respublikasının Diyanat vəqfinin razılaşması ilə baş tutdu [28, s.198].

Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında ikitərəfli əlaqələrin genişlənməsi fonunda Bakı Dövlət Universiteti ilə əlaqələr də yaradıldı. Belə ki, 23 dekabr 1994-cü il tarixli Bakı Dövlət Universitetinin Böyük Elmi Şurasının qərarı ilə elmin inkişafında, xalqlar arasında sülhün və əməkdaşlığın möhkəmləndirilməsində xidmətlərinə görə Türkiyə Böyük Millət Məclisinin sədri Hüsaməddin Cindoruk, BDU-nun Böyük Elmi Şurasının 11 aprel 1995-ci il tarixli qərarı ilə isə Türkiyənin keçmiş Baş naziri Tansu Çillar Bakı Dövlət Universitetinin Fəxri Doktoru seçildi. Müstəqilliyin ilk illərində Bakı Dövlət Universitetinin 75 illik yubileyinin keçirilməsi də Universitetə dövlət qayğısından və tədris sisteminin gücləndirilməsindən xəbər verirdi.

Bununla bağlı olaraq 1994-cü ilin sentyabrın 3-də Bakı Dövlət Universitetinin 75 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev fərman verdi [28, s.201].

1997-ci il fevralın 26-da BDU-da "Heydər Əliyev məktəbi"nin, mayın 10-da "Heydər Əliyev muzeyi"nin açılışı oldu. Nazirlər Kabinetinin 1997-ci il tarixli razılıq məktubu əsasında Təhsil Nazirliyinin 17 iyun 1997-ci il tarixli Əmri ilə Universitetdə magistr hazırlığı aparılmasına icazə verildi. 1997-1998-ci tədris ilində BDU-da magistraturaya qəbul keçirildi və ilk dəfə olaraq 366 nəfər bakalavr məzunu magistrant adına layiq görüldü. Sonrakı illərdə magistraturaya qəbul artırılaraq 26 istiqamət, 119 ixtisaslaşma üzrə 601 nəfərə çatdı. Bununla əlaqədar olaraq, BDU-da magistratura şöbəsi yaradıldı. 1998-ci ilin yanvar ayında BDU-nun Kompyuter Mərkəzi beynəlxalq kompyuter şəbəkəsinə qoşuldu [34, s.390-91].

1998-ci ildə universitetdə 16 fakültə, 113 kafedra, bir elmi-tədqiqat institutu, 29 laboratoriya fəaliyyət göstərmiş, bir filial Şəki filialı açılmışdır. 683 Hesabat dövründə universitet əməkdaşları tərəfindən 50 monoqrafiya, 106 dərslik və dərs vəsaiti, 110 proqram, 967 məqalə və 952 tezis çap edilmiş, 10 doktorluq və 49 namizədlik dissertasiyası müdafiə edilmişdir (5).

1999-cu il yanvarın 11-də professor Abel Məhərrəmov Məmməd Əmin Rəsulzadə adına Bakı Dövlət Universitetinin rektoru vəzifəsinə təyin olundu. Ölkə Prezidentinin «Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında» 13 iyun 2000-ci il tarixli Fərmanına uyğun olaraq, BDU-ya özünüidarəetmə prinsipi əsasında fəaliyyət göstərən ali təhsil müəssisəsi statusu verildi. Universitet Azərbaycan Respublikasının Dövlət büdcəsindən ayrıca maliyyələşdirilməyə başladı. Həmin vaxtdan BDU-nun ilkin adı bərpa edildi. 1999-cu ildə Bakı Dövlət Universitetinin yaranmasının 80 illiyi tamam oldu [34, s.391].

Bakı Dövlət Universitetinin 80 illik yubileyi münasibətilə ölkə Prezidentinin 11 fevral 2000-ci il tarixli Fərmanına əsasən Universitet müəllimlərindən 17 nəfər «Şöhrət» ordeni, 18 nəfər «Tərəqqi» medalı ilə təltif olundu, 13 nəfər Əməkdar elm xadimi, 21 nəfər Əməkdar müəllim fəxri adlarına layiq görüldü. 2000-ci ildə BDU-da professor-müəllim heyətinin sayı 1301 nəfər təşkil edirdi ki, onlardan 179-u elmlər doktoru, professor, 400 nəfəri elmlər namizədi, dosent idi. 2005-ci il may ayının 19-da Azərbaycan Bolonya prosesinə qoşulduqdan sonra Universitetdə ikipilləli təhsil sisteminin (bakalavriat və magistratura) təkmilləşdirilməsi, ali təhsilin keyfiyyətinin, tələbələrin və müəllimlərin mobilliyinin inkişaf etdirilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi istiqamətində müəyyən işlər görüldü. 2005-2006-cı tədris ilində Bakı Dövlət Universiteti Təhsil Nazirliyi tərəfindən akkreditasiyadan keçirildi və ona müvafiq sertifikat verildi [34, s.394].

2009-cu ilin sentyabrında Bakı Dövlət Universitetinin təsis edilməsinin 90 ili tamam oldu. Bakı Dövlət Universitetinin 90 illik yubileyi münasibətilə Azərbaycan Respublikası Prezidentinin 10 oktyabr 2009-cu il tarixli Sərəncamına əsasən professor Vasim Məmmədəliyev «Şərəf ordeni, professor Fuad Qasımzadə «İstiqlal» ordeni, 14 nəfər «Şöhrət» ordeni, 38 nəfər «Tərəqqi» medalı ilə təltif olundu, 7 nəfər Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə, 9 nəfər Əməkdar elm xadimi, 32 nəfər Əməkdar müəllim, 2 nəfər Əməkdar hüquqşünas, 1 nəfər Əməkdar jurnalist, 1 nəfər Əməkdar mühəndis, 1 nəfər Əməkdar mədəniyyət işçisi fəxri adlarına layiq görüldü [34, s.396-97].

2011-ci ildə Universitetdə professor-müəllim heyəti və əməkdaşlar tərəfindən 68 monoqrafiya, 76 kitab, 90 dərslik, 115 dərs vəsaiti, 2702 məqalə, o cümlədən 1942 məqalə respublikada, 760 məqalə xaricdə, 1269 tezis, o cümlədən 574 tezis respublikada, 695 tezis xaricdə, 44 metodik göstəriş, 226 proqram nəşr edilmişdi. Bakı Dövlət Universitetinin Elmi kitabxanası hər il olduğu kimi 2011-ci ildə də ali məktəbin tədris-tərbiyə prosesini və elmi-tədqiqat işini ədəbiyyatla və informasiya ilə təmin edən aparıcı struktur bölməsi kimi öz fəaliyyətini davam etdirmişdi. Təhsil Nazirliyinin əmrinə əsasən ali məktəb kitabxanaları üzrə elmi- metodiki mərkəz kimi fəaliyyət göstərən Elmi kitabxana 22 dövlət və bəzi özəl ali məktəb kitabxanalarına metodiki köməklik göstərmiş, 21 ölkənin 49 universiteti və beynəlxalq nəşriyyatı ilə informasiya mübadiləsi aparmışdı [28, s.236].

2012-ci ildə Universitetin əməkdaşları tərəfindən 86 (53 beynəlxalq və 33 respublikadaxili) elmi layihələr həyata keçirilmişdi. Bakı Dövlət Universitetinin Elmi kitabxanası 2012-ci ildə 22 dövlət və bəzi özəl ali məktəb kitabxanalarına metodiki köməklik göstərmiş, 21 ölkənin 49 universiteti və beynəlxalq nəşriyyatı ilə informasiya mübadiləsi aparmışdı. 2012-ci ildə Bakı Dövlət Universitetində dörd seriyada "Bakı Universitetinin Xəbərləri" jurnalı və digər 14 elmi, nəzəri, metodik və təcrübi jurnallar öz fəaliyyətlərini davam etdirmişdi. 2013-cü il hesabatından məlum olur ki, BDU-da təbiət və humanitar elm sahələrini əhatə edən bir sıra aktual mövzuların həllinə yönəlmiş 81 istiqamətdə 199 mövzu üzrə 1094 elmi iş yerinə yetirilmişdi [28, s.237-238].

2016-cı ildə də universitet 17 fakültə, 123 kafedra, 2 elmi-tədqiqat institutu, 3 elmi-tədqiqat mərkəzi və 24 elmi-tədqiqat laboratoriyası ilə elmin müxtəlif istiqamətlərinə aid 185 mövzu üzrə 1060 elmi iş yerinə yetirmişdi. Hesabat ilində universitetin professor-müəllim heyəti və əməkdaşları tərəfindən respublikada və xaricdə 113 monoqrafiya və kitab, 189 dərslik və dərs vəsaiti, 2792 məqalə nəşr edilmişdi. Universitetin 2017-ci il hesabatından məlum olur ki, BDU-da təbiət və humanitar elm sahələrini əhatə edən bir sıra aktual mövzuların həllinə yönəlmiş 81 istiqamətdə 185 mövzu üzrə 1046 elmi iş yerinə yetirilmişdi [38].

2017-ci ildə əldə etdikləri ən yüksək elmi nailiyyətlərinə görə, Biologiya fakültəsinin Biofizika va molekulyar biologiya kafedrasının müdiri, professor Ralfrid Həsənov və Tarix fakültəsinin Azərbaycan tarixi (Təbiət fakültələri üzrə) kafedrasının müdiri, dosent Mehman Abdullayev "İlin alimi" fəxri adına layiq görülmüşdü [28, s.241].

BDU-nun Elmi şurasının iclaslarında təqdim olunan yerinə yetirilmiş elmi-tədqiqat işləri haqqında illik statistik məlumatlar universitetin elmi fəaliyyətinin məhsuldar olduğunu deməyə əsas verir. 2018-ci il 11 apreldə keçirilmiş BDU Elmi şurasının növbəti iclasında bildirildiyi kimi, hesabat ilində universitetdə professor-müəllim heyəti və əməkdaşlar tərəfindən 54 monoqrafiya, 47 kitab, 73 dərslik, 133 dərs vəsaiti, 3039 məqalə, o cümlədən 2107 məqalə respublikada, 932 məqalə xaricdə nəşr edilib. Xaricdə nəşr olunmuş 932 məqalədən 338-i, yəni bütün xaricdə nəşr olunmuş məqalələrin 36 %-i Tomson Reuter, Scopus və digər beynəlxalq agentliklər tərəfindən indekslənən və inpakt faktorlu jurnallarda nəşr olunmuşdur. BDU əməkdaşları tərəfindən, o cümlədən BDU-nun sahibliyi ilə 7 patent alınmışdır. 2017-ci ildə BDU alimləri tərəfindən xarici ölkələrdə 15 kitab və monoqrafiya nəşr olunmuşdur [30, s.160].

Bakı Dövlət Universitetinin 100 illik yubileyinin yaxınlaşması universitet həyatında bir çox hadisələrlə yadda qaldı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 11 mart 2019-cu il tarixli sərəncamı ilə Elçin Babayev universitetə yeni rektor təyin edildi. Bakı Dövlət Universitetinin 100 illik yubileyi ərəfəsində onun yeni Nizamnaməsi də təsdiq olundu. 16 aprel 2019-cu ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 172 saylı qərarı ilə təsdiq edilmiş "Bakı Dövlət Universitetinin Nizamnaməsi"ndə deyilirdi: "Universitet "Bakı Dövlət Universitetinin və Azərbaycan Dövlət İqtisad Universitetinin yenidən təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 iyun tarixli 3020 nömrəli sərəncamına əsasən, Bakı Dövlət Universitetinin Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Bakı Dövlət Universitetinə çevrilmə yolu ilə yenidən təşkili nəticəsində yaradılmışdır və onun hüquqi varisidir. Ümumi müddəalardan göründüyü kimi, 21 iyun 2017-ci ildə Azərbaycan Respublikasının prezidenti tərəfindən Bakı Dövlət Universitetinin yenidən təşkili ilə bağlı sərəncamından irəli gələn publik hüquqi şəxs statusu onun yeni təsdiq olunmuş Nizamnaməsində də əksini tapmışdı [28, s.249].

**Yeni rektorla yeni hədəflərə doğru.** Elçin Babayevin rektorluq fəaliyyəti universitetin beynəlxalq əlaqələrinin genişlənməsi, xarici universitetlərlə əməkdaşlıqların artması, BDU-nun dünyanın nüfuzlu universitetləri siyahısına möhkəmlənməsi ilə səciyyəvidir. 2020-ci ildə 2014-2020-ci illəri əhatə edən İnkişaf Proqramı tamamlanmışdır. Hal-hazırda yeni, 2030-cu ilədək olan İnkişaf Proqramı hazırlanır [25; 27].

Bakı Dövlət Universiteti 2020-ci ildə Məhtimqulu Fərabi adına Türkmən dövlət universiteti [6, s.1], Fransa Lyon Universiteti [7, s.1] 2021-ci ildə Tomar Politexnik Universiteti [9, s.1], İsrailin Holon Texnologiya İnstitutu [9, s.1], Cənubi Bohemia Universiteti, Erasmus+ beynəlxalq proqramı [9, s.1], ABŞ-ın Linkoln Universiteti [11, s.1], Səmərqənd Dövlət Universiteti [12, s.1], Almaniya Vittenberq Hale Universiteti [13, s.1], Pakistanın Pir Mehr Əli Şah Arid universiteti [14, s.1], Tekirdağ Namık Kemal Universiteti [15, s.1], Ankara Universiteti [16, s.1], İsrailin Yerusəlim İbrani Universiteti [17, s.1], BMT-nin sülh Universiteti, Nizami adına Daşkənd Dövlət Universiteti [18, s.1], 2023-cü ildə İstanbul Texniki Universiteti [19, s.1], Karabük Universiteti [20, s.1] Eskişehir Texniki Universiteti [21, s.1], Çinin Anhui Universiteti, İspaniyanın Qranada Universiteti [22, s.1], 2024-cü ildə Özbəkistan Elmlər Akademiyası Astronomiya İnstitutu [23, s.1] və s. universitetlərlə əməkdaşlığa başlamışdır.

44 günlük Zəfər müharibəsi başlayan gündən etibarən Bakı Dövlət Universiteti Vətən müharibəmizlə bağlı bir sıra tədbirlər həyata keçirmişdir. Rektor Elçin Babayev, həmçinin professor-müəllim heyəti Ali Baş Komandan İlham Əliyevə müraciət məktubları ünvanlamış, Ali Baş Komandanın rəhbərliyi ilə zəfərə olan inamlarını bildirmişlər. Müharibə dövründə BDU-nun professor-müəllim, tələbə heyəti istər sosial platformalarda, universiteti qəzetində, digər mətbu orqanlarında yazılar yazmış, müsahibələr vermişlər. Bakı Dövlət Universiteti Silahlı Qüvvələrə yardım fonduna kömək etmişdir. Tələbələri "Tələbədən Əsgərə" adlı orduya dəstək layihəsinə başlamışdır [8, s.1].

Zəfər Müharibəsindən sonra da BDU bu tədbirləri davam etdirmiş, zəfərimizi tərənnüm edən tədbir və yeni layihələrə başlamışdır. 2021-ci ildə BDU-da "İşğal edilmiş ərazilərdə məcburi köçkünlərin pozulmuş hüquqlarına dair kompleks hesabat" hazırlayan işçi qrup yaratmışdır [9, s.2].

BDU 2021-ci ilin iyulundan Qarabağ Dirçəliş Fondu ilə əməkdaşlığa başlamışdır [11, s.2].

Koronavirus pandemiyası dövründə keyfiyətli distant təhsilin təşkili məqsədilə professor-müəllim heyəti üçün distant təlimlər keçilmişdir. "Microsoft Teams" platforması üzərindən tələbələrə dərslər distant şəkildə keçilmişdir [7, s.2].

BDU-nun alim və tədqiqatçıları "Horizon 2020" üzrə beynəlxalq qrant müsabiqəsi, Teknofest, Erasmus+Jean Monnet, kimi bir sıra nüfuzlu yarış və müsabiqələrin finalında iştirak edib, bəzi yarışlarda isə qalib olmuşlar. BDU 2022-ci ildə "QS Word University Ratings"in tərtib etdiyi dünya universitetlərinin reytinq siyahısına daxil olunaraq bu siyahı yer alan yeganə Azərbaycan universiteti olmuşdur [15, s.2].

BDU-nun "Web of Science"də indekslənən "TWMS Journal Pure and Applied Mathematics" jurnalı 329 beynəlxalq nəşr arasında 8-ci yerdədir [24, s.1].

31 iyul, 2023 2023-də BDU-nun Hirş indeksi 58-ə qədər yüksəlmişdir. 29 sentyabr, 2023 BDU 2024-cü ildə URAP (University Ranking by Academic Performance) reytinq təşkilatının 2024-cü il üzrə reytinq siyahısında irəliləyərək keçən ilki nəticəyə görə 285 pillə irəliləmişdir [25, s.1].

Həmçinin 2024-cü ildə BDU-nun təsis etdiyi "Acta Botanica Cahcasia" jurnalı beynəlxalq AGRIS sistemində indeksləşdirilmişdir [27, s.1].

Daha bir uğur da budur ki, Bakı Dövlət Universiteti açıqlanan reytinq siyahısında 80 pillə irəliləyərək, 1042-ci yerdən 962-yə qalxıb. Eləcə də BDU RUR reytinq siyahısında tədqiqatın keyfiyyəti parametri üzrə ölkədə birinci yerdə qərarlaşmışdır [37].

Ən son uğur kimi göstərək ki, 125 ölkədən 2152 universitetin dəyərləndirildiyi reytinqdə Azərbaycan universitetləri arasında Bakı Dövlət Universiteti ən yüksək nəticələr göstərmişdir [39].

Azərbaycanda ali təhsilin təşkili və inkişafı birbaşa Bakı Dövlət Universitetinin yaranması tarixi ilə başlanır. Bakı Dövlət Universitetinin yaranması xalqımızın uzun illər boyu keçdiyi milli-mədəni dirçəliş mübarizəsinin məntiqli nəticəsidir. Azərbaycan xalqının milli sərvəti olan Bakı Dövlət Universiteti bizə Xalq Cümhuriyyətinin yadigarıdır. 1919-cu ildən fəaliyyət göstərən "Azərbaycan təhsilinin flaqmanı" dövrün bütün çətinliklərinə baxmayaraq, fəaliyyətini 100 ildən artıq bir müddətdə davam etdirməyi bacarmışdır. Müsəlman Şərqində ilk Avropa tipli ali təhsil ocağı olan Bakı Dövlət Universiteti indi də savadlı milli kadrların hazırlanmasında müstəsna rola malikdir. Bu mövqe illər keçdikcə daha da yüksləcək.

## Ədəbiyyat


1. Abbasova Q.A. Azərbaycanın dünya təhsil sisteminə inteqrasiyası: yeni ixtisasların açılması. Azərbaycanın ictimai-siyasi həyatında Bakı Dövlət Universitetinin Tarix fakültəsinin yeri və rolu. Bakı Dövlət Universitetinin və Tarix fakültəsinin 100 illik yubileylərinə həsr olunmuş Respublika elmi konfransının materialları. 8-9 oktyabr 2019-cu il. Bakı, 2020. 146-148 s.
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, 2 cilddə, I cild. Bakı: 2004, 440 s.
3. Azərbaycan Xalq Cümhuriyyəti. Parlament (Stenoqrafik hesabatlar), 2 cilddə, II cild. Bakı: Azərbaycan, 1998. 992 s.
4. Azərbaycan tarixi, Yeddi cilddə, V cild (1900-1920-ci illər), Bakı:Elm, 2008. 696 s.
5. Babayev E. 103 yaşlı Bakı Dövlət Universiteti / https//azertag.az/xeber\103_yasli_baki_dovlet_iniversiteti-2274455
6. “Bakı Universiteti” qəzeti. 2020. 28 mart.

7.“Bakı Universiteti” qəzeti. 2020. 30 sentyabr.
8.“Bakı Universiteti” qəzeti. 2020. 28 oktyabr.
9.“Bakı Universiteti" qəzeti. 2021.31 mart.
10.“Bakı Universiteti” qəzeti. 2021. 30 aprel.
11.“Bakı Universiteti” qəzeti. 2021. 30 iyul.
12.“Bakı Universiteti” qəzeti. 2021. 30 sentyabr.
13.“Bakı Universiteti” qəzeti. 2021. 30 dekabr.
14.“Bakı Universiteti” qəzeti. 2022. 29 aprel.
15.“Bakı Universiteti” qəzeti. 2022. 30 iyun.
16.“Bakı Universiteti” qəzeti. 2022. 31 avqust.
17.“Bakı Universiteti” qəzeti. 2022. 31 oktyabr.
18.“Bakı Universiteti” qəzeti. 2022. 30 dekabr.
19.“Bakı Universiteti” qəzeti. 2023. 31 may.
20.“Bakı Universiteti” qəzeti. 2023. 31 iyul.
21.“Bakı Universiteti” qəzeti. 2023. 31 avqust.
22.“Bakı Universiteti” qəzeti. 2023. 30 dekabr.
23.“Bakı Universiteti” qəzeti.2024. 31 yanvar.
24.“Bakı Universiteti” qəzeti. 2024. 29 fevral.
25.Bakı Dövlət Universiteti, İnkişaf Proqramı, 2014-2020, Bakı, 2014, http://static.bsu.az/w1/1slayd/cin/tht/+BDU%20%C4%B0nki%C5%9Faf%20Proqram%C4%B1%202014-2020%20(azeri).pdf
26.Boran Ə, Quliyeva S, İsmayılova N, Əzizbəyli E. Bakı Dövlət Universitetində sovet ideologiyasının təsiri və 20-30-cu illərdə fakültə quruculuğu prosesi, Azərbaycanın ictimai-siyasi həyatında Bakı Dövlət Universitetinin Tarix fakültəsinin yeri və rolu. Bakı Dövlət Universitetinin və Tarix fakültəsinin 100 illik yubileylərinə həsr olunmuş Respublika elmi konfransının materialları. 8-9 oktyabr 2019-cu il. Bakı, 2020, 33-51 s.
27.Elçin Babayevin apa.tvyə müsahibəsi, Azərbaycan Təhsil Portalı, 2019-11-21 12:59:00,https://azedu.az/az/news/22006-elcin-babayev-bdu-nun-2030-cu-ile-qeder-inkisaf-konsepsiyasini-hazirlayiriq-musahibe
28.Əmrahov Z, İsmayılov S. Bakı Dövlət Universitetinin tarixi. Elm və Təhsil, Bakı, 2019, 328 s.
29.Həmidov A. Yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasında Bakı Dövlət Universitetinin rolu, Azərbaycanın ictimai-siyasi həyatında Bakı Dövlət Universitetinin Tarix fakültəsinin yeri və rolu. Bakı Dövlət Universitetinin və Tarix fakültəsinin 100 illik yubileylərinə həsr olunmuş Respublika elmi konfransının materialları. 8-9 oktyabr 2019-cu il. Bakı, 2020, 148-149 s.
30.İbadova S, Bakı Dövlət Universiteti müasir təhsil sistemində: müqayisəli təhlil. Azərbaycanın ictimai-siyasi həyatında Bakı Dövlət Universitetinin Tarix fakültəsinin yeri və rolu. Bakı Dövlət Universitetinin və Tarix

fakültəsinin 100 illik yubileylərinə həsr olunmuş Respublika elmi konfransının materialları. 8-9 oktyabr 2019-cu il. Bakı, 2020, 57-163 s.
31.Mərdanov M. Azərbaycan Təhsil Tarixi, 4 cilddə, I cild. Təhsil, Bakı, 2011, 296 s.
32.Mərdanov M. Azərbaycan Təhsil Tarixi, 4 cilddə, II cild, Təhsil, Bakı, 2011, 704 s.
33.Mərdanov M. Azərbaycan Təhsil Tarixi, 4 cilddə, III cild, Təhsil, Bakı, 2011, 672 s.
34.Mərdanov M. Azərbaycan Təhsil Tarixi, 4 cilddə, IV cild, Təhsil, Bakı, 2012, 912 s.
35.Xələfov A. Bakı Dövlət Universiteti-100 (1919-1969-cu illər), Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və təcrübi jurnal, 2019, №2, 7-34 s .
36.Xələfov A. Bakı Dövlət Universiteti -100, Bakı Dövlət Universitetinin tərəqqi və inkişafında yeni mərhələ: Heydər Əliyev mərhələsi (1969-2003). 2019. 126 s.
37.“THE Impact 2024” reytinqinə daxil olan Azərbaycan universitetlərinin sayı 2 dəfədən çox artıbhttps://edu.gov.az/az/news-and-updates/21201-1
38.https://bsu.edu.az/az/news/bak_dvlt_universiteti_distant_təhsilin_tkili_n__yeni_tədris_ilin_hazrlq_ilrini_baça_atdrb
39.https://www.instagram.com/bdu_eduaz/p/C7irmKyIn0y/

# AZƏRBAYCAN RESPUBLİKASININ ENERJİ İXRACI SİYASƏTİ VƏ CƏNUBİ QAFQAZ REGİONUNDA GEOİQTİSADİ MARAQLAR

**Gülşən Xalıqova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
xaliqova.gulshen@ mail.ru

**Açar sözlər:** BTC boru kəməri, Xəzər nefti. TANAP, Bakı-Thilisi-Ceyhan, Yaşıl enerji

*Azərbaycan müstəqillik illərində milli maraqları təmin edən xarici siyasət yürütməsi istər beynəlxalq müstəvidə, istərsə də regional səviyyədə geoiqtisadi layihələrin gerçəkləşməsinə bir başa təsir etmişdir. Milli dövlətçiliyimizin bu mərhələsində enerji siyasətinin konseptual əsaslarla və real iqtisadi dəqiqliklə həyata keçirilməsi ölkəmizin iqtisadi və geosiyasi maraqlarının təmin olunmasında və regionda yüksək iqtisadi inkişaf tempinin əldə olunmasında əsas amillərdən biri olmuşdur.*

*Müasir Azərbaycan dövlətçiliyinin memarı olan və ölkəmizin siyasi və iqtisadi sabitliyinin təməllərini qoyan Ulu Öndər Heydər Əliyev düşünülmüş və uzaqgörən siyasəti nəticəsində bir tərəfdən Azərbaycan Respublikasının enerji layihələrinin həyata keçirilməsinin hüquqi və siyasi əsasları yaradılmış, digər tərəfdən sonrakı mərhələlərdə alternativ enerji daşıyıcıları boru xətlərinin fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir*

# ЭКСПОРТНАЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ И ГЕОЭКОНОМИЧЕСКИЕ ИНТЕРЕСЫ В РЕГИОНЕ ЮЖНОГО КАВКАЗА

**Гюльшан Халыгова**

***Ключевые слова:*** *трубопровод БТД, каспийская нефть. TANAP, Баку-Тилиси-Джейхан, Зеленая энергетика*

*В годы независимости Азербайджана проведение внешней политики, обеспечивающей национальные интересы, оказало большое влияние на развитие геоэкономических проектов, как на международном уровне, так и на региональном уровне. На данном этапе нашей*

*национальной государственности реализация энергетической политики на концептуальной основе и с реальной экономической точностью стала одним из главных факторов обеспечения экономических и геополитических интересов нашей страны, достижения высоких темпов экономического развития в регионе.*

*В результате продуманной и дальновидной политики общенационально*
*го лидера Гейдара Алиева, который заложил основы политической и экономической стабильности нашей страны, были созданы политические основы для реализации энергетических проектов Азербайджанской Республики, а также на последующих этапах были определены направления эксплуатации трубопроводов альтернативных энергоносителей.*

## ENERGY EXPORT POLICY OF THE REPUBLIC OF AZERBAIJAN AND GEOECONOMIC INTERESTS IN THE SOUTH CAUCASUS REGION

**Gulshan Khaligova**

***Keywords:*** *BTC pipeline, Caspian oil. TANAP, Baku- Tbilisi-Ceyhan, Green energy*

*During the years of Azerbaijan's independence, the conduct of foreign policy that ensured national interests had a major impact on the development of geo-economic projects, both at the international level and at the regional level. At this stage of our national statehood, the implementation of energy policy on conceptual basis and with real economic precision has been one of the main factors in securing the economic and geopolitical interests of our country and achieving a high rate of economic development in the region.*

*As a result of the thoughtful and far-sighted policy of the Great Leader Heydar Aliyev, who is the architect of the modern statehood of Azerbaijan and laid the foundations of the political and economic stability of our country, on the one hand, the legal and political foundations for the implementation of the energy projects of the Republic of Azerbaijan were created, on the other hand, the directions of operation of pipelines of alternative energy carriers were determined in the subsequent stages.*

Dünyada sürətlə artan enerji tələbatına qarşı daim yeni mənbələr axtarır. Bəşər tarixində odun kəşfindən sonra cəmiyyətlər daim öz enerji ehtiyaclarını ödəmək üçün yeni yollar axtarışındadır. Bir tərəfdən dünya əhalisinin sürətlə artımının yaratdığı problemlər, digər tərəfdən sənaye və texnologiyanın inkişafıyla əlaqədar artan enerji tələblərini qarşılamaq üçün meydana çıxan suallar və bu sualların cavablandırılması yönündə atılan addımlar regional və beynəlxalq səviyyədə geosiyasi və geoiqtisadi məsələlərə təsir edir. Fosil mənbəyi olan enerji resurslarının tükənmə ehtimalını nəzərə alsaq, bərpa olunan enerji mənbələri bu axtarışda ən mühüm yer tutur. Bərpa olunan enerji resursları dedikdə təbiətdə mövcud olan, əsasən heç bir istehsal dövründə heç bir ehtiyac olmadan mövcud olan, fosil mənşəli olmayan, ənənəvi enerji mənbələrindən daha az ətraf mühitə zərər və təsir göstərən, daim yenilənən və istifadəyə hazır olan enerji resursları nəzərdə tutulur. Bəşəriyyət bərpa olunmayan enerjidən bərpa olunan enerjiyə keçidin astanasındadır. Məsələn, mütəxəssislərin hesablamalarına görə dünyada 2030-cu ilədək enerjiyə olan tələbatın 60-70%-ə qədərini bərpa olunan enerji tutacaq. Bu faktı qeyd etməkdə məqsəd bərpa olunan enerjinin bəşəriyyət üçün əhəmiyyətini qeyd etmək deyil, əslində məqsədimiz Azərbaycanın bərpa olunmayan enerjidən strateji dəqiqliklə vaxtında istifadə etməsini və bunun fonunda gələcək nəsillərin inkişafını şərtləndirən siyasətin Güney Qafqazda yaratdığı geoiqtisadi reallığı təhlil etməkdir.

Tarixlər boyu Güney Qafqaz bölgəsi siyasi, iqtisadi, strateji baxımdan olduqca əhəmiyyətli bölgələrdən biri olmuş, müxtəlif dövrlərdə baş verən proseslərdə həmişə diqqət mərkəzində olmuşdur. Güney Qafqaz bölgəsinin coğrafi xüsusiyyətlərinə diqqət yetirdikdə, "Cənubi Qafqaz Qara dənizi Xəzər dənizindən ayıran, 486.000 $km^2$-dən çox olan torpaqları əhatə edən, cənub-qərbdə Türkiyə, cənubda İran, şimalda isə Rusiya Federasiyası ilə həmsərhəd olan bir siyasi coğrafiyada yerləşir" [1, s. 22].

Cənubi Qafqaz geosiyasi mövqeyinə görə çox həssas bir yerdə yerləşir. Bu bölgə həm çox zəngin neft hövzəsidir, həm də Fars körfəzinə nəzarət edən strateji mövqeyə malikdir. Bu bölgənin əhəmiyyətini artıran məqamlardan biri də böyük dövlətlərin maraq dairəsində olan Xəzər hövzəsi enerji qaynaqlarının dünya bazarlarına nəqli marşrutu üzərində yerləşməsidir. Bu xüsusiyyəti ilə bölgə qlobal miqyasda xüsusi əhəmiyyət kəsb edir. Həmçinin, Cənubi Qafqaz regionu coğrafi mövqeyindən irəli gələn geosiyasi dəyərə malikdir, çünki Rusiyanın Aralıq dənizi, Yaxın Şərq və Afrika regionlarına nəzarət etmək üçün bağlantı nöqtəsi roluna malikdir.

Əsrlər boyu bir çox köç və miqrasiya hərəkətlərinin mərkəzi olan Anadolu bölgəsinin qapısının açarı olan Qafqazın digər bir xüsusiyyəti də bölgənin qitələr arasında yerləşməsidir. Qafqaz bölgəsi Yaxın Şərq, Avropa və Asiya arasında yeganə tranzit nöqtəsidir. Qara dəniz-Avropa, Xəzər dənizi-

Mərkəzi Asiya, Suriya-Misir, həmçinin İranla Fars körfəzi arasında əlaqə nöqtələri üzərində coğrafi hegemonluğuna görə bu tranzit dəhlizlər üçün yeganə strateji qapıdır. Belə mühüm mövqeyə malik olan Qafqaz regionu əsrlər boyu bir çox dövlətlərin hədəf nöqtəsi olmuş və geostrateji xüsusiyyətinə görə dünyanın əsas siyasi mübarizə mərkəzlərindən birinə çevrilmişdir [2, s. 124].

Azərbaycanın milli maraqları Cənubi Qafqazın geosiyasi vəziyyətinə uyğun şəkildə bölgənin enerji ehtiyatlarını müstəqil şəkildə, daha etibarlı və təhlükəsiz yollarla dünya bazarına çatdırılmasını tələb edir. Yuxarıda Cənubi Qafqazın strateji əhəmiyyətini qeyd edən müəllifin yanaşmasından aydın olur ki, strateji əhəmiyyət daşıyan bu bölgə ticarət və nəqliyyat kommunikasiya baxımından cəlbedicidir. Digər tərəfdən Cənubi Qafqazın geosiyasi və strateji əhəmiyyəti, beynəlxalq aləmin bu bölgəni daima diqqət mərkəzində saxlamağa məcbur edən əsas amillərdəndir. Xüsusilə də Azərbaycanın siyasi və iqtisadi mövqeyi, Şərq-Qərb nəqliyyat dəhlizində birləşdirici faktorlardan biri olması, Xəzər bölgəsinin zəngin enerji ehtiyatlarında xüsusi çəkiyə malik olması, bu amilləri daha da əhəmiyyətli edir. “Sovet İmperiyasının süqutundan sonra Avrasiya coğrafiyasında gündəmə gələn və “böyük oyun” olaraq da adlandırılan dövlətlərarası münaqişələrin arxa planında enerji qaynaqlarına nəzarət edilməsi, istifadəsi və yaxud nəql edilməsi ilə əlaqədar geosiyasi və ya geoiqtisadi qarşıdurmalar dayanırdı” [3, s. 1].

Azərbaycanın Cənubi Qafqazın aparıcı dövlətinə çevrilməsində Prezident İlham Əliyevin həyata keçirdiyi yeni neft strategiyası və uğurlu enerji ixracı siyasəti böyük rol oynamışdır. Məhz bu baxımdan Azərbaycan Güney Qafqazın yeganə ölkəsidir ki, zəngin karbohidrogen ehtiyatlarına malik olması və dünya enerji sistemində getdikcə həlledici bir amilə çevrilməsi, beynəlxalq enerji bazarlarında özünəməxsus yer tutması qlobal geosiyasi, geoiqtisadi mövqeyinin möhkəmlənməsinə xüsusi təsir göstərməkdədir. Digər tərəfdən Azərbaycan inkişaf etmiş kommunikasiya potensialını reallığa çevirməsi və işğaldan azad olunmuş ərazilərdə yaşıl enerji (külək, günəş enerjisi) layihələrinə start verilməsi, Avropanın enerji təhlükəsizliyində Rusiya-Ukrayna müharibəsindən sonra yaranmış imkandan maksimum istifadə olunması yalnız regional səviyyədə deyil, həm də qlobal səviyyədə əsas oyunçulardan biri olduğunu göstərir.

“Azərbaycanın enerji ehtiyatları həm də milli iqtisadiyyatın bütün sahələrinin dinamik inkişafının əsasını təşkil edir. Ölkənin ümumi daxili məhsulunun və əsas maliyyə-iqtisadi göstəricilərinin formalaşmasında həlledici rol oynayır. Məhz bu baxımdan mövcud təbii ehtiyatlardan, yanacaq-enerji potensialından səmərəli istifadə edilməsi siyasəti Güney Qafqazın regional geosiyasi və geoiqtisadi vəziyyəti fonunda ölkənin davamlı iqtisadi inkişafının və iqtisadi təhlükəsizliyinin əsas təminatlarından birini yaradır” [4, s.133].

Azərbaycan Respublikası enerji təhlükəsizliyi siyasətinin hüquqi və

iqtisadi əsasları öz əksini "Əsrin müqaviləsi"nin imzalanması ilə başlanan yeni neft strategiyasında tapmışdır.

Xüsusilə vurğulamaq lazımdır ki, Xəzər dənizində Azərbaycana məxsus zəngin enerji resurslarını Bakı-Tbilisi-Ceyhan əsas neft və Bakı-Tbilisi-Ərzurum qaz ixracı kəmərləri, həmçinin TANAP, TAP qaz boru kəməri vasitəsilə çoxşaxəli marşrutlarla beynəlxalq arenaya çıxarması enerji təhlükəsizliyinə beynəlxalq dəstəyi artırmış, dünya enerji sferasında rolunu yüksəltmişdir. Bu amillər ölkənin beynəlxalq aləmlə enerji sahəsində strateji tərəfdaşlıq münasibətlərinin yaranmasına və iqtisadi cəhətdən inkişaf etməsinə ciddi təkan vermişdir. Qlobal enerji layihələrinin reallaşması Xəzər hövzəsində enerji təhlükəsizliyinin qorunmasına regional və beynəlxalq dəstəyi gücləndirmiş, Güney Qafqaz bölgəsinin, ümumilikdə Avrasiya dünyasının enerji təhlükəsizliyinə müsbət təsir etmiş, neft-qaz nəqli sahəsində səmərəli beynəlxalq əməkdaşlıq münasibətlərinin yaradılmasına geniş imkanlar açmışdır.

Azərbaycanın çoxşaxəli enerji ixracı siyasəti Cənubi Qafqaz regionunda yeni geoiqtisadi maraqlar yaratmış, həyata keçirdiyi uğurlu enerji ixracı siyasətinin nəticəsi olaraq bölgəyə istər region ölkələrinin, istərsə də dünyanın qlobal güc mərkəzlərinin marağı artırmışdır. Azərbaycanın Cənubi Qafqazın lider dövləti olaraq müstəqil enerji ixracı siyasətində fəal rol oynaması böyük siyasi və iqtisadi güclərin bölgədə fəallaşmasına səbəb olmuşdur.

2000-ci illərdə gündəmə gələn enerji təhlükəsizliyi konsepsiyası və ABŞ-da baş verən 11 sentyabr terror hadisələrindən sonra Mərkəzi Asiya-Qafqaz oxunda kəskinləşən qlobal güc rəqabəti Rusiyanın Qafqazı öz "arxa bağça"sına çevirmək siyasətinin sonunu gətirmiş, regionu beynəlxalq siyasət meydanında ön plana çıxarmışdır. Başda ABŞ, Aİ və Rusiya olmaqla qlobal güclərin regional rəqabətinə, həmçinin Türkiyə və İran kimi regional güclərin əməkdaşlıq və rəqabətinə səhnə olan region, həlli çətin olan daxili problemləri səbəbindən çox dəyişkən siyasi mühitə çevrilmişdir[5, s. 953].

SSRİ dağıldıqdan sonra Avropa Birliyi bölgə dövlətləri üçün müxtəlif proqramlar həyata keçirməyə başlamışdır. Bunun davamı olaraq MDB ölkələrinin Qafqaz və Qara dəniz üzərindən Avropayla əlaqəsini qurmaq məqsədilə TRACECA layihəsinin icrasına qərar vermişdir. "Həmçinin Orta Asiya-Qafqaz bölgəsinin neft və qazının Avropaya nəqli üçün INOGATE [İnterstate Oil and Gas Transport to Europe: Avropaya Dövlətlərarası Neft və Qaz İxracı] proqramını da həyata keçirmişdir. Bu məqsədlə Avropa Birliyi MDB ölkələri və Cənubi Qafqaz ölkələri ilə əməkdaşlıq quraraq bu ölkələrə maddi və texniki yardım göstərmişdir" [6, s.73].

Sovet İttifaqı dağıldıqdan sonra Rusiyanın Cənubi Qafqazda siyasi və iqtisadi mövqeyi nəzərəçarpacaq dərəcədə zəifləsə də, lakin Rusiya bu bölgədə öz maraqlarını qorumaq üçün mümkün vasitələrdən istifadə etməkdədir. Xüsusilə də Rusiyanın Xəzəryanı bölgələrə və Azərbaycana yönəlik siyasəti,

regionun geosiyasi vəziyyətinin formalaşmasında əsas faktorlardan biridir.

Geosiyasi baxımdan Rusiya ilə əlaqələrin qurulması və bu əlaqələrin formalaşması şimaldan Rusiya ilə qonşu olan Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. Həmçinin Rusiyanın Azərbaycan üçün əhəmiyyəti eyni coğrafi müstəvidə yerləşməsi, yüz illər boyu ortaq tarixi keçmişə malik olması ilə xarakterizə olunur [7, s. 31].

Qeyd olunduğu kimi, Xəzər dənizi hövzəsindəki zəngin neft və təbii qaz yataqları beynəlxalq şirkətlərin sıx marağının və milyardlarla dollarlıq layihələrin həyata keçməsi üçün bir geoiqtisadi müstəvi olmuşdur. Xüsusilə də Azərbaycanın həm neft, həm də qaz ehtiyatlarının mövcudluğu bölgəyə ən çox investisiya cəlb olunmasında ən mühüm amillərdən biridir. Enerji ehtiyatlarının mövcud olmadığı Ermənistan enerji siyasətində o qədər də şanslı olmasa da, Gürcüstan Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərlərinin keçdiyi tranzit ölkə olaraq böyük strateji əhəmiyyət qazanmışdır [212, s. 109].

## Ədəbiyyat


1. Ağacan, K. ABD'nin Kafkasya Politikası // K.Ağacan. – İstanbul: Değişen Dünya Düzeninde Kafkasya: / Kitabevi Yayınları, – 2005. – s. 31-46.
2. Andican, A. Kafkasya ile İlişkiler // Türk Dış Politikası: 1919-2008. – Ankara: Barış Platin Yayınları, – 2008. – s.953-962.
3. Davutoğlu, A. Stratejik Derinlik / A.Davutoğlu. – İstanbul: Küre Yayınları, – 2003. – 584 s.
4. Həsənov, Ə.M. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları / Ə.M.Həsənov. – Bakı: "Zərdabi LTD", – 2016. – 700 s.
5. Karabayram, F. Rusya Federasyonu'nun Güney Kafkasya Politikası. Ankara, Lalezar Kitabevi, 2007, 357 s. S.73.
6. Özey, R. Kafkasya ve Kafkas ülkeleri // Avrasya Etütleri, TİKA yayınları, 2000,– sayı 17, ilkbahar-yaz, – s. 21-40.
7. Özalp, N. Büyük Oyunda Hazar Enerji Kaynaklarının Önemi ve Konumu // Panorama Dergisi, – Şubat 2004, – Sayı 1, – s. 1. – 04 Mart 2006; // http://www.emreozgur.com/enerji.pdf

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2024, 2 (43), s.89-95

# ŞİRVAN BÖLGƏSİNDƏ BOYAQÇILIQ SƏNƏTİNİN İNKİŞAFI TARİXİNDƏN

**Emiliya Əliyeva**
**AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu**
mustafayev1954@list.ru

***Açar sözlər:*** *Şirvan bölgəsi, boyaqçılıq, toxuculuq, xalçaçılıq, rənglər*

*Şirvan bölgəsində inkişaf etmiş sənət sahələrindən biri də boyaqçılıq sənəti olmuşdur. Bu sənət sahəsinin inkişafında təbii boyaq vasitələrinin bolluğu, eləcə də xalçaçılıq, parça toxuculuğu və gön-dəri məmulatı istehsalı kimi sənət sahələrinin geniş yayılması rol oynayırdı.Yerləşdikləri təbii-coğrafi şəraitdən asılı olaraq boyaqçılar boyaq vasitəsi kimi nar qabığı,tut yarpağı, soğan qabığı,ərik, alma, gavalı heyva, şaftalı və sairdən istifadə edərək öz məmulatlarına istədikləri rəng və rəng çaları verirdilər. Demək olar ki, bölgənin bütün toxuculuq mərkəzlərində fəaliyyət göstərən boyaqçılar toxuculuq və gön-dəri məmulatlarının bədii tərtibatında mühüm rol oynayırdılar. Azərbaycanın digər bölgələrində olduğu kimi, Şirvan bölgəsində də boyaqxanalar təyinatlarına görə 3 yerə – müstəqil boyaqxanalara, toxuculuq emalatxanaları nəzdində fəaliyyət göstərən boyaqxanalara və mövsümi fəaliyyət göstərən ev boyaqxanalarına bölünürdü.*

## ИЗ ИСТОРИИ РАЗВИТИЯ КРАСИЛЬНОГО ДЕЛА В ШИРВАНСКОЙ ОБЛАСТИ

**Эмилия Алиева**

***Ключевые слова:*** *Ширванская область, крашение, ткачество, ковроткачество, цвета*

*Одним из направлений искусства, развитых в Ширванской области было красильное дело. В развитии этой области искусства сыграли свою роль обилие натуральных красителей, а также широкое распространение таких искусств, как ковроткачество, ткачество сукна, производство изделий из кожи. В зависимости от природно-географических условий,в которых они находились, красильщики придавали своим изделиям желаемый цвет и оттенок,используя в качестве красящего средства кожуру граната, лист шелковицы, луковичную шелуху, абрикос, яблоко,*

*сливу, айву, персик и так далее. Можно сказать, что красильщики, действовавшие почти во всех текстильных центрах региона, сыграли важную роль в художественном оформлении текстильных и кожаных изделий. Как и в других регионах Азербайджана, красильные цеха в Ширванской области по назначению делились на 3 типа – самостоятельные красильни, красильные цеха, работающие при текстильных мастерских и домашние красильни, работающие сезонно.*

## ON THE HISTORY OF DYEING DEVELOPMENT IN THE SHIRVAN REGION

**Emilia Aliyeva**

***Keywords**: Shirvan region, dyeing, weaving, carpet weaving, colours*

*One of the art directions that developed in the Shirvan region was dyeing. The abundance of natural dyes played a role in the development of this area of art, as well as the widespread use of such arts as carpet weaving, cloth weaving, and leather goods production. Depending on the natural and geographical conditions in which they were located, the dyers gave their products the desired color and shade, using pomegranate peel, silkworm leaf, onion husk, apricot, apple, plum, quince, peach, and so on. It can be said that dyers, who operated in almost all textile centers of the region, played an important role in the artistic design of textiles and leather products. As in other regions of Azerbaijan, dyeing workshops in the Shirvan region were divided into 3 types according to their purpose – independent dyeing workshops, dyeing workshops operating at textile workshops, and home dyeing workshops operating seasonally.*

Qədim Azərbaycan torpağı olan Şirvan bölgəsi uzun müddət xalqımızın ictimai-siyasi və iqtisadi həyatında mühüm rol oynamışdır. Bölgə yeddi əsrdən çox bir müddət ərzində Azərbaycan tarixində özünə məxsus rol oynamış Şirvanşahlar dövlətinin tərkibində olmuşdur. 1538-ci ildə Şirvanşahlar dövlətinin varlığına son qoyan Azərbaycan Səfəvilər dövləti onun ərazisində yeni inzibati-ərazi vahidi – Şirvan bəylərbəyiliyini yaratdı. XVIII əsrin ortalarından XIX əsrin əvvələrinə qədər mövcud olmuş xanlıqlar dövründə tarixi Şirvan ərazisində bir neçə xanlıq – Şamaxı, Quba, Dərbənd və Bakı xanlıqları mövcud olmuşdur. Rus müstəmləkəçiliyi dövründə isə Şirvan bölgəsinin özəyini təşkil edən torpaqlar əvvəlcə Şirvan əyalətinin, sonralar isə Şamaxı və Göyçay qəzalarının tərkibində olmudur. Şirvan bölgəsində

boyaqçılıq sənətinin vəziyyətini araşdırarkən biz Şamaxı xanlığına, Şirvan əyalətinə, Şamaxı və Göyçay qəzalarına aid materialları əsas götürmüşük.

Azərbaycanın digər bölgələrində olduğu kimi, Şirvan bölgəsində də boyaqçılıq sənətinin yaranması və inkişafı qədim tarixə malikdir. Onu da qeyd etmək lazımdır ki, müstəqil fəaliyyət göstərən əksər sənət sahələrindən fərqli olaraq boyaqçılığın inkişafı daha çox xalçaçılıq, parça toxuculuğu və gön-dəri məmulatı istehsalı kimi sənət sahələrinin inkişafı ilə sıx bağlı olmuşdur. Tədqiqatçı C.Mustafayev haqlı olaraq göstərir ki, "boyaqçılıq sənəti əslində toxuculuq və gön-dəri məmulatı istehsalının yekun mərhələsi olub, hazır məhsulların bədii zövqlə tərtib edilməsinə xidmət edirdi[7, s. 96]".

Əldə olan materialların təhlili göstərir ki, Şirvan bölgəsi əsrlər boyu yuxarıda adları çəkilən sənət sahələrinin mühüm mərkəzlərindən biri olmuşdur. Bölgə özünün ipək parçaları ilə xüsusilə məşhur idi. XIX əsrin əvvəllərinə aid məlumata görə hətta siyasi şəraitin olduqca mürəkkəb olduğu bir dövrdə Şamaxı xanlığında 1000-dən çox ipək parça toxuyan dəzgah fəaliyyət göstərirdi[9, s. 83]. İstehsal edilən ipək parçaların yalnız Azərbaycanda deyil, onun hüdudlarından uzaqlarda da şöhrət qazanmasında toxucularla yanaşı öz işlərinin mahir ustaları olan boyaqçıların da böyük rolu vardır. XVIII əsrin 30-40-cı illərində Azərbaycanda olmuş səyyah İ.Lerx Ağsuda-Yeni Şamaxıda məhz boyaqçıların əli ilə yaşıl, qırmızı, göy rənglərlə boyanmış ipək parçalardan böyük heyranlıqla danışır[14, s.489].

Şirvan bölgəsində boyaqçılıq sənətinin inkişafı həm də xalçaçılıq sənətinin inkişafı ilə sıx bağlı olmuşdur. Əldə olan məlumatlar göstərir ki, bu sənət bögənin bütün yaşayış məntəqələrində geniş yayılmışdı. Rusiya imperiyasında 1897-ci ildə keçirilmiş Birinci ümumrusiya siyahıya alınmasında verilmiş məlumatlar əsasında apardığımız hesablamalara görə bölgənin Şamaxı və Göyçay qəzalarında 4593 nəfər xalçaçı fəaliyyət göstərirdi[15, s. 142-145]. Digər bölgələrdə olduğu kimi, Şirvan bölgəsində də xalça istehsalı üçün nəzərdə tutulmuş yun ipliklərin müxtəlif rənglərə boyanması zərurəti boyaqçılıq sənətinin inkişafı üçün əlverişli zəmin yaradırdı. Azərbaycanın müxtəlif xalçaçılıq mərkəzlərində xalça istehsalında 8-dən 12-yə qədər rəng və rəng çalarından istifadə edilirdi. Ümumilikdə isə Azərbaycanda fəaliyyət göstərən göstərən boyaqçılar 50-yə qədər rəng çaları almağı bacarırdılar[8, s. 54].

Bəzi tədqiqatçılar XVIII-XX əsrlərdə Azərbaycanda, o cümlədən Şirvan bölgəsində fəalyyət göstərən boyaqxanaları forma baxımından 3 növə bölürlər. Birinci növ emalatxanalar müstəqil olub daha çox şəhərlər və sənət istehsalının, ilk növbədə isə toxuculuğun inişaf etdiyi böyük kəndlər üçün xarakterik idi. Əksər hallarda hakim təbəqələrin ayrı-ayrı nümayəndələrinin mülkiyyətəndə olan birinci növ emaltxanalar onlar tərəfindən icarəyə verilirdi. Belə emalat-xanalar Şamaxı xanlığında da yayılmışdı. Arxiv sənədinin verdiyi məlumatdan aydın olur ki, XIX əsrin əvvəllərində Şamaxı xanlığının Basqal və Qalaqayın

kəndlərində bu növ emalatxanalar fəaliyyət göstərirdi. Basqal kəndində Şamaxı xanı Mustafa xanın qohumuna məxsus olan boyaqçılıq emalatxanası ildə 120 manata icarəyə verilirdi. Qalaqayın kəndindəki boyaqçılıq emalatxanası isə Mustafa xanın mülkiyətində olub ildə 150 manata icarəyə verilirdi[2, v. 2-91; 3, v. 4-15].

İkinci növ boyaqxanalar daha çox toxuculuq emalatxanalarının nəzdində fəaliyyət göstərib həmin emalatxanalarda toxunan toxuculuq məmulatlarının rənglənməsinə xidmət edirdi. Boyaqxanaların bu növü Şirvanda xüsusilə geniş yayılmışdı. Üçüncü növ emalatxanlar xalçaçılığın xüsusilə geniş yayıldığı kənd yerləri üçün daha xarakterik idi. Sənətkarlıq mərkəzləri kimi tanınan böyük kəndlərdə yerləşən belə emalatxanalarda ipəyin, daha çox isə yun iplikərin göy, yaşıl və mavi rənglərə boyanması həyata keçirilirdi. Əksər hallarda bu tipli boyaqxanaların fəaliyyət dairəsi yerləşdikləri yaşayış məntəqəsi ilə məhdudlaşmayıb yaxınlıqda yerləşən yaşayış məntəqələrini də əhatə edirdi. Bu emalatxanalarda çalışan sənətkarlar ehtiyac yarandıqda yaxınlıqda yerləşən kəndləri gəzərək yun iplikləri toplayır və müəyyən vaxtdan sonra sifariş verilmiş rənglərə boyayaraq sahiblərinə qaytarırdılar[11, s. 90]. Göy, mavi və yaşıl rənglərə boyamaq üzrə ixtisaslaşan və bütün il boyu fəaliyyət göstərən birinci iki növ emalatxanadan fərqli olaraq bu emalatxanaların fəaliyyəti mövsümi xarakter daşıyırdı[7, s. 90]. Bu emalatxanaların əsas işçi qüvvəsini xalça toxumaqla məşğul olan qadınlar təşkil edirdi.

Hələ xanlıqlar dövründə Şirvan bölgəsi özünün boyaqxanaları ilə məşhur idi. Bir tərəfdən boyaq bitkilərinin zənginliyi, digər tərəfdən isə parça toxuculuğunun və xalçaçılığın yüksək inkişaf səviyyəsinə çatması bu bölgədə boyaqçılıq sənətinin geniş yayılması üçün əlverişli şərait yaratmışdı. Digər xanıqlardan fərqli olaraq boyaqxanalar Şamaxı xanlığının demək olar ki, bütün ərazisində yayılmışdı. Yuxarıda göstərildiyi kimi, Basqal və Qalaqayın kəndlərində müstəqil, Mücü kənsində isə toxuculuq emalatxanasının nəzdində boyaqxanalar fəaliyyət göstərirdi[5, v. 14-16]. Bununla belə, boyaqçılıqla məşğul olan sənətkarların əsas hissəsi Şamaxı şəhərində cəmləşmişdi. 1831-ci ilə aid arxiv sənədində verilən məlumata görə Şamaxı şəhərində 25 nəfər boyaqçı fəaliyyət göstərirdi[4, v. 2-235]. Xanlıqlar dövründə boyaqçılıq sənəti Şamaxı xanlarının əsas gəlir mənbələrindən birini təşkil edirdi. Sənətkarlardan toplanan digər vergilər kimi, boyaqpulu vergisi də ayrı-ayrı şəxslər iltizama verilirdi. XIX əsrin əvvəllərin aid mənbənin verdiyi məlumata görə bütün Şamaxı xanlığını əhatə edən boyaqpulu vergisinin illik iltizam həcmi 1500 manat təşkil edirdi[9, s.83].

Şirvan bölgəsində boyaqçılıq sənəti sonrakı onilliklərdə daha da inkişaf etmişdi. XIX əsrin 40-cı illərində Şamaxı şəhərində fəaliyyət göstərən boyaqçıların sayı artıq 68 nəfərə çatmışdı. Akademik Ə.S.Sumbatzadənin

verdiyi məlumata görə bütün Azərbaycanda fəaliyyət göstərən boyaqçılıq emalatxanalarının dörddə üçü Şirvan bölgəsinin payına düşürdü[17, s. 129].

Parça və xalşa toxuculuğunun inkişafı və bu sahələrdə əmək bölgüsünün dərinləşməsi oxşar proseslərin boyaqçılıq sənətində də getməsini zəruri edirdi. XIX əsrin əvvəllərində bez parça istehsalının geniş miqyas alması ona gətirib çıxarmışdı ki, boyaqçıların bir qismi bu parçaların boyanmsı üzrə ixtisaslaşmışdı. Eyni zamanda boyqçıların xeyli hissəsi ipək və yun məmulatlarının boyanması ilə məşğul olurdular. Şirvan bölgəsinin bəzi sənətkatlıq mərkəzlərində pambıq parçaların üzərinə basma naxış vüran sənətkarlar da fəaliyyət göstərirdilər.

Azərbaycanın digər sənətkarlıq mərkəzlərində olduğu kimi, Şirvan bölgəsində də boyaqxanalar arasında müəyyən əmək bölgüsü özünü aydın şəkildə biruzə verirdi. Digər rənglərlə müqayisədə toxuculuq məmulatlarını göy, yaşıl və mavi rənglərə boyamaq xeyly mürəkkəb olduğundan bu işlə "boyaqçı" adlandırılan sənətkarlar məşğul olurdular. Toxuculuq məmulatlarının yerdə qalan digər rənglərə boyanması ilə məşğul olan sənətkarlar "şiləçi" adlandırılırdılar[6, s. 225]. Şirvan bölgəsində boyaqçılıq sənətinin yüksək inkişaf səviyyəsinə çatmasında həm bölgənin özündə, həm də onunla qonşu olan Azərbaycan ərazilərinin zəngin xammal bazasına malik olması mühüm rol oynayırdı. Azərbaycanın digər boyaqçılıq mərkəzlərində olduğu kimi, Şirvan boyaqçıları da bitki və heyvan mənşəli boyaq vasitələrindən istifadə edirdilər. Yerləşdikləri təbii-coğrafi şəraitdən asılı olaraq boyaqçılar boyaq vasitəsi kimi nar qabığı, cövüz gərzəyi, tut yarpağı, soğan qabığı, ərik, alma, gavalı, heyva, şaftalı, səndəl ağacı və sairdən istifadə edərək öz məmulatlarına istədikləri rəng və rəng çaları verirdilər. Etnoqrafik tədqiqatlar göstərir ki, Azərbaycanın boyaqçı sənətkarları 50-yə qədər rəng çaları ala bilirdilər[8, s. 35].

Bəzi boyaq bitkiləri istehsal yerindən asılı olmayaraq bütün boyaqçılıq mərkəzlərində, o cümlədən Şirvan bölgəsində istifadə edilirdi. Belə boyaq vasitələrinə misal olaraq rus mənbələrində "marena" adlandırılan boyaq otu bitkisini göstərmək olar. Daha çox qırmızı rəng və onun çalarlarının alınmasında istifadə edilən bu bitki Quba və Dərbənd xanlıqlarının ərazisində becərilirdi. Bu bitkinin Şamaxı xanlığının ərazisində becərilməsi haqqında da məlumat var[9, s. 82-83]. XIX əsrin ikinci yarısnda boyaq otunu illik istehsalı 400.000 puda çatırdı[16, s. 28]. Onu da göstərmək lazımdır ki, boyaq otu bitkisinin qrmızı rəng və onun müxtəlif çalarlarının alınmasında əvəzsiz xammal olması ona ölkə daxilində və onun hüdudlarından kənarda böyük tələbat yaradırdı. XIX əsrin 30-cu illərinə aid mənbələrdən birində göstərilirdi ki, boyaq otu "yun, ipək və hətta pambığı qırmızı rəngə boyamaqla yanaşı, həm də müxtəlif parçaları digər rənglərə boyamağa kömək edir. Ümumiyyətlə, o Zaqafqaziyada böyük gəlir verir, çünki burada qırmızı rəngdən çox istifadə edirlər" [12, s. 175].

Şirvanda fəaliyyət göstərən boyaqçılar istehsal etdikləri məmulatların bədii tərtibatında sarı rəngdən də istifadə edirdilər. Bu rəngin alınmasında sarağan və zəfəran mühüm rol oynayırdı. Onu da göstərmək lazımdır ki, sarağanın boyaq xassəsi XIX əsrin 80-ci illərində Şəki dabbağları tərəfindən aşkar edilmişdi. Həmin vaxta qədər Şəki dabbağları istehsal etdikləri gön-dəri məmulatlarının istər aşqarlanmasında, istərsə də sarı rəngə boyadılmasında çox baha qiymətə İrandan gətirilən "mürəkkəb qozu"ndan istfadə edirdilər[10]. Sarağanın mühüm əməli əhəmiyyətə malik olduğunu görən istər dabbğlar, istərsə də boyaqçılar onda kütləvi şəkildə istifadə etməyə başladılar. Bu isə sarağana olan tələbatı artırmaqla yanaşı onun qiymətinin də artmasına gətirb çıxardı. Artıq XIX əsrin sonlarında sarağanın illik yığımı 100 min puda çatmışdı. Qısa müddət ərzində bu bitkinin qiyməti 20 qəpikdən 1 manat 20 qəpiyə çatmışdı. Nəticədə sarağan yığımı əhalinin mühüm gəlir mənbəyinə çevrildi. Yalnız yaşlı insanların deyil, həm də uşaqların iştirak eydiyi sarağan yazın əvvəllərindən başlayb payıza qədər davam edirdi[10; 17, s. 221].

Şirvan bölgəsində fəaliyyət göstərən boyaqçılar məmulatların sarı rəngə boyadılmasında Abşeron yarımadasında becərilən zəfərandan da geniş itifadə edirdilər. XIX əsrin 30-cu illərinə aid mənbələrin verdikləri mlumata görə Bakı əyalətində şəhər və kənd əhalisinə məxsus 1220 zəfəran bağı var idi[1, v. 27-7213, s. 54]. İstehsal edilən zəfəranın böyük hissəsi xarici ölkələrə və Azərbaycanın digər ölgələrinə, o cümlədən Şirvana göndərilirdi. Şirvan boyaqçıları sarı rəng almaq üçün "naz" adlanan bikidə n də istifadə edirdilər. Bu bitkidən alınan rəng özünün işığa və yuyulmağa qarşı çox davamlı olması ilə seçilirdi[7, s. 98].

Boyaqçılıqda göy rəng almaq üçün geniş istifadə edilən boyaq vasitələrindən biri də indiqo idi. Bu bitki Azərbaycanda yetişmədiyindən Hindistandan gətirilirdi. Bu bitkidən göy rəng almaq qaydalarından bəhs edən A.S.Piralov yazırdıki, 2 funt əhəng və 4 funt "qələkər" daşı suda həll edildikdən sonra alınmış məhlula 1 funt bal əlavə edilib 50-60 dərəcəyə qədər qızdırılır. Bundan sonra alınmış məhlulun tərkibinə suda yaxşı həll edilmiş indiqo tökülür və qıcqırmaya qoyulurdu. Bir neçə gündən sonra başlayan qıcqırmadan sonra məhlul sarımtıl-yaşıl rəng alırdı. Boyamaq üçün nəzərdə tutulan parçanı və yaxud ipliyi bu məhlula salıb 20-30 dəqiqə saxladıqdan sonra çıxarıb sıxırdılar. Məhluldan çıxarılan vaxt sarı rəngdə olan parça və yaxud ip havanın təsiri altında əvvəlcə yaşıl, sonra isə göy rəng alırdı[16, s. 29-30]. Göründüyü kimi, boyaqçılıq Şirvanda kifayət qədər inkişaf etmiş sənət sahələrindən biri idi. Bir tərəfdən bölgənin boyaq vasitələri ilə zəngin olması, digər tərəfdən isə parça toxuculuğunun və xalçaçılığın yüksək inkişaf səviyyəsinə çatması bu sənətin Şirvan bplgəsində geniş yayılmasnı şərtləndirən əsas amillər olmuşdur.

## Ədəbiyyat

1.Azərb.DTA, f. 24, siy. 1, iş 51
2.Azərb. DTA, f. 24, siy. 1, iş. 60
3.Azərb. DTA, f. 24, siy. 1, iş 93
4.Azərb. DTA, f. 24, siy.1, iş 249
5.Azərb.DTA, f. 24, siy. 1, iş 372
6.Mustafayev A.N. Azərbaycanda sənətkarlıq. Bakı: 1999
7.Mustafayev C. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı, 2002. 96 s.
8.Quliyev H.A. XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda yun ipin xalq üsulu ilə boyadılmasının tarixi və öyrənilməsi haqqında. AEM, I buraxılış, Bakı, 1964
9.АКАК, т.IV, док. 95
10.Газета «Кавказ», 1890, № 244
11.Исаев М.Д. Ковровое производство Закавказья. Тифлис, 1932
12.ОРВЗК, ч.III,СПб., 1836
13.ОРВЗК, ч.IV
14.Лерх И.Я.Сведения о втором путешествии в Персии, совершенным в 1745-1747 гг. имп.росс. советником Иоганом Якобом Лерхом. Перевод М.М.Абезгуза. НА ИИ НАН Азербайджана. д. 486, с. 489
15.Первая всеобщая перепись населения Российской империи 1897 г.т.LXI. Бакинская губерния. Издание центрального комитета МВД. Под ред. Н.А. Тройницкого, 1905 г.
16.Пиралов А.С. Краткий очерк кустарных промыслов Кавказа. СПб., 1913
17.Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в. Баку, 1964

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2024, 2 (43), s.96-104

# QARABAĞ, ŞUŞA AZƏRBAYCANIN MUSİQİ, FOLKLOR VƏ QƏDİM XALQ İDMAN OYUNLARININ TARİXİDİR.

**Eldar Muxtarlı**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
eldar_muxtarli@mail.ur

**Xatirə Qocayeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti.
qocayevaxatire199@gmail.com

**Zərəngiz Qasımova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti.
zerengizqasimova5@gmail.com

**Rüfət Ələkbərov**
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman akademiyası.
Rufat.akbarov@sport.edu.az

***Açar sözlər:*** *Azərbaycan musiqi, folklor, qədim milli xalq idman oyunları, musiqişünaslar, milli idman oyunları*

*Xalq içindən çıxmış xanəndələr, şairlər, pəhləvanlar xalqın musiqi, folklor, mədəniyyət tələbatını, istəklərini, mənəvi aləmlərini həm təbliğ etmiş, həm də nəsildən-nəslə ötürmüşlər. Bunun nəticəsi kimi bu gün Azərbaycan musiqisi, folkloru və qədim milli xalq idman oyunlarının mədəniyyəti zəngin bir irsə sahibdir. Azərbaycan muğamları, bəstəkarları, folklor tarixi və milli idman oyunları müxtəlif dövrlərdə şifahi şəkildə nəsildən nəslə ötürülmüşdür. Qarabağ tarix böyu Azərbaycan musiqi mədəniyyətinin və qədim milli xalq oyunlarının mərkəzi kimi şöhrət tapmışdır. Azərbaycanın zəngin, özünəməxsus və maraqlı folklor nümunələrindən biri də milli mütəharik xalq oyunlarıdır. Milli mütəhərrik xalq oyunlarının tarixi çox qədimlərə getməklə yanaşı, xalqın müxtəlif dövrlərdə adət-ənənələrini, etnoqrafiyasını özündə əks etdirir. Milli mütəhərrik xalq oyunlarına, bütövlükdə xalqın oyun-tamaşa mədəniyatinə dair ilk məlumatlara bir sıra qədim mənbələrdə rast gəlinir. Milli mütəhərrik xalq oyunların bir neçəsi Azərbaycanın Qarabağ zonasında inkişaf etmişdir. Milli*

*mütəhərrik xalq oyunları uşaq və yeniyetmələrdə sağlamlıq, vətənin müdafiəsinə hər zaman hazır olmaq kimi keyfiyyətləri özündə əks etdirir.*

## КАРАБАХ И ШУША ИСТОРИЯ МУЗЫКИ, ФОЛЬКЛОРА И ДРЕВНИХ НАРОДНЫХ СПОРТИВНЫХ ИГР АЗЕРБАЙДЖАНА.

**Эльдар Мухтарлы**
**Хатира Гочаева**
**Заренгиз Гасымова**
**Руфат Алекперов**

***Ключевые слова:*** *Музыкальная культура, фольклор, старинных национальных народных спортивных игр, музыканты, национальные виды спорта*

*Вышедшие из народа певцы, поэты, борцы пропагандировали музыку, фольклор, пропагандировали свой духовный мир и передавали его из поколения в поколение. В результате сегодня Азербайджанская музыка, фольклор и культура древних национальных спортивных игр имеют богатое наследие. Азербайджанские мугамы, композиторы, история фольклора и национальные спортивные игры в разные периоды передавались устно из поколения в поколение.На протяжении всей истории Карабах обрел известность славу Азербайджанской музыкальной культуры и древних национальных народных игр. Азербайджан приобрел известность как центр музыкальной культуры и древних национальных народных игр. История национальных народных игр уходит в глубокую древность и отражает традиции и этнографию народа в разные периоды. Первые сведения о национальных народных играх и культуре народа в целом можно найти в ряде древних источников. В Карабахской зоне Азербайджана сложилось несколько национальных народных игр. Женщины принимали участие в состязаниях по скачке на лошадях, метанию копья, фехтованию, стрельбе из лука в национальных народных играх. Национальные народные игры отражают такие качества детей и подростков, как здоровье, готовность всегда защищать Родину.*

# THE HISTORY OF MUSIC, FOLKLORE AND ANCIENT FOLK SPORTS GAMES OF KARABAKH, SHUSHA, AZERBAIJAN.

**EldarMukhtarli**
**KhatiraGocayeva**
**ZarengizGasimova**
**RufatAlakbarov**

***Key words: C****ulture of music, folklore,ancient national folk sports games, muscists, national sports wide scope.*

*The singers, poets, and wrestlers who emerged from the people promoted the music, folklore, cultural needs, aspirations, and spiritual worlds of the people and passed them on from generation to generation. As a result, today, Azerbaijani music, folklore and the culture of ancient national sports games have a rich heritage. Azerbaijani mughams, composers, folklore history and national sports games were orally transmitted from generation to generation in different periods. Throughout history, Karabakh has gained fame as the center of Azerbaijani musical culture and ancient national folk games. One of the rich, unique and interesting folklore examples of Azerbaijan is the nationally inspired folk dances. The history of national dynamic folk games goes back to ancient times and reflects the traditions and ethnography of the people in different periods. National animated folk games reflect the qualities of children and adolescents, such as health, always being ready to defend the motherland.*

Qarabağ-xalq mahnılarının, musiqinin, zəngin mədəni-tarixi abidələrin, xalçaçılığın, qədim milli xalq idman oyunlarının, floranın, faunanın və digər tarixi sərvətləri ilə Azərbaycanın dünyada məşhur olan bir bölgəsidir.Qarabağ tarixi, qədim diyarın etnoqrafiyası barədə 20-dən çox kitabın müəllifi Vasif Quliyev (publisist) bildirir ki, geniş yayılan xalq mahnılarından biri olan “Sarı bülbül”ün maraqlı tarixi var: “İran hökmdarı Ağa Məhəmməd şah Qacar Şuşada qətlə yetiriləndən sonra Qarabağ xanı İbrahimxəlil xan Cavanşir İran dövləti ilə münasibətləri qaydasına qoymaq məqsədilə öz sevimli qızını Ağabəyim ağanı (Ağabəyim ağa İbrahimxəlil xan qızı Cavanşir) hakimiyyətə yeni gəlmiş Fətəli şah Qacara ərə verir. Bununla da Ağabəyim ağa qərib ölkədə vətən həsrəti ilə yaşayır. Ağabəyim ağa bir gün Fətəli şahdan xahiş edib ki, Tehranda Qarabağda bitən gül-çiçəklərdən, kollardan və meyvə ağaclarından ibarət bir bağ saldırsın. Şah bu xahişi yerinə-yetirərək gözəl bir bağ saldırır və bağbanı da Şuşadan gətizdirir. Ağabəyim ağa bağın adını “Vətən bağı” qoyur.Şahın saldırdığı bağda

Qarabağın bütün ağac və gülləri bitsə də, yalnız Qarabağ torpağını özünə vətən seçmiş xarıbülbül bitmir [1, s 250-255].

Tarixdən məlumdur ki, XVIII əsrin ortalarında Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulmuş və əvvəl xanın adı ilə "Pənahabad", sonradan Şuşa qalası kimi adlandırılan Şuşa şəhəri XIX əsrdən başlayaraq Azərbaycanın musiqi mədəniyyəti tarixində əhəmiyyətli yer tutmuşdur. Şuşa qalasında yaranan və məşhurlaşan xalq mahnıları da var. Azərbaycan musiqi həyatının inkişafında Qarabağ, Şuşa, Şamaxı, Bakı, Cənubi Azərbaycan musiqi məclislərinin böyük əhəmiyyəti olmuşdur. Qədim tarixə malik olan Şuşa şəhəriMir Möhsün Nəvvabın (1833-1918 istedadlı şair), Molla Pənah Vaqifin (1717-1797 şair-yazıçı), Xurşidbanu Natəvanın (1832-1897 şair), Üzeyir Hacıbəylinin(1885-1948drijor, bəstəkar, musiqiçi), Bülbülün(1897-1861 Azərbaycan opera müğənnisi), Xan Şuşinskinin(1901-1979 xanəndə), və digər bir sıra xanəndələrin, müsiqişünasların vətənidir. Şuşa qədim zamanlardan musiqinin beşiyi kimi məşhurdur və bütün Zaqafqaziyada xalq musiqi istedadlarının tükənməz bulağı kimi şöhrət qazanmışdır. "Şuşa musiqiçiləri" Azərbaycan musiqisinin tarixini yaradırdılar və onu yalnız vətənlərində deyil, digər Şərq ölkələrində təqdim edirdilər.Azərbaycanda çox əsrlik tarixə malik milli mədəni ənənələr inkişaf etdirilir [2, s.480-483].

XIX əsrin birinci yarısında Azərbaycanın görkəmli nümayəndələrindən biri Abbasqulu Ağa Bakıxanovun çox cəhətli yaradıcılığında onun elmi və bədii irsi mühüm yer tutur.O qüdsi təxəllüsü ilə həm Azərbaycan(türk), həm də fars dillərində qəzəl, rübai, qitə, mənzum hekayə,satirik şerlər yazmışdır.

A.Bakıxanov Azərbaycan ədəbiyyatında, əsasən, lirik şair idi.O, orqanizmin normal inkişafına oyunların müsbət təsirini və tərbiyəsi sistemində tutduğu yeri kitablarda şərh etmişdir.

M.F Axundov gənc nəslin hərtərəfli fiziki tərbiyəsini yüksək qiymətləndirirdi. M.F Axundov xalqın hər cür yeniliyə meyilini gücləndiyini qeyd edərək deyirdi ki, şahmat oyunu Azərbaycan məişətinə geniş daxil olmuşdur. M.F Axundov şahmat oyununa aid şeir yazmışdır.

M.F.Axundov Kəmalüddövlə məktubları adlı elmi əsərində şahmatı zehnə qida verənə, aglı rövnəqləndirənə insan təbiətinə fərəh verənlər sırasında xil etmişdir.

Azərbaycanşahmat mədəniyyəti tarixində M.F.Axundov xüsusi yer tutur.O,şahmatı incəsənət sırasına daxil etmiş, digər müəlliflərdən fərqli olaraq şətrən deyil şahmatın müasir qaydalarını əzmə çəkmişdir. M.F. Axundov XIX əsirdə Lənkəranda fəaliyyət göstərmiş Fəvcül füsəhət ədəbi məclisinin başçısı Mirzə Qasirlə qohum idi. Şairin əsərlərindən, eləcədə bir sıra digər mənbələrdən aydın olur ki, Qasir şahmatda bütün rəqiblərinə çox asanlıqla qalib gəlmişdir. H.Zərdabi fiziki tərbiyə ilə bağlı çox qiymətli pedaqoji fikirlər söyləmişdir. O, hərtərəfli inkişaf etmiş şəxsiyyətin yetişdirilməsində mütəhərrik

oyunlarla orqanizmi möhkəmləndirməyi qiymətləndirir və bu işə ciddi yanaşmağı tələb edirdi. H.Zərdabi qeyd edirdi ki, yalnız xalqın maariflənməsi, fiziki sağlamlığı bizi gələcəyə apara bilər [3, s. 121-126].

1874-cü ildə Bakıda üç qadın gimnaziyası təşkil edilid. 1897-ci ildə Bakıda daha bir qadın orta məktəbi açıldı. 1894-cü ildə Şuşa şəhərində Marinskoe uçilişi adlanan məktəb açıldı.

1912-ci ildə məktəb Əsasnaməsinə görə şəhər məktəbləri ali ibtidai məktəblərə çevrildi. Bundan əlavə 11-gimnaziya var idi. Gimnaziyanı bitirən yeniyetmələr universitetlərə daxil ola bilirdilər.

XIX əsrdə Azərbaycanda milli idman növləri və oyunları geniş vüsət tapmışdır. Azərbaycan milli atıcılıq idman növünə Sürpapaq, Piyalə və ox, Cövkan, Papaq oyunu, Bahərbənd, Yaylıq, və s. daxil idi.

Qədim mədəniyyət abidələri və ədəbi mənbələrdən məlum olur ki, Yunanıstanda və Romada müasir idman növlərinə oxşar oyunlar keçirilirdi və bu oyunlar sonradan dünyanın bir çox ölkələrində yayılmağa başlayırdı. Müasir idman oyunları XIX əsrin sonu-XX əsrin əvvəllərindən inkişaf etmişdir. İdman oyunları təlim, tərbiyə və sağlamlıq vəzifələrinin müvəffəqiyyətlə həll olunmasına imkan yaradır. Onlar maraq doğurur, fiziki tərbiyəyə qarşı tələbatın inkişafına yardım göstərir. Azərbaycanda idmanla məşğul olanlar asudə vaxtlarında müxtəlif fiziki hərəkətləri yerinə yetirir, öz qüvvəsini, çəldliyini, elastikliyi və dözümlülüyünü sınayırdılar. Bu səbəbdən müxtəlif oyunlar, yarışlar xalq arasında geniş yayılaraq təkmilləşdirilir və nəsildən-nəsilə ötürülürdü. Get-gedə idman məşğələləri genişləndirilərək məşhur idmançılar meydana çıxırdı [4, s. 480-483].

XX əsrin əvvələrində neft çıxarılması və emalı ilə əlaqədər çox sayda xarici ölkələrin mütəxəssisləri (Peterburq, Moskva, Xarkov, Odessa və s.) Azərbaycana gələrkən Bakıya müxtəlif növlü müasir idman oyunları gətirmişlər. Bakı şəhərində gimnastika, atletika, üzgüçülük, müxtəlif növlü idman oyunları inkişaf etməyə başladı.

1920-1925-ci illərdə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra zəhmətkeş və demokratik təşkilatların yeni idman dərnəkləri yaradılmağa başladı.Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin 1918-ci il aprelin 22-də qəbul etdiyi Dekretə əsasən Azərbaycanın zəngin, özünəməxsus və maraqlı folklor nümunələrindən biri də milli mütəhərrik xalq oyunlarıdır. Milli mütəhərrik xalq oyunlarının tarixi çox qədimlərə getməklə yanaşı, xalqın müxtəlif dövrlərdə adət-ənənələrini, etnoqrafiyasını özündə əks etdirir. Milli mütəhərrik xalq oyunlarına, bütövlükdə xalqın oyun-tamaşa mədəniyyətinə dair ilk məlumatlara bir sıra qədim mənbələrdə rast gəlinir. Milli mütəhərrik xalq oyunların bir neçəsi Azərbaycanın Qarabağ zonasında inkişaf etmişdir. Bu oyunlar uşaq və yeniyetmələrdə sağlamlıq, vətənin müdafiəsinə hər zaman hazır olmaq kimi keyfiyyətləri özündə əks etdirir. Milli mütəhərrik xalq oyunlarında

qadınlar da kişilər kimi at çapma, çövgən, qılınc oynatma, ox atma kimi yarışlarda iştirak edirdilər. Milli xalq oyunlarından biri də "Dirədöymə" oyunudur. Azərbaycanda məşhur olan bəzi xalq oyunları isə şeirlə ifa olunurdu. Bu isə, heç şübhəsiz ki, oyunu daha maraqlı edirdi [5, s. 15-24].

Azərbaycan bayramlarında əsas yeri milli mütəhərrik idman yarışları tuturdu. Bu bayramlarda milli xalq idman oyunları, güləş, nizə atmaq, ox atmaq və s. kimi idman növlərindən istifadə edilirdi. Öz qüvvəsi, çevikliyi, dözümlülüyü ilə fərqlənənlər yeniyetmə və gənclər həmin oyunlarda bacarıqlarını nümayiş etdirirdilər. Belə bayramalrdan biri də Novruz bayramıdır. Bayram mərasimində musiqinin müşayəti ilə oğlanlar arasında güləş, tonqal üzərindən tullanmaq, papaq oyunu kimi oyunlar keçirilirdi.

1920-ci ildə Azərbaycanda Bədən Tərbiyəsi Şurası bədən tərbiyə təlimatçıları hazırlayan məktəb təşkil etdi. Məktəb 38 təlimatçı hazırlayaraq respublikada bədən tərbiyəsi işini inkişaf etdirmək üçün rayonlara göndərdi. Bədən tərbiyəsi şurasının təşəbbüsü ilə ümumtəhsil məktəblərində, mədəni-marif ocaqlarında, uşaq evlərində, fəhlə kulublarında bədən tərbiyəsi və idman dərnəkləri təşkil edildi. Əhali arasında bədən tərbiyəsi və idmanı inkişaf etdirmək məqsədilə ümumhərbi təlim orqanları kütləvi bayramlar, idman tədbirləri və yarışlar təşkil etdilər.

Ümumhərbi təlim orqanları respublikanın maarif sistemi ilə ilk gündən sıx əlaqə yaradıb tədris müəssisələrini yalnız bilik dərslərinin tədrisi ilə kifayətlənməməyi məsləhət görərək, sağlamlıq və fiziki kamkillik üzrə də dərslərin tədris edilməsinə köməklik edirdi.

1920 ci ilin sentiyabır ayında maarif və sosialist mədəniyyəti işçilərinin Ümumazərbaycan qurultayında bədən tərbiyəsi və idmanın inkişafı üzrə müzakirələr olundu. Qurultay Azərbaycanda bədən tərbiyəsi və ümumtəhsil məktəblərində şagirdlərin fiziki inkişafında mühüm rol oynadı. Qurultayda ümumtəhsil məktəblərində fiziki tərbiyə fənni haqqında müzakirələr edildi və fiziki tərbiyə fənninin inkişafı üçün bir sıra sənədlər işlənib hazırlandı.

Nəhayət 1920-ci ilin oktyabrın 1-də Azərbaycanda birinci dərs ili işlənib hazırlandı. Ümumtəhsil məktəblərində yuxarı sinif şagirdlərinin tədris proqramına idman oyunları, gimnastika, atletika və s. ilə yanaşı hərbi-idman hazırlığı fənni də daxil edildi. Ümumtəhsil məktəblərində idman bayramları da tədris proqramına əlavə edildi.

1920-1921-ci dərs ilində 1-ci dərəcəli məkltəblərin tədris planına bədən tərbiyəsi fənninə 2-saat ayrılmışdır. Bu plan təxmini tədris planı idi.

1923-cü ildə 1-2-ci dərəcəli ümumtəhsil məktəbləri üçün yeni tədris planı qəbul edildi. Bədən tərbiyəsi və idman fənninə 1-ci dərəcəli məktəblərdə I-II-III qruplara-2-saat, IV-V qruplara isə 1 tədris saatı ayrıldı və II dərəcəli məktəblərə isə bütün qruplara 1 tədris saatı ayrıldı.

20-26 yanvar 1921- ci il tarixində Zaqafqaziya və Orta asiya ümumhərbi təlim işçilərinin 1-ci qurultayında Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafı məsələləri müzakirə edildi. Qurultayda bədən tərbiyəsi və idman işlərinin təşkilində Ümumhərbi təlimin rəhbərliyinin bir sıra nöqsanları qeyd edilərək düzgün istiqamətə yönəldildi. Azərbaycanda fiziki tərbiyə və idman məşğələləri gimnastika, voleybol, basketbol, ağır atletika dərnəkləri inkişaf edərək fəaliyyət göstərdi. Beləliklə, fiziki tərbiyə və idman respublikanın uşaq və gənclərinin hərtərəfli fiziki inkişafını təmin edən metodlardan birinə çevrildi. Azərbaycanda idarə və müəssisələrdə bədən tərbiyəsi dərnəkləri yaradıldı. Bədən tərbiyəsi və idman təşkilatları rayon təhsil orqanları ilə birlikdə kəndlərdə kütləvi bədən tərbiyəsi təşkil edilərək inkişaf etməyə başladı. Kəndli gənclər qiraət klublarında bədən tərbiyəsi və idman dərnəklərinə cəlb edildilər.

Kəndlərdə yaradılan idman dərnəklərinə cəlb edilən uşaq və yeniyetmə gənclərə gimnastika, futbol, atletika, basketbol, qılınc oynatmaq və başqa idman növləri öyrədilirdi. Həmin illərdə Azərbaycanda Avtomator, Vodnik, Reçnik və Dinamo idman cəmiyyətləri yaradıldı. Azərbaycanda futbol oyunu da geniş yayılmağa başlamışdır. Futbol oyunu ilə həm Bakıda, həm də respublikanın əksər rayonlarında məşğul olurdular.

1926-cı ildə Həmkarlar İttifaqının Azərbaycan Şurasının mədəniyyət şöbəsi yanında Bədən Tərbiyəsi Bürosu yaradıldı və bədən tərbiyəsi təşkilatlarına metodiki kömək gücləndirildi. Bədən tərbiyəsi və idman dərnəklərinə rəhbərlər hazırlamaq üçün elə həmin ildə 45 günlük xüsusi kurslar yaradıldı.

1936-cı ildə respublikada 8-stadion, 19-idman zalı, 6-üzgüçülük hovuzu, 20-bədən tərbiyəsi düşərgəsi və 1000-dən idman meydançası fəaliyyət göstərirdi. Kirov, Budyonin və Bolşevik adına zavodların ərazisində yeni idman meydançaları tikilib istifadəyə verilmişdir. Həmin illərdə “Neftçi”, “Krasnoye Znamya”və s. idman cəmiyyətləri yaradıldı [6, s. 82-88].

Azərbaycan Pedaqoji İnstitutu Azərbaycan SSRİ Xalq Komissarları Sovetinin (XKS) sədri Nəriman Nərimanovun imzaladığı 1921-ci ildə 6 nəfər tələbə ilə ali təhsilli müəllim kadrları hazırlamaq üçün təsis edilib. Onun ilk buraxılışı 1923–1924-cü tədris ilində olmuşdur. İlk dövrlərdə Ali Pedaqoji Kişi və Ali Pedaqoji Qadın İnstitutları kimi fəaliyyətə başlasa da, Azərbaycan Pedaqoji İnstitutu XX əsrin 90-cı illərində Azərbaycan Dövlət Pedaqoji Universiteti adını alıb.

Azərbaycanın sovetləşdirilməsinin ilkillərində Nəriman Nərimanov Azərbaycan SSR Müvəqqəti İnqilabı Komitəsinin sədri və Xalq Komissarları Sovetinin sədri vəzifələrində çalışırdı. Onun ictimai-siyasi və dövlətçilik fəaliyyətində müəllim kadrları hazırlığı mərkəzi yerlərdən birini tuturdu.O,savadsızlığın ləğvində,millətin ümumi tərəqqisində müəllimin rolunu yüksək qiymətləndirirdi.

Kəndlərdə yaradılan idman dərnəklərinə cəlb edilən uşaq və yeniyetmə gənclərə gimnastika, futbol, atletika, basketbol, qılınc oynatmaq və başqa idman növləri öyrədilirdi. Həmin illərdə Azərbaycanda Avtomator, Vodnik, Reçnik və Dinamo idman cəmiyyətləri yaradıldı. Azərbaycanda futbol oyunu da geniş yayılmağa başlamışdır. Futbol oyunu ilə həm Bakıda, həm də respublikanın əksər rayonlarında məşğul olurdular.

1921-ci ildə Bakının futbol komandası bərpa olunmuş və şəhər birinciliyi keçirilməyə başlamışdır. Həmin illərdə Balaxanı futbol klubunun "Proqres" komandası Cənubi Qafqazda ən güclü komanda hesab edilirdi.

1921-ci ildən başlayaraq müxtəlif idman növləri üzrə şəhərlərarası yarışlar keçirildi. Bununla belə bədən tərbiyəsi və idman hərəkatının inkişafına mane olan bir sıra çətinliklər aradan qaldırıldı. Zəhmətkeşlərin bədən tərbiyəsi və idman işləri ilə məşğul olan idarə və müəssisələrin sırasına yeni dövlət idarələri və ictimai təşkilatlar daxil oldular.

Nəriman Nərimanovun mənəvi dəstəyi, təşkilat komitəsinin gərgin əməyi sayəsində ali pedaqoji təhsil müəssisəsinin açılması ilə bağlı hazırlıq işləri başa çatdırıldı. İlk Ali Pedaqoji İnstitutun açılması ilə bağlı Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanov xüsusi dekret imzaladı. 26 avqust1921-ci il tarixli 66 saylı dekretdə deyilirdi: "Respublikanın vahid əmək məktəbinin ideyalarını həyata tətbiq etməyə qabil yüksək ixtisaslı maarif işçiləri hazırlamaq məqsədilə bu ilin sentyabr ayının 1-dən etibarən Bakı şəhərində müəllimlər hazırlaya biləcək Azərbaycan Dövlət Kişi İnstitutu təsis edilsin. İnstitutun təşkilinə həmin dekretin nəşrindən dərhal sonra başlanılsın".

Ümumtəhsil məktəbləri üçün ali təhsilli bədən tərbiyəsi mütəxəssisləri Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Bədən tərbiyəsi fakultəsi hazırlayırdı. 1950-1959 cü illərdə həmin fakultə ümumtəhsil orta məktəbləri üçün 259 bədən tərbiyəsi müəllimi hazırlamışdır. Həmin fakultə keçmiş SSRİ məkanında 4-cü, Cənubi Qafqazda isə birinci fakultə kimi fəaliyyətə başlamışdır[7, s. 22-27].

İdman oyunlarına Azərbaycan bədən tərbiyəsi sistemində geniş yer verilir və əhalinin ən çox sevdiyi növlərdən biri hesab edilir. İdman oyunları ali və orta ümumtəhsil məktəblərinin tədris proqramına daxil edilir. İdman oyunları ilə idarə və müəssisələrdə, ordu sıralarında, istirahət zonalarında, sanatoriyalarda, pansionatlar və məhəllələrdə məşğul olurlar. Azərbaycan Dövlət Pedaqoji Universitetində, Bədən Tərbiyəsi və İdman akademiyasında, Pedaqoji və Bədən tərbiyəsi kolleclinin fakultələrində idman oyunları xüsusi proqram əsasında tədris olunur.

İdman oyunlarının Azərbaycan Dövlət Pedaqoji Universitetində öyrədilməsi tədris proqram materiallarının həcminə görə, digər ali və orta ixtisas müəssisələrində öyrədilməsindən fərqlənir. Azərbaycan Dövlət Pedaqoji Universitetində tədris olunan idman oyunlarının tədrisinin məqsədi hərtərəfli hazırlıqlı fiziki tərbiyə müəllimi mütəxəssisi yetişdirməkdir. Azərbaycan

Respublikasında futbol, basketbol, həndibol və voleybol, badminton, stolüstü tennis, topla xokkey, reqbi geniş yayılmış idman oyunlarıdır. Bu idman oyunları son illərdə sürətlə inkişaf etdirilir. Bəzi idman oyunları xarakter etibarıilə komandalıdır, bəzi idman oyunları isə təkbə-tək mübarizə xarakterlidir məsələn: tennis, stolüstü tennis, badminton və s.

Əhalinin fiziki inkişafını təmin etmək və sağlamlığını möhkəmləndirmək üçün idman oyunları ən səmərəli və kütləvi vasitədir. Çünki müasir idman oyunlarının bir idman növü kimi yüksək inkişaf səviyyəsi onları hərtərəfli fiziki inkişafın effektiv vasitələrindən birinə çevirir. İdman oyunları çeviklik, elastiklik, sürət və dözümlülüyün inkişafına kömək edir. İdman oyunları üzrə yarışların kütləvi şəkildə bədən tərbiyəsi məşğələlərinə cəlb edilməsi idman ustalığının artırılması üçün mühüm vasitədir. İdman oyunları idman və pedaqoji fakültələrin tələbələri üçün proqramlar əsasında ali tədris müəssisələrində məcburi bir elm kimi öyrənilir. Musiqi, mədəni marif, milli mütəhərrik xalq oyunları, Azərbaycanın mədəniyyətini və tarixini inkişaf etdirir[8, s. 5-8].

## Ədəbiyyat

1. İmrani R. Azərbaycan muğam janrının yaranması və inkişafı tarixi. Bakı. ADPU,1994.
2. Şuşinski F. Azərbaycan musiqiçiləri. Bakı:Yazıçı, 1985.
3. Qurbanov X.K. Ajalov E.F. Bədən Tərbiyəsi və İdmanın ümumi tarixi, Bakı:2007
4. Əliyev A. Azərbaycan Milli İdman Oyunlarının Tarixi. Bakı:2001.
5. Əliyev A.A., Ajalov E.F. Fiziki Tərbiyə və İdmanın Azərbaycanda İnkişafı. Bakı:1987.
6. Ajalov E.F. Azərbaycanda Bədən Tərbiyəsi və İdmanın İnkişaf Tarixi. Bakı:1985.
7. Rüstəmov F.A.Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarixi (1921-2021-ci illər). I hissə. Bakı: ADPU:2022.
8.Fiziki Tərbiyə və Çağrışaqədər Hazırlığın Tədrisi Texnologiyası kafedrasının tarixindən ADPU-100. Bakı:2021

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2024, 2 (43), s.105-112

# ERMƏNİ MİLLƏTÇİ TƏŞKİLATLARI VƏ ÇAR HÖKÜMƏTİNİN ŞİMALİ AZƏRBAYCANDA MİLLİ QIRĞIN SİYASƏTİ (1905-1906-CI İLLƏR).

**Eldar Hacıyev**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
hacieldar55@gmail.com

***Açar sözlər:*** *"erməni məsələsi", "Böyük Ermənistan", terror, "Armenakan","Hnçak", erməni kilsəsi, milli qırğın.*

*Məqalədə XIX əsrin sonlarında erməni burjuaziyasının güclənərək Anadolu və Cənubi Qafqaz ərazisində erməni dövləti yaratmaq uğrunda fəaliyyəti, məqsədə çatmaq üçün yaratdıqları millətçi partiyalar, həmin partiyaların terror xarakterli əməlləri işıqlandırılmışdır. Qriqoryan kilsəsi ilə erməni burjuaziyası arasında yaranan ittifaq və kilsənin türk millətinə qarşı törədilən milli qırğın siyasətinin ideya ilhamçısı olması faktlar əsasında təhlil edilmişdir. Məqalədə "Hnçak" və "Daşnaksütyun" partiyalarının Azərbaycan xalqına qarşı törətdikləri vəhşiliklər, onun acı fəsadları, iri dövlətlərin "erməni məsələsi"ndə tutduğu qərəzli mövqe işıqlandırılmışdır. Müəllif ermənilərin Bakıda, Qarabağda, Naxçıvanda azərbaycanlılara qarşı həyata keçirdikləri kütləvi qırğın hərəkətlərini qenosid hərəkətləri kimi qiymətləndirməklə yanaşı, onların məğlubiyyətlərinin də səbəblərini təhlil edir. Azərbaycan milli burjuaziyasının bəhs edilən dövrdə xalqı ilə bir yerdə olması, onların xeyriyyəçilik fəaliyyətləri əks etdirilir.*

## АРМЯНСКИЕ НАЦИОНАЛИСТИЧЕСКИЕ ОРГАНИЗАЦИИ И ПОЛИТИКА НАЦИОНАЛЬНОГО ИСТРЕБЛЕНИЯ ЦАРСКОГО ПРАВИТЕЛЬСТВА В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ (1905-1906 ГГ.).

**Эльдар Гаджиев**

***Ключевые слова:*** *«Армянский вопрос»,«Великая Армения», терроризм, «Арменакан», «Гнчак», Армянская церков, геноцид.*

*В статье освещена действия армянской буржуазии за создание армянского государства в Анатолии и на Южном Кавказе в конце 19-го века и создание ею для достижения цели националистические партии, а также террористическая деятельность этих партий. На основе фактов*

*были проанализированы союз между Григорянской церковью и армянской буржуазией и тот факт, что церков была вдохнавителем политики геноцида против тюркского народа.*

*В статье освещаются зверства совершенные партиями «Гнчак» и «Дашнакцутюн» против азербайджанского народа, их горькие последствия, а также предвзятая позиция, занимаемая крупными державами по «армянскому вопросу», Автор оценивает акты геноцида осуществленные армянами против азербайджанцев в Баку, Карабахе и Нахчиване, как акты геноцида , а также анализирует причины их поражения. Отражено то что в указанный период национальная буржуазия находится вместе со своим народом и занимается благотворительной деятельностью.*

## NATİONAL EXTERMİNTİON POLİCİ OF ARMENİAN NATİLNALİST ORGANİZATİONS AND THE TSARİST GOVERNMENT İN NORTHERN AZERBAİJAN (1905-1906).

**Eldar Hajiyev**

***Key words:”*** *Armenian issue”, “Great Armenia”, terrorism, “Armenakan”, “Hnchak”, Armenian church, national massacre.*

*İn the article, at the end of the 19th centruy, the struggle of the armenian bourgeoisie to create an independent Armenian state in Anatolia and the South Caucasus,the nationalist parties they created to achieve the goal, ahd the terrorist activities of thoseperties were highlighted. The alianse betwen the Gregorian church and the Armenian bourgtosie inspiration behind the polici of genoside against the turkish nation were analgzedon the basis of facts.In the article the brutalities committed by the “Hnchak” and “Dashnaksutyun” parties against the Azerbaijani people, its bitter conseguences, and the biased position taken by the “Armenian issue” are highlighted. The author evaluates the acts of genoside carried out by Armenians against Azerbaijanis in Baku, Karabakh, Nakhchivan as acts of genocide, and also analyzes the reasons for their defeat. The fact that the national bourgeoisie of Azerbaijan is together with its people in the mentioned period and their charitable activities are reflected.*

1905-1907-ci illər inqilabının dərinləşməsi və onun milli ucqarlara yayılmaq ehtimalı rus hökumətini daha da qorxutdu. Hökumət inqilabın ucqarlara yayılmasının qarşısını almaq üçün cənubi Qafqazda “erməni

məsələsi"ndən istifadə edərək azərbaycanlılara qarşı milli qırğın təşkil etdi" [1, s.134]. Azərbaycanlılar ilə etnik azlıq olan gəlmə ermənilər arasında ziddiyyət XIX əsrin əvvəllərində rus hökumətinin köməyi ilə Türkmənçay sülhünün XV maddəsi əsasında erməni ailələrinin Azərbaycan torpaqlarına köçürülməsi ilə başlanmışdır. Ermənilər heç vaxt Azərbaycanın yerli əhalisi olmamışlar. Rus müəllifi olan N.Şavrov 1911-ci ildə nəşr etdiyi "Cənubi Qafqazda (Zaqafqaziyada-E.H) rus məsələrinə yeni təhdid; Muğan torpaqlarının gəlmələr arasında satılmasına hazırlıq" (rus dilində) kitabında göstərir ki, "Hazırda Cənubi Qafqazda yaşayan 1 milyon 300 min ermənin 1 milyondan çoxu diyarın yerli əhalisinə məxsus deyil və bizim tərəfimizdən köçürülmüşdür" [15, s.113]. Ermənilərin Azərbaycan torpaqlarında yerləşdirilməsi planı erməni katolikosu Nerses Aştaraketsi, rus diplomatı və yazarı olan A.S.Qriboyedov, rus generalı İ.Paskeviç tərəfindən hazırlanmışdı. Nəticədə 1828-1830-cu illərdə İrandan 40 min, Osmanlı dövlətindən isə 84 min erməni Yelizavetpol və İrəvan quberniyalarında yerləşdirildi [14, s.49]. Rus hökuməti Cənubi Qafqaza köçürülən erməniləri himayə etməklə gələcəkdə burada baş verə biləcək milli-azadlıq hərəkatını parçalamaq və ermənilərdən yerli əhaliyə qarşı bir silah kimi istifadə etmək niyyətində idi.

İranda Rusiyanın səfiri olan yazıçı və diplomat A.Qriboyedov məktublarının birində yazırdı ki, Qafqaza köçürülərək burada yerli müsəlmanların malikanələrində yerləşdirilən ermənilərə yerli əhali şübhə ilə yanaşır. "Ermənilərə inanmayan müsəlmanlar ehtiyat edirdilər ki, ermənilər ilk dəfə buraxıldıqları yerə sonralar həmişəlik sahib olurlar" [14, s.41]. Qafqazın baş hakimi Qriqori Qolitsin 1897-ci ildə çarı xəbərdar edirdi ki, Bakıda və Tiflisdə ermənilər bütün hakimiyyəti ələ keçiriblər. 1900-cü il iyun ayının 14-də keçirilən qapalı iclasda erməni məsələsi barədə məlumat verən Q. Qolitsin demoqrafik dyişikliklərə toxunaraq demişdi:" Biz Cənubi Qafqazı fəth edəndə burada bütün erməni əhalisinin sayı 45 min nəfəri keçmirdi, indi isə Qafqazda ermənilər 1,5 milyondan çoxdular." Rusiyanın maliyyə naziri isə çıxışında bildirmişdi ki,"... ola bilməz ki, erməni əhalinin Qafqaza belə güclü axını "Böyük Ermənistan" haqqında məsələnin qalxmasına təsir etməsin" [13, s.4]. Müstəmləkəçi rus hökuməti sonrakı illərdə azərbaycanlılara divan tutmaq üçün bu silahdan dəfələrlə istifadə etdi.

XIX əsrin sonu XX əsrin əvvəllərində kapitalist münasibətlərinin təsiri altında imperiyanın müxtəlif bölgərəlində burjua yönümlü partiyalar, siyasi cəmiyyətlər və birliklər meydana çıxır. Onların arasında millətçi erməni partiyaları da var idi. Onların başlıca məqsədi erməni əhalisini mütləqiyyətə qarşı mübarizədən yayındırmaq, ümummilli düşmən hesab etdikləri türklərə qarşı yönəltmək, iri dövlətlərin himayəçiliyi ilə özgə torpaqları hesabına "Böyük Ermənistan" dövlətini yaratmaq idi. Lakin yetərli siyasi və hərbi gücün olmadığı şəraitdə erməni burjuaziyasının siyasi liderləri "erməni dövləti"

yaratmaq naminə səmərəli və təsirli alət kimi terrora üstünlük verdilər. Bu məqsədlə hələ 1885-ci ildə Fransanın Marsel şəhərində erkən erməni siyasi təsisatı olan "Armenakan" partiyasını yaratdılar [11, s.122]. Bu partiya Osmanlı dövlətinin Van, Muş, Trabzon bölgələrində və İstanbulda silahlı toqquşmalar və terror aktları törətdi. Partiya Qacarlar və Rusiyada yaşayan ermənilərlə əməkdaşlıq edir, onları nəzarət altında saxlayırdı. Növbəti terrorçu təşkilatı olan "Hnçak" 1887-ci ildə Cenevrədə Nazarbekyan qardaşları və bir qurup erməni tələbələri tərəfindən yaradılmışdır. Partiyanın lideri A.Nazarbekyan rus inqilabçısı G. Plexanovun siyasi baxışlarının təsiri altında idi [11, s.122]. 1893-cü ildə "Hnçak" öz fəaliyyətini Londonda davam etdirib. 1895-ci ildə onun şöbələri Aleksandropol, Yelizavetpol, Şuşa, Qars, Batum, Axalsık və Bakı şəhərlərində fəaliyyət göstərirdi. Təşkilatın əsas məqsədi Osmanlı dövlətinin Anadolu bölgəsini, "Rus və Osmanlı Ermənistanı adlandırdıqları əraziləri birləşdirməklə "Böyük Ermənistan" dövləti yaratmaq idi. Partiyanın proqramının 4-cü maddəsində deyilirdi: "Qarşıya qoyulmuş məqsədə çatmaq üçün təbliğat, təşviqat, terrorizm və dağıdıcı təşkilat yaradılması metodu seçilməlidir" [18, s.45]. Bu terrorçu partiya 1896-cı ildə Vanda dəhşətli qırğın törətdi. Növbəti terrorçu erməni partiyası 1890-cı idə Tiflisdə yaradılan "Daşnaksütyun"- erməni federativ inqilab partiyası idi. Partiyanın əsas qayəsi Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsi. Naxçıvan və Anadolu torpaqlarında "Böyük Ermənistan" dövləti qurmaq idi. 1892-ci ildə Tiflisdə ilk qurultaylarını keçirən təşkilat türklərə qarşı sui-qəsdlərin təşkil olunması barədə qərar çıxarmışdı. Bu qurultaydan sonra partiya üzvülərinə "Türkü, kürdü hər yerdə, hər bir şəraitdə öldür, sözündən dönənləri, erməni xainlərini öldür, intiqam al" əmri verilmişdi. "Daşnaksütyun" partiyasının 1907-ci ildə müxtəlif dövlətlərdə ümumən 3233 filialı var idi. Bunlardan 2311-i Rusiya imperiyasında, digərləri isə erməni diasporu olan ölkələrdə yerləşirdi. XX əsrin əvvəllərində partiya üzvülərinin sayı yüz min nəfərə çatırdı [18, s.41] Bakıda, Şuşada, Şamaxıda, Yelizavetpolda, erməni əhalisi yaşayan başqa Azərbaycan şəhərlərində erməni-millətçi "Daşnaqsütyun" (ittifaq), partiyasının və xırda burjua millətçi "Hnçak" (Zəng) partiyasının yerli təşkilatları erməni əhalisi içərisində erməni sovnist ideyalarını yayırdılar. Milli ideoloji mərkəz rolunda çıxış edən Qriqoryan kilsəsi erməni milli şüurunun və milli özünədərkin formalaşmasında əhəmiyyətli rol oynamış və indi də oynamaqdadır. İlk növbədə öz müstəqilliyini bərqərar etmək istəyən kilsə məqsədinə çatmaq üçün bütün imkan və vasitələrdən istifadə etmişdir. "Böyük Ermənistan " xülyasının bu günə qədər aktual olmasının səbəbi də məhz kilsə olmuşdur. Ona görə də kilsə terrorçu təşkilatların yaradılmasında və fəaliyyətində həmişə fəal olmuşdur [9, s.12]. Terrorun ideoloqları və təbliğatçıları, həmçinin cənubi Qafqazda yayılan mətbuat orqanları – "Roşak" (Bayraq), "Hnçak", "Paylaq" (Parıltı) jurnalları erməni milləti daxilində sinfi sülh, bütün ermənilərin "birgə

fəaliyyəti üçün zəmin" nəzəriyyəsi kimi bədnam nəzəriyyə təbliğ edərək, erməni əhalisini inqilabi mübarizədən yayındırırdılar. Erməni terrorunun ilk təzahürü 1896-cı il avqustun 26-da qeydə alınmışdır. Həmin zaman "Daşnaksütyun" partiyasının rəhbər üzvülərindən biri olan Karekin Pastırmacyanın başçılıq etdiyi 28 nəfərlik terrorçu dəstə İstanbuldakı Mərkəzi Bankı ələ keçirərək, əksəriyyəti Avropa vətəndaşları olan 156 şəxsi girov götürdülər. Avropa səfirliklərini işə qarışması nəticəsində bu məsələ terrorçular üçün müsbət siyasi nəticə verdi. K. Pastırmacyan Osmanlı parlamentində erməni icmasının nümayəndəsi kimi yer almış, sonralar isə Ermənistanın ABŞ- dakı səfiri olmuşdur. Bu fakt ermənilərin millətçi maraqlarının reallaşmasında terrordan istifadənin effektini göstərir [16, s.56].

Bu hadisədən dərhal sonra erməni terrorçu təşkilatları yüksək rütbəli şəxslərə qarşı silsilə qətllər həyata kerdilər. 1905-ci il mayın 1-də "Hnçak" təşkilatı Batumi vilayətinin general qubernatoru general-mayor M. Draginə qarşı sui-qəsdi həyata keçirdilər. 1905-ci il mayın 11-də Bakı qubernatoru Mixail Nakaşidzeyə qarşı sui-qəsd təşkil etdilər. 1905-ci il avqustun 20-də "Daşnaksütun" partiyası Yelizavetpol general-qubernatoru Nikolay Lutsauya qarşı sui-qəsd törətdilər [7, s.247].

İçərisində erməni millətçiliyini qoruyan, əlləri minlərlə azərbaycanlının qanına bulanan S.Y.Şaumyan bu partiyalardan bəhs edərkən onların sovnist, türklərə qarşı olan düşmən münasibətlərini açıqca etiraf edirdi. S.Y.Şaumyan yazırdı: "İstismar olunan kütlə öz istismarçıları əleyhinə səsini ucatdıqda, erməni burjuaziyasına qarşı azacıq sinfi mübarizə təzahürü göründükdə", "Daşnakustyun" "Vətənpərvərliklə" bağırıb fəhlələrə xatırladırmış ki, bütün ermənilər qardaşdırlar, ermənilər içərisində sinfi mübarizə olmamalıdır, çünki onların ümumi milli düşmənləri və ümumi milli ideyaları vardır" [2, s.40].

Erməni siyasi partiyaları və erməni burjuaziyası XX əsrin əvvəllərində Azərbaycanda cərəyan edən milli-demokratik hərəkatın qatı düşməni kimi çar hökumətinin azərbaycanlılara qarşı müstəmləkəçi siyasətini dəstəkləyir, bu yolla rus hökumətindən növbəti güzəştlərini almaq istəyirdilər.

Erməni şovnizminin qızışdırılmasında qriqoryan kilsə xadimləri əhəmiyyətli rol oynamışlar. Azərbaycan ərazisində yerləşən erməni kilsələri hərbi sürsat anbarlarına çevirmişdilər. 1906-cı ildə Şuşada iki kilsənin zirzəmisində çoxlu miqdarda tüfəng, top, güllə və digər hərbi sürsat aşkar edilmişdir [12, s.54].

Fransız alimi Baron de-Bayın erməni kilsəsi və kilsə xadimləri ilə bağlı olan fikirləri çox maraqlıdır. Alim yazırdı: "Bu kilsə (Üçmüədzin) bir müddət saxta pul düzəldənlərin yuvası olmuşdur. Mənim bütün minnətdarlıqlarına baxmayaraq, mən səmimi olmalıyam. Bu monastr məndə dini mərkəzdən çox, siyasi mərkəz təəsüratı oyadır" [12, s.75].

Rus diplomatı, general Mayevski isə “ermənilərin törətdiyi kütləvi qırğınlar” adlı kitabında yazır: “Erməni din xadimləri haqqında bir neçə söz demək istəyirəm. Onların dini fəaliyyəti olduqca cüzidir. Erməni din xadimlərinin fəaliyyəti Allah kəlamını xalqa çatdırmaqdan çox, müsəlmanlarla xristianlar arasında nifaqı qızışdırmaqdan ibarətdir” [18, s.8].

Erməni millətçilərinin “Böyük Ermənistan” olan xülyaları elə o dövrlərdə avropa diplomatları tərəfindən ciddi qarşılanmamışdır. 1897-ci ildə Fransanın İstambuldakı səfiri Misyö Kambonun Fransanın Xarici İşlər Naziri Qanota yazdığı məktub fikrimizi təsdiqləyir. Səfir yazırdı: “Bağımsız Ermənistan haqqında düşünməyə dəyməz. Əgər ağıla gəlməz şərtlər daxilində Avropanın təklif etdiyi Ermənistan qurulsa, bu yeni dövlətin sərhədlərini cızmaq belə mümkün olmayacaqdır” [16, s.76]. Müəllif fikrini davam etdirərək yazırdı ki, “Ermənilər bolqarlar və yunanlar kimi, təbii sərhədləri olan bir dövlət yarada bilməzlər”.

Ermənilərin iştirakı ilə azərbaycanlılara qarşı təşkil olunan milli qırğın 1905-ci ilin fevralında Bakıda başlandı. Məqsədli olaraq Ağarza adlı bir nəfər daşnaqlar tərəfindən Bakıda Quba meydanında öldürüldü. Sonra erməni əsgəri istintaqa apardığı azərbaycanlı dustağı fevralın 2-sində küçədə qətlə yetirdi. Fevralın 6-da isə istintaqa aparılan azərbaycanlı dustaq erməni əsgəri tərəfindən yolda öldürüldü [7, s.108]. M.S.Ordubadi “Qanlı illər” əsərində bu hadisədən bəhs edərək yazırdı:”...süni və çoxdan bəri hər iki millətin zatına qondarılmış ixtişaş bombası partladıldı və bütün Qafqaz aləmi bu bombanın təsiri şiddətindən yanıb yaxıldı. Görəsən o partlayıcı maddə həqiqətən də bomba imiş? Bəli, bu bomba fevralın 6-da baş verən Bakı faciəsidir ki, bütün Qafqaza buradan atəş açıldı.” [6]. Beləliklə fevralın 6-10 da Bakıda başlanan milli qırğın iki il davam etdi [3, s.217].

Münaqişənin başlanğıcından hər iki tərəfə aydın oldu ki, rus hökuməti millətlərarası toqquşmaların nəinki qarşısını almaq istəmir, əksinə ölkədə milli azadlıq hərəkatını və inqilabi mübarizəni boğmaq üçün bu qarşıdurmadan istifadə etmək niyyətindədir.

1905-ci il mayın 11-də gecə ermənilər Naxçıvan şəhərini atəşə tutaraq, qətl və qarətə başladılar. İrəvan ətrafında olan 15 azərbaycanlı kəndi viran qoyuldu. İyunun 9-10-da Eçmiədzin mahalında 16 Azərbaycan kəndi dağıdıldı. Avqustun 16-da daşnaqlar Şuşa şəhərində kütləvi qətl və qarətə başladılar. Köçəri və Xəlfəli məhəllələrindən 20-yə yaxın ev dağıdıldı və məhv edildi[5, s.18]. 1906-cı ildə inqlab dalğasının tədriclə zəiflədiyini hiss edən hökumət dairələri ucqarlarda nisbi sakitliyin yaranmasına maraq göstərməyə başladılar.

1906-cı il fevralın 20-də erməni müsəlman münaqişəsinə son qoymaq məqsədi ilə Qafqaz canişini Vorontsov Daşkovun təşəbbüsü ilə Tiflisdə sülh məclisi toplandı. Məclisə dörd quberniyadan erməni və müsəlman nümayəndələri dəvət olundular. Müsəlmanları Əhməd bəy Ağayev, Əlimərdan

bəy Topçubaşov, Ələkbər bəy Xasməmmədov, Adilxan Ziyadxanov və başqaları təmsil edirdi [7, s.55].

Müsəlmanların təkidi ilə "Ermənilərin terror və sairə ziyan gətirən qatil dəstələrinin ortadan götürülməsi" məsələsi erməni nümayəndələrinin ciddi müqavimətinə baxmayaraq danışıqların əsas mövzusu oldu və pisləndi. Məclisdə erməni nümayəndələri öz terrorçu və qarətçilik əməllərini hər vasitə ilə ört-basdır etməyə çalışırdı [7, s.56].

Məclis səs çoxluğu ilə terrorun aradan götürülməsi və davakar partiyaların buraxılması haqqında qətnamə qəbul etdi. Tiflis sülh məclisinin qərarları daşnaqları heç cürə qane etmirdi. Buna görə də erməni millətçiləri yeni cinayətlər törətməyə başladılar.

1906-cı il iyun ayının 29-da ermənilər Qafan rayonunda Karxana kəndinə hücum etdilər. Burada 30 nəfər qadını qətlə yetirdilər, onlar Xələc , Saldaşlı,İncəvar, Daşnov kəndlərini dağıtdıqdan sonra Qatar kəndini, daha sonra isə Oğçu, Sabadin, Aralık və digər müsəlman kəndlərini qarət etdilər. Saqqarasuda erməni silahlılarının törətdikləri faciələrlə bağlı M.S. Ordubadi yazırdı: " Saqqarasuda sığınacaq etmiş camaat qırılıb, qaçıb qurtardıqdan sonra Molla Həsən Əfəndinin başında yanında bir çox övrət Quran əlində ermənilərin qabağına çıxıb, Quran xatiri üçün rəhm istəyib ağlasalar da, Quranı, bəlkə də İncili mübarəki tanımayan qansızlar hamısını vəhşiliklə öldürdülər." [6].

1905-1907-ci illərin erməni-müsəlman qırğınında erməni millətçiləri məqsədlərinə çata bilmədilər, böyük itkilər verərək geri çəkilmək məcburiyyətində qaldılar. Ermənilər İrəvan şəhərinə hücum edəndə İrandan və Osmanlı dövlətindən gələn könüllülər şəhərin azərbaycanlı əhalisini xilas edərək, düşmənə böyük itki verdilər. 1905-ci ildə Cəbrail qəzasının bir çox kəndləri, o cümlədən Qaçar kəndinin əhalisi 3 min erməni quldurunun hücumunu dəf edərək, onlara 400 nəfərə qədər itki vermişdir. Ermənilərin alınmaz qala hesab etdikləri Xırmancıq kəndini ələ keçirmişdilər [10, s.218].

Şuşa istiqamətində avqustun 16-dan 21-qədər baş verən döyüşlərdə də erməni quldurları məğlub oldular. Ağdam-Şuşa yolunun bağlanmasının qarşısını almaq üçün C.Məmmədquluzadənin həyat yoldaşı Həmidə xanım Ağdama gələrək hər cür kömək etməyə hazır olduğunu bildirmişdir. Azərbaycan milli burjuaziyasının nümayəndələri H.Z.Tağıyev, M.Muxtarov və başqaları döyüş bolgələrinə ərzaq və pulla kömək göstərmişdilər. Sultan bəy Sultanov və İbrahim bəy Əli Məhəmməd oğlunun başçılıq etdiyi dəstə düşmənlərlə qeyri bərabər döyüşə girib onları darmadağın etdilər. Ermənilərin azərbaycanlılara qarşı törətdiyi milli qırğınlar və çar hökumətinin bu işə laqeyd münasibəti azərbaycan əhalisi arasında hökumətə qarşı olan narazlıqları gücləndirməklə bərabər Azərbaycanda milli azadlıq hərəkatının daha geniş vüsət almasına güclü təkan oldu. Azərbaycanın bütün qəzalarında bütün sosial təbəqələr üçün mütləqiyyət ümumi düşmən obrazı kimi formalaşdı.

## Ədəbiyyat

1. Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri.Bakı:1986. 503 s.
2. Azərbaycan tarixi. 3 cilddə, 2-ci cild. Bakı: 1964. 1002 s.
3. Azərbaycan tarixi (S.Allahverdiyev, Ə.Haqverdiyev, M.Behbudov). Bakı: 2005. 332 s.
4. İsmayılov M. Birinci rus inqilabı dövründə Azərbaycanda kəndli hərəkatı. Bakı: Azərnəşr; 1955. 22 s.
5. Nəvvab M.M. 1905-1906-cı illərdə erməni-müsəlman davası.Bakı, 1993.
6. Ordubadi M.S. Qanlı illər. Bakı:1991
7. Əmrahov M. İ. XX əsrdə Azərbaycanda mikki-azadlıq hərəkatı. Bakı: 2018. 484 s.
8. Əzizov T, Azərbaycan XX əsrin əvvəllərində.Bakı.1997. 116 s.
9. Turan A. Erməni terroru və Qriqoryan kilsəsi. Bakı: 2019.
10. Məmmədov Ə. Azərbaycanda milli-azadlıq hərəkatı. Bakı: 2009. 207 s.
11. Məmmədov X. Azərbaycan xalqının milli istiqlal mübarizəsi (XIX yüzilliyin sonları-XX yüzilliyin əvvəlləri). Bakı: 2005. 122 s.
12. Əroğul Ə. Erməni-daşnak faşizmi və Azərbaycan (bədii publisistika). Bakı: 2007. 410 s.
13. Cəfərli C. Azərbaycanlı deputatların Bakı Şəhər Dumasında fəaliyyəti (1893-1917), tarix elmləri namizədi dissertasiyasının avtoreferatı. Bakı: 2004. 25 s.
14. Грибоедов А. Сочинение. Т.2, М.,1971. 341с.
15. Шавров Н. Новая угроза русскому делу в Кавказе. Баку: 1990.
16. Камуран К. Армянское досье. Анкара: 1985.
17. Маркулия Г. Армяне в поисках Армении. Тблиси,2010. СГУ.
18. Гаджиева З. Армянская церковь: государство в государстве. İRS,№ 6,Baky, 2018, стр.45.

# ŞİMALİ AZƏRBAYCANDA KOMENDANT İDARƏ ÜSULU DÖVRÜNDƏ MƏHKƏMƏLƏR

**Cəfər Cəfərli**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
ceferli advocat@mail.ru

***Acar sözlər:*** *məhkəmə, komendant, qanun, əyalət və dairə məhkəməsi, şəriət məhkəməsi.*

*Məqalə Şimali Azərbaycanda 1840-cı ilə kimi mövcud olmuş komendant idarəsi dövründə Rusiya imperiyası qanunları əsasında təşkil olunan və fəaliyyət göstərərən məhkəmələrə həsr edilib. Məqalədə ümumimperiya qanunları əsasında yeni yaranan əyalət və dairə məhkəmələri ilə yanaşı Rusiya işğalına qədərki dövrdə mövcud olmuş şəriət məhkəmələrinin də fəaliyyəti elmi cəhətdən araşdırılıb.*

*Məqalədə bu dövrdə təşkil edilən əyalət və dairə məhkəmələrinin təşkili ilə yeni dünyəvi məhkəmələrin yaranması və fəaliyyəti araşdırılmış, dünyəvi qanunların tətbiqi ilə feodal cəza sisteminin tədricən aradan sıxışdırılaraq çıxarılması da tədqiq edilmişdir.*

*Çarizm 1840-cı il 10 aprel tarixində Cənubi Qafqazda inzibati məhkəmə islahatı keçirtdi. Bu islahatla komendant idarə üsulu ləğv edildi. Həmin islahata əsasən əyalət və dairə məhkəmələri də ləğv edildi, yeni vilayət və qəza məhkəmələri fəaliyyətə başladı.*

## СУДЫ В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ В ПЕРИОД КОМЕНДАНТСКОЙ СИСТЕМЫ УПРАВЛЕНИЯ

**Джафар Джафарли**

***Ключевые слова:*** *суды, комендант, закон, окружные и провинциальные суды, шариатских суд.*

*В статье основное уделяется судам, организованным и действовошим на основе законов Российской империи, существовашим в Северном Азербайджане до 1840 года в период комендантского управления. Помимо внов созданных губернских и уездных судов, основанных на общих законах Российской империи, научно исследована деятельность шариатских судов, существовавших до оккупации России.*

*В статье рассматривается создание и деятельность новых светских судов с организацией организованных в этот период губернских и уездных судов, а также постепенное подавление и ликвидация феодальной карательный системы с применения светских законов.*

*10 апреля 1840 г. царизм провел админстративно-судебную реформу на Южном Кавказе. В результате этой реформы был упразднен комендантский метод управления, в соответствии с ней были упразднены, также окружной и провинциальный суды и начали действовать новые губернских и уездные суды.*

## COURTS DURINQ THE COMMANDANT ADMINISTRATION IN NORTH AZERBAIJAN

**Jafar Jafarli**

***Keywords****: courts, commandant, law, provincial and district courts, sharia courts.*

*The article on the courts organized and operating on the basis of the lawof the Russian Empire, which existed in North Azerbaijan until 1840 during the commandant administeration. İn addition to the newly created provincial and district courts based on the general laws of the empre, the activity of the sharia courts that existed before the occupation of the Russian was scientifically investigated.*

*The article examines the creation and activity of new secular courts with the organization of provincial and district courts organized in this period, and gradual suppression and removal of the feudal jazz system with the application of secular laws.*

*On april 10 1840 czarism carried out an admistrative judicial reform in the South Caucasus. With this reform, the commandant administration method was abolished. According to thatreform, provincial and district courts were also abolished, and new provincial and district courts began to operate.*

Rusiya imperatoru I Aleksandr (1801-1825) 1801-ci il sentyabrın 12-də Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqında manifest imzaladı. Bununla da Cənubi Qafqazın işğalı üçün strateji cəhətdən əlverişli imkan yarandı. Şərqi Gürcüstanla birlikdə Şimali Azərbaycan torpaqları Qazax, Şəmşəddil, Borçalı və Pəmbək də Rusiyanın müstəmləkəsinə çevrildi.

Şərqi Gürcüstanda möhkəmləndikdən sonra Rusiya Şimali Azərbaycanın işğalına başladı. Birinci Rusiya-Qacar müharibəsinin nəticəsində Rusiya İrəvan

və Naxçıvan xanlıqları istisna olmaqla bütün Şimali Azərbaycan xanlıqlarını işğal etdi.

Çarizim Şimali Azərbaycanda öz mövqeyini möhkəmləndirmək məqsədilə xanlıq idarə üsulunu rus inzibati idarələri ilə əvəz etməyə başladı. Bu məqsədlə 1804-cü ildə Gəncə, 1806-cı ildə Bakı, 1810-cu ildə Quba, 1819-cu ildə Şəki, 1820-ci ildə Şirvan, 1822-ci ildə Qarabağ və 1826-cı ildə Lənkəran xanlıqları ləğv edildi [9, s.53].

Rusiya işğalından sonra xanlıqlar dairə və əyalətlərə çevrilirdi. Şimali Azərbaycan ərazisində Bakı, Quba, Şəki, Şirvan, Qarabağ və Lənkəran əyalətləri, Yelisavetpol və Car-Balakən dairələri, Qazax, Şəmşəddil distansiyaları yaradıldı. Hər bir əyalət və dairənin başında komendant adlanan rus zabiti dururdu. Komendantlar Qafqazdakı rus ordusunun baş komandanı tərəfindən, mayor və daha yüksək rütbəli rus zabitlərindən təyin olunurdu. Dairə və əyalətdə bütün hərbi, mülki, məhkəmə və maliyyə hakimiyyəti komendantın əlində cəmləşmişdi [11,c.2.s.181].

Komendantlar geniş hüquq və səlahiyyətlərə malik idilər. Yerlərdə mütləq hakim hesab olunurdular. Onların təkcə ölüm hökmü vermək hüquqları yox idi. Komendantlar mahal naiblərini Rusiyaya sədaqətli olan bəylərdən təyin edir və azad edirdilər. Heç bir nəzarət olmadığını hiss edən komendant bütün Azərbaycan əhalisini soyub talayır, azacıq narazılığı amansızcasına yatırırdı [8, s.34].

Komendant həmçinin hərbi qarnizon rəisi idi. Beləliklə, onun əlində çox böyük hakimiyyət-icraedici, məhkəmə və hərbi hakimiyyət toplanmışdır.

Şimali Azərbaycanda komendant idarə üsulu dövründə məhkəmələrə komendant sədrlik edirdi. Həmin dövr Şimali Azərbaycanın məhkəmə quruluşu aşağıdakı kimi idi:

1. şəhər məhkəmələri;
2. əyalət məhkəmələri;
3. şəriət məhkəməsi.

Əyalət məhkəmələri Qarabağ, Şəki, Lənkəran və Naxçıvanda, şəhər məhkəmələri Bakı, Quba və Gəncədə, şəriət məhkəmələri isə Şimali Azərbaycanın bütün ərazilərində fəaliyyət göstərirdi. Məhkəmə iclasına komendant sədrlik edirdi. İki nəfər məhkəmə iclasçısı isə yerli bəylərdən seçilirdi. Məhkəmə kollegial hesab edilsə də, əslində iş komendant tərəfindən təkbaşına həll edilirdi. O, adətən heç bir qanuna əsaslanmadan qərar çıxarır və bu da hökm üçün əsas olurdu. Məhkəmədə işlərin həlli aylarla, hətta bəzən illərlə uzanırdı.

Ağır cinayətlərə hərbi məhkəmə və yaxud da hərbi məhkəmə komissiyası baxırdı. Hərbi məhkəmə prosesləri qısa müddətli olması ilə fərqlənirdi. Məhkəmə üç gün ərzində qərar çıxarır, sonra baxılmaq və təsdiq edilmək üçün Qafqazın baş komandanına göndərilirdi. Hərbi məhkəmə müstəmləkəçilərin

əlində sosial və müstəmləkə zülmünə qarşı çıxış edənlərə divan tutmaq üçün əlverişli cəza orqanı idi. Lakin xanlıqlar dövründə mövcud olan bir çox ağır cəza növləri ləğv edilmişdi.

1806-cı ildə çar hökuməti tərəfindən Gəncədə dairə məhkəməsi yaradıldı [16, s.17]. Dairə məhkəməsi məhkəmə sədrindən, hakim və əhalinin rəğbətini qazanmış şəhər və kənd əhalisindən seçilmiş iki köməkçidən, tərcüməçi və yeddi mirzədən ibarət idi. Məhkəməyə komendant özü sədrlik edirdi. Dairə məhkəməsi mülki, ticarət və kiçik cinayət işlərinə baxırdı. Məhkəmə tədqiqatı bürokratik xarakter daşıyırdı. Orada süründürməçilik hökm sürürdü. Dairə məhkəməsinin iş təcrübəsi göstərirdi ki, o məhkəmə işlərindən daha çox inzibati işlərlə məşğul olurdu [8, s.35].

Sırf hüquq işlərinə az baxdığı və vəzifəsinin öhdəsindən gələ bilmədiyi üçün Gəncə dairə məhkəməsi 1812-ci ildə ləğv edildi. 1814-cü ildə Gəncədə komendantın sədrlik etdiyi yeni müvəqqəti dairə məhkəməsi təsis olundu ki, onun da tərkibi xəzinədardan və yerli bəylərdən seçilmiş iki iclasçıdan ibarət idi. Dairə məhkəməsi təkcə məhkəmə rolu oynamayıb, polis vəzifəsini də icra edirdi. Şəhərdə qəza məhkəməsinin və şəhər polisinin olmasına baxmayaraq, komendant məhkəmə sistemində vahid hakim hesab olunurdu. Əhali bu üsul-idarədən olduqca narazı idi. Bu narazılığın əsas səbəbi komendantların həddindən artıq özbaşınalığı, köhnə vergi sisteminin saxlanılması, süründürməçiliyin həddini aşması, rüşvətxorluq və s. idi [11, c.7,s.11] .

1810-cu il üsyanından sonra Qubada yerli bəylərdən təşkil edilmiş müvəqqəti bəy idarəçiliyi komendant idarə forması ilə əvəz olundu. Quba əyalətinin daxili idarəsi üçün 1812-ci il martın 10-da Quba şəhər məhkəməsi təsis edildi [13, s.18]. Komendantın sədrlik etdiyi Quba şəhər məhkəməsi həmçinin şəhərdə inzibati orqan rolunu oynayaraq şəhərin idarə edilməsində böyük səlahiyyətlərə malik idi [17, s.54].

Bakıda 1812-ci ilə qədər xüsusi şəhər idarə orqanları mövcud olmamışdır. 1812-ci ilin fevralında Qafqazın baş hakimi olan M.Pauliçinin dövründə Bakı şəhər məhkəməsi təsis edildi. M.Pauliçi Dağıstan dairəsinə səfəri zamanı Bakıda olarkən şəhər məhkəməsi açıldı.

"Bakı qalası və onun ətrafı üçün şəhər məhkəməsi haqqında" qərarla Bakı şəhər məhkəməsi yaradıldı və fəaliyyətə başladı [11,c.5.s.204]. Qərarın birinci maddəsinə əsasən Bakıda şəhər məhkəməsi yaxud da divan adlanan məhkəmə orqanı təsis edilirdi. Məhkəməyə qalanın komendantı rəhbərlik edirdi. O, həmçinin məhkəmə iclaslarına da sədrlik edə bilərdi. Məhkəmənin üzvləri bir il müddətinə iki bəy və iki mülki şəxsdən ibarət tərkibdə seçilirdi. Onlardan biri ermənilərdən seçilirdi. Məhkəmə əxlaq məsələləri ilə əlaqədar işlərə baxılmasında molla dəvət etmək hüququna malik idi [11,c.5,s.204]. Bəylər və mülki şəxslərdən olan vətəndaşlar şəhər məhkəməsinə onların icmasının seçkisinə əsasən və ya ümumi razılıqla seçilir. Növbəti ildə də məhkəmənin

keçmiş üzvünün mənsub olduğu icma etiraz etmirdisə və həmin şəxs razıdırsa qərara görə o yenidən məhkəməyə üzv seçilə bilərdi [11,c.5,s.204]. Məhkəmə üzvlərinin seçkisi hər il dekabr ayında keçirilirdi. Seçilən şəxslərin hamısının adları və rütbəsi topladıqları səslərin saylı göstərilməklə qalanın komendantı vasitəsilə Qafqazın baş komandanının təsdiqinə göndərildi [11,c.5,s.204].

Qərara əsasən məhkəmənin vəzifəsi iddiaçıları barışdırmaq, hər iki tərəfə aidiyyatı üzrə ədaləti təmin etmək və əhali arasında qisas və ədavətin aparılmasına son qoymaq idi [11,c.5,s.204]. Məhkəmə hər cür işlərə-mülki, ticarət və kiçik əhəmiyyətli cinayət işlərinə baxırdı. Məhkəmədə işlərə əhalinin şikayəti əsasında baxılır və həll edilirdi. Bu məhkəmə yalnız az əhəmiyyətli cinayət işlərinə baxmaq səlahiyyətinə malik idi. Daha ağır cinayət işləri (dövlətə xəyanət, adam öldürmə, quldurluq, dövlət əmlakının oğurluğu, saxta pul kəsmə və s.) isə baxılmaq üçün hərbi məhkəmələrə verildi. Burada işlərin istintaqı aparılmadan Rusiya qanunları əsasında baxılır və həll edilirdi. Az əhəmiyyətli cinayət işlərinə görə cinayətkar məcburi əməyə cəlb etmə və ya pul cəriməsi ilə cəzalandırılırdı [15,s.148].

Qərara görə təbəlikdə sadiqlik haqqında anda xəyanət və ya onun pozulmasında, qətldə, quldurluqda, rus pullarının xaricə daşınmasında və yaxud saxta pul kəsilməsində və s. ittiham olunan cinayətkarlar polisdə istintaqdan sonra dərhal hərbi məhkəməyə göndərilirdi. Hərbi məhkəmə hərbi komandirlərdən ibarət tərkibdə təşkil olunurdu. Komendantın bu məhkəmənin işində iştirakına yol verilmirdi. Hərbi məhkəmə hərbi nizamnamə qaydalarını və baxılacaq işə görə digər qaydaları rəhbər tutaraq hər bir işə üç gün müddətində baxıb qərar qəbul edir və bunu qalanın komendantına çatdırmalı idi. Komendant isə öz fikirləri ilə bərabər bu qərarı dairə rəisi vasitəsilə baxılmaq və təsdiq edilmək üçün Qafqazın baş komandanına təqdim etməli idi [11,c.5.s.204].

Şəhər məhkəməsi mülki işlər üzrə iddiaçıların şikayətlərinə bir gün müddətində baxıb həll etməli idi. Şikayətçinin iddiası şahid vasitəsilə və yaxud digər faktlarla araşdırmalı və protokola yazılmalı idi. Məhkəmə protokolu baxılmaq üçün hər ay baş komandana göndərilirdi [11, c.5.s.204].

Məhkəmə protokolu prosesin bütün iştirakçıları tərəfindən imzalanmalı və məhkəmədə çəkişən tərəflərə elan olunmalı idi. Sonra qərar icraya göndərilirdi. Düzəliş tələb olunan işlər qalada 3 gün müddətində, dairədə isə bir həftə müddətində həll olunmalı idi [11,c.5.s.204]. Əgər kimsə bu qərardan razı qalmırdısa, onda ona hər iki tərəfdən vasitəçi seçmək və onları araşdırmaq imkanı verilirdi. Şəhər məhkəməsi əhali tərəfindən seçilmiş vasitəçilərə hər cür yardım göstərilirdi. Məhkəmədə baxılan bütün işlərə görə heç bir rüsum tutulmurdu [11,c.5.204].

Qərara əsasən şəhər məhkəməsində bütün işlərin həllinə dair protokol tərtib olunmalı idi. Protokolun əsilləri və yaxud onlardan yazılan siyahılar və onların icrası hər ay baş komandana təqdim olunurdu. Baş komandan

protokolu nəzərdən keçirdikdən sonra onu məhkəməyə qaytarır, məhkəmə isə arxivə verirdi. Şəhər məhkəməsində protokolların tərtibi ilə məşğul olan mirzələri məhkəmə özü seçirdi [11,c.5, s.204].

Qərarda göstərilirdi ki, şəhər məhkəməsi təkcə məhkəmə hakimiyyəti deyil, eyni zamanda inzibati orqan funksiyasını da yerinə yetirməli idi. Məhkəmə komendant idarəçiliyində təsərrüfat işlərini həll edir, şəhərin mədaxil və məxaric smetasını tərtib edirdi. Baş komandanın razılığı ilə şəhər vəsaiti üzərində sərəncam verir, şəhər və zemestvo mükəlləfiyyətlərini müəyyənləşdirir, dulların və yetimlərin himayəsi üçün qəyyum və himayəçilər seçir və şəhərin bütün ərzaq məhsulları ilə təmin olunması barədə sərəncam verə bilərdi [11,c.5,s.204].

Qərardan göründüyü kimi məhkəmə idarəçilikdən ayrılmamışdır, XIX əsrin birinci yarısında Şimali Azərbaycan inzibati və siyasi mərkəz rolunu oynayan Bakı şəhərində dünyəvi məhkəmənin təsisi nə qədər mütərəqqi əhəmiyyətə malik olsa da, lakin məhkəmənin idarəçilikdən ayrılmaması onun təşkilinin qüsurlu cəhətlərindən idi. Şəhər məhkəməsinin təşkilindən başlayaraq Şimali Azərbaycanda tədricən dünyəvi qanunların tətbiqinə başlandı.

Yermalov 1823-cü ildə "Şəhər əsasnaməsi" haqqında qərar tərtib etdi ki, ona əsasən şəhər məhkəməsinin yeni ştat cədvəli təsdiq edildi. Məhkəmənin tərkibinə sədr (komendant), iki bəydən və iki şəhər yüzbaşınasından (starşina) (onlardan biri azərbaycanlı, digəri isə erməni əhalisindən), bir il müddətində seçilən dörd iclasçı, kargüzar, mirzə və katib daxil idi. 1828-ci ildən başlayaraq iclasçılar üç il müddətində seçilməyə başladılar [11,c.6. s.1107].

Şəhər məhkəməsinin fəaliyyəti məhkəmə araşdırmalarının bürokratik xarakteri və hakimiyyətin özbaşınalığı ilə xarakterizə olunurdu. 1815-ci ildə Bakı şəhər məhkəməsində baxılmış bir sıra işlərin təhlili göstərir ki, heç bir məhkəmə qərarında qanuna əsaslanma və sübutların ədalətli qiymətləndirilməsinə rast gəlinməyib. Ən mühüm sübut növlərindən biri olan and içməklə şahid ifadəsi heç də həmişə eyni cür qiymətləndirilməyib [18,s.91].

Şimali Azərbaycanın bir sıra əyalətlərində əyalət məhkəməsi yaradılmışdı. 1819-cu ildə Şəkidə xan idarə üsulu ləğv edildi və Şəki əyaləti yaradıldı. Şəhərin və əyalətin idarəsi komendanta tapşırıldı. Şəki əyalət məhkəməsi də 1819-cu il avqustun 25-də təsis edildi. Əyalət məhkəməsi təkcə məhkəmə işləri ilə deyil, inzibati işlərlə də məşğul olurdu. Mülki və az əhəmiyyətli cinayət işlərini həll edən məhkəmə şəhər smetasını tərtib edir, şəhər mükəlləfiyyətlərini müəyyənləşdirir, qəyyum təyin edir, qoşun üçün mənzil tapırdı və s. Bu məhkəmələrdə bəylər arasından seçilmiş iki divanbəyi və başqa silklərdən olan iki iclasçı iştirak edirdi. Məhkəmə ştatına iki tərcüməçi, bir karküzar, süvari və piyada məktub daşıyanlar daxil idi. Ağır cinayətlərə hərbi məhkəmədə baxılırdı [9,s.49].

Şirvanda 1820-ci il sentyabrın 12-də, Qarabağda 1822-ci ilin dekabrında əyalət məhkəmələri təsis edildi. Əyalət məhkəmələrinin tərkibi şəhər məhkəmələri ilə eyni idi. Yalnız fərq ondan ibarət idi ki, burada bəylərin və vergi verən silklərin nümayəndələri bir il müddətində deyil, üç il müddətində seçilirdi [11,c.6,s.1107,1225).

Qarabağda əyalət məhkəməsi Şuşada təşkil edilmişdi. Əyalət məhkəməsi komendantın sədrliyi və bəylərdən və yerli əhalidən seçilən dörd iclasçıdan ibarət tərkibdə fəaliyyət göstərirdi. Qarabağ əyalət məhkəməsinin səlahiyyətlərinə aşağıdakılar daxil idi:

a) az əhəmiyyətli cinayət və mülki işlər üzrə mübahisələrə baxmaq;
b) təsərrüfat və əyalətin gəlirinin idarə edilməsi;
v) ictimai qaydanın mühafizəsi və idarə edilməsi [19, h.1.s.358].

Əyalət məhkəməsi belə demək mümkünsə zahiri görünüş üçün idi. İşin həll edilməsi və ya bitirilməsini komendant həll edirdi. Araşdırılması zəruri olan işlərin əyalət məhkəməsində aparılmasına komendant heç bir qayğı göstərmirdi. O, qəti sürətdə məhkəmədə belə işlərin həllində iştirak etmirdi. İclasçılar isə nəinki rus dilinin qrammatikasını, hətta rus dilini dərindən bilmirdilər. Onların işi məhkəmə protokoluna öz möhürlərini vurmaq üçün məhkəməyə gəlməkdən ibarət idi. Onlar daha çox, bəzən də bir neçə ay əvvəlki tarixlərdə məhkəməyə verilmiş işləri icra edirdilər [19,h.1.s.359]. Əyalət məhkəməsinə daxil olan işlər həll edilməyərək məhkəmədə yığılıb qalırdı.

1837-ci il dekabrın 1-nə olan məlumatına görə məhkəmədə 500-dən artıq iş yığılıb qalmışdır ki, onlardan 165 cinayət işlərinə aid idi. Məhkəmədə yığılıb qalan və baxılmamış işlərin daha böyük hissəsi cinayət və dövlət maraqları ilə əlaqədar olan işlər idi.

Məhkəmənin həll etdiyi və həll edə bilmədiyi işlər haqqında məlumatlara ətraflı baxdıqda burada qeydiyyatı zəruri olan məlumatların dəyişildiyini görürük. Bu hal təəccüblü deyildi. Çünki Qarabağ və digər əyalətlərdə adam öldürmə və soyğunçuluq kimi cinayətlərin qeydiyyatı daima gizlədilirdi. Dövlət əmlakının mənimsənilməsi ilə əlaqədar olaraq bəylərin iddiası üzrə meydana çıxan işlərdə məhkəmə həmişə çalışırdı ki, işi imtiyazlı şəxslərin xeyrinə həll etsin [16,h.1.s.359].

1833-cü ildə Qarabağ əyalət məhkəməsində köhnə işlərin baxılıb qurtarılması üçün xüsusi müvəqqəti şöbə yaradıldı. Şöbə 3 il fəaliyyət göstərdi və 599 işdən yalnız 264-nü həll edə bildi. 335 iş isə məhkəməyə yenidən daxil oldu.

Mülki işlər üzrə ədalət mühakiməsinin qaydası ümumi qaydaya yaxın idi. Əsas xüsusiyyətlərini aşağıdakılardan ibarət idi:

A) iddiaçı ərizənin oxunuşuna çağırılmırdı;
B) işlər bir-birlərinə oxşayan mövcud işlərin həllinə uyğun bir tərəfdən Rusiya qanunları

digər tərəfdən yerli adətlər üzrə həll edilirdi;

C) qərar protokol tərtib edilmədən jurnal üzrə elan edilirdi. Etiraz etmənin ümumi müddəti və iş yuxarı instansiyaya verilirdisə, onda həmin işlə müsəlman əyalətləri idarəsində məşğul olurdular;

D) əgər müddət buraxılmışdırsa əyalət idarəsi apellyasiya hüququnu bərpa edə bilərdi;

E) əyalət idarəsinin qərarından Baş komandana apellyasiya şikayəti verilibsə, burada iş birdəfəlik həll edilirdi və Baş komandanlığın qərarından şikayət verilə bilməzdi. Bütün bunlar yerli hakimlərin və məhkəmənin özbaşınalığına gətirib çıxarırdı.

1827-ci ildən 1833-cü ilə qədər Naxçıvanda şəhər məhkəməsi fəaliyyət göstərmişdir. Məhkəmənin sədri Ehsan xan olmaqla, onun rus məmurlarından olan üzvləri, xəzinədar və iki açıq səsə malik olan nümayəndələri var idi. Ölüm işlərinə xan özü baxırdı. Diğər işlərə əsasən şəhər naibinin daxil olduğu heyətdə baxılırdı. Mülki işlər və xırda cinayət işlərinə baxılarkən müstəsna olaraq Rusiya qoşunlarında olan iclasçılardan istifadə edilirdi. 1833-cü ildə Naxçıvan əyalət məhkəməsi yaradıldı. Əvvəlki şəhər məhkəməsindən fərqli olaraq onun tərkibi tamamilə rus məmurlarından ibarət idi. Yalnız mülki işləri araşdırmaq səlahiyyətində olan Naxçıvan əyalət məhkəməsinin funksiyaları məhdudlaşdırılmışdı. İrəvan vilayət rəisinin səlahiyyətləri genişləndirilərək mülkiyyətin özgəninkiləşdirilməsinə aid olan məhkəmə işləri ona həvalə edilmişdir [7,s.227-228].

1833-cü il 23 iyun "Əsasnaməsi" ilə erməni əyalətinin təşkili ilə əlaqədar olaraq Naxçıvan əyalət məhkəməsi yaradıldı. Məhkəmə yerli əhalinin hər hansı birinin iştirakı olmadan rus məmurlarından təşkil edilmişdi və məhkəməyə aid olan işlər daha çox məhdudlaşdırılmışdır. Məhkəmə yalnız mülki işlər üzrə dövlətin ayrı-ayrı şəxslərə qarşı iddialarını və ayrı-ayrı şəxslərin öz aralarındakı iddialarına baxıb həll edirdi. Dövlət əmlakının özgəninkiləşdirilməsi ilə əlaqədar olaraq bütün işlər istisnasız olaraq tamamlanmaq üçün erməni vilayətinin rəisinə təqdim edilirdi və Qafqazın baş komandanı tərəfindən təsdiq edilirdi.

Şimali Azərbaycanda şəhər və əyalət məhkəmələrinin təşkili və fəaliyyətinin analizi bu nəticəyə gəlməyə imkan verir ki, məhkəmə və inzibati orqanlar arasında ciddi bir sərhəd mövcud deyildi. Məhkəmələr formal olaraq kollegial əsaslarla yaradılmasına baxmayaraq, faktiki olaraq əksər hallarda qərarlar yalnız komendantın rəyinə əsasən çıxarılırdı. Məhdud müddətin müəyyən olunmasına və işlərin də az daxil olmasına baxmayaraq onlara baxılması çox ləng həyata keçirilirdi, bir neçə ay, hətta illərlə uzanırdı.

Əyalət və şəhər məhkəmələri yalnız mülki və az əhəmiyyətli cinayət işlərinə baxa bilərdi. Ağır cinayətlərə hərbi məhkəmə və yaxud hərbi məhkəmə komissiyası baxırdı və hərbi məhkəmə proseslərin qısa müddətli olması ilə

fərqlənirdi. Məhkəmə üç gün ərzində qərar çıxarır, sonra baxılmaq və təsdiq edilmək üçün Tiflisdəki Qafqazın baş komandana göndərilirdi. Hərbi məhkəmə müstəmləkəçilərin əlində sosial və müstəmləkə zülmünə qarşı çıxış edənlərə divan tutmaq üçün əlverişli cəza orqanı idi. Bir sıra aktlarda hərbi məhkəmələrin baxacağı cinayətlərin siyahısı da göstərildi.

1830-cu ilədək Car-Balakən camaatlığında bütün cinayət işlərinə kənd məhkəmələri və camaatlığın baş məhkəməsi tərəfindən adət hüququ əsasında baxılırdı. Car-Balakən Camaatlığında adət hüququnun saxlanılmasının 1803-cü il aprelin 12-də Tiflisdə Rusiya ilə Camaatlıq arasında bağlanılan ‘’Andlı öhdəliy’’ə əsasən saxlanılırdı. Çünki ‘’Andlı öhdəliy’’ə görə camaatlıq Rusiyaya tabe olsa da öz daxili müxtariyyətini saxlayırdı. 1830-cu ildə çar hökuməti Car-Balakən Camaatlığının daxili muxtariyyətinə son qoyduqdan sonra burada cinayət işlərinə Rusiya qanunvericiliyi əsasında baxılması müvəqqəti vilayət idarəsinin aidiyyətinə verildi. Cinayət hüququ sahəsində Rusiya qanunvericiliyinin tətbiqi ilə Azərbaycanda dövlət cinayətlərindən başqa, bütün cinayətlərə görə ölüm cəzası və bədən üzvlərinin şikəst edilməsi kimi orta əsr cəzaları (qulaq və burnun kəsilməsi, gözlərin çıxarılması və s.) ləğv edilirdi [6,s.150].

Rusiya qanunvericiliyinin Şimali Azərbaycanda qismən tətbiqi sahəsində ilk aktlardan biri 1831-ci ildə Qafqaz inzibati orqanların təqdimatı ilə Dövlət Şurası tərəfindən təsdiq edilən “Məhkəmə və məhkəmə hökmünün yerinə yetirilməsi haqqında, keçmiş tatar distansiyalarının, Yelisavetpol dairəsinin, müsəlman əyalətlərinin və dağlı xalqların sakinlərinin cinayət və xətaları haqqında Qaydalar” idi [6,s.48].

‘’Qaydalar’’ cinayət əməlləri cəzaların növlərinə və ağırlığına görə üç təsnifata bölürdü: Xətalar, az əhəmiyyətli cinayətlər və ağır cinayətlər. Bu təsnifata uyğun olaraq hər biri üçün bir-birindən fərqli mühakimə və məhkəmə hökmünün icrası qaydaları müəyyən edilirdi. Xətalara gümüş pulla 5 rubladək məbləğində oğurluq və dələduzluq, eləcə də sərxoşluq, ictimai qaydanın pozulması və s. aid edilirdi. Bu qrup əməlləri törətmiş şəxslər üzərində mühakiməni və cəzanın icrasını bəylər, ağalar və məliklər həyata keçirirdilər. Təqsirli şəxslər zərərin ödənilməsi cəzalarına məruz qalırdılar.

Az əhəmiyyətli cinayət işlərinə beş rubldan yüz rubla qədər gümüş pul dəyərində, birinci və yaxud ikinci dəfə törədilmiş oğurluq, soyğunçuluq və dələduzluq aid edilirdi. Bu cinayət işləri üzrə istintaq və məhkəmə funksiyası baş pristavlar və onlara bərabər tutulan digər məmurlarla birlikdə vergi verən əhali içərisindən seçilmiş iki nəfər üzərinə qoyulurdu. Tədqiqatın nəticəsi üzrə qubernatorun yaxud hərbi dairə rəisinin təsdiqi ilə yüz qırmanc və yaxud kötək zərbəsi cəzası təyin edilir, qarət edilmiş əmlak ödətdirilirdi. Oğurlanmış əmlakın bir hissəsi qaytarıla bilməzdisə, təqsirkar onun dəyərini pul ilə ödəməli idi. Bu məbləğ ilk növbədə oğurluğu törədən şəxsdən tutulurdu. Təqsirkarın

maddi vəziyyəti buna imkan vermədikdə, həmin məbləğ cinayəti törətməkdə onunla əlaqəli şəxslərdən tutulurdu. Əgər bütün dəyər ödənilə bilməzdirsə, onda bu məbləği cinayətkarın mənsub olduğu kənd icması, ilk növbədə isə ağalar, məliklər və digər rəislər ödəməli idi. Belə bir qayda sonuncular tərəfindən təkcə cinayətkarın gizlədilməsinin qarşısını almaq üçün yox, həm də ona görə tətbiq edilirdi ki, onlar oğurluq və dələduzluğun qarşısının alınmasına ciddi nəzarər etsinlər.

Ağır cinayətləri üçüncü dəfə törətmiş, beş rubldan yüz rubla qədər gümüş pul dəyərində oğurluq və dələduzluq, yüz rubl gümüş puldan yuxarı məbləğdə eyni əməllər, habelə soyğunçuluq, adam öldürmə və barəsində soyğunçuluq və adam öldürməyə görə cəzaya bərabər cəza nəzərdə tutan digər cinayətlər aid edilirdi [6,s.148-149]. Bu qaydalar 1840-cı il 10 aprel qanununadək qüvvədə olmuşdur.

Şimali Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra da şəriət məhkəmələri fəaliyyətlərini davam etdirirdi. Şəriət məhkəmələri əvvəlki nüfuzunu saxlayırdı və kütlələr həmin məhkəməni daha üstün tuturdular. Çarizm də yerli əhali arasında din xadimlərinin böyük nüfuza malik olmalarını, əhalinin daha çox dini məhkəmələrə üstünlük verdiklərini və ruhaniləri özündən narazı salmamaq üçün işğalın ilk dövlərində şəriət məhkəmələrini saxlamaq məcburiyyətində qaldı.

Çarizm ruhaniləri tamamilə asılı vəziyyətə salmaq məqsədilə "Yelisavetpol dairəsi müsəlman ruhaniləri üçün qaydalar" tərtib etdi ki, bu da əslində Şimali Azərbaycan ruhanilərinin hüquq və vəzifələrini müəyyən edilməsindən daha çox onların hərbi vəziyyət şəraitində davranışlarını nizamlayan bir sənəd idi. Qaydaların üçüncü maddəsi məhkəmə işlərini məhdudlaşdırmağa yönəldilmişdi. Orada deyilir "nə mollalar nə də axund heç bir məhkəmə və qisasalma işlərinə qarışa bilməzlər, əgər mübahisə edən tərəflər könüllü olaraq onları vasitəçi kimi seçərlərsə, dava-dalaş, soyğunçuluq, oğurluq və qətllərdən başqa, yalnız bu halda onlara həmin mübahisəni həll etməyə icazə verilir. Bunun müqabilində tərəflərdən haqq alınmasın və onların haqqı xəzinə hesabına ödənilsin. Ərlə-arvad və yaxud da aşnası arasında mübahisələrin həlli isə tamamilə ruhanilərə həvalə edilirdi [6,c.6.s.597].

Qafqazın baş komandanı Yermalov 1824-cü ilin martında tərtib etdiyi "Quba qəzasına göstəriş" çarizmin müsəlman ruhaniliyinin sosial-siyasi və hüquqi statusunun müəyyənləşdirilməsi yolunda ilk ciddi addım hesab edilə bilər. "Göstərişli şəriət'' məhkəmələrinə rəhbərlik qazıya həvalə edilirdi. Onun qərarları şiə təriqəti üçün də məcburi idi. Bu maddə təriqətlər arasında ixtilafları daha da qızışdırmağa xidmət edirdi. Belə ki, əvvəllər Qubada və başqa xanlıqlarda şiələr xüsusi şəriət məhkəmələrinə malik idilər və sünnü qazı onların işinə müdaxilə etmirdi.

Baron Rozen Qafqazın baş komandanlığına gəlməsi ilə müsəlman ruhanilərinə qarşı Yermalovun siyasətini davam etdirməyə çalışırdı. Hələ 1831-ci ilin aprelində onun qərarı ilə cinayət işlərinə müsəlman qanunları əsasında baxılması qəti şəkildə qadağan edilmişdi [15,c II.s.116]. Mülki işlərin həllində Rozenə qədər ümumimperiya qanunları ilə yanaşı yerli adətlərdən istifadə olunmasına müstəsna hallarda icazə verilirdi.

XIX əsrin 30-cü illərinin əvvələrində Cənubi Qafqaz diyarının inzibati cətətdən yenidən təşkil edilməsi üçün çarın göstərişi ilə buraya gələn senatorlar P.Kutaysov və E.Meçnikov şəriət məhkəmələrinin ədalətsiz və rüşvətxor ruhanilərdən ibarət olmasını və bu səbəblərdən də ruhanilərin müsəlman əhalisi üzərində hakim olmaqlarını, onların “Rusiya üçün təhlükəli canilərlə əlbir olaraq hətta qiyamçı dəstələrə şəxsən rəhbətlik etdiklərini’’, ümumiyyətlə “çar hökumətinə qarşı bütün üsyanların onların iştirakı ilə baş verdiyini’’ ayrıca vurğulayırdı [1,s.292].

Senatorlar müsəlman ruhanilərinin gücünü tədricən yox etmək məqsədilə müəyyən tədbirlər həyata keçirməyi təklif edirdilər. Birinci təklifləri yerli adətlər əsasında şifahi zemestvo məhkəmələri yaratmaq, bununla da ruhanilərin məhkəmə işlərinə nüfuz etməsinin qarşısını almaq idi.

Azərbaycanda çarizmin iqtisadi siyasətinin həyata keçirilməsi, diyarın təbii ehtiyatlarının mənimsənilməsi cəhdləri bəzi digər amillərlə yanaşı, komendant üsul-idarəsinin təsiri altında ləngidirilirdi. Bu idarəçilik üsulu hətta ali çar məmurlarının etirafına görə, ‘’dövlət gəlirləri üçün soyğunçu, diyarın rifahı, onun sakinlərinin səadəti və mənəviyyatı üçün məhvedici’’ oldu [1,s.110].

Komendant idarə sistemi çarizm tərəfindən bərqərar edilmiş despotik müstəmləkə rejiminin məhsulu və konkret təzahürü idi. Belə şəraitdə komendantlara-yeni yaradılmış və zəif nəzarət olunan inzibati idarənin əsas şəxsiyyətlərinə böyük hakimiyyət verilməsi cinayərkarlıq və pozuntular doğururdu. Bu cinayətkarlıq və pozuntular komendant idarəsinin, demək olar ki, bütün dövründə mövcud idi, onlar bu idarəçiliyin ayrılmaz tərkib hissəsi olmuşdular. Ümumiyyətlə, komendantların özbaşınalığı bəzən o dərəcəyə çatırdı ki, keçmiş hakim təbəqələrin çar mütləqiyyətinə can-başla qulluq edən nümayəndələri belə lazım gəldikdə idarə sistemindən sıxışdırılıb çıxarılırdı. Komendantların səlahiyyətlərinin genişliyi, vəzifələrin çoxuna çar hərbi zabitlərinin təyin edilməsi, onların özbaşınalığı, şəhər idarəsində zorakılığın, bürokratçılığın, süründürməçiliyin geniş yayılmasına şərait yaradırdı.

XIX əsrin 20-ci illərinin sonlarında çar Rusiyasının Cənubi Qafqazdakı müstəmləkəçilik siyasətində yeni mərhələ başladı. Çarizm Şimali Azərbaycanda özünü doğrultmayan komendant idarə üsulunu ləğv etmək zərurəti ilə qarşılaşdı. Digər tərəfdən çarizmin müstəmləkə siyasətinə qarşı XIX əsrin 30-cu illərində Car-Balakən, Lənkəran, Quba və Şəki və başqa yerlərdə

baş verən üsyanlar nəticəsində komendant idarə üsulunu ləğv etməyə məcbur oldu.

Beləliklə, Şimali Azərbaycanda həm iqtisadi, həm də siyasi hökmranlığını möhkəmləndirmək üçün çarizm 1840-cı il 10 aprel tarixində Cənubi Qafqazda inzibati məhkəmə islahatı keçirtdi. Bu islahat özünü həm iqtisadi, həm də hərbi-siyasi baxımdan doğrultmayan komendant idarə üsulunu ləğv etdi. Bu islahata müvafiq olaraq imperiya qanunları əsasında fəaliyyət göstərən yeni vilayət və qəza məhkəmələri yaradıldı.

## Ədəbiyyat

1. Azərbaycan tarixi. 7 cilddə, 4-cü cild. Bakı: Elm, 2007. 504 s.
2. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 1989. 328 s.
3. Azərbaycan tarixi. 3 cilddə, 2-ci cild. Bakı: 1964. 1002 s.
4. Abdullayev M. Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər. Bakı, Adiloğlu, 2005. 232 s.
5. Cəfərli N. XIX əsr-XX əsrin əvvəllərində Lənkəran şəhərinin əhalisi, ərazisi və idarəsi. Azərbaycan. SSR. EA-nın xəbərləri, tarix, fəlsəfə və hüquq seriyası.№ 4,Bakı, 1984.72 s.
6. Dəmirli M. Ələsgərli Ə. Azərbaycanın hüquq tarixi (Cinayət hüququ). Bakı, Azərnəşr, 1999. 204 s.
7. Əkbərov R, Səlimov S. Azərbaycanın dövlət və hüquq tarixi. Bakı, Qanun, 2003, 532 s.
8. Məmmədov F. XIX əsrdə Gəncə şəhərinin ərazisi, əhalisi və idarəsi (1868-ci ilə qədər)
Azərbaycan SSR EA xəbərləri tarix, fəlsəfə və hüquqi seriyası. №3. Bakı, 1975, 75s
9. İsmayılov M. Şəki, Bakı, 1982. 65 s.
10. Hüseynli R. Azərbaycan ruhaniliyi XVIII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında. Tar.elm.nam.dissertasiyası. Bakı, 1996. 176 s.
11. AKAK (Aktı Кавказской Археографической Комиссией).Т.4 Tiflis,1870
12. Сборник архивных документов по истории Азербайджана XIX века (1801-1892) НАИИ инв. №2065.
13. Ибрагимов Н. Система управления Российского царизма в Северном Азербайджане в начале XIX столетия (до 1840 х годов). Автореф. дис. канд. ист. наук. Баку, 2008, 22 ст.
14.Исмаилова Г. История города Шушы в XIX началом XX вв. Автореф. дисс. канд. ист. наук. Баку, 1987, 22 ст.

15. Есадзе С. Исторические записи об управлении Кавказом. Tiflis, 1907, 246 ст.

16.Мамедов Ф. Город Гянджа в период капитализма (1868-1917) дисс. dokt. ист. наук. Баку, 1990, 45 ст.

17. Мамедов Н. История города Кубы в XIX-началом XX-века. Автореф. дис. канд. ист. наук. Баку, 1982, 22 ст.

18.Мильман А. Политические строй в Азербайджане XIX- началом XX вв. Азернешр, Баку, 1966, 235 ст.

19. Петрушевский И. Колониольная политика Российской царизм в Азербайджана. 20-60 гг. в XIX века. Изд-во Академи Наук, Ленинград, 1936, 478 ст.

# AZƏRBAYCAN RESPUBLIKASININ QƏRBİ AVROPA DÖVLƏTLƏRİ İLƏ MÜNASİBƏTLƏRİ PROBLEMİNİN VƏTƏN TARİXŞÜNASLIĞI ÜZRƏ TƏDQİQAT ƏSƏRLƏRİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Balamirzə Məmmədli**
Bakı Dövlət Universiteti
*balamirzamammadli@gmail.com*

***Açar sözlər:*** *Azərbaycan, Qərbi Avropa dövlətləri, Avropa İttifaqı, xarici siyasət, beynəlxalq münasibətlər, Vətən tarixşünaslığı.*

*1991-ci ildə Dövlət Müstəqilliyini bərpa edən Azərbaycan özünün müstəqil xarici siyasət xəttini yürütməyə başladı ki, müstəqilliyin ilk illərində digər postsovet ölkələri kimi Azərbaycan Respublikasının da xarici siyasət istiqamətinin əsasını aparıcı dünya dövlətləri ilə diplomatik münasibətlərin qurulması və inkişaf etdirilməsi təşkil etməyə başladı. Bu zaman ölkəmizin xarici siyasət fəaliyyətinin prioritet istiqamətlərindən birini beynəlxalq münasibətlərin tənzimlənməsində əhəmiyyətli rola malik Qərbi Avropa dövlətləri – xüsusilə dünyanın Böyük yeddiləri (G7) sırasında yer alan Almaniya, Fransa, Böyük Britaniya və İtaliya kimi ölkələrlə münasibətlər təşkil etməyə başlayır. Azərbaycan Respublikasının bu dövlətlər ilə münasibətləri passiv xarakter kəsb edən ilk mərhələdən qarşılıqlı faydalı əməkdaşlıq və strateji tərəfdaşlıq səviyyəsinə qədər mürəkkəb inkişaf yolu keçmişdir ki, bu da Vətən tarixşünaslığında çoxsaylı tədqiqat əsərlərində öz əksini geniş şəkildə tapmışdır. Məqalədə həmin tədqiqat əsərləri elmi dövriyyəyə cəlb olunaraq təhlil və xarakterizə edilməklə Azərbaycan Respublikası-Qərbi Avropa dövlətləri münasibətləri probleminin milli tarixşünaslığı araşdırılır.*

# ОБЩАЯ ХАРАКТЕРИСТИКА ИССЛЕДОВАТЕЛЬСКИХ РАБОТ В ОТЕЧЕСТВЕННОЙ ИСТОРИОГРАФИИ ПО ПРОБЛЕМЕ ВЗАИМООТНОШЕНИЙ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ СО СТРАНАМИ ЗАПАДНОЙ ЕВРОПЫ

**Баламирза Мамедли**

***Ключевые слова:*** *Азербайджан, западноевропейские страны, Европейский Союз, внешняя политика, международные отношения, отечественная историография.*

*Восстановив свою независимость в 1991 году, Азербайджан начал проводить независимую внешнюю политику. В первые годы независимости основой направления внешней политики Азербайджанской Республики, как и других постсоветских стран, было установление и развитие дипломатических отношений с ведущими государствами мира. В то время одним из приоритетных направлений внешнеполитической деятельности нашей страны является организация отношений с западноевропейскими государствами, играющими важную роль в регулировании международных отношений, особенно с Германией, Францией, Великобританией и Италией, являющимися членами «Большой семерки». Отношения Азербайджанской Республики с этими государствами прошли сложный путь развития от первой стадии пассивного характера до уровня взаимовыгодного сотрудничества и стратегического партнерства, что широко отражено в многочисленных исследовательских работах в азербайджанской историографии. В статье рассматривается отечественная историография проблемы отношений между Азербайджанской Республикой и государствами Западной Европы путем анализа и характеристики тех исследовательских работ, которые вошли в научный оборот.*

## GENERAL CHARACTERISTICS OF RESEARCH WORKS IN DOMESTIC HISTORIOGRAPHY ON THE PROBLEM OF RELATIONS BETWEEN AZERBAIJAN REPUBLIC AND THE COUNTRIES OF WESTERN EUROPE

**Balamirza Mammadli**

***Keywords:*** *Azerbaijan, Western European countries, European Union, foreign policy, international relations, domestic historiography.*

*Having restored its independence in 1991, Azerbaijan began to pursue its independent foreign policy. In the first years of independence, the basis of the foreign policy direction of Azerbaijan Republic, like other post-Soviet countries, was the establishment and development of diplomatic relations with leading states of world. At that time, one of the priority areas of our country's foreign policy activities is to organize relations with Western European states, which have an important role in the regulation of international relations, especially with Germany, France, Great Britain and Italy, which are members of the G7. The relations of Azerbaijan Republic with these states have passed a complex development path from the first stage of passive nature to the level of mutually beneficial cooperation and strategic partnership, which is widely*

*reflected in numerous research works in Azerbaijani historiography. The article examines the domestic historiography of the problem of relations between the Republic of Azerbaijan and the states of Western Europe by analyzing and characterizing those research works that have entered scientific circulation.*

Dünyanın ən inkişaf etmiş regionu olan Qərbi Avropada yerləşən dövlətlərlə əlaqələr yaratmaq, ikitərəfli və çoxtərəfli münasibətləri genişləndirmək və inkişaf etdirmək XX əsrin sonlarında dövlət müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən birinə çevrildi. Qərbi Avropa – BMT-nin şərti təsnifatına görə, Avropa qitəsinin 4 subregionundan (digər üçü: Şərqi Avropa, Şimali Avropa və Cənubi Avropa – B.M.) biridir. Sözügedən 4 subregiondan məhz Qərbi Avropa qlobal miqyasda dünyanın böyük gücləri hesab edilən aparıcı dövlətlərin – Almaniya, Fransa, İtaliya və Böyük Britaniyanın yerləşdiyi son dərəcə mühüm coğrafi məkandır. Adı çəkilən dövlətlər çox vaxt Avropanın Böyük dördlüyü (Big Four) adlandırılır. Məsələ burasındadır ki, bu 4 dövlət həm də G7 və G20-nin tamhüquqlu üzvləridir. Bununla yanaşı, inkişaf etmiş ölkələr – Avstriya, İsveçrə, Niderland, Belçika və cırtdan dövlətlər – Lixtenşteyn, Lüksemburq və Monako da Qərbi Avropaya daxildir. Bu dövlətlərin əksəriyyəti dünyanın ən böyük siyasi və iqtisadi birliyi olan Avropa İttifaqının (Aİ) üzvüdür. Bütün bu deyilənləri nəzərə alsaq, Azərbaycan Respublikasının həm ayrı-ayrılıqda hər bir Qərbi Avropa ölkəsi ilə ikitərəfli münasibətlərinin, həm də Aİ çərçivəsində həmin ölkələr ilə əlaqələrinin öyrənilməsi olduqca mühüm əhəmiyyət kəsb edir. Müasir dövrdə Azərbaycanın Qərbi Avropa dövlətləri ilə münasibətləri Vətən tarixşünaslığında çoxsaylı tədqiqat əsərlərində və ayrı-ayrı səpkilərdə öz əksini tapmışdır. Sözügedən problemin Vətən tarixşünaslığının əsas tədqiqatçıları sırasında Musa Qasımlı, Əli Həsənov, Zaur Adıgözəlov, Sona Məhərrəmova, Südabə Zeynalova, İlqar Məmmədov, Çingiz Abdullayev, Əsgər Abdullayev, Elnur Məmmədli, Ceyhun Ələkbərov, İsmayıl Musa, Günel Musayeva, Emil Kərimov, Sevil Kərimova və d. adlarını çəkmək olar.

Azərbaycan Respublikasının Qərbi Avropa dövlətləri ilə münasibətləri probleminin öyrənilməsi üzrə Vətən tarixşünaslığında ilk tədqiqat əsərləri keçən əsrin 90-cı illərinin ikinci yarısından etibarən meydana gəlməyə başladı ki, bunlardan biri Musa Qasımlının 1996-cı ildə nəşr olunmuş və 7 fəsildən ibarət olan "Azərbaycan beynəlxalq münasibətlər sistemində: 1991-1995-ci illər" adlı monoqrafiyasıdır. Bu kitabın "Avropa ölkələri ilə münasibətlər" adlı III fəslində 1991-1995-ci illərdə Azərbaycanın Qərbi Avropa ölkələri ilə münasibətləri qısa şəkildə analiz edilməsinə baxmayaraq, onu problemin tədqiqi üçün ilk istiqamətverici əsər hesab etmək olar [26, s.61-67]. Müəllifin 2015-ci ildə işıq üzü görən, 2 hissədən və 10 fəsildən ibarət olan "Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003)" adlı irihəcmli monoqrafiyasında XX əsrin sonu-

XXI əsrin əvvəllərində Azərbaycanın xarici siyasətinin mühüm istiqamətlərindən biri kimi Qərbi Avropa dövlətləri ilə münasibətlər çoxsaylı mənbələrin elmi dövriyyəyə cəlb edilməsi əsasında hərtərəfli tədqiq olunmuşdur. Monoqrafiyanın "Avropa ölkələri ilə münasibətlər Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsinin beynəlxalq amillərindən biri kimi" adlı VI fəsli bəhs etdiyimiz problemin araşdırılmasına həsr olunmuşdur [27, s.9-148]. Adı çəkilən fəsildə müəllif Azərbaycanın Qərbi Avropa dövlətləri ilə münasibətləri, beynəlxalq təhlükəsizlik və əməkdaşlıq sistemində tutduğu yer, xarici siyasətində iqtisadiyyat amilinin rolu və s. kimi mühüm məsələləri tədqiq etmişdir.

Ağalar Abbasbəyli və Emin Abbasbəylinin birgə yazdığı, 1997-ci ildə nəşr edilmiş və giriş, 5 fəsil, nəticədən ibarət olan "Heydər Əliyev və dünya siyasəti" adlı əsərin əsas tədqiqat obyekti 1993-ci ildə ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycan Respublikasının xarici siyasətidir [48]. Burada ölkəmizin Qərbi Avropa dövlətləri ilə münasibətləri məsələsinə də toxunulmuşdur.

Əli Həsənovun 1998-ci ildə nəşr edilmiş və 4 fəsildən ibarət olan "Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996)" adlı monoqrafiyası XX əsrin sonlarında Azərbaycanın Qərbi Avropa dövlətləri ilə münasibətlərinin hərtərəfli tədqiqi baxımından tarixşünaslıqda önəmli yer tutur. Monoqrafiyasının "Azərbaycanın xarici siyasətində Avropa dövlətləri" adlanan və 2 yarımfəsildən ibarət olan ikinci fəslinin "Azərbaycan və Qərbi Avropa dövlətləri" adlı ilk yarımfəsli müstəqilliyin ilk illərində ölkəmizin Böyük Britaniya, Fransa, Almaniya və s. kimi Qərbi Avropa dövlətləri ilə münasibətlərinin tədqiqinə həsr olunmuşdur [21]. Bununla belə, müəllifin "Azərbaycanın geosiyasəti", "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti" adlı irihəcmli tədqiqat əsərlərində XX əsrin sonu – XXI əsrin əvvəllərində Azərbaycanın müxtəlif dünya ölkələri, eləcə də Qərbi Avropa dövlətləri ilə münasibətlərinin ayrı-ayrı aspektləri araşdırılmışdır [20; 22].

İlqar Məmmədovun 2000-ci ildə nəşr olunmuş, 5 fəsildən ibarət olan "Avstriyanın qısa tarixi və Azərbaycan-Avstriya münasibətləri" adlı monoqrafiyası bəhs etdiyimiz problemin Vətən tarixşünaslığına qiymətli töhfələrdən biridir. Kitabın sonuncu fəsli XX əsrin sonlarında Azərbaycanın Qərbi Avropa dövlətləri içərisində özünəməxsus cəhətləri ilə diqqəti cəlb edən Avstriya Respublikası ilə müxtəlif sahələrdə (siyasi, iqtisadi, humanitar) qarşılıqlı münasibətlərinin tədqiqinə həsr olunmuşdur [37, s.40-61].

Salman Nuriyevin 2002-ci nəşr olunmuş və ingilis dilində olan "Neft və Avropa siyasəti" kitabı Azərbaycanın xarici siyasətində, eləcə də Qərb dövlətləri münasibətlərində mühüm yer tutan neft amili kontekstində bəhs etdiyimiz problemə dair orijinal tədqiqat əsəri kimi Vətən tarixşünaslığında özünəməxsus yer tutur [40].

Elnur Məmmədlinin 2003-cü ildə nəşr olunmuş "Azərbaycan-Böyük Britaniya münasibətləri (1991-2003-cü illər)" adlı monoqrafiyası 1991-ci ildə öz müstəqilliyini bərpa etməsindən 2003-cü ilə qədər olan 12 illik xronoloji çərçivədə Azərbaycan Respublikasının Böyük Britaniya ilə siyasi-diplomatik, iqtisadi və humanitar (elmi-mədəni) əlaqələrinin, ikitərəfli münasibətlərin inkişaf perspektivlərinin kompleks şəkildə araşdırılması baxımından diqqəti cəlb edir [35]. Giriş, 4 fəsil və nəticədən ibarət olan tədqiqat əsərinin ilk fəslində Azərbaycan-Böyük Britaniya münasibətlərinin tarixi köklərinin şərhindən sonra, ikinci fəsildə iki ölkə arasında siyasi münasibətlərin qurulması və inkişafı, parlamentlərarası əlaqələr, habelə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə Böyük Britaniyanın münasibəti təhlil edilmişdir. Monoqrafiyanın üçüncü fəslində Azərbaycan və Böyük Britaniya arasında iqtisadi münasibətlər, energetika sahəsində əməkdaşlıq, o cümlədən elmi-mədəni əlaqələr araşdırılmışdır. Nəhayət, monoqrafiyanın sonuncu fəslində ikitərəfli münasibətlərin perspektivləri və strateji əməkdaşlıq məsələləri tədqiq olunmuşdur.

Abbas Piriyevin 2005-ci ildə nəşr edilmiş və giriş, 4 fəsil, nəticədən ibarət olan "Siyasi strategiya və milli təhlükəsizlik" adlı irihəcmli monoqrafiyasında Azərbaycan Respublikasının daxili və xarici siyasət strategiyası tədqiq edilmiş, III fəsildə Azərbaycanın Qərbi Avropa dövlətləri ilə əməkdaşlığı ayrıca nəzərdən keçirilmişdir [42, s.247-269].

İsrafil İsmayılovun 2006-cı ildə nəşr olunmuş "Azərbaycanın XX əsrdə Almaniya və Fransa ilə mədəni əlaqələri" adlı tədqiqat əsərində ölkəmizin 1901-2000-ci illəri əhatə edən bir əsrlik xronoloji çərçivədə Qərbi Avropanın iki əsas aparıcı dövləti ilə elmi və mədəni əlaqələri araşdırılır [24].

Əsgər Abdullayevin 2007-ci ildə nəşr olunmuş "Müstəqil Azərbaycan və Fransa" adlı monoqrafiyasında Azərbaycan Respublikasının Fransa ilə siyasi, iqtisadi, mədəni, elm və təhsil sferasında əlaqələri geniş tədqiq olunmuşdur ki, bu baxımdan onu Vətən tarixşünaslığına mühüm töhfə kimi xarakterizə etmək olar [3].

Çingiz Abdullayevin Azərbaycan və Almaniya Federativ Respublikası arasında mədəni əlaqələri ilə bağlı tədqiqat əsərləri bəhs etdiyimiz problemin Vətən tarixşünaslığına özünəməxsus yer tutur. 2007-ci ildə "Alman-Azərbaycan mədəni əlaqələri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş müəllifin 2000-ci ildə nəşr olunmuş "Almaniya-Azərbaycan əlaqələri" adlı monoqrafiyası, 2011-ci ildə Leypsiqdə işıq üzü görən "Azərbaycan-Almaniya: qədim və müasir münasibətlər" adlı kitabı bu baxımdan diqqəti cəlb edir [1; 2; 5].

Südabə Zeynalovanın 2008-ci ildə nəşr edilmiş "Azərbaycanın Avropa birliyinə inteqrasiyası kontekstində Azərbaycan-Almaniya münasibətləri" adlı tədqiqat əsərində ikitərəfli əlaqələrin tarixinə qısa ekskurs edilir, Azərbaycan Respublikası və AFR arasında siyasi dialoq, iqtisadi münasibətlər və mədəni

əlaqələrin keçdiyi inkişaf yolu təhlil edilir [53]. Bununla yanaşı, müəllifin müasir dövrdə Azərbaycan-Almaniya münasibətlərinin müxtəlif aspektləri ilə bağlı çoxsaylı elmi məqalələrini də bəhs etdiyimiz problemin öyrənilməsi baxımından Vətən tarixşünaslığına qiymətlə töhfə hesab etmək olar [51; 52].

Ölkəmizin İtaliyada fövqəladə və səlahiyyətli səfiri olmuş Emil Kərimovun 2009-cu ildə Romada nəşr edilən "Azərbaycan-İtaliya əlaqələri" adlı kitabında iki ölkə arasında siyasi, iqtisadi və mədəni əlaqələr, elm, təhsil, hüquq, turizm, idman və s. sahələrdə əməkdaşlıq münasibətləri tədqiq edilmişdir [25].

Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAC) Fransada xüsusi müxbiri kimi fəaliyyət göstərmiş tədqiqatçı-alim Əsgər Əliyev 2010-cu ildə nəşr edilmiş "Fransa və fransızlar" adlı kitabında Qərbi Avropanın əsas dövlətlərindən biri olan Fransa Respublikasının tarixini, coğrafiyasını, demoqrafiyasını, mədəniyyətini və s. nəzərdən keçirməklə yanaşı, Fransa-Azərbaycan əlaqələrinə də ayrıca fəsil həsr etmişdir [14, s.242-313]. Müəllifin 2021-ci ildə işıq üzü görən "Azərbaycan Fransa mətbuatında" adlı digər bir tədqiqat əsəri isə iki ölkə arasında tarixən mövcud olmuş əlaqələri nəzərdən keçirmək baxımından tarixşünaslıq üçün maraqlı töhfələrdəndir [13].

İsmayıl Musanın 2011-ci ildə nəşr olunmuş üç hissədən ibarət olan "Çağdaş beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti" adlı irihəcmli kitabının üçüncü hissəsində "Azərbaycan Respublikasının Qərb dövlətləri ilə münasibətləri" adlanan ayrıca bir bölmədə (IV bölüm) Azərbaycanın 4 mühüm Qərbi Avropa dövləti – Böyük Britaniya, Fransa, Almaniya və Belçika ilə münasibətlərinin təhlilinə xüsusi yer verilmişdir [38, s.476-502].

Zaur Adıgözəlovun 2015-ci ildə nəşr edilmiş, girişdən, 2 fəsildən və nəticədən ibarət olan "Azərbaycan Respublikasının Avropa İttifaqı ölkələri ilə siyasi əlaqələri (1991-2006)" adlı monoqrafiyasında müxtəlif dillərdə olan mənbə və ədəbiyyatların elmi dövriyyəyə cəlb edilməsi əsasında XX əsrin sonu-XXI əsrin əvvəllərində Azərbaycanın Aİ ölkələri ilə siyasi əlaqələrinin qurulması və inkişafı məsələləri tədqiq edilmişdir. Monoqrafiyanın 3 yarımfəsildən ibarət olan ilk fəslində müəllif Azərbaycanın Aİ üzvü olan Qərbi Avropa dövlətləri ilə siyasi münasibətlərinin formalaşma və inkişaf dinamasını, ikinci fəsildə isə Azərbaycanın Aİ üzvü olan Şərqi Avropa və Baltikyanı dövlətlərlə siyasi münasibətlərinin xarakteri və inkişaf xüsusiyyətlərini araşdırmışdır [6].

Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin tədqiqatçılarının 2017-ci ildə ərsəyə gətirdikləri "Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016)" adlı kitab ölkəmizin Qərbi Avropa dövlətləri ilə münasibətlərinin müxtəlif prizamalardan təhlili baxımından Vətən tarixşünaslığına qiymətli töhfədir. Xüsusilə, İlqar

Qurbanovun "Azərbaycan-Avropa İttifaqı münasibətləri", Azad Rzayevin "Azərbaycan-Böyük Britaniya münasibətləri" və Heydər Mirzənin "Azərbaycan-Almaniya münasibətləri" adlı irihəcmli elmi məqaləsi bu baxımdan diqqəti cəlb edir [7, s.315-354, 399-402, 451-476].

Məmməd Əlizadə 2017-ci ildə nəşr edilmiş və 15 fəsildən ibarət olan "Tarixin qızıl səhifələri" adlı tədqiqat əsərində Azərbaycan və Almaniya arasındakı çoxəsrlik əlaqələrin keçdiyi tarixi inkişaf yoluna geniş nəzər salmış, sonuncu fəsli müasir dövrdə Azərbaycan Respublikası-AFR münasibətlərinin tədqiqinə həsr etmişdir [16].

İsaxan Vəliyevin 2018-ci ildə nəşr olunmuş "Sabitlik və rifah naminə siyasət" adlı irihəcmli tədqiqat əsərində müstəqil Azərbaycanın daxili və xarici siyasətinin müxtəlif istiqamətləri təhlil edilir. Sözügedən əsərin VI fəslinin "Azərbaycan-Fransa əlaqələri dostluq və strateji tərəfdaşlığa əsaslanır" adlı yarımfəslində iki ölkə arasında münasibətlərin müxtəlif aspektləri nəzərdən keçirilmişdir [45, s.487-501].

Sona Məhərrəmovanın 2020-ci ildə nəşr edilmiş, girişdən, 5 fəsildən və nəticədən ibarət olan "Azərbaycan Respublikasının Almaniya Federativ Respublikası ilə münasibətləri (1991-2011-ci illər)" adlı monoqrafiyası iki ölkə arasındakı münasibətlərin 20 illik xronoloji çərçivədə tədqiq edilir, ikitərəfli və çoxtərəfli əsaslarla inkişaf edən münasibətlər siyasi, iqtisadi və mədəni aspektlərdə nəzərdən keçirilir [30]. Sözügedən monoqrafiya ilə yanaşı, müəllifin respublikada və xaricdə çap olunmuş çoxsaylı elmi məqalələrində də XX əsrin sonu-XXI əsrin əvvəllərində Azərbaycan-Almaniya münasibətlərinin müxtəlif aspektləri tədqiq edilmişdir [29; 31; 32; 33; 34].

Mahir İbrahimov 2020-ci ildə nəşr edilmiş "Sahilyanı dövlətlərin xarici siyasətində Xəzər problemi (XX əsrin sonu–XXI əsrin əvvəlləri)" adlı monoqrafiyasında çağdaş dövrdə Xəzər bölgəsinin müxtəlif aparıcı dövlətlərin, o cümlədən Qərbi Avropa dövlətlərinin maraq dairələrindəki oynadığı rola ətraflı nəzər salmış, Xəzər bölgəsinin regional və beynəlxalq əməkdaşlığa təsir imkanları tədqiq etmişdir [23].

Sevil Kərimovanın 2020-ci ildə nəşr edilmiş və giriş, 3 fəsil, nəticədən ibarət olan "Azərbaycan-İtaliya mədəni əlaqələri: tarix və müasirlik" adlı monoqrafiyasında qədim dövrdən başlayaraq – XXI əsrin əvvəllərinə qədər geniş bir xronoloji çərçivədə Azərbaycan və İtaliya arasında mədəni əlaqələrin formalaşması və inkişafı tarixi hərtərəfli araşdırılmışdır [54].

Ramilə Dadaşovanın 2021-ci ildə nəşr olunmuş, giriş, 6 fəsil və nəticədən ibarət olan "Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasının daimi üzvləri ilə əməkdaşlığı" adlı monoqrafiyasında ölkəmizin son onilliklərdə Fransa və Böyük Britaniya ilə siyasi münasibətləri, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycanın bu iki Qərbi Avropa dövləti ilə apardığı danışıqlar tədqiq olunmuşdur [11, s.181-198].

Günay Paşanın 2022-ci ildə nəşr edilmiş “Azərbaycanın Almaniya ilə xarici iqtisadi əlaqələri” adlı monoqrafiyasında iki ölkə arasındakı iqtisadi-ticarət əlaqələri tədqiq edilir, Azərbaycan Respublikası və AFR iqtisadiyyatının müasir vəziyyəti, qlobal iqtisadi münasibətlər sistemində yeri müəyyənləşdirilir [41].

Günel Musayevanın 2023-cü ildə nəşr edilmiş, girişdən, 3 fəsildən və nəticədən ibarət olan və çoxsaylı etibarlı mənbələrə, müxtəlif dillərdəki elmi ədəbiyyatlara əsaslanan “Böyük Britaniyanın Azərbaycan siyasətində neft amili (1991-2022-ci illər)” adlı monoqrafiyasında 30 illik xronoloji çərçivədə Birləşmiş Krallığın Azərbaycanla bağlı xarici siyasətində neft amilinin yeri və rolu araşdırılır, o cümlədən Ermənistanın Azərbaycana hərbi təcavüzü və İkinci Qarabağ müharibəsi nəticəsində torpaqlarımızın azad edilməsi məsələsində Böyük Britaniyanın mövqeyi nəzərdən keçirilir [57].

Son onilliklərdə ayrı-ayrı Qərbi Avropa dövlətlərinin müasir tarixi, habelə beynəlxalq münasibətlər tarixinə həsr olunmuş bir çox tədqiqat əsərlərində, dərslik və monoqrafiyalarda da Azərbaycanın bu dövlətlər ilə münasibətlərinin yığcam şərhinə rast gəlmək olar. Mahir Abdullayevin 2000-ci ildə nəşr olunmuş və 7 fəsildən ibarət olan “Beynəlxalq münasibətlər tarixi” adlı kitabının “90-cı illərdə Azərbaycan Respublikasının beynəlxalq münasibətlərdə iştirakı” adlanan sonuncu fəslində ölkəmizin müstəqilliyinin ilk illərində onun Qərbi Avropa dövlətləri münasibətləri qısa şərh edilmişdir [4, s.292-302]. Məmmədağa Baxışovun “İngiltərənin yeni və müasir tarixi”, “İtaliyanın yeni və müasir tarixi”, “Avropa və Amerika ölkələrinin müasir tarixi” kimi kitablarında müxtəlif Qərbi Avropa dövlətlərinin Azərbaycan Respublikası ilə münasibətləri qısa nəzərdən keçirilmişdir [8; 9; 10]. Tofiq Mustafazadənin 2021-ci ildə nəşr olunmuş “XVIII-XXI əsrin əvvəllərində Azərbaycanın beynəlxalq siyasi münasibətləri” adlanan, giriş, 4 fəsil və nəticədən ibarət olan tədqiqat əsərinin sonuncu fəsli müstəqilliyin bərpasından sonra ölkəmizin beynəlxalq əlaqələrinin öyrənilməsinə həsr edilmişdir ki, burada Azərbaycanın Qərbi Avropa dövlətləri ilə münasibətlərinə də ayrıca toxunulmuşdur [39, s.355-363]. Çingiz Məmmədovun 2021-ci ildə nəşr edilmiş “Beynəlxalq münasibətlər tarixi. Müasir dövr” adlı iki hissəli kitabının “Yeni dünya nizamı: 1991-2021-ci illər” adlanan ikinci hissəsində Azərbaycanın 30 illik period ərzində müxtəlif dünya ölkələri, o cümlədən Qərbi Avropa dövlətləri ilə beynəlxalq əlaqələri yığcam şəkildə şərh olunmuşdur [36, s.491-501].

Vətən tarixşünaslığında Azərbaycan Respublikasının Qərbi Avropa dövlətləri ilə münasibətləri probleminin müasir dövrdə dünyanın ən böyük siyasi-iqtisadi birliyi olan və əsasən Qərbi Avropa dövlətlərinin (Almaniya, Fransa, İtaliya, Avstriya, Belçika, Niderland və s.) yer aldığı Avropa İttifaqının Azərbaycanla əlaqələri kontekstində tədqiqi də diqqəti cəlb edir. Bu baxımdan Fərhad Hüseynov, Elxan Süleymanov, Musa Haqverdiyev, Leyla Vaqifqızı,

Şəbnəm Zeynalova, Sevinc Əliyeva və s. kimi tədqiqatçıların əsərləri diqqəti cəlb edir. F.Hüseynov 2011-ci ildə müdafiə etdiyi fəlsəfə doktoru dissertasiyasında Aİ ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın geosiyasi aspektlərini təhlil etmişdir [50]. E.Süleymanovun 2011-ci ildə nəşr olunmuş "Avropa İttifaqı və Azərbaycan: strateji tərəfdaşlığa doğru" adlı monoqrafiyasında Aİ ilə AR arasında münasibətlərin formalaşması və inkişaf dinamikası, prioritet əməkdaşlıq sahələri tədqiqat obyektidir [43]. M.Haqverdiyevin 2011-ci ildə nəşr olunmuş "Müasir dövrdə ümumavropa təhlükəsizliyi və Azərbaycan" adlı monoqrafiyasında Azərbaycan Respublikasının xarici siyasət strategiyasında Avropa istiqaməti, ölkəmizin ümumavropa təhlükəsizlik sisteminə inteqrasiyası, Aİ-nin Cənubi Qafqaz siyasətində Azərbaycanın yeri araşdırılır [18]. L.Vaqifqızının 2017-ci ildə müdafiə etdiyi fəlsəfə doktoru dissertasiyasında 1991-2008-ci illəri əhatə edən xronoloji çərçivədə Azərbaycan-Aİ əməkdaşlığı tədqiq edilir [44]. S.Eyvazovanın 2018-ci ildə nəşr olunmuş "Avropa İttifaqı və Azərbaycan Respublikası əməkdaşlığının hüquqi əsasları" adlı dərs vəsaitində ikitərəfli münasibətlərin və əməkdaşlığın normativ-hüquqi əsası və d. məsələlər araşdırılmışdır. Ş.Zeynalovanın 2021-ci ildə nəşr olunmuş və giriş, 3 fəsil, nəticədən ibarət olan "Avropa İttifaqı çərçivəsində inteqrasiya prosesləri: problemlər və onların həlli perspektivləri" adlı monoqrafiyasında Aİ ilə Azərbaycan Respublikası arasında münasibətlərin yaranması və formalaşması, əməkdaşlıq və inteqrasiya prosesləri geniş şəkildə təhlil edilmişdir [46]. S.Əliyevanın 2022-ci ildə nəşr olunmuş "Dünya siyasətində Qafqaz və Mərkəzi Asiya" adlı dərs vəsaitində ayrıca bir bölmə Aİ-nin siyasətində Azərbaycanın yeri və rolu nəzərdən keçirilmişdir. Müəllif göstərir ki, Azərbaycan Respublikası xüsusilə enerji təhlükəsizliyi baxımından Aİ üçün maraqlıdır [15, s.135].

Azərbaycan Respublikasının müxtəlif Qərbi Avropa dövlətləri ilə münasibətləri Vətən tarixşünaslığında monoqrafiya, dərslik, elmi məqalələr və s. ilə yanaşı, çoxsaylı dissertasiya işlərində mühüm tədqiqat obyekti olmuşdur. Xatirə Hacıyevanın "Azərbaycan Respublikasının xarici siyasətində aparıcı Qərb dövlətləri və NATO (1991-1995)" adlı namizədlik dissertasiyasında müstəqilliyin ilk 5 ilində ölkəmizin Qərbi Avropanın əsas dövlətləri – AFR, Fransa, Böyük Britaniya ilə münasibətləri ayrıca araşdırılmışdır [17, s.21-55]. Ərəstü Həbibbəylinin "Azərbaycan Respublikasının Böyük Britaniya ilə xarici əlaqələrinin əsas istiqamətləri" adlı namizədlik dissertasiyasının tədqiqat obyekti biləvasitə müasir dövrdə Azərbaycan-Böyük Britaniya münasibətləridir [19]. Məhsəti Əliyevanın "Müasir mərhələdə Azərbaycan-Britaniya münasibətləri: formalaşması, inkişafı və perspektivləri" adlanan və 3 fəsildən ibarət olan namizədlik dissertasiyasında XX əsrin sonlarında gənc respublikamızın Böyük Britaniya ilə siyasi, iqtisadi, elm və təhsil, mədəni əlaqələri, qarşılıqlı əməkdaşlıq münasibətləri araşdırılmışdır [49]. Emil Qasımovun "Azərbaycan

Respublikasının Qərbi Avropa dövlətləri ilə əlaqələri (elm, təhsil və mədəniyyət sahəsində, 1991-2005-ci illər)" adlanan və giriş, 3 fəsil, nəticədən ibarət olan fəlsəfə doktoru dissertasiyasında XX əsrin sonu-XXI əsrin başlanğıcında Azərbaycanın Qərbi Avropa ölkələri ilə elm və təhsil sahəsində əməkdaşlığı, mədəni əlaqələri geniş tədqiq olunmuşdur [28]. Mirfərəc Abasov "Azərbaycan və Almaniya beynəlxalq münasibətləri mənşəyindən XXI əsrin əvvəllərinə qədər: siyasi aspekt" adlanan və giriş, 2 fəsil, nəticədən ibarət olan fəlsəfə doktoru dissertasiyasında Azərbaycan və Qərbi Avropanın əsas dövlətlərindən biri olan Almaniya arasında tarixən mövcud olmuş siyasi əlaqələri tədqiq etmişdir [47]. Dissertasiyanın ilk fəsli ikitərəfli münasibətlərin XX əsrin 90-cı illərinə qədərki vəziyyətinin, ikinci fəsli isə müasir dövrdə Azərbaycan Respublikası və AFR arasındakı münasibətlərin araşdırılmasına həsr edilib. Ceyhun Ələkbərovun "Azərbaycan-Böyük Britaniya əlaqələri (1991-2008-ci illər)" adlanan və giriş, 3 fəsil, 8 yarımfəsil və nəticədən ibarət olan fəlsəfə doktoru dissertasiyasında XX əsrin sonu-XXI əsrin əvvəllərində Azərbaycanın Böyük Britaniya ilə siyasi, iqtisadi, mədəni və d. sferalarda əlaqələri, habelə beynəlxalq münasibətlər sistemində ikitərəfli və çoxtərəfli əməkdaşlıq, iki ölkə arasında münasibətlərin inkişaf perspektivləri tədqiq olunmuşdur [12].

Beləliklə, Azərbaycan Respublikasının dünyanın aparıcı güc mərkəzlərindən sayılan Qərbi Avropa dövlətləri ilə münasibətləri XX əsrin 90-cı illərinin ikinci yarısından başlayaraq Vətən tarixşünaslığındakı çoxsaylı araşdırmalarda – monoqrafiya, dərslik, elmi məqalələr, dissertasiya işlərində və s. geniş şəkildə öz əksini tapmış, mühüm tədqiqat obyekti olmuşdur. Həmin tarixşünaslıq materiallarını şərh edərək onların ümumi səciyyəsini vermək son onilliklərdə Azərbaycanın bu dövlətlər ilə münasibətlərinin keçdiyi inkişaf dinamikasını müxtəlif tədqiqatçı-alimlərin fərqli baxış bucaqları nöqteyi-nəzərindən öyrənməyə əlverişli şərait yaratması baxımından elmi və siyasi əhəmiyyət kəsb edir.

## Ədəbiyyat

1. Abdullayev Ç. Alman-Azərbaycan mədəni əlaqələri. Kulturol. e. d-ru a. dər. al. üçün təq. ol. dis. Bakı, 2007. 253 s.
2. Abdullayev Ç. Almaniya-Azərbaycan əlaqələri. Bakı, "Azərbaycan Milli Ensiklopediyası", 2000. 156 s.
3. Abdullayev Ə. Müstəqil Azərbaycan və Fransa. Bakı, "İqtisad Universiteti", 2007. 209 s.
4. Abdullayev M. Beynəlxalq münasibətlər tarixi.Bakı,"Mütərcim",2000,344 s.
5. Abdullayev T. Aserbaidschan-Deutschland: alte und moderne Beziehungen. Leipzig,2011.228 s.

6. Adıgözəlov Z. Azərbaycan Respublikasının Avropa İttifaqı ölkələri ilə siyasi əlaqələri (1991-2006). Bakı, “CBS PP”, 2015. 200 s.
7. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016). Bakı, “Poliart”, 2017. 904 s.
8. Baxışov M. Avropa və Amerika ölkələrinin müasir tarixi (ikinci dünya müharibəsindən sonrakı dövr). Bakı, “3 saylı Bakı Mətbəəsi”, 2018, 334 s.
9. Baxışov M. İngiltərənin yeni və müasir tarixi. Bakı, “3 saylı Bakı mətbəəsi”, 2018. 188 s.
10. Baxışov M. İtaliyanın yeni və müasir tarixi. Bakı, “3 saylı Bakı mətbəəsi”, 2018. 123 s.
11. Dadaşova R. Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasının daimi üzvləri ilə əməkdaşlığı. Bakı, “ADMİU-nun mətbəəsi”, 2021.344 s.
12. Ələkbərov C. Azərbaycan-Böyük Britaniya əlaqələri (1991-2008-ci illər). Tarix üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis. Bakı, 2018. 160 s.
13. Əliyev Ə. Azərbaycan Fransa mətbuatında. Bakı,“Elm və təhsil”,2021.98 s.
14. Əliyev Ə. Fransa və fransızlar. Bakı, “Elm və təhsil”, 2010. 339 s.
15. Əliyeva S. Dünya siyasətində Qafqaz və Mərkəzi Asiya. Bakı, “Optimist”, 2022. 234 s.
16. Əlizadə M. Tarixin qızıl səhifələri. Bakı, “Təhsil”, 2017. 288 s.
17. Hacıyeva X. Azərbaycan Respublikasının xarici siyasətində aparıcı Qərb dövlətləri və NATO (1991-1995). Tarix e.n. e. dər. al. üçün təq. ol. dis. Bakı, 2001. 168 s.
18. Haqverdiyev M. Müasir dövrdə ümumavropa təhlükəsizliyi və Azərbaycan. Bakı, “Elm və təhsil”, 2011. 229 s.
19. Həbibbəyli Ə. Azərbaycan Respublikasının Böyük Britaniya ilə xarici əlaqələrinin əsas istiqamətləri. İqt. e.n. e. dər. al. üçün təq. ol. dis. Bakı, 2006. 170 s.
20. Həsənov Ə. Azərbaycanın geosiyasəti. Bakı, “Zərdabi LTD”, 2015. 1056 s.
21. Həsənov Ə. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı, “Azərnəşr”, 1998. 315 s.
22. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, “Azərbaycan” nəşriyyatı, 2005. 752 s.
23. İbrahimov M. Sahilyanı dövlətlərin xarici siyasətində Xəzər problemi (XX əsrin sonu–XXI əsrin əvvəlləri). Bakı, “Turxan” NPB, 2020. 224 s.
24. İsmayılov İ. Azərbaycanın XX əsrdə Almaniya və Fransa ilə mədəni əlaqələri. Bakı, “Azərbaycan DNA-nın nəşri”, 2006. 79 s.
25. Karimov E. Le Relazioni fra l`Azerbaigian e l`Italia. Roma, 2009. 200 p.
26. Qasımlı M. Azərbaycan beynəlxalq münasibətlər sistemində: 1991-1995-ci illər. Bakı, “Gənclik”, 1996. 135 s.
27. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə. II hissə. Bakı, “Mütərcim”, 2015, 640 s.

28. Qasımov E. Azərbaycan Respublikasının Qərbi Avropa dövlətləri ilə əlaqələri (Elm, təhsil və mədəniyyət sahəsində, 1991-2005-ci illər). Tarix üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis. Bakı, 2013, 197 s.
29. Məhərrəmova S. Avropa İttifaqı kontekstində Azərbaycan-Almaniya əlaqələri. Strateji təhlil, №5, 2012, s.97-109.
30. Məhərrəmova S. Azərbaycan Respublikasının Almaniya Federativ Respublikası ilə münasibətləri (1991-2011-ci illər). Bakı, "Turxan" NPB, 2020, 208 s.
31. Məhərrəmova S. Azərbaycan-Almaniya əlaqələri (1991-1995-ci illər). Tarix və onun problemləri, №1, 2005, s.120-123.
32. Məhərrəmova S. Azərbaycan-Almaniya mədəni əlaqələri (XX əsrin 90-cı illərində). Azərbaycan Dövlət Pedeqoji Universitetinin Xəbərləri (humanitar elmləri seriyası), №4, 2006, s.446-451.
33. Məhərrəmova S. XXI əsrin ilk illərində Azərbaycan-Almaniya siyasi əlaqələri. Dirçəliş-XXI əsr, № 164-165, 2012, s.403-409.
34. Məhərrəmova S. İlham Əliyevin xarici siyasətində Almaniyanın yeri. Bakı Universitetinin Xəbərləri (humanitar elmlər seriyası), №2, 2012, s.145-150.
35. Məmmədli E. Azərbaycan-Böyük Britaniya münasibətləri (1991-2003-cü illər). Bakı, "Adiloğlu", 2003, 173 s.
36. Məmmədov Ç. Beynəlxalq münasibətlər tarixi. Müasir dövr: iki hissəli. İkinci hissə: Yeni dünya nizamı 1991-2021-ci illər. Bakı, "Elm və təhsil", 2021, 656 s.
37. Məmmədov İ. Avstriyanın qısa tarixi və Azərbaycan-Avstriya münasibətləri. Bakı, "Təfəkkür", 2000, 64 s.
38. Musa İ. Çağdaş beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Çağdaş beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Üç hissədə. Üçüncü hissə. Bakı, "Bakı Universiteti", 2011, 776 s.
39. Mustafazadə T. XVIII-XXI əsrin əvvəllərində Azərbaycanın beynəlxalq siyasi münasibətləri. Bakı, "Avropa", 2021, 544 s.
40. Nuriyev S. Oil and European policy. Baku, "Mutarjim", 2002, 403 p
41. Paşa G. Azərbaycanın Almaniya ilə xarici iqtisadi əlaqələri. Bakı, "Elm və bilik", 2022.359 s.
42. Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik.Bakı,"BDU", 2005.545 s.
43. Süleymanov E. Avropa İttifaqı və Azərbaycan: strateji tərəfdaşlığa doğru. Bakı, "CBS", 2011. 112 s.
44. Vaqifqızı L. Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında əməkdaşlıq: 1991-2008-ci illər. Tarix üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis. Bakı, 2017. 172 s.
45. Vəliyev İ. Sabitlik və rifah naminə siyasət. Bakı, "Təhsil", 2018. 672 s.
46. Zeynalova Ş. Avropa İttifaqı çərçivəsində inteqrasiya prosesləri: problemlər və onların həlli perspektivləri. Bakı, "Elm və təhsil", 2021. 224 s.

47. Абасов М.А. Международные отношения Азербайджана и Германии от истоков и до начала XXI века: политический аспект. Дис. д-ра филос. по полит. наук. Баку, 2015.201 с.
48. Аббасбейли А., Аббасбейли Э. Гейдар Алиев и мировая политика. Баку, «Азернешр», 1997.301 с.
49. Алиева М.М. Азербайджано-Британские отношения на современном этапе: становление, развитие и перспективы. Дис. канд. полит. наук. Баку, 2006. 146 с.
50. Гусейнов Ф.Ш. Геополитические аспекты сотрудничества Европейского Союза и Азербайджанской Республики. Дис. д-ра филос. по полит. наук. Баку, 2011. 163 с.
51. Зейналова С.М. Азербайджан – Германия: культурные связи. AMEA Gəncə bölməsinin Xəbərlər məcmunəsi, № 32, 2008. с.147-151.
52. Зейналова С.М. Азербайджан – Германия: экономическое сотрудничество. Кавказ и глобализация, Том 2, Вып. 1, 2008. с.54-66.
53. Зейналова С.М. Азербайджано-германские отношения в контексте интеграции Азербайджана в Европейское сообщество. Баку, «Мутарджим», 2008. 76 с.
54. Керимова С.А. Азербайджано-итальянские культурные связи: история и современность. Баку, 2020. 311 с.
55. Магеррамова С.С. Отношения Азербайджана и Германии в рамках международных организаций ООН и НАТО. Кавказ и Мир, №10, 2011. с.154-157.
56. Магеррамова С.С. Экономические отношения между Азербайджанской Республикой и Федеративной Республикой Германия (1991-2000 годы). Современная научная мысль, №3, 2021. с.112-117.
57. Мусаева Г.М. Нефтяной фактор в азербайджанской политике Великобритании (1991-2022 гг.). Баку, «Aspoliqraf», 2023. 312 с.

# AZƏRBAYCAN—ERMƏNİSTAN DAĞLIQ QARABAĞ PROBLEMİ YAPONİYANIN XARİCİ SİYASƏTİNDƏ

**Aytac Şadiyeva**
Bakı Dövlət Universiteti
shinetomydarkness@gmail.com

***Açar sözlər:*** *Azərbaycan, Yaponiya, Dağlıq Qarabağ, Heydər Əliyev, İlham Əliyev, Ermənistan*

*Yaponiya Dağlıq Qarabağ münaqişəsində hər zaman birmənalı olaraq Azərbaycanı dəstəkləmişdir. Bu, həm Azərbaycanın Yaponiya üçün çox önəmli müttəfiq olmasından, həm də Yaponiyanın özünün də ərazi problemindən əziyyət çəkməsindən qaynaqlanır. Çünki II Dünya müharibəsinin başlamasından sonra Yaponiya Kuril adaları problemi ilə üzləşmişdir. Digər tərəfdən müasir dövrdə müstəqil Azərbaycan Yaponiya üçün siyasi, iqtisadi, mədəni sahələrdə etibarlı tərəfdaşdır. Bu baxımdan Azərbaycan ilə Yaponiyanın müasir dövrdə yaşamış olduğu problemlər arasında bənzərlik vardır. Yaponiya hər zaman Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini tanımış və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə tərəfdar olmuşdur. Məqalədə 1991-ci ildə Azərbaycanın müstəqillik qazanmasından sonra yaşamış olduğu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminə Yaponiyanın münasibətindən bəhs ediləcək.*

## АЗЕРБАЙДЖАН-АРМЕНИЯ НАГОРНО-КАРАБАХСКАЯ ПРОБЛЕМА ВО ВНЕШНЕЙ ПОЛИТИКЕ ЯПОНИИ

**Айтадж Шадыева**

***Ключевые слова:*** *Азербайджан, Япония, Нагорный Карабах, Гейдар Алиев, Ильхам Алиев, Армения*

*Япония всегда однозначно поддерживала Азербайджан в Нагорно-Карабахском конфликте. Это связано как с тем, что Азербайджан является очень важным союзником для Японии, так и с тем, что Япония сама страдает от территориальной проблемы. Потому что, после начала Второй мировой войны Япония столкнулась с проблемой Курил. С другой стороны, в современное время независимый Азербайджан является для Японии надежным партнером в политической,*

*экономической и культурной сферах. С этой точки зрения существует сходство между проблемами, которые испытывают Азербайджан и Япония в наше время. Япония всегда признавала территориальную целостность и суверенитет Азербайджана и поддерживала мирное урегулирование Нагорно-Карабахского конфликта. В статье пойдет речь об отношении Японии к армяно-азербайджанской проблеме Нагорного Карабаха, с которой столкнулся Азербайджан после обретения независимости в 1991 году.*

## AZERBAIJAN-ARMENIA NAGORNO-KARABAKH PROBLEM IN JAPAN'S FOREIGN POLICY

**Aytaj Shadiyeva**

***Keywords:*** *Azerbaijan, Japan, Nagorno-Karabakh, Heydar Aliyev, Ilham Aliyev, Armenia*

*Japan has always unequivocally supported Azerbaijan in the Nagorno-Karabakh conflict. This is due to both the fact that Azerbaijan is a very important ally for Japan, and Japan itself suffers from the territorial problem. Because after the start of World War II, Japan faced the problem of the Kuril Islands. On the other hand, in modern times, independent Azerbaijan is a reliable partner for Japan in the political, economic, and cultural fields. From this point of view, there is a similarity between the problems experienced by Azerbaijan and Japan in modern times. Japan has always recognized the territorial integrity and sovereignty of Azerbaijan and supported the peaceful settlement of the Nagorno-Karabakh conflict. The article will talk about Japan's attitude to the Armenian-Azerbaijani Nagorno-Karabakh problem, which Azerbaijan experienced after gaining independence in 1991.*

Azərbaycan Respublikası 1991-ci ildə öz müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq hüququn bütün subyektləri ilə ikitərəfli və çoxtərəfli əlaqələr qurmuşdur. Bu,baxımdan Şərqi Asiya ölkələri, xüsusilə də bu regionun ən aparıcı dövlətlərindən biri olan Yaponiya ilə münasibətlər diqqəti cəlb edir. 1991-ci ilin sonlarından başlayan və 1994-cü ilin may ayına qədər davam edən I Qarabağ müharibəsi demək olar ki, bütün dünya dövlətlərinin diqqətini çəkmişdir. Azərbaycan Respublikası öz xarici siyasətində hər zaman bu problemin sülh yolu ilə həllinə tərəfdar olmuş, münasibət qurduğu bütün

dövlətlərlə aparmış olduğu danışıqlarda bu problemin aktuallığını nəzərə çarpdırmışdır.

Yaponiya Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 28-də tanımışdır. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il sentyabr ayının 7-də qurulub. Öz müstəqilliyini yeni elan etmiş və bir çox problemlərlə qarşılaşan Azərbaycana 1991-ci ilin martında Yaponiya tərəfindən 1 milyon ABŞ dolları həcmində humanitar yardım edilmişdir. Bu əlaqələr "Gündoğar ölkə"nin də xarici siyasət istiqamətlərinə uyğun gəlirdi. Bu andan etibarən Azərbaycanın üzləşmiş olduğu Dağlıq Qarabağ problemi Yaponiyanın gündəmində olmuşdur. Lakin Yaponiyanın yeni, müstəqil postsovet ölkələri ilə qarşılıqlı əlaqələrinin inkişafı ilkin mərhələdə bir qədər məhdud xarakter daşıyırdı. Rusiya ilə ərazi mübahisələri, Yaponiya kapitalının fəal nüfuz etməsi və bu ölkələrin əsas sənaye sahələrinin Yaponiya iqtisadiyyatına artan bağlılığı rəsmi Tokionun gənc, müstəqil dövlətlərlə münasibətlərini bir qədər ehtiyatlı şəkildə qurmasına səbəb olmuşdur. Ona görə də, XX əsrin 90-cı illərində Yaponiyanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminə münasibəti bir qədər seyrçi xarakter daşımışdır. Amma proses tədricən nizamlanır və dövlət müstəqilliklərini möhkəmləndirən ölkələr, o cümlədən də Azərbaycan Respublikası Yaponiya ilə daha sərbəst şəkildə əlaqələr qurmağa başlayır. Buna həmçinin, 1993-cü ildən sonra Azərbaycanın xilaskarı Ulu Öndər Heydər Əliyevin rəhbərlik etməyə başlaması da öz təsirini göstərir. Yaponiyanın Azərbaycanın mövqeyini dəstəkləməsi eyni zamanda bu ölkədə erməni lobbisinin olmaması, erməni diaspor təşkilatlarının kiçik və faəliyyətsiz olması ilə birbaşa bağlıdır. Burada yaşayan ermənilərin əksəriyyəti isə 1980-ci illərdə Suriyadan, Livandan və İrandan Yaponiyaya köçmüş ermənilərdən ibarətdir. Bu səbəbdən burada fəal diaspor qurmaq mümkün deyildir. Azərbaycan-Yaponiya münasibətlərinin yüksələn xətlə inkişafı səbəbindən Yaponiya Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın haqlı mövqeyini dəstəkləyir [7]. 2000-ci il yanvarın 21-də Cənubi Qafqaz regionunda ilk dəfə olaraq, Yaponiyanın məhz Azərbaycan Respublikasında səfirliyi təsis edilmişdir. Elə həmin il də Yaponiya yardım proqramı çərçivəsində Azərbaycana maddi yardım etmişdir [9]. 2002-ci il dekabr ayının 6-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycan Respublikasının Yaponiyada səfirliyinin təsis olunması haqqında sərəncam imzalayıb. 2005-ci il oktyabrın 12-də isə Azərbaycan Respublikasının Yaponiyada səfirliyi fəaliyyətə başlayıb.İki ölkə arasında siyasi, diplomatik, iqtisadi əlaqələr uğurla davam etməkdədir. Yaponiyanın Azərbaycanın Dağlıq Qarabağ problemini diqqətlə izləməsi, bu problemə həssaslıqla yanaşması, hər şeydən öncə onun özünün də ərazi problemi ilə üz-üzə qalmasından qaynaqlanır. Dil, milli mentalitet, bir sıra mədəniyyət elementləri baxımından oxşar olan hər iki xalq Rusiyanın imperiya siyasətinin acı nəticələri ilə üz-üzə qalmışdır. Azərbaycan Rusiyanın dəstəyi ilə torpaqlarımızın 20 %-ni işğal etmiş

Ermənistanın təcavüzkar siyasətinin yaratdığı Dağlıq Qarabağ problemindən əziyyət çəkdiyi kimi, Yaponiya da özünün Rusiya ilə arasındakı və Yaponiyanın tarixi əraziləri olan Kuril adaları problemini uzun illərdir həll edə bilmir.

İki ölkə arasındakı münasibətlər Ümummilli lider Heydər Əliyevin prezidentlik dövrünə başladığı vaxtdan etibarən dərinləşməyə başlamışdır. Azərbaycan Prezidenti Heydər Əliyev ilk dəfə 1998-ci il 24-28 fevral tarixlərində Yaponiyaya rəsmi səfər etmişdir.Həmin səfər zamanı Ümummilli lider Heydər Əliyev Yaponiya imperatoru əlahəzrət Akihito ilə görüşüb və ölkənin Baş Naziri Ryutaro Haşimoto ilə danışıqlar aparıb. Yaponiyanın Baş Naziri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində ölkəsinin Azərbaycanın ərazi bütövlüyünə tərəfdar olduğunu bəyan edib [10]. O, eyni zamanda Yaponiyanın münaqişənin ATƏT-in Lissabon Zirvə görüşündə irəli sürülmüş prinsiplər əsasında həll edilməsini düzgün saydığını bildirib. Azərbaycan xalqının Ulu Öndəri fevralın 24-dən 27-dək yüksəksəviyyəli rəsmilərlə 38 görüş keçirib [6]. Səfər çərçivəsində "Azərbaycan Respublikası ilə Yaponiya arasında dostluq və əməkdaşlıq haqqında birgə bəyanat" adlı sənədin imzalanması Qarabağ münaqişəsinə Yaponiyanın mövqeyi istiqamətində mühüm əhəmiyyət daşımışdır. Bütün bu addımlar, Yaponiya kimi Azərbaycana məsafəcə uzaq bir ölkənin Azərbaycanyönümlü mövqeyi, Ümummilli lider Heydər Əliyevin məqsədyönlü siyasətinin, Azərbaycan həqiqətlərini bütün dünya ölkələrinin diqqətinə çatdırmasının nəticəsi idi. 1999-cu ilin aprelində Yaponiyanın Xarici İşlər Naziri Azərbaycanda səfərdə olmuş və Qarabağ münaqişəsi mövzusunda danışıqlar aparmışdır.

İki ölkə arasındakı münasibətlər cənab Prezident İlham Əliyevin prezidentlik dövründə daha da dərinləşmişdir. 13 iyul 2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Prezident sarayında Yaponiya Xarici Əlaqələr İnstitutunun direktoru, Xarici İşlər Nazirliyinin baş müşaviri, səfir Toşiyuki Fucivaranı qəbul etmişdir. Bu qəbul zamanı da iki ölkə arasında siyasi əlaqələr, o cümlədən Dağlıq Qarabağ münaqişəsi mövzusunda fikir mübadiləsi aparılmışdır. Prezident İlham Əliyevin Yaponiyaya ilk rəsmi səfəri 7-10 mart 2006-cı il tarixində baş tutmuşdur. Səfər zamanı bildirilmişdir ki, Azərbaycan Yaponiyanın tutduğu mövqe müqabilində onun BMT Təhlükəsizlik Şurasına daimi üzv olması fikrini müdafiə edir [10].

Yaponiyanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə faəl münasibəti XXI əsrin ikinci onilliyində daha da artmışdır. Bunun səbəbi Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasətindən nəinki əl çəkməməsi, eyni zamanda yeni təcavüzkar hərəkətlərə əl atmasından qaynaqlanmışdır. Azərbaycanın 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzv seçilməsi qərarına Yaponiya yekdilliklə səs vermişdir [9]. Bu da, Yaponiyanın Dağlıq Qarabağ münaqişəsində Azərbaycanı sülhsevər, humanist

bir ölkə kimi gördüyünün bariz nümunəsi sayıla bilər. Azərbaycanın Yaponiyadakı səfirliyi də, öz növbəsində Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq uğrunda fəal çalışmaqdadır. 2013-cü ildə 26 fevral tarixində eyni zamanda, Yaponiyadakı Azərbaycan səfirliyində Xocalı soyqırımının 21-ci ildönümünə və Xocalı soyqırımının qurbanlarının xatirəsinə həsr edilmiş tədbirlər keçirilmişdir. Fevralın 22-də Xocalı soyqırımına həsr olunmuş sərgi açılmış və ayın sonunadək davam etmişdir [2, s 6]. 2015-ci ildə 5 may tarixində Azərbaycanın Xarici İşlər Naziri Elmar Məmmədyarov Yaponiyanın Mərkəzi Asiya və Qafqaz üzrə xüsusi nümayəndəsi Akiru Muto ilə görüşmüşdür. Qəbul zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunan Akiru Muto qeyd edib ki, Yaponiya Qarabağ münaqişəsinin BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında sülh yolu ilə həllinin tərəfdarıdır. Görüş zamanı Azərbaycan Xarici İşlər Naziri Elmar Məmmədyarov vurğulayıb ki, işğal olunmuş Azərbaycan əraziləri azad edilməli və Ermənistan Silahlı Qüvvələri bu ərazilərdən qeyd-şərtsiz çıxarılmalıdır [8]. Azərbaycanın Xarici İşlər Naziri Elmar Məmmədyarov, həmçinin 2015-ci il 5 sentyabr tarixində Yaponiyalı həmkarı Taro Kono ilə birgə mətbuat konfransı keçirmişdir. Mətbuat konfransı zamanı Elmar Məmmədyarov Yaponiyalı həmkarının mövqeyini belə açıqlayır: "Biz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli barədə müzakirə apardıq. Deyə bilərəm ki, Yaponiya Dağlıq Qarabağ münaqişəsinin həllində beynəlxalq birliyin mövqeyini dəstəkləyir" [5].

2016-cı il 20 fevral tarixində Azərbaycanın Yaponiyadakı fövqəladə və səlahiyyətli səfiri Gürsel İsmayılzadə ilə görüş keçirilmişdir. Səfir çıxışı zamanı qeyd etmişdir:"2017-ci ildə dövlətlərimiz arasında münasibətlərin qurulmasının 25 illiyi tamam olur. Rəsmi Tokio Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində sülh yolu ilə həllinin tərəfdarıdır. Yaponiyanın bu mövqeyi dəyişməz olaraq qalır" [13]. 1-5 aprel 2016-cı il tarixlərində Ermənistan ordusunun təxribatçı əməllərinə qarşı Azərbaycan ordusunun cavab tədbirləri çərçivəsində aparılan Aprel döyüşləri Yaponiyanın marağını xüsusi cəlb etmişdir. Belə ki, Yaponiyanın Xarici İşlər Nazirliyinin Mətbuat Katibi Yasuhisa Kavamura 2016-cı il 5 aprel tarixində Azərbaycan hökumətinə bəyanat vermişdir. Bəyanatda bildirilirdi:

1)Yaponiya Dağlıq Qarabağdakı münaqişə ilə bağlı dərin narahatlığını bildirir və həlak olanlara səmimi başsağlığı verir;

2)Dağlıq Qarabağ münaqişəsinin yekun həlli Cənubi Qafqaz regionunda sülh və sabitlik üçün vacibdir;

3)Bu bəyanat ilə yaponiya ATƏT-in Minsk Qrupu həmsədrlərinin münaqişənin həlli üzrə səylərini tam dəstəkləyir və beynəlxalq hüquq prinsipləri əsasında sülh yolu ilə həllini dəstəkləyir [11].

30 illik atəşkəs dövründə münaqişənin zaman-zaman aktiv hərbi əməliyyatlar fazasına keçməsi təbiidir ki, dünya birliyinin digər üzvləri kimi, Yaponiyanı da narahat edirdi. 2019-cu il yan-varın 11-də Yaponiyanın Bakıdakı səfiri Teruyuki Katori Azərbaycanda rəsmi səfərdə olarkən Bərdə rayonunda jurnalistlərə vermiş olduğu müsahibəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında fikir söyləyərkən Azərbaycanla Yaponiya arasında oxşarlığı vurğulayaraq bildirmişdir. Səfir qeyd edirdi:"Yaponiya hökuməti də müharibədən əziyyət çəkib. Yaponiyanın hazırki Konstitusiyası 1947-ci ildə qəbul edilib. Ölkənin Konstitusiyasına əsasən Yaponiya sülh dövlətidir.Cənubi Qafqazda sülhün və sabitliyin təmin edilməsi üçün Dağlıq Qarabağ münaqişəsi tam həll edilməlidir "[12]. 2020-ci il 27 sentyabr tarixində Ermənistan rəhbərliyi və Ermənistan ordusunun növbəti genişmiqyaslı təxribatlarına cavab tədbirləri olaraq, Azərbaycan Prezidenti ordumuza əks-həmlə əməliyyatına başlamaq əmrini verir və 44 gün davam edən Vətən müharibəsi,yəni II Qarabağ müharibəsi başlayır. 28 sentyabr 2020-ci il tarixində bu xəbərdən narahatlıq keçirən Yaponiya tərəfinin nümayəndəsi Mətbuat Katibi Ohtaka Masoto Azərbaycan tərəfinə 3 maddədən ibarət bəyanat ünvanlayır. Bəyanatda bildirilir:

1) Yaponiya sentyabrın 27-dən Dağlıq Qarabağın təmas xətti boyunca baş verən və mülki əhalinin də daxil olduğu tələfatla nəticələnən silahlı qarşıdurmadan ciddi narahatlığını bildirir. Yaponiya bütün maraqlı tərəfləri hər hansı hərbi əməliyyatları dərhal dayandırmağa, maksimum təmkin nümayiş etdirməyə və dialoqu bərpa etməyə çağırır;

2) Ermənistan və Azərbaycan arasında münaqişənin yekun həlli Qafqaz regionunda sülh və sabitlik üçün vacibdir;

3) Bu bəyanata əsasən Yaponiya ATƏT-in Minsk Qrupu həmsədrlərinin iki ölkə arasında münaqişənin həlli üzrə vasitəçilik səylərini tam dəstəkləyir və beynəlxalq hüquq prinsipləri əsasında sülh yolu ilə həllinə ümid etdiyini bildirir [11].

Bəyanatdan da məlum olduğu kimi, bir tərəfdən Azərbaycan həm dəyərli strateji tərəfdaş olduğu üçün, digər tərəfdən də Şərqlə Qərbi bağlayan və Yaponiya üçün də çox əhəmiyyətli olan neft-qaz arteriyaları Azərbaycan ərazisindən keçdiyi üçün Yaponiya hökuməti hərbi əməliyyatların tez başa çatmasında israrlı olmuşdur. Həmçinin müharibənin gedişində, Yaponiya hökuməti məlumatlandırmaq və artan narahatlığını aradan qaldırmaq üçün, 2020-ci il oktyabrın 9-da Milli Məclisin Sədri Sahibə Qafarova Yaponiyanın ölkəmizdə fövqəladə və səlahiyyətli səfiri olan Cuniçi Vada ilə görüşmüşdür. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi haqqında bəzi faktları Yaponiya səfirinin diqqətinə çatdıran Sahibə Qafarova ötən dövr ərzində beynəlxalq təşkilatlar tərəfindən münaqişəyə dair qəbul olunan sənədlər, o cümlədən BMT Təhlükəsizlik Şurasının qətnamələri barədə

məlumat vermişdir. Azərbaycanın Ali Baş Komandanının rəhbərliyi ilə Şanlı Ordumuzun həyata keçirdiyi əks-hücum əməliyyatları, Ermənistan ordusunun təxribatları və mülki əhalinin hədəf alınması barədə məlumat verilib [3, s 2]. 2020-ci il 5 noyabr tarixində Azərbaycanın Yaponiyadakı fövqəladə və səlahiyyətli səfiri Gürsel İsmayılzadə Azərbaycanın Yaponiyadakı səfirliyində Azərbaycanın yaşamış olduğu Dağlıq Qarabağ münaqişəsi barədə yapon ictimaiyyətinə məlumat vermişdir. Tədbirdə həmçinin, Yaponiyada yüksək nüfuza malik olan "The Internatioanl Friendhip Exchange Council" (FEC) təşkilatının prezidenti Ken Matsuzava və digər rəhbər üzvləri də iştirak etmişdilər. Gürsel İsmayılzadə Dağlıq Qarabağ probleminin 100 il öncəsi, Azərbaycanın üzləşmiş olduğu tarixi faciələr, həmçinin 27 sentyabr tarixində Azərbaycan ordusunun elan etmiş olduğu əks-həmlə əməliyyatları və Ermənistan ordusunun müharibənin o gününədək azərbaycanlı mülki əhalidən 91 nəfəri qətlə yetirməsi, 200-dən çox insanın yaralanması, minlərlə yaşayış binası və mülki obyektlərin dağıdılması haqqında ətraflı çıxış etmişdir. Tədbirdə çıxış edən FEC təşkilatının prezidenti Ken Matsuzava münaqişə ilə bağlı ətfalı məlumata görə minnətdarlığını bildirib. Döyüşlər zamanı həlak olmuş mülki əhali və hərbçilərin ailələrinə başsağlığının çatdırılmasını xahiş edən təşkilatın rəhbəri yaralanmış insanların tezliklə sağalmasını arzuladığını söyləyib. Ken Matsuzava iki ölkə arasında bütün sahələrdə əməkdaşlığın bundan sonra da genişlənəcəyini vurğulayıb [7].

2022-ci il mayın 5-də Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycanda səfərdə olan Yaponiya Xarici İşlər Nazirinin parlament üzrə müavini Honda Taro ilə görüşüb. İki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünün olduğunu xatırladan Milli Məclisin sədri Yaponiyanın Cənubi Qafqazdakı ilk səfirliyini məhz Azərbaycanda açmasını ölkəmizlə münasibətlərə verilən əhəmiyyətin göstəricisi kimi qiymətləndirib. Parlamentin sədri Yaponiyadan gəlmiş qonağa Azərbaycan ərazilərinin Ermənistan tərəfindən 30 il davam edən işğalına son qoyulması, işğal dövründə Ermənistanın binaları, infrastruktur, o cümlədən mədəni və dini abidələrimizi tamamilə məhv etməsi, işğaldan azad olunmuş ərazilərimizdə aparılan quruculuq və bərpa işləri, həmçinin mövcud mina problemi barədə məlumat verilib [1, s 2].

Yapon hökuməti Ermənistan rəhbərliyinin növbəti təxribatı olan və ona cavab tədbirlərini nəzərdə tutan 2023-cü ilin sentyabrında baş verən lokal xarakterli antiterror tədbirləri sayılan III Qarabağ müharibəsinə də öz münasibətini fəal şəkildə bildirmişdir. Belə ki, 2023-cü il 20 sentyabr tarixli bəyanatında da Yaponiya hökuməti son zamanlar Qarabağda vəziyyətin pisləşməsindən ciddi narahatlığını bildirmiş və tərəfləri hərbi əməliyyatları dərhal dayandırmağa çağırmışdır [11]. III Qarabağ müharibəsi uğurla başa çatdıqdan sonra yapon hökuməti, elm xadimləri Qarabağ problemi üzrə geniş

araşdırmalara başlamışdırlar. 2023-cü il sentyabrın 21-də Beynəlxalq Münasibətlər üzrə Foruma Yaponiya ev sahibliyi etmişdir. Bu forumda görkəmli yapon elmi işçisi, Keiyo Universitetinin professoru Hirose Yoko "Çin-Rusiya təsir dairəsinin gələcəyi konsepsiyası və Yaponiyanın münasibəti" mövzusunda məruzə ilə çıxış etmiş və məruzəsində ilk növbədə Qarabağda baş verən son hadisələr, 2023-cü ilin I yarısında baş tutan sülh danışıqları xüsusi olaraq vurğulanıb. Hirose Yoko may-iyun aylarında ABŞ və Avropa ölkələrində baş verən diplomatik danışıqlarda artım olduğunu qeyd etmişdir. O, bu danışıqlar zamanı Azərbaycan və Ermənistan dövlət başçıları və Xarici İşlər Nazirlərinin iştirak etdiyini vurğulayıb.Professor bildirmişdir ki, Ermənistanın Baş Naziri Paşinyanın yerli erməni sakinlərinin təhlükəsizliyi təmin olunarsa, Qarabağ üzərində Azərbaycanın suverenliyini tanımağa hazır olan bəyanatları xüsusilə diqqəti çəkmişdir [14]. Müəllif eyni zamanda iyun ayından etibarən Azərbaycan tərəfinin danışıqlardakı fəallığını azaltmış olduğunu nəzərə çatdırmış və bunu iki səbəblə əlaqələndirmişdir. Yaponiyalı alim bildirmişdir ki, bu ilk növbədə 2022-ci ilin dekabrında Laçın dəhlizinin Azərbaycanın nəzarətinə keçməsi ilə, digər tərəfdən isə son illərdə Azərbaycanın güclü müttəfiqi və dəstəkçisi olan Türkiyə Prezidenti cənab Rəcəb Tayyip Ərdoğanın 2023-cü ilin may ayında yenidən prezident seçilməsi ilə bağlı olmuşdur. Bu, danışıqların dinamikasına əhəmiyyətli dərəcədə təsir göstərmişdir [14]. Bu fikirlər Yaponiyada Qarabağ münaqişəsi və onun həlli yolları haqqında mükəmməl araşdırmalar aparılmasının bariz nümunəsidir.

Hirose Yoko eyni zamanda III Qarabağ münaqişəsi haqqında yazır:"Belə bir şəraitdə 2023-cü il 19 sentyabrda Azərbaycan Qarabağda antiterror əməliyyatlarına başladığını elan etdi. Əməliyyatın bəyan edilmiş məqsədi Azərbaycan ərazisində yerləşən erməni hərbi birləşmələrinin tərksilah edilməsi və çıxarılmasını təmin etmək onların hərbi infrastrukturunu zərərsizləşdirməkdir. Bildirilib ki, bu əməliyyat həmin gün səhər saatlarında baş verən və 4-ü polis olmaqla 6 nəfərin ölümü ilə nəticələnən iki mina partlayışına cavab olaraq başlayıb. Ancaq 24 saat ərzində bir nəticə əldə edildi. Sentyabrın 20-də həm Azərbaycan, həm də Ermənistan Silahlı Qüvvələri yerli vaxtla saat 13:00-da (Yaponiya vaxtı ilə 18:00-da) hərbi əməliyyatları tamamilə dayandırmağa razılaşdıqlarını bəyan ediblər. Bunun ardınca Azərbaycan öz ərazi bütövlüyünün və suverenliyinin bərpası barədə bəyanat verdi. 2024-cü il 1 yanvar tarixində isə qondarma "Artsax Respublikası" ləğv edildi" [14]. Göründüyü kimi, Yaponiyalı alim Qarabağ münaqişəsinin cari vəziyyətini dərindən təhlil etmişdir. Hirose Yoko Yaponiyada və dünyada ən çox diqqət çəkən Rusiyanın 2020-ci il Vətən müharibəsində nə üçün Ermənistanı dəstəkləmədiyi sualına da adekvat cavab vermişdir.O, bildirmişdir ki Ermənistan ABŞ və Avropayönümlü siyasət yeridərək, Rusiyadan uzaqlaşmış, hətta 2020-ci il sentyabrın 11-dən 20-dək ABŞ-la birgə hərbi təlimlər keçirmişdir. Professor daha sonra bildirmişdir

ki, 2023-cü il 19-20 sentyabr hərbi əməliyyatlarından sonra Azərbaycan tərəfi humanist addım ataraq erməni sakinlərinin Qarabağda yaşamasına icazə verməsinə baxmayaraq, sakinlərin 99 %-i Ermənistana qayıtmaq istədiklərini bildirmişlər və 2,8 milyonluq əhalisi olan Ermənistan Respublikası bu sayları təxminən 120 mindən çox olan məcburi köçkün kütləsi qarşısında bir sıra sosial-iqtisadi problemlərlə üz-üzə qalacaqdır. Azərbaycan isə əksinə olaraq, Qarabağ bölgəsini bərpa edərək oraya həyatı yenidən qaytarmaqdadır [14].

Azərbaycanın son 30 ildə üzləşmiş olduğu və uğruna 3 dəfə ağır müharibələr etmiş olduğu Dağlıq Qarabağ münaqişəsi bu gün geridə qalır. Azərbaycan Respublikasının etibarlı tərəfdaşı olan Yaponiya dövlət səviyyəsində münaqişə başlayandan sona qədər hadisələrin gedişini diqqətlə izləmiş və hər zaman Azərbaycanın haqlı mövqeyini dəstəkləmişdir.

## Ədəbiyyat

1. Azərbaycan Yaponiya üçün mühüm tərəfdaşdır//Azərbaycan qəzeti, 2022 6 may. 2 s
2. Yaponiyada Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr edilmiş tədbirlər davam edir // Azərbaycan qəzeti, 2013 27 fevral. 6 s
3. Yaponiyanın Azərbaycandakı səfiri Ermənistanın son təxribatları və Ordumuzun əks-hücum əməliyyatları barədə məlumatlandırılıb//Azərbaycan qəzeti, 2020, 11 oktyabr. 2 s
4. https://azertag.az/xeber/1634057[Müraciət tarixi:26.05.2024]
5. https://ordu.az/az/news/139625/memmedyarov--yaponiya-qarabag-munaqisesinin-hellinde-beynelxalq-birliyin-movqeyini-destekleyir-[Müraciət tarixi:26.05.2024]
6. https://yeniazerbaycan.com/MEDIA_e54999_az.html[Müraciət tarixi:26.05.2024]
7.https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan%E2%80%93Yaponiya_m%C3%BCnasib%C9%99tl%C9%99ri[Müraciət tarixi:31.05.2024]
8. https://www.trend.az/azerbaijan/karabakh/2391621.html[Müraciət tarixi:27.05.2024]
9.https://ru.wikipedia.org/wiki/%D0%90%D0%B7%D0%B5%D1%80%D0%B1%D0%B0%D0%B9%D0%B4%D0%B6%D0%B0%D0%BD%D0%BE-%D1%8F%D0%BF%D0%BE%D0%BD%D1%81%D0%BA%D0%B8%D0%B5_%D0%BE%D1%82%D0%BD%D0%BE%D1%88%D0%B5%D0%BD%D0%B8%D1%8F[Müraciət tarixi:27.05.2024]
10. https://lib.aliyev-heritage.org/ru/4600871.html[Müraciət tarixi:26.05.2024]

11. https://www.mofa.go.jp/press/release/press4e_003300.html[Müraciət tarixi:26.05.2024]
12. https://report.az/en/karabakh/mfa-of-japan-we-expect-a-peaceful-solution-to-karabakh-conflict-based-on-principles-of-internation/[Müraciət tarixi:26.05.2024]
13. https://tokyo.mfa.gov.az/az[Müraciət tarixi:26.05.2024]
14. https://www.jfir.or.jp/en/studygroup/sg2023[Müraciət tarixi:26.05.2024]

# MİLLİ-MƏDƏNİ İRSİMİZİN TƏBLİĞİNDƏ HEYDƏR ƏLİYEV FONDUNUN ROLU

**Aynurə Əsgərova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
aynure.edu@mail.ru

***Açar sözlər:*** *Azərbaycan, Heydər Əliyev Fondu, Mehriban Əliyeva, ölkə, milli mədəniyyət, mədəni irs, festival, sərgi.*

*Məqalədə Heydər Əliyev Fondunun yaradılma tarixi, fəaliyyəti, milli-mənəvi dəyərlərimizin və mədəni irsimizin qorunub saxlanılması, Azərbaycan mədəniyyətinin dünyada geniş təbliğ olunması və ölkəmizin beynəlxalq nüfuzunun artması ilə bağlı gördüyü işlərdən bəhs edilir. Azərbaycan Respublikasının Birinci Vitse-Prezidenti xanım Mehriban Əliyevanın Azərbaycan mədəniyyətinə qayğısı və böyük dəstəyi ilə Heydər Əliyev Fondunun mədəniyyət sahəsini əhatə edən möhtəşəm beynəlxalq tədbirlər, konfranslar, festivallar, mədəniyyət günləri və sərgilərin keçirildiyi bildirilir. Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə Azərbaycandan kənarda təşkil olunan tədbirlərin, sərgilərin əhəmiyyətindən bəhs edilir. Xarici ölkələrdə təşkil olunan sərgilərdə nümayiş etdirilən mədəni irsimiz barədə məlumat verilir. Heydər Əliyev Fondunun Azərbaycanın milli-mədəni irsinin dünyada tandılması istiqamətində həyata keçirdiyi məqsədyönlü fəaliyyət təqdir olunur.*

## РОЛЬ ФОНДА ГЕЙДАРА АЛИЕВА В ПРОДВИЖЕНИИ НАШЕГО НАЦИОНАЛЬНО-КУЛЬТУРНОГО НАСЛЕДИЯ

**Айнура Аскерова**

***Ключевые слова:*** *Азербайджан, Фонд Гейдара Алиева, Мехрибан Алиева, страна, национальная культура, культурное наследие, фестиваль, выставка.*

*В статье рассказывается об истории Фонда Гейдара Алиева, его деятельности, сохранении наших национально-нравственных ценностей и культурного наследия, широкой пропаганде азербайджанской культуры в мире, повышении международного авторитета нашей страны. Благодаря своей заботе и большой поддержке азербайджанской культурыво главе Первый вице-президент Азербайджанской Республики*

*Мехрибан Алиева Фондом Гейдара Алиева провела крупные международные мероприятия, конференции, фестивали, дни культуры и выставки, охватывающие сферу культуры. Обсуждается значение мероприятий и выставок, организуемых за пределами Азербайджана по инициативе и поддержке Фонда Гейдара Алиева. Информация о нашем культурном наследии представлена на выставках, организуемых в зарубежных странах. Оценена целенаправленная деятельность Фонда Гейдара Алиева в направлении популяризации национального и культурного наследия Азербайджана в мире.*

## THE ROLE OF THE HEYDAR ALIYEV FOUNDATION IN PROMOTING OUR NATIONAL-CULTURAL HERITAGE

**Aynura Asgarova**

***Keywords:*** *Azerbaijan, Heydar Aliyev Foundation, Mehriban Aliyeva, country, national culture, cultural heritage, festival, exhibition.*

*The article talks about the history of the Heydar Aliyev Foundation, its activities, the preservation of our national and moral values and cultural heritage, the widespread promotion of Azerbaijani culture in the world, and the increase of our country's international reputation. It is said that Mehriban Aliyeva, the First Vice-President of the Republic of Azerbaijan, with her care and great support for Azerbaijani culture, Heydar Aliyev Foundation held great international events, conferences, festivals, culture days and exhibitions covering the field of culture. The importance of events and exhibitions organized outside the borders of Azerbaijan with the initiative and support of the Heydar Aliyev Foundation is discussed. Information about our cultural heritage is presented at exhibitions organized in foreign countries. The purposeful activity of the Heydar Aliyev Foundation in the direction of promoting the national and cultural heritage of Azerbaijan in the world is appreciated.*

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adını daşıyan Heydər Əliyev Fondu 2004-cü il mayın 10-da fəaliyyətə başlamışdır. Heydər Əliyev Fondu fəaliyyətə başladığı vaxtdan bu günədək milli-mənəvi dəyərlərimizin və mədəni irsimizin qorunub saxlanılması, ölkə və dünya əhəmiyyətli tarixi abidələrin bərpası, Azərbaycan mədəniyyətinin dünyada geniş təbliğ olunması və ölkəmizin beynəlxalq nüfuzunun artması ilə bağlı müstəsna xidmətlər göstərmişdir. Azərbaycan Respublikasının Birinci Vitse-

Prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan mədəniyyətinə qayğısı və böyük dəstəyi ilə Heydər Əliyev Fondu mədəniyyət və müxtəlif sahələri əhatə edən layihələri reallaşdırmış, möhtəşəm beynəlxalq tədbirlər, konfranslar, festivallar, mədəniyyət günləri və sərgilər həyata keçirmişdir. Milli-mədəni irsimizin dünyada geniş təbliğində Heydər Əliyev Fondunun təşkilatçılığı, təşəbbüsü və dəstəyi ilə xarici ölkələrdə keçirilən sərgilərin böyük rolu vardır.

2007-ci ilin oktyabr ayında Moskvada təşkil edilmiş "Bibli Obraz-2007" Beynəlxalq Festivalı çərçivəsində dünyanın 22 ölkəsindən olan iştirakçılar Heydər Əliyev Fondu tərəfindən yaradılmış "Azərbaycan" stendinin ekspozisiyasında Azərbaycan ədəbiyyatının klassiklərinin rus və digər dillərdə nəşr edilmiş əsərləri, Azərbaycan mədəniyyətinə həsr olunmuş nəşr və multimedia diskləri, əl işləri olan gəlinciklər, miniatürlər, mini-xalçalar, musiqi alətləri, mis qablar və Azərbaycan kulinariyası ilə yaxından tanış olmuşlar [5].

Heydər Əliyev Fondunun təşəbbüsü ilə Avropa Parlamentinin Mənzil-qərargahında ilk dəfə olaraq 2009-cu ilin noyabr ayında Azərbaycan mədəniyyəti günləri keçirilmişdir. Tədbir çərçivəsində Azərbaycan incəsənət ustalarının konserti təşkil olunmuş, rəsm əsərləri, bədii miniatürlər, Azərbaycanın qədim tətbiqi və xalçaçılıq sənətlərini əks etdirən eksponatlar, mis və əntiq əşyalar nümayiş etdirilmişdir.

2010-cu il 15-21 noyabr tarixlərində Heydər Əliyev Fondunun, Azərbaycan Respublikasının Böyük Britaniyadakı Səfirliyinin və "Baku" jurnalının birgə təşkilatçılığı ilə Londonda "Azərbaycan:uçan xalçalar ilə nağıllar aləminə" adlı sərgi keçirilmişdir. Sərgidə coğrafi mövqeyinə, naxış kompozisiyasına, rəng həlli və texniki xüsusiyyətlərinə görə Azərbaycan xalçaçılıq məktəbinin bütün istiqamətləri təmsil olunmuşdur. Sərgi çərçivəsində Heydər Əliyev Fondu tərəfindən ingilis dilində hazırlanmış "Azərbaycan" kitabının təqdimatı keçirilmişdir [3].

2011-ci il fevralın 17-də Heydər Əliyev Fondu və Azərbaycan Respublikasının Fransadakı Səfirliyinin təşəbbüsü və dəstəyi ilə Parisdə Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin yenidən bərpa edilməsinin 20-ci ildönümünə və "Azərbaycan" kitabının fransız dilində təqdimatına həsr olunmuş mərasim keçirilmişdir. Tədbir çərçivəsində Azərbaycan incəsənət ustaları maraqlı konsert proqramı ilə çıxış etmişdirlər. Misgərlik əşyalarından və Qarabağ xalçaçılıq məktəbinin gözəl nümunələrindən ibarət sərgi ilə yanaşı, qonaqlara Azərbaycan milli mətbəxinin yeməkləri təqdim olunmuşdur.

2011-ci il aprelin 18-də Parisdə "Odlar yurdu Azərbaycanın müasir əsərləri" adlı sərginin açılışı olmuşdur. Ölkəmizin 18 modern rəssamının 33 əsərinin nümayiş olunduğu sərgi Azərbaycan insanının xarakterini Qərb tamaşaçısına çatdırmaq baxımından əvəzsiz fürsət olmuşdur [1].

2011-ci il 16-20 iyul tarixlərində Fransanın San-Trope şəhərində II Ramatüel Klassik Musiqi Festivalı çərçivəsində Heydər Əliyev Fondunun

dəstəyi və təşkilatçılığı ilə "Azərbaycanın mədəni zənginlikləri" adlı sərgi keçirilmişdir. Sərgidə xalçaçılıq nümunələri, qədim mis qablar və əşyalar, milli musiqi alətləri, ölkənin müxtəlif məkanlarını əks etdirən fotolar, milli geyimlər nümayiş etdirilmişdir. Azərbaycan musiqiçiləri iyulun 17-də Fransanın Ramatüel şəhərində keçirilən II Ramatüel Klassik Musiqi Festivalında iştirak etmişdirlər.

2011-ci il sentyabrın 15-də Parisin 7-ci rayonunun meriyasının binasında Heydər Əliyev Fondunun təşəbbüsü ilə Azərbaycana həsr olunmuş sərgi açılmışdır. Azərbaycanın rəmzlərindən biri olan Qız qalasına həsr edilmiş sərginin ekspozisiyasında 2010-2011-ci illərdə Bakıda keçirilən "Qız qalası" Beynəlxalq İncəsənət Festivallarında nümayiş etdirilən əsərlər yer almışdır. Sərgidə 18 rəssamın əsəri təqdim olunmuşdur.

Heydər Əliyev Fondunun və "Baku" jurnalının ingilisdilli versiyasının dəstəyi və təşkilatçılığı ilə 2012-ci il yanvarın 17-də Londonda "Bakıya uçuş. Müasir Azərbaycan incəsənəti" mövzusunda sərginin açılışı olmuşdur. Sərgidə 21 müəllifin boyakarlıq, qrafika, heykəltəraşlıq, foto, video janrlarında bir-birindən maraqlı əsərləri təqdim edilmişdir. "Bakıya uçuş. Müasir Azərbaycan incəsənəti" sərgisi 2012-ci ilin aprel ayında Parisdə, noyabr ayında Berlində, 2013-cü ilin fevral ayında Moskvada, mart ayında Romada, may ayında Vyanada, bağlanış mərasimi isə 2013-cü ilin dekabr ayında Bakıda keçirilmişdir.

Heydər Əliyev Fondunun, ölkəmizin İtaliyadakı və Fransadakı Səfirliklərinin dəstəyi ilə 2012-ci ilin 16-21 aprel tarixlərində İtaliyada Azərbaycan mədəniyyəti günləri, 29 may-5 iyul tarixlərində isə Fransanın Ron-Alp regionunun Qayar, Tonon və Eviar şəhərlərində Azərbaycan mədəniyyəti günləri keçirilmişdir.

2012-ci ilin oktyabr ayından 2013-cü ilin iyul ayınadək Fransanın müxtəlif regionlarında "Qafqazın mirvarisi olan Azərbaycanın mədəni dəyərləri" layihəsi çərçivəsində sərgi və konsertlər keçirilmişdir. Sərgilərdə ölkəmizin qədim və zəngin tarixinə, mədəniyyətinə dair eksponatlar- xalça və xalça məmulatları, misgərlik nümunələri, şəbəkələr, Azərbaycan milli geyimləri, milli musiqi alətləri, Heydər Əliyev Fondu tərəfindən fransız dilində nəşr olunmuş ədəbiyyat toplusu nümayiş etdirilmişdir. Analoji tədbir, həmçinin 28 may 2014-cü il tarixində Strasburqda, Avropa Şurasının mənzil iqaməgahında da təşkil olunmuşdur [2].

Azərbaycanla Vatikan arasında diplomatik münasibətlərin qurulmasının 20-ci ildönümü ilə əlaqədar 2012-ci il 14 noyabr-5 dekabr tarixlərində Vatikanda "Azərbaycanın zəngin incilərinə tarixi baxış" adlı sərgi keçirilmişdir. Sərgidə Azərbaycan ərazisində tapılan arxeoloji materiallar, xalqımızın mədəniyyətini və həyat tərzini əks etdirən eksponatlar, müxtəlif sənətkarlıq nümunələri- silahlar, zinət əşyaları və qədim misgərlk məmulatları, musiqi

alətləri, Azərbaycan xalçaçılıq məktəbinin bütün istiqamətləri, qədim əlyazmalar, müxtəlif dinlərə aid müqəddəs kitablar nümayiş olunmuşdur.

Heydər Əliyev Fondu “YARAT!” Müasir incəsənət məkanı ilə birgə 2013-cü il aprelin 18-də Parisdə, Azərbaycan Mədəniyyət Mərkəzində müasir Azərbaycan incəsənətinə həsr olunmuş “Ev, doğma ev” mövzusunda sərgi təşkil etmişdir. Sərgidə “ev” mövzusu ilə əlaqədar olan rəngkarlıq, fotoşəkil, instalyasiya və heykəltəraşlıq işləri nümayiş etdirilmişdir.

Heydər Əliyev Fondunun və Azərbaycan Respublikasının Dini Qurumlarla iş üzə Dövlət Komitəsinin təşkilatçılığı ilə 2013-cü ildə Nyu-Yorkda BMT-nin mənzil-qərargahında, Parisdə YUNESKO-nun mənzil-qərargahında və Azərbaycan Mədəniyyət Mərkəzində, 2014-cü ildə Moskvada Yəhudi Muzeyi və Tolerantlıq Mərkəzində, 2015-ci ildə Parisin 1-ci rayonunun meriyasında “Azərbaycan-tolerantlıq məkanı” adlı fotosərgi keçirilmişdir. Sərgidə “Tolerantlıq ünvanı-Azərbaycan” layihəsi çərçivəsində Azərbaycana dəfələrlə səfərlər etmiş fotoqraf Reza Deqatinin ölkəmizdə dini tolerantlığı əks etdirən fotoşəkilləri sərgilənmişdir.

2013-cü ilin noyabr və dekabr aylarında Fransanın Reyms və Mülüz şəhərlərində Azərbaycan görkəmli şairəsi Məhsəti Gəncəvinin 900 illiyinə həsr olunmuş sərgi və konsertlər təşkil olunmuşdur. Sərgilərdə Məhsəti Gəncəvi dövrünə məxsus qadın geyimləri, xalçalar üzərində şairənin əsərlərinə çəkilən illüstrasiyalar, qədim pul vahidləri, misgərlik və dulusçuluq sənət nümunələri, çini qablar və digər eksponatlar nümayiş etdirilmisdir. 2014-cü ilin iyun ayında Mülüz şəhərindəki Yuxarı Alzas Universitetində Məhsəti Gəncəvinin 900 illiyinə həsr olunmuş konfrans keçirilmişdir. Heydər Əliyev Fondunun dəstəyi ilə universitetin filologiya fakültəsinin konfrans zalı yenidən qurulmuş və zala görkəmli Azərbaycan şairəsi Məhsəti Gəncəvinin adı verilmişdir.

Heydər Əliyev Fondunun təşkilatçılığı və ölkəmizin Almaniyadakı Səfirliyinin dəstəyi ilə 2013-cü ildə "Azərbaycanı tanıdım" layihəsi çərçivəsində Almaniyada Azərbaycan mədəniyyəti günləri keçirilmişdir. Münhendə başlamış ilk tədbirdə "Azərbaycan" fotosərgisi nümayiş etdirilmiş, qonaqlara Heydər Əliyev Fondunun Azərbaycana aid alman dilində nəşr etdiyi kitablar və Azərbaycan musiqisindən ibarət kompakt disklər təqdim olunmuşdur. Tədbirlər silsiləsi 2013-cü ilin noyabr-dekabr aylarında Almaniyanın Ştutqart, Köln və Hamburq şəhərlərində, 2014-cü ilin oktyabr-dekabr aylarında Hannover, Düsseldorf, Drezden şəhərlərində, 2015-ci ildə isə Frankfurt şəhərində davam etmişdir. Burada Almaniyada hec vaxt olmayan gənc rəssamların bu ölkə haqqında yaradıcı təxəyyüllə çəkdiyi əsərlərdən ibarət "Almaniya bir rəssamın gözü ilə" rəsm sərgisi və Azərbaycanda yaşayan almanların həyatını əks etdirən fotosərgi təşkil edilmiş, Azərbaycan incəsənət ustalarının ifasında konsert proqramı təqdim olunmuşdur.

YUNESKO-nun Dünya İrs Siyahısına daxil edilmiş İçərişəhər ərazisində yerləşən və paytaxtın rəmzi olan Qız qalasını dünyada tanıtmaq məqsədilə Fransanın Kann və Paris şəhərlərində 2013 və 2016-cı illərdə "Qız qalası" Beynəlxalq İncəsənət Festivalı keçirilmişdir.

Ölkəmizi, mədəniyyətimizi, milli-mədəni dəyərlərimizi və musiqimizi Fransada təbliğ etmək, müxtəlif mədəniyyətə və həyat tərzinə malik xalqları bir-birinə daha yaxından tanıtmaq və iki ölkə arasında mədəni əlaqələri möhkəmləndirmək məqsədi ilə 2014-cü ilin iyul ayında Fransanın Jura dağlarında yerləşən qədim Syam qəsrində Syam festivalı keçirilmiş, 2014-cü ildə Parisin San Sülpis meydanında, 2015-ci ildə Luvr muzeyinin qarşısındakı məşhur Pale Royal meydanında, 2016-cı ildə Eyfel qülləsinin yanındakı Jofr meydanında "Azərbaycan şəhərciyi" təşkil olunmuşdur. Şəhərcikdə Azərbaycanın tarixi və mədəniyyəti, milli mətbəxi, xalq sənətkarlıq nümunələri, turizm imkanları, Azərbaycanın milli musiqisi və rəqsləri təqdim olunmuşdur.

2015-ci ilin iyul-oktyabr aylarında ölkəmiz "Milan Ekspo 2015" Ümumdünya sərgisində "Azərbaycan. Biomüxtəliflik xəzinəsi" adlı milli pavilyonu ilə təmsil olunmuşdur. Milli pavilyonda qurulmuş "Mədəniyyətlərin kəsişməsi", "Biomüxtəliflik" və "İnnovasiya və ənənə" adlı üç biosfer ətraf mühitini və qədim mədəniyyətini daim harmoniyada saxlamağı və qorumağı bacaran Azərbaycanı təcəssüm etdirirdi. 2015-ci il iyulun 9-da Azərbaycan pavilyonunda Heydər Əliyev Fondu tərəfindən "Milli gün" təşkil olunmuşdur. "Milli gün" çərçivəsində Azərbaycan pavilyonunun rəsmi təqdimat mərasimi keçirilmişdir. Sərgi müddətində 3 milyon 250 mindən çox ziyarətçisi olan milli pavilyonumuz "Milan Ekspo 2015" təşkilat Komitəsi tərəfindən "Dizayn və materiallar" nominasiyası üzrə qalib elan olunmuşdur.

2013, 2015, 2017 və 2019-cu illərdə keçirilmiş 55, 56, 57 və 58-ci Ümumdünya təsviri incəsənət sərgisi- Venesiya Biennalesində Heydər Əliyev Fondu tərəfindən Azərbaycan pavilyonu təşkil olunmuşdur. 2013-cü ildə "Ornamentlər" devizi atında təqdim olunan pavilyonda Azərbaycanı 6 rəssam təmsil etmişdir. 2015-ci ildə keçirilən Biennaledə Azərbaycan pavilyonunda "Hüdudları aşaraq" və ekoloji problemlərlə mübarizə aparan müxtəlif ökələrin rəssamlarını bir araya gətirən "VitaVitale" sərgiləri təşkil olunmuşdur. 2017-ci ildə keçirilən Venesiya Biennalesindəki "Bir günəş alında.Birgə yaşamaq mədəniyyəti" adlanan milli pavilyonda Azərbaycanın multikultural ənənələri, etno-mədəni müxtəlifliyi və tolerantlığı öz əksini tapmışdır. 2019-cu ildə 58-ci Venesiya Biennalesində Azərbaycan "Virtual reallıq" adlanan milli pavilyonda heykəltəraşlıq əsərləri, videoinstalyasiyalar, süni intellektlə idarə olunan videoinstalyasiyalar təqdim olunmuşdur [2].

2016-cı ilin noyabr ayından 2017-ci ilin fevral ayınadək Heydər Əliyev Fondunun, Rusiya Federasiyasının Mədəniyyət Nazirliyinin və "Mərcan" Fondunun dəstəyi ilə Rusiya Dövlət Tretyakov Qaleriyasında "Abşeron

ulduzları.1960-1980-ci illərin Azərbaycan rəssamları" adlı sərgi keçirilmişdir. Sərgidə 12 Azərbaycan rəssamının 50-dən çox əsəri, 11 heykəltəraşlıq əsəri nümayiş etdirilmişdir. Layihənin davamı olaraq 2017-ci ilin may-sentyabr aylarında Sankt-Peterburqda "Erarta" Müasir İncəsənət Muzeyində "Abşeron küləyində doğulanlar.1960-1980-ci illərin Azərbaycan rəssamları" adlı sərgi təşkil edilmişdir.

2017-2019-cu illərdə İsveçrənin Sankt Mortiz şəhərində keçirilən qar polosu üzrə dünya çempionatı çərçivəsində Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılmış "Azərbaycan guşəsi"ndə heykəltəraşlıq və rəsm əsərləri, milli xalça növləri, çövkən oyununa, müxtəlif mövzulara dair kitablar nümayiş etdirilmiş, ziyarətçilərə Azərbaycan şirniyyatı, milli çay süfrəsi, yerli şərab növləri, milli mətbəximizin ləziz nümunələri təqdim olunmuşdur.

2018-ci ilin may ayında Şanxay əməkdaşlıq Təşkilatının mənzil-qərargahında Azərbaycan mədəniyyəti günləri keçirilmişdir. Tədbirdə Çin dövlət qurumlarının rəsmiləri, 30-a yaxın ölkənin Pekindəki səfiri, diplomatik korpusun təmsilçiləri, Çin ictimaiyyətinin nümayəndələri və bu ölkədə yaşayan Azərbaycanlılar iştirak etmişdirlər. Mədəniyyət günü Azərbaycanın Şanxay əməkdaşlıq Təşkilatı çərçivəsində keçirdiyi ilk tədbir olmuşdur.

Heydər Əliyev Fondunun, Azərbaycanın Rusiyadakı Səfirliyinin və Moskva hökumətinin təşkilatçılığı və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin dəstəyi ilə 2018-ci ilin oktyabr ayında Moskvanın Tver meydanında "Azərbaycanın payız sovqatları" adlı şəhərcik təşkil olunmuşdur. Şəhərcikdə Azərbaycan mədəniyyəti və tarixi, milli mətbəx nümunələri təqdim edilmiş, misgərlik, xalçaçılıq, müxtəlif sənətkarlıq növləri üzrə məhsullar nümayiş olunmuşdur.

2018-ci ilin noyabr ayında Heydər Əliyev Fondunun, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və Azərbaycan Xalça Muzeyinin təşkilatçılığı, ölkəmizin Rusiyadakı Səfirliyinin dəstəyi ilə Moskvadakı Ümumrusiya Xalq və Dekorativ-Tətbiqi Sənəti Muzeyində "Yeddi gözəl" sərgisi təşkil olunmuşdur. Sərginin ekspozisiyasının konsepsiyası XII əsr dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Yeddi gözəl" poeması və Azərbaycanın dünya şöhrətli bəstəkarı Qara Qarayevin eyniadlı baleti əsasında qurulmuşdur. Layihədə Azərbaycan mədəniyyəti xalça, zərgərlik və miniatür sənəti, müasir incəsənət, klassik musiqi və rəqsin sintezində təqdim olunmuşdur.

2019-cu il 14 iyul-18 avqust tarixlərində Heydər Əliyev Fondunun, Azərbaycanın Fransadakı Səfirliyinin və Kann şəhər meriyasının təşkilatçılığı ilə Kannda Azərbaycan mədəniyyəti günləri keçirilmişdir. Kann Festivallar və Konqreslər Sarayı yaxınlığındakı "Dəniz Vağzalı" sərgi pavilyonunda "Yeni kəşflər: Azərbaycan xalçaçılığında yeni motivlər" adlı xalça sərgisində xalq rəssamı Eldar Mikayılzadənin Azərbaycan xalçalarının Şəki qrupundan olan 13 xalça və xalça eskizləri nümayiş olunmuşdur.

Heydər Əliyev Fondu, Azərbaycannın Fransadakı Səfirliyi və YUNESKO yanında daimi nümayəndəliyinin birgə təşkilatçılığı ilə 2020-ci il 30 yanvar-4 fevral tarixlərində Parisdə YUNESKO-nun baş qərargahında Fondun "Yeni kəşflər:  Azərbaycan xalçaçılığında yeni motivlər" adlı sərgi keçirilmişdir.

2021-ci il oktyabrın 11-də Çinin "Qədim məskənlər" mədəniyyət parkında Heydər Əliyev Fondu tərəfindən "Azərbaycan mədəniyyətinə pəncərə" adlı milli pavilyonu yaradılmışdır. Pavilyonda Azərbaycanın müxtəlif xalçaçılıq məktəblərini təmsil edən xalça və kilimlər, misgərlik, dekorativ yaradıcılıq və şəbəkə sənəti nümunələri, bəzək əşyaları, milli geyimlər, musiqi alətləri, habelə Fondun Azərbaycan mədəniyyətinə, tarixinə, ölkəmizin müasir inkişafına dair nəşrləri, milli suvenirlər nümayiş olunmuşdur. Azərbaycanın dahi şairi və mütəfəkkiri Nizami Gəncəvinin büstü, "Xarıbülbül", "Qız qalası" və "Ceyranlar" silsiləsindən heykəltəraşlıq əsərləri, Qobustan qaya rəsmlərinin imitasiyası nümayiş etdirilmişdir [8].

2022-ci il yanvarın 26-da Sankt-Peterburqda Mərmər Sarayda Azərbaycanın dahi şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş "Yeddi gözəl" sərgisi açılmışdır. Sərginin ekspozisiyası bir neçə tarixi dövrü birləşdirən xalça, zərgərlik, bədii metal, miniatür və teatr-dekorasiya sənətinin, həmçinin klassik musiqi və rəqsin, müasir incəsənətin və deklamasiya layihəsinin sintezindən ibarət olmuşdur. Heydər Əliyev Fondunun, Azərbaycan Mədəniyyət Nazirliyinin, Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı Səfirlyinin və Azərbaycan Milli Xalça Muzeyinin dəstəyi ilə təşkil edilmiş və mayın 9-dək davam edən "Yeddi gözəl" sərgisinin ekspozisiyasına Heydər Əliyev Fondunun, Azərbaycan Milli Xalça Muzeyinin və Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin eksponatları daxil edilmişdir.

2022-ci il fevralın 18-də Birləşmiş Ərəb Əmirliklərinin Dubay Əmirliyində keçirilən "Ekspo 2020" dünya sərgisindəki Azərbaycan pavilyonunda Heydər Əliyev Fondu və "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti tərəfindən təşkil olunan "Dostluq" xalçasının təqdimatı olmuşdur. Ənənəvi Azərbaycan xalçaları və yeni müasir dizayn əsasında hazırlanan xalçada Azərbaycanın və Dubay Əmirliyinin məşhur tarixi və müasir abidələri, flora və fauna elemetləri əksini tapmışdır. "Dostluq" xalçası "Azərxalça"nın yaradıcı komandası ilə əməkdar rəssam Rəşad Ələkbərovun birgə əməkdaşlığı nəticəsində 7 ay ərzində ərsəyə gəlmişdir.

Heydər Əliyev Fondunun dəstəyi ilə 2022-ci il 22 fevral-1 mart tarixlərində Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyinə həsr olunan "Moskvada Azərbaycan günləri" keçirilmişdir. Azərbaycan günləri çərçivəsində fevralın 22-də Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin "Azərbaycan"

pavilyonunda "Azərbaycan xalçaları:yeni baxış" adlı sərginin açılışı olmuşdur. Sərgidə "Qarabağ" qrupuna aid xalçalar nümayiş etdirilmişdir.

2022-ci il fevralın 22-də Moskvadakı Yeni Tretyakov Qalereyasında Xalq rəssamı Tahir Salahovun "Tretyakov Qalereyasının kolleksiyasından olan əsərlər" adlı sərgisi açılmışdır. Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilən "Moskvada Azərbaycan günləri" çərçivəsində təşkil olunan ekspozisiyada rəssamın natürmort, peyzaj, portret janrlarında əsərləri ziyarətçilərə nümayiş olunmuşdur. Ekspozisiyada Tahir Salahovun məşhur "Qladioluslar", "Qara Qarayevin portreti", "Aydan" əsərləri, həmçinin müxtəlif dövrləri əhatə edən əsərləri, "Səhər ovu" əsəri ziyarətçilərə nümayiş etdirilmişdir.

2022-ci il iyunun 10-da Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycan Parisdə Eyfel qülləsinin qarşısında məşhur "Grand Palais Ephemere"də 33 ölkədən 500-dən çox iştiakçını bir araya gətirən incəsənət və sənətkarlıq üzrə 5-ci "Revelations" Beynəlxalq Biennalesində ilk dəfə təmsil olunmuşdur. Azərbaycan stendində heykəltəraş Elvin Nəbizadənin fenomenal "Gündüz və gecə" əsəri nümayiş etdirilmişdir.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə 2022-ci ilin aprel-noyabr aylarında Azərbaycan 59-cu Venesiya Biennallesində- Beynəlxalq İncəsənət Sərgisində təmsil olunmuşdur. Biennalledə ölkəmiz "Sevmək üçün doğulanlar" mövzusunda milli pavilyonla iştirak etmişdir. Müqəddəs Mark Meydanındakı qədim "Procuratie Vecchie" binasında Azərbaycan pavilyonunda Azərbaycanlı rəssamlar müasir incəsənət üzrə müasir texnika və üsullarla mövzu üzrə ideyalarını, eyni zamanda, ölkəmizin zəngin mədəni və tarixi xüsusiyyətlərini sərgi iştiakçılarına çatdırmışdır.

2023-cü il aprelin 3-də Azərbaycan Parisdə Luvr muzeyinin Karusel qaleriyasında "Art Shopping" beynəlxalq müasir incəsənət festivalında təmsil olunmuşdur. Azərbaycan pavilyonunda ziyarətçilər heykəltəraş Elvin Nəbizadənin "Bir günəş altında" adlı müasir instalyasiyasını, rəssam Anar Hüseynzadənin tablolarını seyr etmişdirlər. Göy qurşağı formasında 44 sazdan ibarət Bir günəş altında" instalyasiyası Azərbaycanda multikulturalizmin və tolerantlığın simvoludur. Anar Hüseynzadənin əsərləri vasitəsi ilə qədim İçərişəhər, onun özünəməxsus dar küçələri, Abşeronla ziyarətçilər tanış olmuşdurlar. Rəssamın "Kosmos" seriyasından olan əsərləri ilk dəfə bu festivalda tamaşaçılara təqdim edilmişdir [4].

2024-cü il aprelin 19-da Heydər Əliyev Fondunun təşkilatçılığı, Azərbaycan Mədəniyyət Nazirliyinin və Azərbaycanın İtaliyadakı Səfirliyinin dəstəyi ilə Venesiya Biennallesində Azərbaycan pavilyonunun açılışı olmuşdur. "Əcnəbilər hər yerdədir" şüarı altında keçirilən 60-cı Venesiya Biennalesində Azərbaycanın "Xəzərdən Çəhrayı Planetə.Mən burdayam" mövzusunda milli pavilyonu təşkil olunmuşdur. Venesiyada 16-cı əsrin memarlıq abidələrindən olan Campo della Tanada yerləşən Azərbaycan pavilyonunda Azərbaycanlı

rəssamların əsərlərinin zəngin palitrası vasitəsilə əcnəbilik mövzusu tədqiq edilərək, həmin mövzunun Azərbaycan üçün aktuallığı diqqətə çatdırılır [6].

Heydər Əliyev Fondunun Azərbaycanın milli-mədəni irsinin dünyada tanıdılması istiqamətində həyata keçirdiyi məqsədyönlü fəaliyyət hər bir Azərbaycan vətəndaşı tərəfindən təqdir olunur. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Heydər Əliyev Fondunun Prezidenti, Azərbaycan Respublikasının Birinci Vitse-Prezidenti Mehriban xanım Əliyevanın mədəniyyətimizə qayğısı və dəstəyi sayəsində bu gün Azərbaycan mədəniyyəti dünya mədəniyyətini zənginləşdirərək öz layiqli yerini tutmuşdur.

## Ədəbiyyat


1. Əliyev Ə. Parisdə “Odlar yurdu Azərbaycanın müasir əsərləri” sərgisi Fransa ictimaiyyətində böyük maraq doğurmuşdur. Azərbaycan, 22 aprel 2011, s.4;
2. Heydər Əliyev Fondu. Kitab-albom. Bakı, 2018, 468 səh.;
3. Orucov E. Heydər Əliyev Fondu Azərbaycan milli mədəniyyətinin himayədarıdır. Xalq qəzeti, 29 avqust 2019, s.8;
4. Ağalarova Ş. Azərbaycan Luvr karusel “Art Shopping” beynəlxalq müasir incəsənət festivalında təmsil olunur. “AzərTac”, 02 aprel 2023;
5. Фонд Гейдара Алиева будет представлен на предстоящем в Москве с участием 22 стран Международном фестивале «БиблиОбраз-2007» // Бакинский рабочий. 2007. 5 октября. с.4;
6. https://heydar-aliyev-oundation.org/az/content/blog/119/Az%C9%99rbaycan%C4%B1n-t%C9%99bli%C4%9Fi
7. https://mehribanaliyeva.preslib.az/media-f52c3a85a7.html
8. https://medeniyyet.az/page/news/59362/Cindeki-Qedim-meskenlerde-Azerbaycan-medeniyyetine-pencere.html

## MÜNDƏRİCAT

**Zülfiyyə Cəlilova.** HACI MAİL VƏ ONUN FÜZULİ YARADICILIĞI ÜZƏRİNDƏ ARAŞDIRMALARI……………………………………………3
**Чжан Теригеле.** МИГРАЦИИ ГУННОВ НА КАВКАЗ В ЭПОХУ САСАНИДОВ (НА ОСНОВЕ АЗЕРБАЙДЖАНСКОЙ И РУССКОЙ ИСТОРИОГРАФИИ)…………………………………………………….12
**Xəqani Məmmədov.** ŞUŞA - AZƏRBAYCANIN ELM VƏ TƏHSİL MƏRKƏZİ..........................................................................................21
**Turkan Ahmadova**. INTENSİVE CULTURAL DEVELOPMENT CHARACTERİZED GANJA İN THE XI-XIII CENTURİES.....................28
**Teymur Quliyev.** QARABAĞIN SİKKƏ DƏFİNƏLƏRİ.........................36
**Suqra Orucova.** ŞUŞA ŞƏHƏRİNİN TARİXİ COĞRAFİYASININ BƏZİ MƏSƏLƏLƏRİ (XX ƏSRİN 20-90-CI İLLƏRİNDƏ).....................44
**Səbinə Alıyeva.** "NADİR ŞAH ƏFŞARIN QƏNDƏHAR VƏ HİNDİSTAN SƏFƏRİ TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA"..................53
**Samir Baxşəliyev.** BAKI DÖVLƏT UNİVERSİTETİNİN İNKİŞAF TARİXİ...........................................................................................63
**Gülşən Xalıqova.** AZƏRBAYCAN RESPUBLİKASININ ENERJİ İXRACI SİYASƏTİ VƏ CƏNUBİ QAFQAZ REGİONUNDA GEOİQTİSADİ MARAQLAR...................................................................83
**Emiliya Əliyeva.** ŞİRVAN BÖLGƏSİNDƏ BOYAQÇILIQ SƏNƏTİNİN İNKİŞAFI TARİXİNDƏN...................................................89
**Eldar Muxtarlı, Xatirə Qocayeva, Zərəngiz Qasımova, Rüfət Ələkbərov**. QARABAĞ, ŞUŞA AZƏRBAYCANIN MUSİQİ, FOLKLOR VƏ QƏDİM XALQ İDMAN OYUNLARININ TARİXİDİR………………………………………………………….....96
**Eldar Hacıyev.** ERMƏNİ MİLLƏTÇİ TƏŞKİLATLARI VƏ ÇAR HÖKUMƏTİNİN ŞİMALİ AZƏRBAYCANDA MİLLİ QIRĞIN SİYASƏTİ (1905-1906-CI İLLƏR). ……………………………………105
**Cəfər Cəfərli.** ŞİMALİ AZƏRBAYCANDA KOMENDANT İDARƏ ÜSULU DÖVRÜNDƏ MƏHKƏMƏLƏR……………………………...113
**Balamirzə Məmmədli.** AZƏRBAYCAN RESPUBLİKASININ QƏRBİ AVROPA DÖVLƏTLƏRİ İLƏ MÜNASİBƏTLƏRİ PROBLEMİNİN VƏTƏN TARİXŞÜNASLIĞI ÜZRƏ TƏDQİQAT ƏSƏRLƏRİNİN ÜMUMİ SƏCİYYƏSİ…………………………………………………126
**Aytac Şadiyeva.** AZƏRBAYCAN-ERMƏNİSTAN DAĞLIQ QARABAĞ PROBLEMİ YAPONİYANIN XARİCİ SİYASƏTİNDƏ..139
**Aynurə Əsgərova.** MİLLİ-MƏDƏNİ İRSİMİZİN TƏBLİĞİNDƏ HEYDƏR ƏLİYEV FONDUNUN ROLU............................................149

# YAZI QAYDALARI

- Məqalələr **Azərbaycan, ingilis** və **rus** dillərində jurnalın elektron ünvanına – jhhsadpu@mail.ru göndərilir.

- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.

- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.

- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 12 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.

- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.

- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, 8].

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.

- Məqalələrin həcmi: 5-12 səhifə.

- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.

- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.

- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodiki jurnal 2024, 2 (43)*

***Çapa imzalanmış 26.06.2024-cü il***
***Kağız formatı 60x84 1/16, çap vərəqi 10***
***Sifariş 198, sayı 100***

***ADPU-nəşriyyatı***
***Bakı, Ü.Hacıbəyli küçəsi, 68***
***Telefon: (+994 12)493 05 85***
***E-mail:*** *jhhsadpu@mail.ru*
***www.adpu.edu.az***